Elçin KAMAL

Fariz ÇOBANOĞLU

# OBRAZLAR ALƏMİNDƏ

(Hüseynbala Mirələmovun yaradıcılığı haqqında

ədəbi-publisistik düşüncələr)

**Bakı – 2004**

O 22(04)

Redaktor: Əlirza Xələfli,

Şair-publisist

Elçin Kamal, Fariz Çobanoğlu

O 22(04) Obrazlar aləmində (Hüseynbala Mirələmovun yaradıcılığı haqqında ədəbi-publisistik düşüncələr). – Bakı, "Azərbaycan" nəşriyyatı, 2004. – 272 s.

Elçin Kamalın və Fariz Çobanoğlunun Hüseynbala Mirələmovun yaradıcılığı haqqında ədəbi- publisistik düşüncələrdən ibarət olan "Obrazlar aləmində" kitabı böyük Sözün, Ulu Sözün qarşısında məsuliyyətlə qələm çalmağın bəhrəsidir. "Obrazlar aləmində" kitabı həvəslə oxunan, oxucuya təmiz hisslər, ülvi duyğular aşılayan bitkin əsər olmaqla, ədəbi publisistika yaradıcılığına gözəl töhfədir.

E 4804000000- O22(04) Sifarişlə

M670(07)- 2004

C) Kamal E., Çobanoğlu F., 2004,

C) "Azərbaycan" nəşriyyatı , 2004.

## Elçin KAMAL

## (Hüseynov Elçin Kamal oğlu)

Elçin Kamal 1990-cı ildə N.Tusi adına ADPU – nun fiologiya fakültəsini fərqlənmə diplomu ilə bitirmiş, təyinatla göndərildiyi Qusar rayonunun Kuzun kəndində Azərbaycan dili və ədəbiyyatını tədris etmişdir.1992-99- cu illərdə "Həyat"qəzetinin xüsusi müxbiri vəzifəsində işləmişdir. 1999-cu ildən "Kredo"qəzetində baş redaktorun müavinidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. E.Kamalın "Yurdun övladları"(Ə.Xələfli ilə birlikdə) ədəbi- publisist kitabı 2000-ci ildə işıq üzü görüb. Gənc nasirin "Manqal" kitabında (2002)toplanmış hekayələri oxucular tərəfindən maraqla qarşılanıb.

## Fariz ÇOBANOĞLU

## (Zalov Fariz Zal oğlu)

Fariz Çobanoğlu 1970-ci ildə anadan olub. 1993-cü ildə ADPU-nu fərqlənmə diplomu ilə bitirib. Tələbəlik illərindən maraqlı publisistik yazıları ilə mətbuatda çıxış edir. 1999-cu ildən isə "Kredo"qəzetinin əməkdaşıdır.Fariz Çobanoğlunun Xalq şairi Söhrab Tahir, əməkdar incəsənət xadimləri tənqidçi İntiqam Qasımzadə və rejissor Baba Rzayev, şairlər Ənvər Nəzərli, Fərqanə Mehdiyeva, Dayandur Sevgin, Şahin Fazil... haqqında ədəbi-tənqidi məqalələri ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanıb. Onun yaradıcılığında sənətkar, sənət və mənəviyyat problemləri bir-biri ilə vəhdətdə araşdırılır.

Coşğun yaradıcılıq həvəsi, hərarətli söz demək istəyi, həyatı bütün təzadları ilə yazıya gətirmək marağı F. Çobanoğlunun ilham mənbəyidir.

**Redaktordan**

## SÖZDƏ HƏRARƏT OLANDA...

**Fikirlər içində qovruluram mən**
**Bircə söz doğulub dünyaya gəlsin.**
**Min dərdin içində boğuluram mən,**
**Sözüm qışdan keçib od yaya gəlsin.**
**(Ə.Xələfli)**

Zənnimcə, ədəbi tənqid esse yolu ilə gedəcək. Bu yol 70-ci illərdə Asif Əfəndiyevə böyük şöhrət gətirmişdi. Esse ədəbi sözə hərarət verir. Və həm də esse donunda bədii söz doğulur, hərarətli söz.

Sözdə hərarət olanda ürəklərə işıqsalır. İnsanları daxilən üşüməkdən qoruyur.

Bəs insan daxilən nə üçün üşüyür və nə vaxt üşüyür?

Min –min insanlar arasında gərək üşüməsin insan. Əgər insanın daxilindən soyuq külək əsirsə, deməк o ümidsizlik girdabında çabalayır.

Sözün birinci vəzifəsi İnsanı ümidsizlik girdabından çıxarmaq, ona gücünü, enerjisini səfərbər etməyə yardımçı olmaqdır.

Şübhəsiz, hələ gənc olan, mübahisəsiz olaraq bir fikri qətiyyətlə söyləmək olar ki, özlərini bədii nəsrdə və ədəbi publisistikada təsdiq etmiş müəlliflərin Elçin Kamalın və Fariz Çobanoğlunun ədəbi- publisistik düşüncələrdən ibarət olan “Obrazlar aləmində” kitabı böyük Sözün, Ulu Sözün qarşısında məsuliyyətlə qələm çalmağın bəhrəsidir. Ədəbiyyatın danılmaz tarixi yolunda ən qüdrətli söz sahibləri də Sözə qədərincə qiymət verilməməsindən şikayətləniblər. Bəlkə də, bu tarixi həqiqətə sədaqətdən irəli gəlir. Bu kitab da təqribən ənənəvi gileylə başlanır: “İndi heç kəsə sirr deyil ki, oxucunun sayı azalıb”. Zənnimcə, həqiqi sözü, saf sözü sərf – nəzər edə bilən oxucudan söhbət gedir. Elə buradaca qeyd etmək lazımdır ki, bu gileylərin içindən nə qədər ağrı və əzabla olsa da Söz doğulur.

Yazıçı Hüseynbala Mirələmovun çoxcəhətli və zəngin yaradıcılığı bu günün bəhrəsidir. “Obrazlar aləmində” kitabı isə Sözə qiymət vermək istəyindən, Sözün mənəviyyat uğrunda mübarizəsinə işıq tutmaq qəsdindən, başqa sözlə, Söz önündə heyrətdən doğulub.

Mən bu kitabda toplanmış ədəbi-publisistik düşüncələrin “Kredo” qəzeti redaksiyasından gedən ədəbi döyüşlərin nəticəsi olaraq zaman-zaman araya gəldiyinin şahidiyəm. Müəlliflər bəzən təhlillərində ifrata varsalar belə, onları sözə qeyri-səmimi münasibətdə kimsə qınaya bilməz. Yanağı ilə qələmə almışdı bədii lövhələri Elçin Kamal da, Fariz Çobanoğlu da həssaslıqla duymuş, eyni yanğı ilə həmin hissləri yaşamağa çalışmış, elə bu səbəbdən də heç kimin yolu ilə getməyərək orijinal tədqiqat əsəri yaratmışlar. Sərrast fikirlər, dəqiq ədəbi- nəzəri mühakimələrlə obyekt olaraq qəbul edilmiş yazıçının daxili-mənəvi aləmində geniş oxucu auditoriyasına körpü salmışlar. Burada zəngin insan qalereyası açılır.

Burada  dostlarımızı da,düşmənlərimizi də bütün əlvanlığı ilə görə bilirik. Ayrı-ayrı məqalələr bitkin ədəbi düşüncələrdir. "Obrazlar aləmində" kitabına toplanmış yazılar müəlliflərin yetkin dünyagörüşlü, ziddiyyətlərdən, təzadlardan durulmuş söz sahibləri olduğunu təsdiq edir.

"Obrazlar aləmində" böyük zəhmət var, ən başlıcası, halal zəhmət var. Xalturadan uzaq, boğazdan yuxarı danışmaq ədasından kənar, yalnız öz gücünə, istedadına güvənmə var.

Elə buna görə də hər iki müəllifin söz önündə dəyanəti qürur hissi doğurur. Gözlərimin qarşısında böyüyən fədakar söz cəfakeşləri ilə öyünməyə dəyər. Çünki onlar təkcə tədqiq etdikləri obyektin sərhədləri ilə məhdudlaşmır, eyni zamanda,özlərinin  zəngin daxili aləmlərini, öz hisslərini qələmə alırlar.

"Obrazlar aləmində" kitabı həvəslə oxunan, oxucuya təmiz hisslər, ülvi duyğular aşılayan bitkin əsər olmaqla, ədəbi publisistika yaradıcılığına gözəl töhfədir.

**ƏliRza XƏLƏFLİ,**
**Şair- publisist.**
**25.05.2004**

# QAYADA MIN BİR ÇİÇƏK...

İndi heç kəsə sirr deyil ki, oxucunun sayı azalıb. Tez-tez eşidirik; kitab oxuyan yoxdur. Təəssüf doğursa da, bu belədir və bu ağrını yaşamağa məhkumuq. Görəsən niyə? Əlbəttə, bu sualı cavablandırmaq ayrıca söhbətin mövzusudur. Ancaq birbaşa demək mümkündür ki, internet və müxtəlif əyləncə vasitələrinin günü-gündən həyatımıza daha çox daxil olması kitabı gözümüzdən salıb. Doğrudur, son illərdə çoxlu kitab çap olunur. Bu çap məhsullarının ancaq bərbəzəkli cildi zövqümüzə uyğun gəlir. Hələ də dünya və klassik Azərbaycan ədəbiyyatının çoxcildliyi yeni əlifba ilə nəşrini gözləyir.

Amma nə yaxşı ki, bu qatma-qarışıqlığın içərisində az da olsa həqiqi – bu adı daşımağa layiq kitablar gözə dəyir. Nə yaxşı ki, belə kitablardan birini bu günlərdə oxuyub tamamladım. İnandım ki, hələ yazıçı sarıdan tükənməmişik, qəlbi yaradıcılıq eşqi ilə döyünən, gözəl sənət nümunələri yarada bilən insanlarımız var. Bir daha inandım ki, ürəkdən gələn duyğuları sözə çevirməklə, adi həyat hadisəsini ictimailəşdirməklə oxucu sevgisini qazanmaq mümkündür.

Söhbət Hüseynbala Mirələmovun "Qayada çiçək" kitabından gedir. "Azərbaycan" nəşriyyatında 2002-ci ildə çap olunan bu kitabı mən bir il bundan öncə oxumuşam. Üstündən bir il keçəndən sonra yenidən bu kitaba qayıtmağım təsadüfi deyil. Məni buna məcbur edən kitabdakı bədii nəsr nümunələrinin hər birindəki insana sevgi, dərin lirizmdir. Bu kitaba H.Mirələmovun 60-cı illərdə, yeni yeniyetmə yaşlarında yazdığı hekayələrlə yanaşı, son dövrlərdə qələmə aldığı hekayələr də daxil edilmişdir. Bəri başdan deməliyəm ki, müəllifin son dövrdə yazdığı hekayələr psixoloji – fəlsəfi xətti ilə əvvəlkilərdən fərqlənir. Ancaq kekayələr barəsində söhbət açmazdan əvvəl kitabın adıyla bağlı fikrimi bildirmək istəyirəm. "Qayada çiçək". Nə qədər orijinal və tutumlu ad. Ilk baxışda sadə görünən, getdikcə insanı özünə cəzb edən fəlsəfi bir ifadə. Bəli, bu ad məni xeyli düşündürdü və keçmiş illərə apardı...

Bakıya ilk dəfə qədəm qoyanda mənə çox şeylər möcüzəli görünüb. Bunları sadalamaqdan vaz keçirəm. Məni ən çox heyrətləndirən qışın oğlan çağında küçələri və köşkləri bəzəyən cürbəcür güllər olub. Sonralar öyrəndim ki, həmin bu güllər istixanaların hesabınadır və Bakı kəndlərinin zəhmətsevər insanlarının əməyinin məhsuludur.

İstixanalarda heç zaman fəsillər dəyişmir. Orada həmişə yay fəslidir. Oradakı güllər və çiçəklər insan qayğısına möhtacdır. Əgər insan əlinin sığalı, tumarı

olmasa o güllər və çiçəklər cücərib boy ata bilməz. Bəs qayada bitən çiçək necə? Odamı insan əliylə pərvəriş tapır.

Əlbəttə, yox. Qayada boy atan çiçəyi insan əkmir. Qayadakı çiçək insan əli ilə böyümür. Bu, Allah işidir. Qayadakı çiçəyin nazını, qayğısını o Böyük Yaradan çəkir. Qayada çiçək ilin bütün fəsillərində yalnız Allahın mərhəməti ilə tab gətirə bilir və ətrafı xoş rahiyəyə bürüyür.

Ad mahiyyətə uyğun gəlməlidir. Nə zaman belə bir söz eşitmişəm. Kim deyibsə, rəhmət düşür. Məni sevindirən və bu sətirləri yazmağa məcbur edən odur ki, H.Mirələmovun bu kitabının adı və mahiyyəti bir –birinə çox uyğundur. Çünki kitabda daxil edilən nəsr nümunələrinin hər biri süjet xəttinin tamlığı, oxunaqlığı etibarilə çiçəyi xatırladır. Belə deyək ki, müəllif hekayələr kitabına "Qayada çiçək" adı verməklə gərəkli bir iş görmüşdür.

Qayada çiçəyə tamaşa etmək kimə xoş deyil ki? Kim istəməz ki, qayaların göz yaşından maya tutan çiçəklə təmasda olmasın. Məncə, bu, hamının ürəyincədir. "Qayada çiçəy"ə baxmaq mənim də ürəyimcə oldu.

Ürəyimcə oldu ona görə ki, qayada mən bir yox, min bir çiçək gördüm. Qayaların göz yaşından su içən bu çiçəklər toplusundan hörülmüş çələngi bağrıma basdım. Bir anlığa gözlərimi yumdum. Ayılanda gördüm ki, bu çiçəklər süni deyil, təbii çiçəklərdir. Mən "Qayada çiçəy"ə baxarxən bütöv Azərbaycanı gördüm, onun təbii gözəlliklərinə - meşəsinə, dağına, başı dumanlı dağlarına tamaşa etdim və vuruldum yürdumun füsunkarlığına.

Mən "Qayada çiçəy"ə baxarkən "tənha durnanın uçuşu"na diqqət kəsildim. "Qayıdan durnalar"ın səmada qövs cızmasına tamaşa etdim. "İzlər"ə düşdüm. Həmin izlərlə "dəyirmana gedən yol"a çıxdım, "bir tikə çörək" ümidilə yolları ağardan insanları gördüm. Səmada süzən "qartal"ın azadlıq eşqi ilə havalanıb "meşədə tənha ev"in sakinləri ilə söhbətləşdim. Mənə aydın oldu ki, hamımızın xofla qarşıladığımız qasırğa bəzən insanın dağılmış həyatını sahmana sala bilir. Eyni zamanda hələ də "vicdanın cəzası"ndan qorxmayıb "casus"luq edənlər var.

Mənə aydın oldu ki, Hüseynbla Mirələmovun "Bir tikə çörək" adlı ilk hekayəsini 1961- ci ildə, 14 yaşındaykən qələmə alıb. 1986-cı ildə "Tənha durna uçuşu"adlı ilk hekayələr kitabı işıq üzü görüb.Həmin kitaba yazdığı ön sözdə xalq yazıçısı Elçin H.Mirələmovun hekayələrinə yüksək qiymət vermişdir: "Mən bu kiçik kitabda toplanmış hekayələri oxuduqdan sonra birdən-birə Lerik, Yardımlı dağlarını xatırladım. O dağların təmiz, şəffaf ab-havasını xatırladım, Lənkəranın, Astaranın, Masallının – doğma Azərbaycanımızın bu gözəl, ürəkaçan guşəsinin

limonlu, narıngili, portağallı bağ-bağatını, qatarla sıralanan düzləri, təpələrin döşlərini bəzəyən çay plantasiyalarını xatırladım, Xəzərin heç yerdə yox, məhz Lənkəran, Astara sahillərində əsən mehini duydum...

Yox ona görə yox ki, Hüseynbala başı qarlı o dağları, o gözəl Lənkəran bağ-bağatını təsvir etmişdir, ona görə ki, bu hekayələrdəki səmimiyyət, doğma yurda məhrəmlik, hiss etdiklərini öz imkanları daxilində söyləmək, yaxşıya sevinmək ilə, xeyirxahlıq ilə o dağların, o bağ-bağatın, o dəniz mehinin arasında nəsə üzvi bir bağlılıq var."

Kitabda H. Mirələmovun tərcümeyi-hal qeydləri də var. Ancaq hamının vaxt qıtlığından şikayətləndiyi indiki dövrdə bu qeydləri verməyə lüzum görmədik. Doğrudur, yazıçının tərcümeyi-halı,yaşantıları onun yaradıcılığına hopur. Bu baxımdan tərcümeyi- hal da oxucu üçün əhəmiyyət kəsb edə bilər. Ancaq H.Mirələmovun hekayələrinin bir qismi avtobioqrafik ruhda yazılmışdır. Belə demək mümkünsə, onun yaradıcılığı elə həm də tərcümeyi-halıdır.

Şəxsiyyət birincidir, yoxsa əsərlər? Bu sual ədəbiyyatçıları da, oxucuları da həmişə düşündürüb. Bəziləri şəxsiyyəti, əməli, bəziləri isə sözü, əsərləri əsas götürüblər. Başqa bir tərəf isə söz və əməlin uyğun gəlməsində israrlıdırlar. Biz də bununla razıyıq və məsələ də ondadır ki, "Qayada çiçəy"in müəllifi sözündə və əməlində bütövdür. Onun şəxsiyyəti və yaradıcılığı bir-birinə yapışır.

O, sözü və əməli olan birinsandır. Ona görə dəonun yazdıqları səmimi və həyatidir. O, heç bir əsərində sünilik yaratmaqla, əllaməçilik etməklə oxucunu çaş-baş salıb yormur. Həyatı necə görürsə, hansı şəkildə duyursa, qavrayırsa, elə o cür də başında bişirib sözə çevirir. Ancaq bu, o demək deyil ki, H.Mirələmov həyatı olduğu kimi kağıza köçürür. O, konkret bir hadisəni, yaxud insanı həyatdan götürüb ürəyinin odunda bişirərək bədii materiala çevirir. Yalnız bundan sonra əlinə qələm götürür. Səhv eləmirəmsə, U.Folkner deyib ki, əgər hər hansı bir hadisəni, yaxud insanı mən əsərdə, yaxud tamaşada görəcəyəmsə, həmin əsər və tamaşaya nəyə görə vaxt sərv eləməliyəm? Yazıçı obraz yaradıb, sonra ideya haqqında düşünməməlidir. Yazıçı ideya və fikirlər tapıb sonra onu obrazlar arasında bölüşməlidir. Bir sözlə, ideyalardan obrazlara - əsl ədəbiyyatın yolu budur. Bu fikirlərdə müəyyən həqiqətlər vardır. Ancaq mübahisə də doğura bilər. Biz nə deyirik? Biz isə deyirik ki, H.Mirələmov həyatın yalnız fotosunu çəkmir. O, həyatı obrazlı şəkildə imikas elətdirir. Həyatdan götürdüyü hadisələr də, insanlara da onun öz baxışı, öz münasibəti vardır.

Bayaq qeyd elədik ki, H.Mirələmovun bir çox hekayələri ("Qayada çiçək", "Mərufun qələmi", "Bir tikə çörək" və s.) aftobioqrafik səciyyə daşıyır. O, bu

hekayələrində həyatının bir parçasını təsvir etməklə kifayətlənməyib. Özünün şəxsi həyatının fonunda geniş fəlsəfi ümumiləşdirmələr apara bilib və istəyinə nail olub.

Bu hekayələrin içərisində “Qayada çiçək” xüsusi yer tutur. Məncə, bu hekayə müəllifin ən uğurlu əsərlərindən sayıla bilər. Hekayə çox sadə süjetə malikdir. Rahat, asfalt yolla şütüyən maşın sola dönür. Burdan o yana cığırdır. Cığır isə daş-qayalıqların keçib dağın zirvəsinə uzanır. Əslində bu yol hər birimizin yoludur. Ancaq hamımız o zirvəyə çıxa bilirikmi? Bu da olmayanda o zirvəyə qalxmağı arzulayırıqmı? Rahat,şose yol bizim uşaqlığımızdır. Hələ bərkə-boşa düşmədiyimiz, anamızın qucağında yol getdiyimiz uşaqlıq. Rahat yoldan sonra dağa-daşa düşürük. Həyatın çətinlikləri ilə, hər cür insanlarla üzləşirik. Bu əzab-əziyyətlərdən, mübarizələrdən alnıaçıq, üzüağ çıxa biliriksə, sınmırıqsa, insanlıq zirvəsinə ucala bilirik.

Əsərdə iki insan obrazı yaradılıb. Məftun və onun bacısı oğlu, həm də sürücüsü. Məftun işdən – gücdən vaxt tapıb Zində dağa qalxmaq istəyir. “ “Niva” dağın zirvəsinə gedən yolun yarısına qədər qalxıb dayandı. Yolun qalan hissəsini piyada getməli idilər. Birdən Məftuna elə gəldi ki, gəldiyi yol onun ömrüdür”. Məftun dağın zirvəsinə çıxa bilir. Bu yerdə müəllif onun ömür yolunu vərəqləyir. Onun işi, insanlara münasibəti gözlərimiz önündə canlanır. Onu çox sıxırlar. Ancaq nəyinsə xatirinə ağa qara demir, ləyaqətini qoruyub saxlaya bilir. Elə bu kefiyyətlərinə görə də Zində dağa çıxa bilər. Bacısı oğlu ona sədaqətlə qulluq etdiyinə görə dayısının qolundan yapışdığına görə Zində dağındadır. Bu parçaya diqqət edək: “... Ətraf aləm aşağıda qalmışdı. Buradan hər şey- lap mazutlu gölməçələr də, çirkab batalıqları da, urbanizasiyanın ucqar dağ kəndlərindən qovub gətirdiyi adamların tikdiyi gecəqondu, eybəcər evlər də- hər şey gözəl görünürdü...” Hekayədəki Zində dağı rəmzi məna daşıyır.Bu, insanın daim can atdığı kamillik və insanlıq dağıdır. Kim ki, bu zirvəyə qalxa bildi, ətraf aləm onun gözündə gözəlləşir. Məncə, müəllif bunu demək istəyib. Və bir də demək istəyib ki, bu mərtəbəyə yüksəlmək üçün ömrünü halallıqla başa vurmalısan.

H.Mirələmovun hekayələrində zahiri bir oxşarlıq var. Əlbəttə, bu, ilk baxışda belə görünür. Bu oxşarlıq üslubda, yazı tərzindədir. Fransız yazıçısı Q.Floberin belə bir sözü var: “Cümləni yazanda ona ayrılıqda baxmaq lazımdır. əgər cümlə bitkindirsə, onu nəsrə daxil etmək və işlətməkolar. Nəzərə alaq ki, Q. Flober məşhur stilist idi və cümlə quruluşuna çox ciddi yanaşırdı. H.Mirələmovun cümlələri sadə və bitkindir. Ona görə də göz oxşayır. Ancaq H.Mirələmovun ilk hekayələri ilə son dövr hekayələri arasında bu baxımdan üzvi bir bağlılıq olsa da, ideya-məzmun baxımından fərq aydın görünür. Onun hekayələri yaşlaşdıqca daha

dolğunlaşır, qarşısına qoyduğu məqsəd və ideya daha da böyük əhəmiyyət kəsb edir.

O, “Bir tikə çörək” hekayəsini 1961-ci ildə dərc elətdirib. Yəqin ki, 14 yaşlı bir yeniyetmə bu kiçik hekayəni qələmə alarkən qarşısına heç də bizim başa düşəcəyimiz bədii – estetik məqsədi qoymamışdır. Ancaq hekayədəki yığcamlıq, xüsusilə müharibədən  sonrakı aclıq və səfalətin bir ailənin taleyində təsviri, daxili yanğı bizdə müharibəyə nifrət oyadır. Hekayə düşündürücü bir sonluqla bitir:

“- Nənə, ay nənə, bu qədər çörək nəyə lazımdır ki, alırsan”, - deyə Məmmədin oğlu Elçin Kübra xalanı sanki yuxudan oyatdı.

- Yox, yox, ay bala, uşaq düz deyir, 2 kiloqram lazımdır, - deyə Kübra xala dilləndi. O, dərindən ah çəkib: “Eh dünya, dünya! O günlər bir daha geri qayıtmasın, - sözlərini kədərlə pıçıldadı.”

Sual oluna bilər; o günlər hansı günlərdir? O günlər aclıq və səfalətin evlərə ayaq açdığı günlərdir. O günlər Kübra xalanın, minlərlə insanın bir tikə çörəyə möhtac qaldığı və acından gözünə yuxu getmədiyi gecələrdir. Müəllif o günləri yaşayıb, o günlərin bir daha qayıtmasını arzulamır. Bu arzunun özündə müharibəyə nifrət var. İnsanları firavan görmək arzusu var. Bax elə bu hisslərdir ki, H. Mirələmovun 14 yaşında “Bir tikə çörəy”i yazmağa sövq edib.

H.Mirələmov istəyir ki, insan cəmiyyətin günahı ucbaından müsibətə düçar olmasın, ona qismət olan ömrü layiqincə, qayğısız yaşasın. Kitabın redaktoru Əli Rza Xələfli yazır: “H.Mirələmovun hekayələrində insanı cidd- cəhdlə, lap fədakarlıqla qorumaq istəyi var, insana sevgi var...” Bu hekayədə insanı mağmın günə qoyanlara, müharibə havası ilə alışıb – yananlara nifrət var, həm də insana sonsuz bir sevgi var. Ümumiyyətlə, H.Mirələmovun bütün hekayələrində insana sevgi aşılanır. İstər-istəməz onun qəhrəmanlarını, əlbəttə, müsbət qəhrəmanlarını sevirik. O, bu hekayələri ilə nə demək istəyir? Demək istəyir ki, insan azad olmalıdır, insan vicdanını heç də unutmamalıdır, müharibənin doğurduğu bəlalar sədaqətə kölgə salmamalıdır, insan təbiətə qəsd etməməlidir və s.

H.Mirələmovun “Qayada çiçək” kitabında toplanmış hekayələrini birləşdirən amillər çoxdur.Eyni zamanda bu hekayələri mövzu baxımından da fərqləndirmək olar. Məsələn, “Bir tikə çörək”, “Qayıtdı durnalar”, “İzlər”, “Dəyirmana gedən yol” və s müharibə mövzuna həsr edilmişdir. “Qayada çiçək”, “Mərufun qələmi”, “Qartal”, “Simuzər”və s hekayələri fəlsəfi-psixoloji mövzudadır. “Yeni həyat”, “Zurnaçalan Behbud”, “Qasırğa tez keçdi” hekayələrində isə məişət məsələlərinə toxunulub.

H.Mirələmovun "İzlər" hekayəsi belə başlayır: "Sahil kimsəsiz idi. Ətrafda heç kəs görünmürdü. Fikirlərim sanki ayaq izləri ilə bir addımlayırdı. İzlər... Sahil gedir, izlər gedir... Sahil gedir, izlər itir... "Bu sahilə neçə-neçə izlər düşüb, bu sahilin sinəsindən neçə-neçə izlər silinib. Bəli,izlər düşür, izlər itir."

Bunlar insan izləridir. Adamlar avtobusdan yerə düşdükcə torpaq da qoşa iz buraxıb gedirlər. Amma bu izlərin içərisində bir iz seçilir. Bu iz müharibədə ayağının birini itirmiş Azər müəllimin izidir. "Qoşa izlər arasında tənha bir iz..." Nə qədər təsirli bir səhnə. Istər-istəməz adamın yadına müharibə düşür. Elə müəllif də bu tənha izin oyatdığı xatirələrə dalır, müharibəni xatırlayır. Mənə elə gəlir ki, sonrakı hadisələri söyləmək üçün müəllif ustalıqla bədii zəmin hazırlamışdır. Qoşa izlər arasında nəyə görə tənha iz olmalıdır? Müəllifi düşündürən budur. Nəyə görə müharibə atalarımızı bizə iki qıçı dizdən kəsilmiş halda qaytarmalıdır? Hekayənin əvvəlindən sonuna kimi lirik bir ovqat hakimidir: "Qəlbim ağrısa da, sızlasa da, göynəsə də deməliyəm ki, atamın iki məzarı var. Biri Berlin divarlarına bir neçə addım qalmış, o biri doğma elimizdə, obamızda. Bir bədənin iki məzarı. Ürək dağlayır bu ikilik... gözləri yandırır bu ikilik..."

* * * *

Yazıçı "gözləri yandırır bu ikilik" deməklə "qoşa izlər arasında tənha bir iz" təsvir etməklə oxucu da xatirələr yaradır. Onu düşünməməyə məcbur edir. Biz Ikinci Cahan savaşından zaman etibarı ilə o qədər də uzaqlaşmamışıq. Hələ də müharibənin ağrı-acısını yaşayanlar var. Hələ də qəlpəsini gəzdirənlər şikəst olanlar salmatdır. Biz həmin müharibə vetiranlarını hər gün görürük. Hər gün də görürük onlar torpaqda tənha iz buraxıb gedirlər. Bu, bizi yandırır, bizdə müharibəyə nifrət oyadır. Amma eyni zamanda faşizmə qarşı mübarizədə ata-babalarımızın izi hər yerdə görünür. Onların qıçlarını müharibə udsa da, izlərii uda bilmir. Bu izlər torpaqda, ən başlıcası gözlərdə, ürəklərdə şırım açıb. Ona görə də heç zaman itmir: "Sahil gedir, izlər gedir... Sahil gedir, izlər itirdi. Ürəklərə neçə-neçə izlər düşüb, ürəklərdən neçə-neçə izlər silinib. Ancaq elə izlər də olur ki, heç vaxt itmir. Atamın saldığı yollar kimi, izlər kimi..."

Çox düşündürücü sonluqdur. Müəllif bu qənaətə gəlir ki, insan ürəklərdə iz salmalıdır. Onsuz da qum üzərində, torpaqda salınan izlər ötəridir, yağış, yaxud su bu izləri yuyub apara bilər. Amma ürəklərə düşən izləri heç nə yuyb apara bilməz. Yaşadığımız cəmiyyətdə nə qədər adam var ki, onlar bütün ömürləri boyu heç bir iz qoya bilmirlər. Ömürlərində nə bir ağac əkir, nə bir kimsəsizə dayaq durur, nə də xalq üçün gərəkli bir iş görürlər. Təbii ki, belələri həyatda iz də qoya bilmirlər. Insanın yaşayışı, gördüyü işlər, yapdığı əməllər elə olmalıdır ki, onlara başucalığı

şərəf gətirsin. Bax o zaman insan övladı ürəklərdə iz sala bilər. Eyni zamanda, həyatda da izi qalar.

“İzlər” bəşəri bir əsərdir. Nəyə görə bir insanın iki məzarı olmalıdır. Nəyə görə müharibə insanın bir qıçını udmalıdır. Bu suallar hekayənin əvvəlindən axırınadak adamı müşayət edir və müharibə törədənlərə nifrət aşılayır.

Biz indi də ədalətsiz bir müharibəyə cəlb olmuşuq. Nə qədər torpaqlarımızı itirmiş, nə qədər şəhidlər vermişik. Nə qədər soydaşlarımız çadırlarda dözülməz həyat sürülər doğrudur, atəşkəs elan olunub, müharibə müvəqqəti olaraq səngiyib. Daha səngərlərdən ağır xəbərlər eşitmirik. Ancaq müharibə hələ bitməyib. Hələ torpaqlarımız işğal altındadır. Çoxlu şəhid verməklə yanaşı müharibədən şikəst qayıdan, ayağını itirən, qol-qıçını itirən cavanlarımız var. Onlar bu torpağın uğrunda canlarını fəda etmiş, ayaqlarını vətən yolunda qurban vermişlər. Təssüflər ki, çox zaman onlara laqeyd münasibər göstərilir. Bu baxımdan “izlər” hekayəsi çox aktualdır. Mən “izlər”i oxuyanda yadıma bu günlərdə rast gəldiyim bir mənzərə düşdü. “Azneft” meydanındakı dayanacaqda avtobus gözləyirdim. Diqqətimi qoltuq ağacına söykənən cavan bir oğlan cəlb etdi. Təhər-tövründən başa düşdüm ki, Qarabağ əilidir. O sanki əlil olduğuna görə camaatdan utanırdı. Kirimişcə bir qıraqda dayanmışdı. Ancaq bir-birinin dalınca şütüyən “Qazellər” saymazyana onun yanından şütüyüb keçirdi. Guya ki, onu görmürdülər. Bu, məndə acı təəssüf hissi doğurdu. Amma mən bundan da acı bir hadisənin şahidi oldum. Üst-başından nimdaşlıq tökülən bir arvad qarabağ əlilinə yanaşıb ona pul uzatdı. Sən demə arvad Qarabağ əlilini dilənçi zənn edibmiş. Həmin anda Qarabağda ayağını itirən o cavanın hansı hisslər yaşadığını özünüz təsəvvür edin.

Doğurdan da çox acınacaqlı mənzərə idi və qəlbimdən keçdi ki, kaş bu cavan oğlan “İzlər”i oxumuş olaydı. Onda o öz tay-tuşlarından xəcalət çəkməzdi. Başa düşərdi ki, torpaqda qoşa iz sala bilməsə də, ürəklərdə iz qoyub, ən başlıcası, Azərbaycanın qəhrəmanlıq tarıxındə iz qoyub. Məncə H.Mirələmovun “İzlər” əsəri müharibədə döyüşənlərə qoyulmuş sənət abidəsidir.”İzlər” müharibədə qıçını itirənlərin izidir.

İzlər yollara düşür. Yol o zaman yol olur ki, o yolla gedən olsun, o yola iz salan olsun.Yollarda cürbəcür olur. Allahın qoyduğu yol var. Haqq və ədalət yolu (kaş ki, hər birimiz o yolu keçə bilərdik). Ürəklərə gedən yol və ürəkləri birləşdirən yol var. Yollar çoxdur və o yollardan biridə dəyirmana gedən yoldur. Bu yol ruzi, bərəkət, çörək yoludur. Yazıçının müharibədən bəhs edən hekayələrindən biridə “dəyirmana gedən yol” adlanır. Bu yol “kəndin girəcəyindən başlayıb, kəndin ağırında şəlaləli bir çayın sahilində qutarır”. Müharibəni görmüş bir ananın gözləri heç bir zaman gülmür. Onun bağışlarında sevinc donub, təbəssüm yaralanıb.

Ananın gözləri yola dikilib. Bu, dəyirmana gedən yoldur. Müharibə dəyirmana çəkilən yolu yarımcıq qoyub. Kişilər cəbhəyə gedib, təzə dəyirman isə yaddan çıxıb. Dəyirmana gedən yolu ot-ələf basıb. Müəllif bütün bunları, ümumiyyətlə müharibənin insanlara bəxş elədiyi üzüntu və iztrabların bədii boyalarla lövhəsini çəkmişdi.

“... Qış yenicə girmişdi. Müharibənin üçüncü qışı evimizdə çörək tükənmişdi. Anam ehtiyat üçün yaydan saxladığı bir neçə balqabağı qənaətlə bişirdi. Bir gün o da qurtardı. Biz acından qanadı sınmış körpə quşlar kimi büzüşdük. Odunmuz da qurtarmışdı. Aclıq və soyuq...Eh, dərd dərd üstə gəlməsə, bir dərdə nə var ki...Bir gün bacım – körpə qızcığaz xəstələndi. Uşaq hey ağlayır, qızdırma içərisində yanırdı. Sanki öz kiçik bədəninin hərarəti ilə bizim ocaqsız evimizi isitmək istəyirdi. İki gündən sonra öldü. Yarımçıq dəyirman yolunun başlanğıcında basdırdılar... Bir neçə aydan sonra isə atamdan əbədi olaraq ümidimizi üzdük”.

Müharibə qurtarır, salamat qalanlar qayıdır. Dəyirmana gedən yol kol-kosdan təmizlənir. Camaat o yolla dəyirmana çörək dalınca gedir. Ancaq: “... İndi yolun başlanğıcından bir daş ucalır. Mərmər bir baş daşı. Bu daş donmuş körpə beşiyini xatırladır. Hər iki tərəfdə isə geniş bir sahəni tutan taxıl zəmisi uzanıb gedir. Sünbüllər ahəstə- ahəstə yırğalanır. Sanki daş beşikdə uyuyan körpəyə şirincə bir laylay çalır...”Müəllif bunları ananın yola dikilmiş gözlərindən oxuyur və o gözlərdə qübar bağlamış tozlu bir yolun nağılını danışır. O nağılı ki, tək bir ananın yox, müharibənin görmüş bütün Azərbaycan analarının gözlərində sevinc və təbəssümü qeybə çəkib. Dəyirman yolundakı baş daşı- körpə qızcığazın donmuş daş beşiyi tək bir kəndin deyil, müharibə ağrısını yaşayan bütün kəndlərimizin taleyidir. Ona görə də deyə bilərik ki, H.Mirələmov bu əsərində böyük ustalıqla kəndi də, adamları da ümumiləşdirə ustalaşdıra bilib bə beləliklə, uğurlu bir əsər yaratmağa nail olub. Biz burada müharibə dövrünün çətinliklərini yaşamağa məhkum edilmiş Azərbaycan kəndlərinin və ailələrinin ümumiləşdirilmiş obrazını görürük. O, sonda haqlı olaraq bu nəticəyə gəlib: “... Qoy dəyirmana gedən yollara heç vaxt alaq, kol-kos ayaq aça bilməsin. Qoy o yollarda işıqlar yansın, salxım-salxım işıqlar... Çinarlar ucalsın . Qatar – qatar çinarlar... Maşınlar ötsün. İçi çörək dolu maşınlar, taxıl dolu maşınlar. Qoy bu yollara mərmər döşənsin, amma kənarlarında mərmər baş daşılar ucalmasın!...” Doğrudur, burada bir şüarçılıq var, mətn nəsrin tələblərindən kənara çıxır. Sanki müəllif publisistikaya meyllənir. Əsərdən doğan qayəni özü açır. Istər –istəməz fikirləşirsən ki, kaş belə qurtarmayaydı. Amma elə o andaca gəldiyin fikirdən uzaqlaşmalı olursan. Axı yazıçının arzusu elə-belə arzu deyil! Onun arzusu dəyirmana gedən yolun ağrı-acısını gözünə yağan ananın arzusudur.

“Qara xal” hekayəsi də müharibə mövzusundadır. Sual doğa bilər ki, qara xalın müharibəyə nə dəxli var? Əsəri oxuduqca bu suala oxucu asanlıqla cavab tapır. Qeyd etmək yerinə düşərdi ki, əsər maraqlı süjetə malikdir. Çarpayıda arxası üstə uzanan xəstəyə baş çəkən həkim Bədirov onun yanağında qara xal görür. Xəstənin sifəti dəyişsə də, qara xal əvvəlki kimidir və o qara xal sahibini tanıdır. Görən kimi həkimin qəlbində buza dönmüş hissləri yenidən oyadır, varlığı sarsılır. O, xəyalında müharibə illərinə qayıdır. Olub – keçənlər bir – bir beynində çözələnir. Məlum olur ki, o, müharibəyə gedəndə bu qara xalın sahibi Nahidə ərə gedib. İndi onlar üz-üzədirlər. Biri ölüm ayağındadır, o biri isə onu xilas etməlidir. Neyləməli? Onu atıb ərə gedən bir qadından qisas almalı? Yaxud həkimlik andına sadiq qalmalı? Bu suallar həkim Bədirovu üzür, onu çıxılmaz vəziyyətdə qoyur. O, təzadlı fikirlər içərisində çabalayır. Hansı addımı atacağını müəyyənləşdirə bilmir. Bu suallarla oxucu da hadisənin necə qurtaracağını səbirsizliklə gözləyir. Nəhayət, həkim uzun çək-çevirdən sonra onu öldürmək qərarına gəlir. Əməliyyat otağında Nahidəni zarıyan görəndə isə qərarını dəyişir. Nahidənin ağrıdan inləməsi onun yadına döyüş meydanlarındakı yüzlərlə yaralını salır. Yaralıların iniltisi, tankların səsi onu ayıldır.Vəfasız Nahidəni yox, xəstə Nahidəni sağaltmağa hökm verir. “...Qəti qərarım, qəti hökmün Nahidə üçün yox, müharibə törədən cəlladlar üçün çıxarılmışdır...” Söz yox, hekayəni oxuyub qurtarandan sonra müharibə törədənlərə nifrət yağdırırsan. Müharibə təkcə şəhər və kəndləri yerlə -yeksan etmir, müharibə həm də könülləri viranə qoyur, ailəni dağıdır. Ancaq bütün ailələrimi? Nahidə kimləri çoxdurmu? Əlbəttə yox! Müharibə dövrünün çoxlu qadınları var ki, hər əzaba qatlaşaraq ərlərinin yolunu gözlədilər. Demək, Nahidənin taleyi onun fərdi taleyidir. Bütün qadınların taleyi deyil. Burdan o nəticə çıxır ki, müharibə heç də ərini gözləməyən , vəfasızlıq edən Nahidəyə haqq qazandırmır. Oxucu yalnız müharibəyə görə Nahidənin ərə getməsinə inanmır. Ancaq hər halda, qoyulan mətləb və maraqlı əhvalat onu deməyə əsas verir ki, “ Qara xal”, “Qayada çiçək”lərin işərisində gözəl görünür.

H.Mirələmovun bu kitabında “Qayıtdı durnalar” adlı bir hekayəsidə var. Bu əsər barədə danışmazdan əvvəl öz-özümə sual verirəm: Çiçək nə zaman açır? Əlbəttə, bahar gələndə. Baharın  xoş müjdəçiləri durnalar geri dönəndə. Demək, durnaların qayıtması ilə çiçəyin açılması eyni vaxta düşür. Demək, durnaların səmada ötməsi “ qayada çiçək” bitirir.

“Qayıtdı durnalar” əsərində ürək dağlayan, yanıqlı səhnələr kifayət qədərdir. Bəzən hisslərini, duyğularını cilovlaya bilmirsən. Ancaq hekayə nikbin bir sonluqla bitir: “Ancaq bizim göylərə yenə qayıtmışdı durnalar. Yenə durnalı olmuşdu bizim göylər. Yenə durnaların səf-səf qatarı gümüşlənmiş durna yollarını

bəzəyirdi. Yenə o yollar səf-səf durna qatarına bürünmüşdü... Həm də xatirələrdə əbədi olaraq son uçuş zamanı səmada durna harayları yaşayacaq!..

Mən bu hekayəni oxuyunda Musa Yaqubun “Leyləklərin çöp yuvası boş qalıb” misrasını xatırlamalı oldum. Hardasa ekoloji tarazlığın pozulması leyləklərin çöp yuvasını boş qoyursa, elə müharibə də ekoloji aləmdə fəsadlar törədə bilir.Müharibə başlanandan səmada durnalar dəstə-dəstə ötmür. Müharibə başlanan gündən pərən düşən durnalar geri qayıtmırlar. Eləcə də, müharibə kəndin (bütün kəndlərimizin) cavanlarını dəstə-dəstə aparır, gözlər yollara dikilir, illər-illərə calansa da, nə gedən durnalar, nə də cavanlar geri dönürlər. Burda durnalar ilə kəndin cavanları arasında bağlılıq var. Yazıçı bunu təsədüfi verməyib. Çünki müharibə qoymur ki,durnalar göyünə, nə də cavanlar evinə qayıtsın. Sanki müharibə adamlara baharı da unutdurub. Ancaq müharibə qurtarır. Göy üzü səf-səf durna qatarlarina bürünür. Cavanlar da evlərinə qayıdırlar. Deməк, müharibə qurtarırsa, durnalar qayıdır. Müharibəyə gedənlər geri dönürlər.

Hərbi komissarlıqdan cavanlar Vətəni qorumağa yola salınır. Bu zaman “Vağzalı”- ayrılıq nəğməsi oxuyur. Əsərdə “Vağzalı”nın geniş planda verilməsi, eləcə də Durna obrazı uğurla alınmışdır. Məncə, bu komponentlər əsərin ideya-məzmununun açılmasına, obrazlılığına təkan verir.

* * * *

İstər kədər seli kimi kükrəyib coşan, yel qanadlı kəhərlər kimi çapan, həzin bir işartıya dönüb süzülən “Vağzalı”, istərsə də göy üzündə qanad çalan durnalar yazıçının qarşısına qoyduğu məqsədlə o dərəcədə bağlıdır ki, o dərəcədə vəhdətdədir ki, əgər onları mətndən çıxarsaq, bəlkə də, əsərin bədii effekti aşağı düşər. Düzdür, yazıçı “Vağzalı” havasına müraciət edəndə, durnaları təsvir edəndə hardasa əsas xəttdən kənara çıxır, publisistik düşüncələrinə yer ayırır. Ancaq bunlar əsərin bədii dəyərinə zərrə də olsun təsir göstərə bilmir. Əksinə, adama elə gəlir ki, əgər müəllif düşündüklərini bu şəkildə ifadə etməsəydi, əsər sönük çıxardı. Bu parçaya diqqət edək: “... Vağzalı” havasının bəstəkarı kim bilir, bəlkə də, durna qatarları olub. Kim bilir, bəlkə də, narın bir qüssə, həzin bir ayrılıq, titrək bir kövrəklik gətirən bu durna qatarlarının qərib-qərib ötməsindən yaranıb bu “Vağzalı” havası.

Necə də qərib-qərib ötür durnalar? Necə də qərib – qərib axır səmada “Vağzalı”?.. Nə qəribə oxşarlıq?.. Nə qəribə bənzərlik?..

Çox lirik və həzin bir parçadır, oxucuda isti duyğular oyadanbir bədii lövhədir. Hətta ayrılıqda da götürülsə, gözəl görünür, qəlb oxşayır. Məncə, bu

kiçik parça ayrıca, itkin bir əsər təsiri bağışlayır. Axı duyğuların, emosiyaların bu cür obrazlı ifadəsinə başqa nə demək olar?

“İzlər”, “Dəyirmana gedən yol”, “Qayıtdı durnalar”, “Bir tikə çörək” hekayələri mövzu və ideya baxımından yaxındır. Ancaq bu yaxınlığa baxmayaraq müəllif sənətkarlıqla hər hekayəsində müharibə və onun bəlalarını oxucuya təqdim etmək üçün özünəməxsus formalar seçmişdir.

O, “İzlər” hekayəsində müharibəni yada salır. Qoşa izlər arasında tənha izi görəndən sonra acı xatirələrə dalaraq müharibə illərini xatırlayır.

O, “Dəyirmana gedən yol” hekayəsində müharibəni yada salır. Anasının heç zaman gülməyən gözlərinin şəklini çəkir və o gözlərdə tozlu bir yolun nağılını danışmaqla bizi müharibə illərinə aparır.

O, “Qayıtdı durnalar”və “Bir tikə çörək” hekayələrində də müharibəni, aclıq və səfalət illərini xatırlayır. Bu hekayələrində də bədii manevrlər edərək bizə müharibənin gətirdiyi dərdləri yanğı ilə danışır. Bu ədəbi priyomlar H. Mirələmovun sənətkarlığına şübhə yeri qoymur.

Elə mövzu və ideya yaxınlığına görə bu hekayələrin üçü əsasında “Durnalar qayıtdı” adlı film çəkilib. Bu günlərdə film ictimai baxış oldu. Film haqqında ayrıca bəhs ediləcək. Ancaq qısaca da olsa, deməliyəm ki, film çox uğurlu alınmışdır. Xüsusilə müharibənin insan psixologiyasına təsiri, doğurduğu bəlalar filmdə çox qabarıq verilmişdir. Müharibə hələ başlanmayıb. Adamlar firavanlıq içindədirlər. Kişilər çöl işindədir, arvadlar həyat-bacada səliqə-səhman yaratmaqla məşğuldurlar. Uşaqlar sevinc içərisində yelləncəkdə yellənir. Birdən radioda müharibənin başlanması elan olunur. Hamı sarsıntı keçirir. Bu zaman nə baş verir? Ağacdan asılan yelləncək boş-boşuna yellənir, artıq uşaqlar uşaq ömrü yaşamırlar.Stolun üstündəki bir stəkan çay yarımçıq qalır, vedrə aşır, elə o cür də qalır. Bu kiçik detallar müharibənin başlanmasını sanki xəbər verir və rejissorun tanıntısıdır. Amerika kinolarının ekranlarımıza ayaq açdığı indikivaxtda bu cür filmlərə çox böyük ehtiyacımız var. Çünki uşaqlarımızın vətənpərvərlik duyğusuna böyük ehtiyacımız var. Bu filmə baxan hər kəsin kövrələcəyi şəksizdir. Eyni zamanda qəlbində vətənpərvərlik hissinin, torpaq, yurd sevgisinin də göyərəcəyi şəksizdir.

Kitabda maraq doğuracaq əsərlərdən biri də “Tənhadurna uçuşu” adlanır. Yazıçı bu hekayəni 1984-cü ildəqələmə alıb. Yenə də “Durna” obrazı. Klassik ədəbiyyatda bu obraza çox müraciət olunub. Xüsusilə poeziyada. Ancaq bundan bəhs etməyəcəyik. Bizi maraqlandıran yazıçının “Tənha durna”sıdır. O “Tənha

durna” ki: ...tələsir, tələsirdi... O dayanmadan ayrıldığı durna qatarına doğru can atırdı. Erkən ayrı düşdüyü durna qatarına...” Əsər bu cümlələrlə başlayır və elə buradaca müəllif fikrini yarımçıq buraxıb bizi hardasa, uzaqlarda oxunan “bənövşə ətirli, unudulmuş bir məhəbbət mahnısının qəmli nəqəratı ilə tanış edir: “... İyirmi il idi ki, görüşmürdük. Düz iyirmi il! O titrək zəng səslərinin son akkordları düz iyirmi il adlanan əsrin beşdə biri arxasından kəsik-kəsik, qərib-qərib səslənib,ürəyimdə bir həzin, bir kövrək mahnıya çevrilirdi. Yaddaşımın, ürəyimin iyirmi yaşlı xatirələrini oyadırdı, soraqlayırdı, haraylayırdı bu xatirələr...”

İyirmi illik xatirələrin yükünü daşıyan Nəsib Əlizadədir. O, iyirmi illik ayrılıqdan sonra “məzunların 20 ildən sonra görüşü” xatirə gününə tələsir. O, orta məktəb dostlarının yanına can atır. Tənha durna ayrı düşdüyü qatarına can atan kimi. Göründüyü kimi, müəllif burada “Durna”obrazını rəmzi olaraq işlədib. Dəstəsindən ayrı düşmüş durna ilə, orta məktəb dostlarından ayrı düşmüş Nəsibin taleləri arasındakı oxşarlıq əsərə xüsusi ahəngdarlıq gətirir, lirik və həzin bir ruh verir. Görəsən,hansı birimiz bu hissləri yaşamamışıq? O uzaq, əlçatmaz, ancaq xatirələrimizdə qalan orta məktəb illərini hansımız unuda bilərik? O illərin acılı-şirinli günləri, kövrək, bir ömrə bərabər anları qəlbimizdən silinibmi? Belə bir məşhur mahnı bar: “Mətəb illəri”. Mən o mahnıya qulaq asanda xəyali olaraq kəndimizdəki birmərtəbəli məktəbə - ilk dəfə qapısını açıb oxuyub-yazmaq öyrəndiyim məktəbdə oluram. Sinif yoldaşlarımı, mənə dərs deyən müəllimlərimi xatırlayıram. O müəllimləri ki, biz onlara müqəddəs bir varlıq kimi baxırdıq. “Məktəb illəri” oxunanda məni evimizdən məktəbə aparan yol yadıma düşür. O yol adi yol deyildi. O yol mən də içində olmaqla nə qədər uşağı məbəd kimi baxdığımız məktəbə aparırdı. O yol bizi elm öyrənməyə aparırdı. O məktəbin hər otağı, hər ağacı bu gün də gözümün önündədir.

Mən bu hekayəni oxuyanda da məktəblə bağlı romantik hisslər yaşadım, o illərlə bağlı xatirələr birbəbir gözlərim önünə gəldi. “Məktəb illəri” məndə hansı duyğular yaratmışdısa, “Tənha durna uçuşu”da o duyğuları oyatdı.

“Tənha durna uçuşu”nu oxuyanda mənə elə gəldi ki, orta məktəblə bağlı bir nəğməyəqulaq asdım. Həmin nəğmədən sətirlər: “...Artıq doğma məktəbin həyətindəyəm. O sadə, ikimərtəbəli adi binanı görəndə lap kövrəldim. Az qaldı ki, ağlayam. Əlbəttə, bu binaya “adi” sözünü onun formasına görə dedim. Bu, heç də fikirləşdiyimiz adi binalardan deyildi. Mənə elə gəlir ki, məktəbi məbəd, müəllimləri o məbədin müqəddəs kahinləri adlandıranlar heç də səhv etməyiblər. Elə bu anlarda daxilimdə bir həzin,bir titrək zəng səslənirdi. Son zəng... Bu səs coşurdu, daşırdı. Məni o illərə - o doğma qoynuna alıb uşaqlıq çağlarına aparırdı...”

Və yaxud: “... Sinifə bir anlıq nəzər saldım. Hərə öz yerində oturmuşdu. Gözlərimi yumsaydılar da öz yerimi tanıyardım. Mənim yerim boş idi. Gedib oturdum. Partada mənimlə yanaşı gözəl bir xanım da oturmuşdu. Əvvəlcə tanımadım. Çox diqqətlə baxandan sonra tanıdım. O idi, Gülgəz. Bəli, mənim ilk parta yoldaşım. On il bir partada oturmuşduq onunla. O vaxt sevirdim onu. Mənim kədərli dəqiqələrim onun gözəl səsində əriyirdi. Elə bu vaxt ürəyim yüngüllük tapar, toxtayardım... ”

Yaxud da: “...Gözlərim qeyri-ixtiyarı Gülgəzə sataşdı. Üst- başı bərq vururdu. Qulaqlarında, barmaqlarında brilyantlar göz qamaşdırırdı. Dişləri başdan-başa qızıllanmışdı. Bütün gözəlliyini qoruyub saxlamışdı. Bircə gözlərindən başqa. Sanki gözlərinin alovu, işığı qulaqlarına, barmaqlarına axmışdı. O gözlərdəki qüvvət, o gözlərindəki qüdrət sanki qeyb olmuşdu, alovu- odu sönmüşdü...” və s.

Bu hissləri hər birimiz yaşamışıq. Bu kiçik parçalardakı dərin lirika, bədii təsvir vasitələri olduqca təsirlidir və oxucuda kövrək duyğular oyadır. Mən bu sətirləri oxuyanda, düşündüm ki, elə bunu özüm yazmışam. Düşündüm ki, görən, bu sətirlərin hansındayam?

“Tənha durna uçuşu”nda iki xətt mövcuddur. Əsas xətt Nəsib Əlizadənin taleyidir. O, 20 il əvvəl ayrı düşdüyü dostlarının görüşünə tələsir. Digər yardımçı xətt isə durnanın taleyidir. Müəllif bu oxşarlığı tapmaqla əslində oxucunu iki hekayə ilə tanış edir. Bir hekayədə iki hekayə. Məncə, bu, hər yazıçıya müyəssər olmur.

... Payız gəlib, havalar soyuyur. Durnalar uçub isti ölkələrə getməlidir. Ancaq biri dəstədən ayrı düşür. Ya hansısa insafsıza rast gəlib, ya da qəzaya tuş gəlib. Bir müddətdən sonra qanadları möhkəmlənib.İndi həmin tənha durna qanad çalıb uçur, ayrı düşdüyü durna qatarına can atır, tələsir... Bu, durnanın hekayətidir.

İkinci hekayət isə Nəsibin. O da tələsir, ürəyində bir həzin, kövrək mahnıya çevrilən titrək zəng səslərini yenidən eşitmək üçün, ayrı düşdüyü məktəb dostlarına qovuşmaq üçün. O, eyni zamanda unudulmuş, bənövşə ətirli bir məhəbbət mahnısı ilə bizi tanış edir. Bu məhəbbət nəğməsini dinləyə-dinləyə biz də onunla bərabər tələsirik. Onun da qanadını sındırıblar. Yetimliyini – müharibənin bəxş elədiyi yetimliyini başına qaxanc edərək ilk məhəbbətini daşa çırpıblar.

Bu sətirləri oxuduqca, Nəsibin 20 illik xatirə yükünün ağzı açıldıqca hissiz, həyacansız ötüşmək olmur. Ən başlıcası,əsərin əvvəlindən ta axırınadək başının üstündə tənha bir durnanın uçuşunu hiss edirsən.

H. Mirələmovunbu hekayəsinin  dili o qədər oxunaqlı, cəzbedici və şirindir ki, oxucunu qətiyyən yormur. Fikirlər o qədər qanadlı və poetikdir ki, sanki şer oxuyursan. Bu xüsusiyyət demək olar ki, müəllifin gənclik illərində yazdığı əksər hekayələrinə xasdır. Onun “İzlər”, “Dəyirmana gedən yol” və s. hekayələrində, “Xəzər”, “Ulduza doğru” miniatürlərində elə bədii parçalar var ki, mənsur şerləri xatırladır. Adını çəkdiyimiz əsərlərdə poeziya ilə nəsrin çulğaşması bizi “Kitabi Dədə Qorqud”a, nağıl və dastanlarımıza aparır. Ümumiyyətlə, dünya, eləcə də Azərbaycan ədəbiyyatında şerləşən nəsr və nəsrləşən şer nümunələri istənilən qədərdir. Mənzum roman və pyes, mənzum felyeton, o cümlədən mənsur şer yazanlarazdırmı? Aşıqlarımız  dastanları sözlə söylədikləri kimi, sazla da söyləmirlərmi? Bəlkə də, şer və nəsrin birgəliyi elə ilkinliyə qayıdışdır.

H.Mirələmovun yaradıcılığın əsas xüsusiyyətlərindən biri də odur ki, o, cəmiyyətin və təbiətin törətdiyi bəlaların, fəlakətlərin girdabında insanı təsvir etməklə oxucunu daim gərginlikdə saxlayan bədii lövhələr yaradır. Amma onun yaratdığı insan obrazları heç də ruhdan düşmür, həmin bəlaları dəf edərək mənən səfalaşır və oxucunun  gözündə ucalır. O, sadəcə öz qəhrəmanını təsvir etməklə kifayətlənmir, onu müxtəlif maneələrdən keçirərək mərd, dözümlü və fədakar insan səviyyəsinə yüksəldir. Və bunula da oxucunun qəlbinə yol tapır, onun duyğunlarının, hisslərinin təmizlənməsinə kömək edir. Öz qəhrəmanlarının mərdlik və dözümünü nümayiş etdirməklə oxucusuna mənəvi dayaq durur.

Belə bir fikir deyirlər ki, Turgenevin əsərlərini oxuduqdan sonra bütün qızlar onun qız qəhrəmanları kimi həlim və mülayim olmağa çalışırdılar. Məncə, H.Mirələmovun əsərlərini oxuyanlar da onun qəhrəmanları kimi fədakar və dözümlü olmağa can atacaqlar.

Yazıçının bu qəbildən olan əsərləri içərisində “Qasırğa tez keçdi” mühüm yer tutur. Hekayə “Gecə vahiməli idi”cümləsi isə başlayır. Gecə nə üçün vahimәlidir? Onun üçün vahimәlidir ki, qasırğa var, külək qarı toz kimi sovuraraq hər yanı görünməz edib. Hər şeyin qorxulu və zəhmli göründüyü bu tufanlı gecədə baş götürüb gedən Zəminənin nəzərləri uzaqda sezilən tutqunbir işığa dikildi: “... İşığın zəif ziyası Zəminənin  ürəyinə iynə kimi sancıldı. Axı bu işıq oradan, o soyuq evdən gəlirdi... Zəminə çox dayanmadı. Bu tufanlı gecədə haraya getdiyini özü də bilmirdi.” Tufanlı bir gecə, hara getdiyini bilməyən tək qadın. Bu, gecənin vahiməliyini daha da artırır. Oxucu elə bu cümlələrdən başa düşür ki, fəlakət baş verə bilər.

Zəminə yetimdir. Heç kimi yoxdur. Rəhimlə ailə qursa da övladları olmur. Elə buna görə də qaynanası onu evdən qovub. Əlacsız qalan qadın gecəni rəfiqəsigilə gedir. Lakin başlanan tufan onu rahat yatmağa qoymur. Evdən çıxıb

dənizə üz tutur. Bilir ki, Rəhim dənizdədir. Dəniz sularının vurub sahilə çıxartdığı ərini huşunu itirmiş vəziyyətdə tapır və Rəhim xilas olur. Bu məhəbbət qaynanası Gövhərin ürəyinə rəhm salır: "... Bağışla qızım, Zəminə. Rəhim özünə gələn kimi böyük-böyük şəhərlərə gedərik, loğmanlara pənah apararıq, daim lal olsun işdir, çarə tapılmasa, uşaq evlərinə yollanarıq. Totuq –motuq bir uşaq istəyərik. Lap ikisini övladlığa götürərik. Vəfalısan, qızım. Sənə etdiyim zülm üçün gorum od tutub yanacaq. Birçəyimin bu ağ vaxtında özümü ürcah eləmişəm..." Artıq qasırğa arxada qalıb. Dağıtdığını dağıdıb, ancaq dağılmayan da var: "... Zəminə Rəhimin yatağı yanında oturmuşdu. Dərman içirdirdi ərinə. Acı idi dərman. Lakin Rəhim bu acılığı hiss eləmirdi, çünki zəhər kimi acı dərmanın üstündə Zəminənin bal kimi şirin təbəssümünü içirdi..."

Yazıçı demək istəyir ki, vəfa və sədaqət olan yerdə hər cür maneə, lap elə tufan da gücsüzdür. Qasırğa nəyi dağıtsa da, sədaqətə söykənən ailəni dağıda bilməz.

****

Qasırğa çox təhlükəli təbiət hadisəsidir. Ətraf aləmdə canlı və cansız nə varsa, yerlə-yeksan edə bilir. Belə demək mümkünsə, təbiəti silkələyir, eyni zamanda ancaq bəşər övladına məxsus cəmiyyətə də təsir göstərir; vahimə və qorxu yaradır. İnsanların psixologiyasını zədələməklə onları sarsıdır. Qasırğa heç kimə sevinc bəxş eləmir. Özü də təbiətin bu amansız hadisəsi harada yüksək mərtəbəli binalar varsa, uca ağaclar varsa, onları yerə gətirir. Qasırğanın uçurmadığı ancaq daş və qayalar ola bilər. Bir də insanların bir-birinə olan həqiqi sevgisini uçura bilməz. Neçə ki, Zəminə ilə Rəhimin qəlbindəki ülvi və ali hissləri uçura bilmir. Əksinə, qasırğa onları bir – birinə daha da möhkəm tellərlə bağlayır. Onların uçurum qırağında təhlükədə olan ailəsini dağılmaqdan qoruyur. Ümumiyyətlə,qasırğa nə qədər güclü olsa da, bünövrəsi məhəbbət və sədaqətdən qoyulmuş ailələri məhv edə bilməz. Bu , müəllifin gəldiyi qənaətdir, oxucuya demək istəyirdir. Təkcə bumu? Müəllif həm də bizi "qasırğa"ya salmaqla düşündürməyə məcbur edir, dərk edirik ki, hər cür tufan insanın ali hisslərinin qarşısında acizdir. Sadəcə olaraq hər cür əzaba tablaşaraq dözmək lazımdır. Ancaq dözümlülər həyatın və təbiətin sınağından alnıaçıq çıxmağı bacarırlar.

"Qasırğa tez keçdi" hekayəsində düşündürücü bir parçaya nəzər salaq: "... Ziyadlar, sıflar, gülmələr ağ yağış kimi səpələnirdi dənizin boz-bulanıq sularına. Belində ağ – qarapullar sıralanmış erkək ziyad balığı tordan çırpınan kimi tappıltı ilə suya düşdü, arxası üstə çevrildi. Bir anlıq beləcə qaldı. Sonra quyruğunu tərpətdi. Ağzını geniş- geniş açdı, qəfildən ox kimi suyun təkinə baş vurdu.

Yaşasın azadlıq! Eşq olsun dənizin qasırğasına da, tufanına da”. “Gülümsündü Xəlil... Diri idi balıqlar...”

Göründüyü kimi, qasırğa sevgi hisslərinə kölgə sala bilmədiyi, qayaları uçura bilmədiyi kimi, balıqlara da azadlıq bəxş edir. Dənizin qasırğası dənizin canlılarını himayə edir, artıq kimsə onları tora salıb tutmur. Yazıçı bu həyət həqiqətini çox gözəl tutmuşdur və bununla da biz insanları ayıq – sayıq olmağa,təbiətin yaratdıqlarını ucdantutma qırmamağa çağırmışdır.

Əsər insanın hiss və duyğularını oyatmaqla onu düşünməyə vadar edir. Bu, müəllifin uğurudur. Əgər hər hansı bir əsər oxucunun qəlbinə işıq sala bilmirsə, onu düşündürmürsə o əsəri oxumağa dəyməz. Ancaq H.Mirələmovun bu hekayəsində fədakarlıq və sədaqətin bədii təsviri, insana sevginin, insan böyüklüyünün tərənnümü onu deməyə əsas verir ki, əsər oxucular tərəfindən bəyəniləcəkdir.

Bir tərəfdə hər yanı dağıtmaq gücündə olan qasırğa, bir yanda da artıq dağılmaqda olan ailə. Müəllif təbiət və cəmiyyət hadisələrini qarşılaşdırmaqla çox güclü bir təzad yaratmağa nail olmuşdur. Təbiət və cəmiyyət hadisələrini bədii hadisəyə çevirərək, ouxucunu daim gərgin vəziyyətdə saxlamaqla,qarşısına qoyduğu məqsədin dəqiq bədii həllini vermişdir. O, öz qəhrəmanlarını qasırğadan keçirməklə, çətinliyə salmaqla sanki sınağa çəkir və onlar çətinliyin fonunda gözlərimiz önündə daha da yülsəlirlər. Müəllifin qəhrəmanlarını qorumaq istəyi açıq -aşkar görünür. Bu qəhrəmanların simasında yazıçı bütün insanları- bərkə - boşa düşən insanları qalib görmək arzusundadır. Eşq olsun bu arzuya! Bu arzu, bəlkə də, min illərdən bəri böyük ədəbiyyatın arzusudur.

Bəlkə də, insan yaranan gündən onun arzusu da yaranıb. Yəni arzu elə insanla qoşa doğulub. İbtidai insan ayaq açıb torpaq üstündə gəzməyə başlayanda onun yemək arzusu- ilk arzusu da onunla bərabər addımlayıb. Sonra ibtidai insan soyuqdan qorunmaq arzusunda olub. Bir az keçdikdən sonra ev tikmək və daha çox nəsə əldə etmək arzusunda olub. Daha çox torpaq əldə etmək, böyüklük arzusu ibtidai insanları qarşı- qarşıya qoyub. Bir sözlə, ibtidai insanın təfəkkürü genişləndikcə, arzuları da artmağa başlayıb. Bəlkə də, uşaq vaxtlarından eşitdiyimiz “quş qanadıyla, insan arzularıyla uçur” kəlamı qədim insanın görüb-götürməyinin məhsulu kimi bu günümüzə gəlib çatmışdır.

İlk arzu olduğu kimi, son arzu da var. Son arzu insanın son mənzilinin astanasındakı arzusudur. Nə vaxt ki, insanın ayağı torpaqdan üzülür, yorğan-döşəkdə oturub ölümünü gözləyir, bax o zaman onun qəlbində bir dilək, bir arzu baş qaldırır. Onun adına son arzu deyirlər. H. Mirələmovun “ Son arzu” adlı bir

hekayəsi var. 1968 -ci ildə yazıb. Söhbət ölüm ayağında olan xəstənin son arzusundan gedir: “ Xəstə saplağından üzülməkdə olan bir meyvəyə bənzəyirdi. Sanki həyatı bir xəfif yeldən, bir zəif hənirtidən asılı idi. Gözləri narahat, üzüntülü bir intizarla yol çəkirdi. Sönməkdə olan qəlbində fəryad dolu, peşmançılıq dolu uğursuz bir əks – səda inildəyirdi, yaralı quş tək çırpınırdı. Bu yaralı quş son gücünü, son qüvvəsini toplayıb sanki qanad çalmaq istəyirdi. Uçmağa, uçmağa can atırdı… Ömründə uçmadığı və ya uça bilmədiyi yüksəkliklərdə pərvaz etmək istəyirdi. Ömrün lap sonunda görünən zəif bir dumana, çiskinə- çənə bürünmüş zirvəsinə qoymaq istəyirdi. Axı oradan bütöv bir ömür əl içi kimi aydın görünürdü. Apaydın, ucsuz- bucaqsız zəngin üfüqlər kimi… Bu, onun son arzusu, son diləyi idi…”

Ancaq xəstə ölümlə əlləşdiyi bir vaxtda son arzusuna çata bilərmi? Müəllif bu sualı qoyur və ona qəsdən birbaşa cavab vermir. Cavabı oxucunun ixtiyarına buraxır. Bunun üçün oxucunu xəstə Elmarla şəhər qəbiristanlığına aparır. Və Elmarın bütün əməllərinə gözlərimiz qarşısında açır.Məlum olur ki, Elmar ictimai təminat şöbəsində müdir işlədiyi vaxt bir qocanı get-gələ salıb, ona arayış verməyib. İndi həmin qocanın baş daşından boylanan şəkli onu ittiham edir. Həmçinin başqa baş daşlarıda da. Elmar başını götürüb qaçır. Lakin o, hara qaçsa da, ölümündən qaçıb gizlənə bilməz. Son mənzil onu gözləyir. Son mənzilin astanasında onun son arzusu var: “… Kaş ömür bir az möhlət verəydi! Onda özüm bilərdim ki, necə yaşayaram!...”

Bu isə mümkün deyil. Çünki insan bu dünyada elə yaşamalıdır ki, “ son arzu” ya ehtiyacı olmasın. İnsanın bu dünyada gördüyü işlər, xeyirxah əməlləri, yaxşılıqları onu torpaq ömrünə, ölməzliyə qovuşdurmalıdır. Bu yerdə “ölüm ki, diriliniz” kəlamı yada düşür. Bəli, insan bu dünyada elə yaşamalıdır ki, haqq dünyasında diri qalsın. Bu isə Elmar kimilərə nəsib olmur. Onun ölümü sona yetdikcə, ümidi də azalaraq göydə qürub edən günəşin son parıltılarını xatırladır. Bu parıltılar isə mütləq sönməlidir. Elmarın ömrü kimi.

Hekayənin gücü və dəyəri ondadır ki, müəllif bizi qəhrəmanın simasında şəhər qəbiristanlığına aparır. O yerə ki, hər birimizin son mənzilimizdir və ora gedən bir daha geriye qayıtmlr: “ … Dünyadan köçmək ərəfəsində beynində yaranan bu qəribə suallara cavab axtara- axtara özünü şəhər qəbiristanlığında hiss etdi. Son vaxtlar nədənsə tez – tez qəbiristanlıq haqqında düşünürdü. Son dəfə dostlarindan kimisə dəfn edirdilər. Bu dəfn rasimi yadlndan heç vaxt çıxmayacaqdır. O, burada öz həmyerliləri ilə,öz el -obası ilə birlikdə nə qədər doğma və yad adamları dəfn etmişdir. Onları torpağın doğma qoynuna tapşırıb geri

qayıtmışdır. O adamları torpağa əbədi tapşırmışdılar, torpaq onları heç vaxt geri qaytarmayacaq!.. Heç vaxt!..”

Elə bir insan tapılmaz ki, ömründə heç olmasa bir dəfə qəbiristanlıq haqqında düşünməsin və yaxud qəbiristanlıqda olmasın. Çünki biz bütün ömrümüz boyu bir-birimizi dəfn edə-edə gedirik. Lap axırda isə özümüz bu yolla gedirik. Elə adamlar var ki, onlar yalnız torpağa basdırılır, ürəklərdə isə qalır. Elələri də var ki, hələ sağkən ürəklərdə dəfn olunur. Elmar kimi. Yazıçı isə bunu istəmir. O, istəmir ki, insanlar ürəklərdə dəfn olunsun.O, istəyir ki, torpağa qoyulan insan ürəklərdə, könüllərdə yaşamaq haqqı qazansın. Elmarın “son arzu”su ilə tanış olan oxucu istər-istəməz müəllifin istəyinə şərik çıxır.

Hekayədə qəbiristanlıq səhnəsi də çox təsirlidir. Ümumiyyətlə, H.Mirələmovun digər əsərlərində də “qəbiristanlıq” obrazı vardır. Xüsusilə “Tənha durna uçuşu”nda belə bir şer parçası var:

**Bir sinəlik sərinlikçin**
**Ağaçların kölgəsində**
**Kölgələnən, duran ölməz**
**Çiçəkləyib bar verərlər**
**Meyvələrə əl vurulmaz**
**Oynaq-oynaq nəğmələri**
**Yağışında çimməyiblər**
**Küləklərə sinə açıb**
**Məzarlara baş əyirlər**
**Udduqları qəm havası**
**İçdikləri göz yaşıdır**
**Qəbiristanlıq ağacları**
**Adlı-adsız məzarların**
**Ən birinci baş daşıdır.**

Dünyada ağaclar çoxdur. Bar verənlər də, bar verməyənlər də var. Ancaq ağac meyvəli halında daha gözəl görünür. Bu ağacları torpağa insan basdırır, eləsi də var ki, təbiətin mərhəməti ilə pöhrə verib boy atır. Elə ağaclar da var ki, onlar əkilmir, su, hava tələb etmir. Onları insan düzəldir. Biri dar ağacıdır. İnsanı qorumaq, ona dayaq olmaq üçün fikirləşiblər. Biri ölümü himayə edir, biri isə insanı.

Bir ağac da var ki, bəlkə də, ilk qəbir daşı ilə həmyaşıddır. O ağac uzun-uzun illər boyu öz lal baxışlarıyla neçə-neçə insan kədərinə şahidlik edir.O ağacın adı

qəbiristanlıq  ağacıdır. “Göz yaşı və qəm havası” ilə “çiçəkləyib bar verən” qəbiristanlıq ağaclarının “meyvəsinə əl vurulmaz”. Məzarlara baş əyən bu ağaclar nəğmələrin yağışında çimməyirlər. Qəbiristanlıq elə bir yerdir ki, o yerə ayaq qoyanda insanı qəribə hisslər bürüyür. Qəlbindəki bütün pislikləri unudub tamam başqa cür yaşamaq istəyirsən. Bir az kövrəlirsən, bir az da səni qəhər boğur. İstəyirsən ki, bundan sonrakı ömrünü hallallıqla başa vurasan. Elmar kimi. Müəllif Elmarı ölüm ayağında qəbiristanlığa aparmaqla elə bu həqiqəti oxuculara aşılamaq istəyir. Ancaq neyləməli ki, insan olan kəs qəbiristanlıqdan uzaqlaşan kimi ac yalquzağa dönür, didib-dağıtmaqla ömrünü yelə verir.

Hekayədəki qəbiristanlıq hər birimizi gözləyir. Ancaq elə etməliyik ki, ora çatanda möhlət diləyib başqa cür yaşamağı arzulamayaq. Məncə, müəllif qəbiristanlıq səhnəsində uğurlu bir ədəbi priyom seçməklə əsərinin ideya- məzmun çəkisinə xüsusi sanbal və canlılıq gətirməyə müvəffəq olmuşdur.

Dünyanın bütün qəbiristanlıqları bir-birinə oxşamadığı kimi, dünyanın bütün qəbiristanlıqlarındakı baş daşıları və həmin baş daşılara aparan yollar da bir-birinə bənzəmir. Qəbiristanlığa gedən yol çox ağır və üzücü yoldur. Çünki bu yol kiminsə özü ilə ölüm və kədər aparır. Hansısa igidin nakam ömrünü, hansısa bəxtikəmin yarımçıq arzularını aparır. Bu yol sevgisini, kiminsə balasını aparır. Bu yolu kimsə özbaşına getmir. Bu yolda hökmüranlıq edən əzrayıldır. Bu yol başa çatanda cığırlar yaranır. O cığırlar bir-birinə oxşamayan baş daşılarına aparır. Baş daşılar var ki, onların altında məhəbbət və sədaqət dəfn olunub. Ürəyini şam kimi əridib işıq saçan insanlar basdırılıb. O baş daşılara gedən cığırı heç zaman ot-ələf basmır. Baş daşılar da var ki, onların altında işıqlı dünyada üz ağartmayanlar, xəbislər və qaraniyyətlilər dəfn olunub. O baş daşılara gedən cığırları isə hər zaman ot-ələf basır. O baş daşılarına nə gələn var, nə gedən. Bular mənim şəxsi mülahizələrimdir və nə dərəcədə haqlı olduğumu deyə bilmərəm. Ancaq onu deyə bilərəm ki, mən bu hekayəni oxuyanda özümü bir anlığa son mənzilin astanasında təsəvvür etdim və dönüb ömür yoluma nəzər saldım. Xoşbəxtlikdən Elmarın “son arzu”su qəlbimdən keçmədi. Belə bir arzu varlığımı bürüdü: “Kaş ki, bütün insanlar Elmarın “son arzu”suna düşməyəydi. əsərin məzmunundan doğan fəlsəfi-əxlaqi məna mənə elə gəlir ki, H. Mirələmovun sənətkarlıq qüdrətindən xəbər verir.

Ümumiyyətlə, H.Mirələmovun bütün yaradıcılığında adi bir detalı sənətkarlıqla mənalandırmaq qabiliyyətini gördük. O şəxsi kədəri və problemi ictimai kədər və problem səviyyəsinə qaldıra bilir. Əsərlərində fərdi talelərə, fərdi hadisələrə ictimai məzmun geyindirə bilir. Götürdüyü hər hansı bir hadisəni, yaxud da qəhrəman seçdiyi bir insanı ümumiləşdirir. Doğrudur, “Elburusun səhvi” hekayəsində ümumiləşdirmə zəifdir. Hekayədəki kriminal hadisə bədii həllini

tapmayıb. Ancaq bu hal istisnadır. Onun digər hekayələrindəki lakoniklik, məzmun-forma vəhdəti, bitkin obrazlar, dərin ümumiləşdirmə bacarığı və s. Xüsusiyyətlər ancaq sənətkara xas xüsusiyyətlərdir. Qeyd etmək yerinə düşərdi ki, bu xususiyyətlər onun bütün hekayələrinə xasdır və bu bədii nümunələri bir xətt kimi birləşdirir. Doğrudur, bu hekayələrin hər birinin ayrıca mövzusu və ideyası var; hər hekayədə fərqli mətləblər qoylur, hər hekayədə mövzuya fərqli yanaşma tərzi duyulur. Lakin bu hekayələri bir nəfəs birləşdirir. Bu, H.Mirələmovun nəfəsidir.

O, "Meşədə tənha ev " hekayəsində meşəni oxucuya canlı şəkildə təqdim edir.

Doğrudan da, meşə də insan kimidir; yaşayır, nəfəs alır. Meşə də insan kimi danışa bilir, meşə də canlıdır. Onun da bir ağacını kəsəndə, qol-budağını şil-küt edəndə göz yaşı tökür. Yazıçı bizi belə bir meşə ilə tanış edir: "Villis" meşənin içi ilə əyri-üyrü yolla gedir, maşındakılar və xüsusilə mən ətrafa heyranlıqla tamaşa edirdik. Qocaman palıd, vələs, dəmirağac, çinar, qovaq, qoz və nəhayət, nəhəng ağ gövdəli azad ağacı sanki səmaları çiyinlərində saxlayırdı..." Və bu meşədə tənha bir evin sakinləri ağacların qayğısını çəkdiyi kimi, gəzməyə gələn adamlara da qonaqpərvərlik göstərirlər.Evin sahibi Qasım və onun ucaboy arvadı, uşaqları bir kəlmə də kəsmədən ürəklə qonaqlarının qulluğunda dayanırlar.

Bəşəriyyətin çox böyük kəşfləri var. Böyük yazıçımız Sabir Əhmədovun dediyi kimi, bəşəriyyətin ən böyük kəşflərindən biri körpüdür. Hansısa qədim insanın ağlına gəlib ki, çayı adlamaq üçün onun üstünə ağac atmaq lazımdır. Bir müddət belə keçib. Insan ağlı təkmilləşdikcə, körpü də təkmilləşib: müasir körpülər qurulub. Körpü təkcə insanları bir-birinə qovuşdurmayıb, ayrı-ayrı millətləri, elləri də qovuşdurub. Düzdür, insanın kəşf etdiyi müharibə və silahlar, cəza üsulları dəhşətlidir. Yaponiyaya atom bombası tullayan Amerika təyyarəçisi gördüyü dəhşətdən ağlını itirərək ömrünü dəlilik içərisində keçirmişdir. Ancaq mütərəqqi kəşfləri kim dana bilər? Ev insanın ən böyük kəşfidir. Ev təkcə soyuqdan qorunmaq vasitəsi deyil, həm də nəsli qorumaq vasitəsidir. Ev arzuları, istəkləri qorumaq, ailəni qorumaq üçündür. Meşədə ev isə yazıçının kəşfidir. Çünki bu ev təkcə yaşamaq üçün deyil. Bu evin sakinləri təbiətin bir hissəsi olan meşəni qoruyur. Yazıçı onları təbiətə oxşadır: "...Mən səhərdən bəri arvadın da, oğlanların da, qızların da bir kəlmə danışmadıqlarını görürdüm. Bu adamlar necə də ətrafdakı ağaclara, kollara, təbiətə oxşayırdılar. Ataları nə deyirdisə, səssiz-səmirsiz yerinə yetirdilər. Yəqin ki, qədim insanların hamısı belə imiş. O dövrdən bəhs edən filmlər yadıma düşdü. Qəbilənin birində cəmi bir neçə təkhecalı söz olurdu. Bəşəriyyət irəli getdikcə naqqal olur... " Bu kiçik parçada H.Mirələmov çox vacib məsələ qoymuşdur. Elmi-texniki tərəqqi artdıqca insan təbiətdən

uzaqlaşır. Bu faciədir. Axı insan təbiətin övladıdır, təbiətin bir hissəsidir. Yazıçı demək istəyir ki, elə bütün evlər meşədəki tənha ev kimi olmalıdır. Bütün evlərin sakinləri tənha evin sakinləri kimi təbiətə oxşamalıdırlar. Əgər belə olarsa, təbiətin harmoniyası pozulmaz və təbiət qisasçı qismində bizi izləməz. Nə qədər ki, insan övladı təbiətə qəsdçi rolunda çıxış edir, təbiətin bəlalarından yaxa qurtara bilməyəcəyik. İndi bütün dünya qlobal istiləşmədən danışır. Daşqınlar, sellər bütün dünyanı bürüyüb. Nəyə görə? Qoca təbiət elədiklərimizin əvəzini bizə ödəyir. Əgər biz meşələri qırırıqsa , çayların qabağını kəsib məcrasını dəyişiriksə, təbiəti yox, özümüzü qınamalıyıq. Səhv eləmirəmsə, F.Engels deyib ki, zaman gələcək, insanlar təbiətə elədikləri qəsdin cəzasını alacaqlar. Bir vaxtlar at arabasında gəzən insan bu gün pul qoyub kosmosa səyahət edir, özümüzün rahatlığı üçün meşələri doğrayıb, suların ağzını döndərib təbiətin canını alır.

Təbiətin bir parçası olan insan bu hərəkətləri ilə özünə quyu qazır. Bütün bunlar indi hamını narahat edir. O cümlədən H.Mirələmovu da narahat edir. Elə narahat etdiyinə görə də meşədəki ağacları qoruyan və elə bu ağaclar kimi iddiasız olan tənha evin sakinlərini tərənnüm edir. Bu hekayədə, məncə, müəllifin gəldiyi qənaət, aşılamaq istədiyi budur: "… bu meşələri qarış- qarış gəzib hər ağacı nömrələyər, yaşını da üstünə yazardım ki, kimsə ora toxuna bilməsin. Bəlkə də, bunların çoxu min illərin yadigarıdır…"

Bu istəkdə yanğı var, təbiəti qorumaq yanğısı. Bu arzuda narahatlıq görünür, təbiəti qorumaq narahatlığı. Bilmirəm,hardasa oxumuşam, ya eşitmişəm; Afrikanın səhrələrində tənha bir zeytun ağacı var. Yaşı nə az, nə də çox düz iki min ildir.Möcüzəli orasıdır ki, həmin zeytun ağacı indi də meyvə verir. Tunis hökuməti o zeytun ağacına möhür vurub, onu abidə kimi qoruyur. Nə olaydı, yer üzünün insanları yer üzərindəki bütün ağacları, lap elə adi bir kolu da bu cür qayğıyla qoruyardılar. "Meşədə tənha ev"in dəyəri ondadır ki, yazıçı təbiətə vurulan zərbələrə görə narahatlığını ifadə edir və bizi təbiəti – onun hər parçasını, daşını qorumağa çağırır.

Yazıçının bu narahatlığı onun digər əsərlərində, xüsusilə "Simuzər" hekayəsində ana xət kimi keçir. Təbiətin yaratdıqlarını amansızcasına məhv etməyə, dağıtmağa insanın ixtiyarı yoxdur. Bu, "Simuzər"in əsas leytmotivini təşkil edir. Şair -publisist Əli Rza Xələfli " Yuxuda balıq görmüsənsə…" adlı məqaləsində yazır: "… Simuzər" hekayəsi ötən əsrin 80-ci illərində qələmə alınıb. Və tam məsuliyyətlə deyərdim ki, sənətkarlarla, daxili yanğı hissi ilə qələmə alınıb. Hekayədə insanın mənəvi oyanışı, bu yolda yaşadığı iztirablar, mənəvi əzablar o qədər inandırıcı təsvir olunur ki, oxucu bu ağrını duyur, yaşayır. Hekayədə sözün azadlığı, nəticədə təfəkkürün azadlığı hiss olunur. Müəllif

gördüyü, duyduğu, yaşadığı hissləri sərbəst buraxır. Yaxşı bilirik ki, sovet stereotiplərinin hələ sınmadığı, dağılmadığı dövürlərdə bu, nə demək idi: " Kim bilir, bəlkə də, balıqların göz yaşadır dənizlərin suyunu şor edən,duzlu edən?..."

Müəllif qələmə aldığı mövzunu zirvədən başlayır.Qoca balıqçı, balıqlı koması, təbiəti şaqqalayıb lum- lum udan hərislər, xeyir- bərəkət rəmzi olan simuzərlər- balıqlar, -bütün bunlar "Simuzər" hekayəsinin dəyişən lövhələri, maraqlı həyati obrazlardır…"

Nəyə görə balıqlar göz yaşı tökməlidir? Nəyə görə balıqlar ağlamalıdır ki, dənizin də suyu şor olsun ? Günahkar insandır.Qoca keşikçi soyuq mart axşamında keşikçi köşkündə yatarkən qərubə və əcaib bir yuxu görür. Onun yuxusuna balıq qiyafəsində olan bir gəlin girir. Balıq- gəlin qocanı və bütün insanları ittiham edir: "… Bəs nə üçün bizim taleyimizi düşünmür insanlar? Nə üçün bələnmirik insan qayğısına, insan köməyinə? Nə üçün zərifliyimizi, gözəl xallarımızı, gümüşü zərlərimizi qorumur insan? Nə üçün məskənlərimizi zəhərləyir, mazutlayır, çirkaba batırır insan…" Balıq- gəlin ittihamı davam edir. "… Qızlar ana olanda dünya sevinclə dolur, dünya işıqla dolur. Ürəklər çalıb-oxuyur, insanlar xoşbəxt olur. Çünki yer üzündə nəsil artımı davam edir. Hamilə qadına baş əyilir. Körpə min bir nemətlə, min bir nazla bəslənilir, qorunur. Ana xoşbəxt sayılır. Çünki kəsikdə qızlar, zərifdi qızlar. Biz balıqları isə kürüləməyə, nəsil artırmağa qoymursunuz, qoca. Axı biz insanlae üçün artmalıyıq, çoxalmalıyıq. Sularda milyonlarla balıqlar məhv olur. Gör nə qədər nəslimizdən olan balıqların kökü kəsilmişdir dənizlərdən, çaylardan, nə üçün? Fikirləş, qoca. Cavab ver, hanı qızıl balıqlar, hanı xan ziyadlar, Xəzər sıfı… " Eh, sadalayanda ürək sızıldayır. Göz yaşımız tufana, fırtınaya dönür…"

Göründüyü kimi, qoca keşikçi ittiham olunur. Əslində bu, yazıçının ittihamıdır. Nə yaxşı ki, bu ittiham qocaya təsir edir. O, yavaş -yavaş balığa dönür və balıq sürüsünə qarışır. Qoca -balıq hiss edir ki, çaydakı bütün balıqlar ona nifrətlə baxırlar. Bu zaman suyun qabağını kəsirlər. Balıqlar boğulsalar da, son nəfəslərinədək həyatları uğrunda döyüşürlər, tora düşürlər. Qoca balıq da tora düşür və dəhşətə gəlir. Ancaq nə fayda? O insanın qurduğu torun içində çabalayır. Tor nəhəng yük maşının kuzovuna boşaldılanda qoca- balıq yuxudan ayılır. O, indi başa düşür ki, ona burada balıqların qorunmağı tapşırılmışdır. O isə əmanətə xəyanət edirmiş. Təbiətin insanlara bəxş etdiyi gözəl, təkrarsız əmanətə xəyanət. O, keşikçi köşkündən çıxıb "dayanın!"- deyə var gücü ilə bağırır: "… Qoca onlara yanaşıb hönkürürmüş təki:

- Boşaldın balıqları… boşaldın…"

Hekayə belə qurtarır: "… Sular balıqların gecə harayını soyuq mart gecəsinin qoynunda üşümüş,ucsuz- bucaqsız çölə danışırdı. Bu çöl uzaqlarda, ta gözişləməz uzaqlarda haradasa suları duzlu olan bir dənizlə birləşirdi…

Kim bilir, bəlkə də, balıqların göz yaşıdır dənizlərin suyunu şor edən, duzlu eden?.."

Soyuq mart gecəsində balıqların gecə harayını eşidən qoca keşikçidə mənəvi oyanış baş verir. Balıqların harayı və göz yaşı elə təbiətin harayı və göz yaşıdır. Kaş ki, hər birimiz təbiətin harayını eşidə biləydik. Hekayəni oxuyan hər bir adam, məncə, bu harayı- təbiətin harayını eşidəcəkdir. Elə sənətin də qüdrəti budur! Əli Rza Xələflinin yazdığı kimi, insan dünyanın sakinidir, onun hər zərrəsinə məsuliyyət daşıyır.

" Simuzər" bəşəri bir əsərdir. Nə qədər ki, dəniz var, çay var, insan onu qorumalıdır. İnsan öz xatirinə təbiəti qorumalıdır. Bu, bütün dünyanı düşündürür.

"Simuzər" bütün dünyanı düşündürən bir əsər kimi yaşayacaqdır.

Əlbəttə, kitabda toplanmış hekayələrin hamısı barədə danışa bilmədik. Ancaq onu deməliyik ki, bu hekayələrin hər birində insanın böyüklüyünü gördük, insanın təbiət və cəmiyyətin bəlaları içərisində mənən bütovləşməsini, böyüməsini duyduq. Hər bir hekayə qəlbimizdə zərif və incə duyğular oyatdı. Hər bir hekayəyə baxanda gözlərimiz yorulmadı, könlümüzdə xoş bir ovqat yarandı. Elə ona görə də "Qayada çiçək" ürəyimizcə oldu.

## “QARA QALXAN”-

## MƏNƏVİ DƏYƏRLƏRİN RƏMZİ İFADƏSİ

## “XƏCALƏT”İN DƏRKİNDƏN BAŞLANIR

## QƏLƏBƏYƏ GEDƏN YOL

***Hüseynbala Mirələmov – indi Azərbaycanda onu yaxşı tanıyırlar. Onu təqdim edir, onun görünən obrazı - ən başlıcası, yazıçı obrazı ilə barışırlar. Hərçənd onun özü uzun müddət bu obrazın əleyhinə mübarizə aparıb. Ancaq bu barədə bir qədər sonra.***

***İndilikdə isə ruhların diqtəsini eşidək. Ruhlar həmişə narahatdır. Insan sözü ona görə yaradıb ki, narahat ruhunu ovundursun. Nə vaxt ruhumuzuovuda bilmiriksə, demək, nədənsə narazı oluruq. İnsanın ədalət hissi də, insanın haqqın tərəfindən durması, xeyirxahlığı da elə ruhların ovunmasına, narahat, mənəvi dünyamıza təskinlik üçündür. Qəribədir ki, ayaq açıb yeriyən Şərin, dünyadakı qətl və qarətlərin özü də ruhların, fəqət şər xislətli ruhların ovunması üçündür. İnsan Xeyir və Şər qüvvələrinin döyüşündə Xeyirin qələbəsini arzulayır. Demək, xeyirxah ruhların qələbəsini arzulayır. Bəlkə, elə buna görə insan nəsli – bəşər övladı Xeyirə kömək üçün, Xeyirin qələbəsi naminə yaxşılıqlara görə ölüm arzulamır. Yaxşılıqlara görə mükafatlar təsis edir. Rəğbətli duyğulanmalarla bu yolda çarpışanların tərəfində durur. Yoxsa, heç dünyanın ağıllı adamları Nobel mükafatını, müxtəlif adlı-sanlı şöhrət titullarını uydurmazdı.***

***Hərdən düşünürəm, bütün mükafatlar insanın özünüaldatma vasitəsidir. İnsan öz ucalığında dura bilirsə onun heç bir təskinə, rəğbətə ehtiyacı olmamalıdır. Amma yox, Şərin gücü daha çoxdur. Min illər boyu insan öz içində böyütdüyü Şərə tam qalib gələ bilmir. Onun üçün də hər cür mənəvi köməyə insanın ehtiyacı var. Cəmiyyət insandan bu köməyi gərək əsirgəməsin.***

***İndi Azərbaycanda ictimai təşkilatlar çoxdur. Ancaq gəlin görək bu ictimai təşkilatlar cəmiyyətin mövqeyini əfkarı – ümumiyyəti ifadə edə bilirmi? Çox təəssüf ki, biz çox vaxt arzuladıqlarımızı görmürük. Buna baxmayaraq, içimizdə dardan asılmış olsa belə ümid yaşayır. O ümid ki, bizi arzularımıza qovuşduracaq.***

***Mənə qalsa, insan ümidinin ən qüdrətli yardımçısı sənətdir. Sənət insanın milyon ildən bəri keçdiyi yolu yada salır. İnsanı məcbur edir ki, keçmişinə baxsın, bu gününü görsün, onda gələcəyə gedən yolunu daha aydın görə bilər.***

***Yazıçı bələdçidir. Deyirlər ki, bələdçilik də bir Tanrı vergisidir. Demək, yazıçılar dünyanın ən etibarlı bələdçisidirlər. Biz həmin gün – 15 noyabrda sözün işığına yığışmışdıq. Sözə pənah gətirmiş, sözün aliliyinə tapınmış yazıçının – Hüseynbala Mirələmovun sözünün işığına***

Müstəqil Azərbaycanda fəaliyyət göstərən ən gənc təşkilatlardan biri də Milli Birlik Təşkilatıdır. 2000-ci ildə əsası qoyulmuş bu təşkilatın fəaliyyəti qüdrətli, demokratik Azərbaycanın yaradılması yolunda bütün sağlam, milli qüvvələrin birliyinə nail olmaq, Dünya Azərbaycanlılarının birliyini daha da möhkəmləndirmək, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda intensiv mübarizə tədbirlərinə mənəvi dəstək vermək, ədəbiyyat və incəsənətin təsiri ilə vətənpərvərlik ruhunun yüksəldilməsi kimi əhəmiyyətli məqsədlərin həyata keçirilməsi istiqamətinə yönəlib. Həmçinin Milli Birlik Təşkilatı 2003-cü ildən etibarən ədəbiyyat və incəsənət sahəsində dəyərli yaradıcılıq nümunələrinə, xüsusən, milli vətənpərvərlik ruhunun təlqin edilməsindəki xidmətlərinə görə seçilən sənət adamlarının əməyini qiymətləndirmək üçün “Qara qalxan” adlı mükafat da təsis etmişdir. “Qara qalxan” mükafatının təqdimetmə mərasimi ilk dəfə 2003- cü ilin avqust ayında qeyd edilmişmişdir. Bu günlərdə isə mükafat “Xəcalət” kitabında toplanmış “Xəcalət” povestinə, “Güllələnmiş heykəllərin fəryadı” essesinə, “Vicdanın hökmü” pyesinə görə yazıçı- dramaturq Hüseynbala Mirələmova təqdim edildi. Noyabrın 15-də “Şuşa” restoranında keçirilən təqdimetmə mərasimində xarici ölkələrdəki Azərbaycan diasporasının nümayəndələri, Milli Məclisin üzvləri, tanınmış ədəbiyyat və incəsənət xadimləri, o cümlədən bir çox mətbuat işçiləri iştirak edirdilər.

Mərasimi ilk sözlə Milli Birlik Təşkilatının sədri Nadir Əliyev açdı. O, birliyin məqsəd və məramlarından danışaraq musiqili ədəbi- bədii gecənin qonaqlarını salamladı.

Yazıçı H.Mirələmovun yaradıcılığına yaxından bələd olan təşkilat sədri ədibin əsərlərindəki böyük yanğıdan danışaraq sözü məclisə idarə etmək üçün “Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadəyə verdi. Ömrünün çox hissəsini “Azərbaycan” jurnalının fəaliyyətinə həsr etmiş naşir öncə, “Qara qalxan” mükafatını rəmzi olaraq mənalandırdı və belə bir mükafatı təsis edən qurumun ümummilli əhəmiyyətini, fəaliyyət dairəsini, həmçinin birlik üzvlərinin işgüzarlığını qeyd edib “Qara qalxan” rəmzi ükafatının növbəti sahibi H.Mirələmovun böyük sənətə gəlişindən, onun dəyərli sənət əsərləri yaratdığından

ətraflı bəhs etdi. Bildirdi ki, H.Mirələmov ixtisasca neftçi – mühəndisdir, texnika elmləri namizədidir. Amma buna baxmayaraq, ədəbi istedadı onu böyük ədəbiyyata, sənət aləminə gətirib çıxarıb. Hələ 14 yaşında "Bir tikə çörək" hekayəsi mətbuatda çap edilib. Sonralar 1986-cı ildə "Tənha durna uçuşu" kitabı ilə bənzərsiz dəsti-xətti olan yazıçı kimi ədəbiyyata gəlişini təsdiqləyib. H.Mirələmov Azərbaycan həyatının ən qaynar yerlərində olmuş, müharibə dəhşətlərini gözləri ilə görmüşdür. Qarabağ uğrunda gedən savaşlar, xalqımızın bu qanlı savaşlarda yaşadığı faciələr onun əsərlərində, xüsusən "Xəcalət" povestində çox dolğun şəkildə əks etdirilərək milli-mənəvi yaddaşı silkələyən bədii əsər nümunəsi kimi bu günün, sabahın və gələcək nəsillərin ixtiyarına verilmişdir. Təsadüfi deyil ki, Azərbaycan Yazıçılar Birliyinin Bədii Ədəbiyyatı Təbliğ Bürosunun təsis etdiyi ilk Milli Yaddaş mükafatına da müəllif "Xəcalət"povestinə görə qazanmışdı. "Güllələnmiş heykəllərin fəryadı" ədəbi-essesi, "Tənha durna uçuşu " hekayəsi, "Vicdanın hökmü" pyes əsasında çəkilmiş film- tamaşalar yüksək dəyərləndirilmiş, ədəbi ictimaiyyət, eləcə də geniş əhali tərəfindən rəğbətlə qarşılanmışdır.

Sonra M.Ə. Sabir adına Pedaqoji Kollecin şagirdləri H.Mirələmovun "Xəcalət" kitabında toplanmış əsərlərindən parçaları məharətlə ifa etməklə, bir daha sübut edirlər ki, həqiqətən dəyərli ədəbiyyat mənsub olduğu xalqın həyatının, arzularının tərcümanı olduğu üçün umumxalq sərvətinə çevrilir, zaman-zaman yaddaşlarda yaşayaraq əsrləri, tarixləri aşa bilir. Əslində, növbəti çıxış üçün mikrofona yaxınlaşan filologiya elmləri namizədi, tənqidçi Vaqif Yusifli də H.Mirələmovun əsərlərinə tarixi əhəmiyyəti baxımından nəzər saldı və qeyd etdi ki, Ernest Hemenqueyin ispan mövzusundakı əsərləri, xüsusən "Əcəl zəngi" romanı təkcə faşizmə nifrət bəsləyən bir insan tərəfindən deyil, müharibə od-alovunun içindən keçən yazıçı qələminin hesabına dünya ədəbiyyatı xəzinəsinə daxil ola bilmişdir.

H.Mirələmovun əsərlərində də müharibənin içindən keçib gələn insanın müşahidələri görünür. "Xəcalət" povestindəki simvollar, rəmzlər də bunu təsdiq edir. Canavar obrazı, Çay obrazı, Çöl obrazı və s. var. Bütün bunlar haqqında haqqında tənqidçilər yazıblar, oxucular öz münasibətlərini, rəylərini bildiriblər. Doğrudur, ola bilsin ki, bu əsərlərdə nə isə bir çatışmamazlıq var. Lakin bizi ovudan odur ki, bu əsərlərdə həqiqət çox aydın görünür, müəyyən dövrə, zamana güzgü tutulur. "Güllələnmiş heykəllərin fəryadı" da bizə çox şey deyir. Biz hələ M.Ə. Sabirin "Fəxriyyə" şerinin içindən sıyrılıb çıxa bilməmişik. Xanlıqlar dövründən qalan qırılmaları biz içimizdə birləşdirməliyik. Məğlubiyyət havasını boğub "ayağa dur, Azərbaycan" demək çətin olsa da, bunu deməliyik.

“Güllələnmiş heykəllərin fəryadı” kimi əsərlər bu çətinliklərin aradan götürülməsində ruhumuza yardımçı, mənəvi oyanışımıza güclü təkandır.

H.Mirələmovun “Simuzər”, “Həyat eşqi”, “Maşallahın paneli” və s. Qiymətli hekayələri çoxdur, - deyən tənqidçi sözünün sonunda milli birliyin təsdiq etdiyi mükafata layiq görüldüyünə görə yazıçını ürəkdən alqışladı.

Mərəsim iştirlakçısı olaraq bildirim ki, natiqin çıxışından sonra Milli BirliknTəşkilatının sədri Nadir Əliyev münsiflər heyətinin iştirakı ilə (“ Respublika” qəzetinin baş redaktoru, filologiya elmləri doktoru, professor Teymur Əhmədov, filologiya elmləri doktoru Aybəniz Kəngərli, Milli Məclisin üzvü Elman Məmmədov, “ Azərbaycan” jurnalının baş redaktoru İntiqam Qasımzadə, “ Kredo” qəzetinin baş redaktoru, şair Əli Rza Xələfli və jurnalist Mailə Muradxanlı) “ Qara qalxan” mükafatını və təşkilatın fəxri diplomunu qiymətli yaradıcılığı, eyni zamanda əvəzsiz insani hissləri, duyğularıyla böyük hörmət qazanmış yazıçıya-Hüseynbala Mirələmova təqdim edərkən: - “ Təkcə sözlə Vətəni həmişə müdafiə etmək mümkün olmur. Odur ki, sizə “ Qılınc və qalxan” rəmzi də gətəkdir ki, Vətənin gələcəyi naminə mənəvi mübarizələrinizdə sizə kömək olsun, - dedi və ədəbiytat, sənət, elm sahəsində qazandığı uğurlara görə onun əlini sıxaraq daha böyük nailiyyətlər arzuladı.

Əli Mahmud dedi:- Hüseynbala Mirələmovun “ Xəcalət” kitabında toplanmış “ Güllələnmiş heykəllərin fəryadı” essesi, “ Vicdanın hökmü” pyesi və “ Xəcalət” povestinə Milli Birlik Təşkilatının “ Qara qalxan” mükafatının verilməsi məni sevindirdi. Adı çəkilən əsərlərin hər üçü Qarabağ mövzusunda yazılmışdır və Qarabağ yaralarımızın sağaldılması naminə hamımızı səfərbərliyə çağırışdır.

Hələ Qarabağ hadisələri başlanan gündən Hüseynbala Mirələmov rahatlığını,dincliyini itirmiş, günlərlə, həftələrlə, bəzən aylarla Dağlıq Qarabağda və ətraf rayonlarda olmuş, zorla münaqişəyə cəlb edilmiş insanlara kömək əlini uzatmışdır. Münaqişə bölgəsinin hər yerində ony xeyirxah, əsl vətəndaş, vətənpərvər, qüdrətli Azərbaycan oğlu kimi tanıyırlar.

Bizim Qarabağ dağlarında şehdərən adlı güləbənzər bir ot bitir. Onun ləçəkləri arasındakı bir damla şeh yayın ən isti günlərində belə qurumur. Aylarla quraq keçən havalarda da şehdərən öz təbiətinə sadiq qalır və həmin şeh damlasını qoruyub- saxlayır. Yaşlıların dediyinə görə, aylarla göydən bir damcı düşməyəndə dağlardakı bütün canlıları susuzluqdan şehdərən xilas edir. Bax, Hüseynbala Mirələmovun Qarabağa sədaqəti, Qarabağ yanğısının üstünə su çiləmək istəyini by cür qiymətləndirmək olar.

*Əziz dostumu "Qara qalxan" mükafatı alması münasibətilə ürəkdən təbrik edir, ona yaradıcılıq uğurları diləyirəm.*

Komissiyanın sədri Əməkdar incəsənət xadimi İntiqam Qasımzadə Milli Birlik naminə mübarizənin Vətənimizin taleyüklü məsələ olduğunu qeyd etməsi və bu məqamda Əli Rza Xələflinin " Kredo" qəzetində "Kor döyüşü" şerini bir daha oxumaq üçün mirofona dəvət etməsi xüsusi razılıqla qarşılandı: " Söz bizim qəlbimizin açarıdır. Söz qüdrətli silahdır, əgər sənətkar əlindədirsə. Elə bilirəm " Kor döyüşü" şerində bunun təsdiqini görəcəyik.

**Ə.Xələfli öz çıxışında həmin fikri ifadə edən məqamlara toxundu:-** Yazıçıdan ötrü, yazıçının öz sənətinin təsdiqindən ötrü uzun ömür yaşaması, yaxud çoxlu əsərlər yaratması şərtidir. Sənətkar bircə əsəri ilə də dünyanın sənət məbədində öz yerini tuta bilir. Və elə bircə əsəri ilə də əbədi yaşarılıq haqqı qazana bilər. Hüseynbala Mirələmovun zəngin və çoxcəhətli yaradıcılığında " Xəcalət" kitabında toplanmış əsərləri xüsusi əhəmiyyət kəsb edir. Bu əsərlərə yenilməz, fəqət ağrılı, yaşamağs haqqı olduğu üçün daim narahat və çox nigaran bir ruh hakimdir.

Burada çox şeydən danışmaq olar. Ancaq əsas bir məqamı cəmiyyətin çox sürətlə dəyişdiyi, meyarların təzələndiyi bir dövrdə bu əsərlər meydana gəlib. Nə üçün? Ona görə ki, həmin narahat ruh mənsub olduğu xalqın taleyindən nigarandır. O, öz köksündəki mənəvi dəyərlərdən qopmamalıdır. Bu mənada, " Qara qalxan" dəqiq rəmzi xarakter alır. " Qara qalxan" yenilməz, nəhəng qalxan, uçulmaz müdafiə sipəri mənasındadır. Bizim xalqımızın mənəvi dəyərləri bizim üçün qara qalxandır. Bu sipər bizi bədniyyətli mənəvi hücumlardan- gözəgörünməz təcavüzlərdən qorumalıdır. Azərbaycan xalqı iqtisadi cəhətdən dirçəlməkdədir. Amma zənn etməyək ki, düşmən bizdən gözünü çəkib. Məkrli düşmən bizim birliyimizi pozmağa daim cəhd göstərəcək.

" Güllələnmiş heykəllər" təsdiq etdi ki, heykəllər ölmür. Nadanlıq onu məhv etmək cəhdində bulunsa da gücsüzdür. Hüseynbala Mirələmov mənəvi dəyərlərə söykənən, həm də mənəvi dəyərləri qorumağa çalışan fədakar, heç vaxt əməlindən yorulmayan maarifçidir.Fədakarlıq qarşısında isə son nəticədə bütün qərəzkarlar və inadkarlar susmalı olurlar.

Azərbaycanın birliyi bizim amalımızdır. Bu amal H. Mirələmovun əsərlərindən əsas aparıcı xətt kimi keçir. Mən hesab edirəm ki, oxuyacağım şer də elə həmin fikrin təsdiqidir. Çünki Hüseynbala müəllimin əsərləri də başdan -başa dərin kədər və eyni zamanda gələcəyə sarsılmaz inamla yoğrulmuş lirizmə bürünmüşdür. " Güllələnmiş heykəllərin fəryadı" əsəri faciələrimizin tarixi

köklərinin tarixin dərin qatlarına uzandığını təsdiq edir. Bu günlər çox kədərli bir " bayram" ovqatı yaşayacağıq. Bu bayramın rəngi qaradıe. " Gülüstan" müqaviləsinin 190 illiyi tamam olur. İntiqam Qasımzadənin vətəndaşlıq yanğısı ilə qeyd etdiyi həmin əsərdən fraqmentlər " Kredo" qəzetində dərc olunmuşdu.

Yazıçı H.Mirələmovun yazıçı mövqeyi və vətəndaşlıq mpvqeyi ilə bugünkü məclisin – burada gənclər, yeniyetmələr də iştirak edirlər. Onların duyğulu çıxışları hər cür təqdirə layiqdir, bu duyğuları onlardan oyadan " Xəcalət" kitabında toplanmış əsərlərdir. Təkcə, elə buna görə yazıçıya minnətdar olmaq olar- ovqatı ilə çox uyarlı olduğu üçün həmin şerdən bir parçanı burada yada salmaq yerinə düşər:

Axarlar lillənib, dəhnələr uçub,
190 ildir ki, sular durulmur.
Tarix körpüsündən kim necə keçib?
Haqlıdan, haqsızdan nəsnə sorulmur.

İki kənd, ad eyni – Xudafərindi,
Biri bu taydadır, biri o tayda.
İlləti bilinmir, dərdi dərindi,
Qolları qandalda, dilli harayda.

Gözlər körpü salır min dərdin üstə,
Qoşa Xudafərin- tağlar danışır.
Baxışlar görüşür həsrətin üstə,
Dağların üstündən dağlar danışır.

190 ildir ki, nicat axtarır,
Yaralı quş kimi çırpınır Vətən.
Bu dünya duyğusuz quru taxtadı,
Sal qaya, göy daşdı köksündə bitən.

Zamanlar dəyişir, hakimlər köçür,
Tarixin basdığı möhür pozulmur.
Kimlər qılınc çalır, kimlər qan içir,
Əyrilər pozulmur, düzlər yazılmır.

Qəzəbli sulara döş-döşə durub,

Cəngavər ruhunu daşıyan tağlar.
Baxır dilsiz-dilsiz, boynunu burub,
Şahidlik ömrünü yaşayan dağlar.

Millət vəkili Hadı Rəcəbli öz münasibətini belə bildirdi:

- Onun yaradıcılığına mane olan tərəflər də var. Çalışdığı sahə ədəbiyyatdan uzaq bir sahədir. Bunu biz bilirik. Ancaq Hüseynbala müəllimdə gözünü açandan fitri istedad olub. Onu mən lap uşaqlıqdan tanıyıram. Ən müxtəlif sahələrdə işləyib. Ən başlıcası, harada çalışmağından asılı olmayaraq, orada böyük uğurlar qazanıb. Mən onun yaradıcılığı haqqında tənqidçilər kimi danışa bilmərəm. Amma qənaətim budur ki Hüseynbala müəllim azərbaycançılığa xidmət edən bir insandır. Bu amal onu yazıçı kimi də sevdirib, adi bir vətəndaş kimi də. Elə buradaca qeyd edim ki, Milli Birlik Təşkilatının təsis etdiyi mükafatı təqdim edən münsiflər heyətinin üzvü, jurnalist Mailə Muradxanlının duyğulu çıxışı da H.Mirələmovun həm yazıçı,həm də bir insan olaraq sevilməyinin təsdiqi kimi səsləndi. M.Muradxanlı nağıllar aləmindən başlayaraq, "rəmzlər nağıllardan gəlir", - dedi. Sədaqətinə, inamına güvənən igid "məni kağız kimi tikə-tikə doğrasalar da, bədənimi iynə ilə deşik – deşik etsələr də, diri – diri tonqalda yandırsalar da öz andıma sadiq qalacağam", - deyir. Bu nağılı mənə xatırladan bu gün "Qılınc və qalxan"dır. H. Mirələmovun əsərlərinə seçdiyi qəhrəmanların adlarında da rəmzlər var. Mən 40 ildir ki, ədəbi fəaliyyətlə məşğulam. Hüseynbala müəllimi yaxından görməmişdən əvvəl əsərlərini oxumuşam. Onun qəhrəmanının adı Vətəndir.Vətəni çağıranda qonşular hamısı pəncərədən bu səsə boylanır, Vətənin harayına çatmağa can atırlar. "Xəcalət" povestində Vətənə yanğı var, ona aşıqlik var, - bildirən jurnalist "Xəcalət"in müəllifini ürəkdən təbrik etdi. Daha sonra münsiflər heyətinin digər üzvü, filologiya elmləri doktoru Aybəniz Kəngərli H. Mirələmovu "Qara qalxan" mükafatı ilə təltif olunduğuna görə təbrik edərək fikrini belə açıqladı:

- Həqiqi ədəbiyyat mənsub olduğu xalqın arzularının bədii inikasıdır. Qarabağ probleminin, Qarabağ dərdinin pasportu sayıla bilən bədii ədəbiyyat nümunəsi çoxdur. Lakin hamısını uğurlu hesab etmək çətindir. "Xəcalət " povesti, "Güllələnmiş heykəllərin fəryadı" essesi isə uğurlu əsərlərdəndir. Lakin ən böyük uğur, ən böyük mükafat Şuşanın qaytarılmasıdır. Gün o gün olsun ki, Milli Birlik Təşkilatı öz mükafatının təqdimetmə mərasimini Şuşada keçirsin. Qoy xəcalətin yerini bir gün qələbə əvəz etsin. Bu, A.Kəngərlinin ürək sözləri, həm də ən böyük arzusu idi.

Əlbəttə, hamımız o günü, taleyinə qələbə müjdəsi gətirmək düşən əsgərin yolunu gözləyirik. Amma təkcə gözləməklə arzular həyata keçmir. "Xəcalət"in dərkindən başlanır qələbəyə gedən yol. Şuşadan, Laçından üzü bəri axışanda yazılırdı "Xəcalət". İnşallah, bu yolu geri dönəndə yazılır qələbə. Yazıçı H.

Mirələmova “Qələbə” manifesti yazmaq arzulayanlardan biri dəhörmətli millət vəkili Elman Məmmədov oldu. O bildirdi ki, “H. Mirələmovun əsərlərindən çox danışmaq olar. Bir şeyi demək istəyirəm ki, “Xəcalət” povestini oxuyanda mənə elə gəldi ki, yazıçı bu əsərdə elə mənim həyatımı yazıb. Yəqin didərgin həyatını yaşayanlar hamısı belə düşünər. Əslində, povestdə yazılanlar tək mənim, sənin, yaxud qeyrisinin taleyi deyil, bütövlükdə el-obasına həsrət qalmış, tarixini itirmiş, faciələr yaşamış didərgin soydaşlarımızın dərdidir. Bütün vətənpərvər azərbaycanlıların dərdidir və nəhayət, millətinin taleyini hər şeydən uca tutan yazıçının dərdidir.

Biz doğrudan da xəcalətliyik. Fəqət buna baxmayaraq, mən H.Mirələmovun qələbə manifesti yazacağına inanıram”, - deyən millət vəkilinin çıxışının sonunda “dövlətimizin rəhbəri, prezident İlham Əliyevin səyləri nəticəsində tezliklə doğma yurdlarımıza dönəcəyik” deməsi tədbir iştirakçılarına inam, ümid dolu bir dünya bəxş elədi.

Bu dünya “Aldanma ki, şair sözü əlbəttə yalandır” fikrini mənə xatırlatsa da, şairlərdən Əli Rza Xələflinin, V.Bəhmənlinin, A. Həsənlinin, Ə.Mahmudun, yazıçı Nüşabə Məmmədlinin və başqa adını çəkmədiyim digər yaradıcı adamların çıxışlarında daha da gözəlləşdi, daha da qabarıq və əzəmətli göründü. Sanki onların nəfəsi ilə salona Vətən küləkləri əsdi. Qarabağdan üzü bəri əsən yellər xoş bir rayihə gətirdi. Bu rayihə, bu Vətən qoxusu o gecə daha çox mərasimdə iştirak edən tanınmış muğam ifaçıları Aygün Bayramova və Firuz Səxavətin bənzərsiz səsindən, oxuduqları mahnı və muğamlardan süzülüb gəlirdi. Adama elə gəlirdi ki, o gecə sanki külli Qarabağı bütün təbiəti ilə köçürüb buraya gətirmişdi bu misilsiz səs sahibləri, sənət fədailəri. Bu yanğını, bu avazı, bu səsi dinləyənlərə, duyanlara isə yalnız heyfslənmək qalır. Heyf səndən Qarabağ! Məhz Qarabağ dərdini unutmağa qoymaram söz sənəti, mədəniyyət və sənəd abidəsi ilə bizi hər an mübarizəyə səsləyən yazıçı-dramaturq H.Mirələmovun əsərlərinin işığına toplaşanlar həmin gün yazıçı əməyinə böyük qiymət verdilər. Onun ədəbiyyat və vətən qarşısındakı xidmətlərini hər kəsin bacarmadığı böyük cəfakeşlik sandılar. Milli Birliyin təsis etdiyi “Qara qalxan” mükafatının növbəti təqdimetmə mərasimi beləcə sona çatdı. Təkcə sona çatmayanlar arzular, ümidlər oldu. Gecənin iştirakçıları arzu, ümid dolu bir sabahı gözləmək üçün evlərinə tələsdilər. Zaman , vaxt axarında hər kəs bir səmtə yollandı. Biz də Qaradağa gedən yola üz tutduq. Əlbəttə, bu yol həm də, Qarabağa doğrudur. Əgər axıra qədər gedə bilsən.

Əziz oxucular, mən sizi seçim qarşısında qoymaq istəməzdim. Amma nə edim ki, söz sözü çəkib gətirdi. Indi buyurun, seçin. Qarabağ, yoxsa xəcalət. Hər halda, “Xəcalət”dən nəticə çıxartmağı üstün tutarsınız.

**Dünyanın bir yazıçısı hesab eləməsin ki, öz əsəri ilə ədəbiyyatdan son nöqtəni qoya bilər. Şəxsən mənə elə gəlir ki, dünyanın qüdrətli sənət**

**korifeyləri öz arzularına, istəklərinə qovuşa bilməyib, bəşər övladının qibtə edəcəyi zirvəni tutmayıblar.**

**O cümlədən, mənəvi dünyamızın bu günkü qonağı Hüseynbala Mirələmov da sənət adlanan böyük bir yolun adi, sıravi yolçusudur. Əlbəttə, adi dedim, sıravi dedim. Amma, bu adilikdə, bu sıravilikdə qeyri-adiliyi, lap dəqiq desəm, fədakarlığı görməmək mümkün deyil.**

**Hüseynbala Mirələmov fədakar insandır. Kimlərsə bu fədakarlığı, bu qeyri-adiliyi görmürsə, demək onların bəsirət gözləri qapalıdır.**

**Hüseynbala Mirələmovun bu fədakarlığı müqabilində ona, "qara qalxan" adlı rəmzi mükafatın çox olduğunu guman edənlərin mübarizə idealını çox dumanlı görürəm. Ən azı həmin idealda Vətən və İnsan məfhumları özünün çox dəyərli komponentindən məhrumdur. Həmin komponentin sözlə ifadəsi budur: sevgi, onun insana-Vətənə sevgisini görmək istəməyən hər kəsin qərəz adlı dəhşətli bəlaya yoluxduğunu bizim rəyimizi soruşmadan zaman özü aşkarlayar.**

**"Xəcalət"in nüvəsində real ağrı dayanır. Vətənin yaşadığı həyat həmin ağrı ilə yoğrulub. Bu, Qarabağ ağrısıdır. "Güllələnmiş heykəllərin fəryadı"nı sözə çevirmək üçün gərək həmin güllələrin istisi içində soyusun, qəlbində qovrulsun həmin ağrılar. Yoxsa, bu fəryadlar söz şəklində təzahür edə bilməzdi. "Vicdanın hökmü" ədalətli hissin bəhrəsidir. Mən Mirələmovun əsərlərində insan uğrunda mübarizə görürəm. Mən insanı qoruyan insanların tərəfindəyəm. O insanların ki, əzabdan qorxmur, yaradıcılıq əzablarının ağrılarını şirin həblər kimi içir. Əvəzində bir xoş sözü belə bəzən əsirgəyirik onlardan.**

**Hüseynbala Mirələmovun "Qara qalxan"a ehtiyacı yoxdur. Zamanın tufanlarından qorunmaq üçün sənətkarın ən qüdrətli qalxanı yaratdığı sözdür. İlahi gücə malik söz sənət dünyanı qorumaq, gözəlləşdirmək vasitəsidir. Söz varsa, sənət varsa dünyamız yaşayacaq.**

## Yollar səni yormayıb ki,...

İctimai və ümumbəşəri əhəmiyyət daşıyan yazıçı kədərinin iz saldığı əsərlərdə insana məxsus ən nəcib kefiyyətlər, eyni zamanda, bu kefiyyətlərə kölgə salan, dəyərinə xələl gətirən ünsürlər bədii və obrazlı şəkildə oxucuya çatdırılır. Gözəllik və eybəcərlik, ülvilik və rəzillik, xeyir və şər, qaranlıq və işığı təfəkkür süzgəcindən böyük sənətkarlıqla keçirən H.Mirələmova yazdığı ilk "Bir tikə çörək" hekayəsi ədəbiyyat aləmində uğurlu bir qapı açmışdır. Bu qapıdan içəri daxil olanlar –yazıçı kədərinin izinə düşənlər "Bir tikə çörək"dən, "Vicdanın hökmü"nə, "Güllələnmiş heykəllərin fəryadı"na, müəllifin ən böyük ədəbi uğuru

sayılan “Xəcalət” povestinə qədər uzanan yolda həyacanlı bir ömrün, yazıçı taleyinin yaşantılarını özlərinə çox doğma gördüklərindən yorulmadan bu yolun damarını qırmağa səy göstərirlər. Doğrudur, yazıçı öz oxucusunu həyatın üzücü səhnələri ilə rastlaşdırmaqla bərabər, həm də onu düşüyü psixoloji gərginlikdən xilas etmək üçün daim lirik bir ovqatla haraylayır, ardımca gəl, deyir. “Qayada çiçək”də və başqa hekayələrində olduğu kimi:

Hardasan mənim balam?  
Yollar səni yormayıb ki,...  
Ömrün eniş- yoxuşları  
İradəni qırmayıb ki,

Diqqəti bu cür lirik ovqatla ömrün eniş- yoxuşlarına, insan iradəsinə qənim kəsilən müharibə dəhşətlərinə yönəldən müəllif hələ ilk qələm təcrübəsi sayılan “Bir tikə çörək”də aclıq və ehtiyac kimi ağır imtahanla insan üzləşdirir. Həmin hekayə məhz aclıq illərində çörəklə imtahan olunmuşların taleyidir. Balaca Məmmədin xəstə anasını bir tikə çörəklə sağaltmaq istəyir. Çörək isə qəhətə çəkilib.

Ehtiyacın kasıb komaların qapısını qara bir kölgə kimi kəsdiyi vaxtlarda kiminsə qapısını döyüb əl boyda çörək istəmək nə qədər ümidsiz görünsə də, Məmməd anasını ölüm yatağından xilas etməlidir. 14 yaşlı məktəblinin bədii təfəkkür məhsulu olan bu hekayədə bədii təsvir olduqca təsirli, ideya və məqsəd çox aydındır. Hekayədə təsvir olunan obrazlardan biri Kübra xala öz kiçik nəvəsi Elçinlə çörək mağazasına gələrkən müqəddəs ruzi sayılan çörəyin bolluğunu görüb müharibədən sonrakı aclıq illərinin ağrısını təkrarən yaşayır. Bəli, çörək boldur, deyir: “ Kübra xalanın nəzərləri istər- istəməz mağazada qoyulmuş çörəklərin üstündə sanki donub qaldı. Xəyal onu qanadlarına alıb çox uzaqlara apardı”. Həmin o uzaqlarda cərəyan edən hadisələr çox -çox geridə qalmış aclıq və səfalət illəri, aşağı obada- Nuravud kəndində yaşayan Kübra xalanın daxmasında baş verənlər kiçik bir hekayədə böyük təəssüratlar yaradır. Özünü həmin dövrün əhatəsində hiss etməyə bilmirsən. Bu odeməkdir ki, hekayəni kim oxuyursa artıq müharibəyə nifrət bəsləyir. Müharibəyə nifrət oyatmaq müəllifin uğurudur. Öz kiçik yaşlı qəhrəmanının bədii portretini yaratmaqla müəllif mövzunun bədii təsir də artıra bilmişdir. 12-13 yaşlı Məmməd yeganə çörək ağacı sayılan anasının xəstələndiyi gündən evlərinə ruzi gəlmədiyini görüb anasının şəfa tapmasını bir tikə çörəyin varlığında axtarır. “ İndi Məmməd elə düşünürdü ki, çörək anasından ötrü qiymətli dərman olacaq.” Təkrar olsa da qeyd edirəm ki, 14 yaşlı yeniyetmənin bədii qəhrəmanı Məmməd həmin dərmanı -bir tikə çörəyi əldə etmək üçün qarlı qış günündə evdən çıxır və həmin arzu ona həyatı bahasına başa

gəlir. Hekayənin əvvəlində müharibənin ən qorxulu fəsadları içərisində yaşamış Kübra xala həyatını bizə danışır. Sonda isə biz o illəri görüb gəlmiş kimi Kübra xala ilə birlikdə deyə bilirik: “ Eh, dünya, dünya! O günlər bir daha geri qayıtmasın”.

Dünya, həyat adlı meydan gözəldir. Əlbəttə, müharibəsiz, qansız – qadasız. Müharibə təkcə insanların deyil, bütün canlı və cansız təbiətin düşmənidir. Müharibə dəhşətlərini, onun talelərə bəxş etdiyi faciələri kinolarda görmüşdük, əsərlərdə oxumuşduq. Amma görünür, yaxından görmək, yaxud birbaşa iştirakçısı olmaq da, alnımıza yazılıbmış. Mən ədalətsiz tərəfin – ermənilərin başladığı Qarabağ savaşını deyirəm. Bu savaşda nə qədər soydaşımız əlil oldu. Bədəninin bir hissəsini, qolunu, qıçını, əlini, gözünü itirənlərlə bir cərgədə addımlayanda onların vətənpərvərliyi qarşısında xəcalət çəkirik. H. Mirələmovun bütün dünya xalqlarının taleyində silinməz izlər qoymuş müharibələrin qurbanlarını və bu müharibədə bədəninin bir hissəsini itirmiş əlillərin xatirəsini yad edən ədəbi abidəsi – “İzlər” hekayəsi bəlkə də ədibin mübarizə mövzusunda yazdığı ən uğurlu hekayəsidir. Ümumiyyətlə, H.Mirələmovun müharibə mövzusunda qələmə aldığı hekayələrdə bir ruh yaxınlığı müşahidə olunur. Həmçinin yığcamlıq, bitkinlik, aydınlıq, həyati hadisələri təsvir bu hekaəyələrin əsas xüsusiyyətləridir. Yoruculuq, mütaliəçinin gözünü qırmaq isə bütövlükdə bu hekayələrə yaddır. Bu baxımdan “ İzlər” hekayəsi mənsur şer qədər oxunaqlıdır: “ Sahil gedir, izlər gedir…, sahil gedir, izlər itirdi. Ürəklərə neçə - neçə izlər düşüb, ürəklərdən neçə - neçə izlər silinib. Ancaq elə izlər də olur ki, heç vaxt itmir, atamın saldığı yollar kimi, izlər kimi…” Yuxarıda qeyd etdiyim “ İzlər” müharibənin izləridir. Doğrudur, “ Bir tikə çörək”, “ Dəyirmana gedən yol”, “Qara xal” və “Qayıtdı durnalar” hekayələrini də oxuyanda müharibənin izləri, gətirdiyi qasırğanın, tufanın soyuğu adamı üşüdür. Lakin ayrılıqda bu əsərlərin bədii sonluğu bir məqamda birləşsə də, yəni nüvəsində müharibəyə nifrət ideyası dayansa da, bu ideyaya sonuncu hasil olan qənaət kimi ən müxtəlif prizmalardan, baxış bucağından yanaşıb müəllif. Tutaq ki, “Bir tikə çörək”də yoxsulluq faciəsi, aclıq, çörək qıtlığı mövzunun məqsədinə aydınlıq gətirirsə, “ İzlər” də müharibənin mimlərlə insanı şiksət, əlsiz-ayaqsız qoyması, zəlil günə salması əsas ideyanı şiksət, əlsiz- ayaqsız qoyması, zəlil günə salması əsas ideyanı təlqin edir.Qeyd edim ki, insan təkcə müharibənin iştirakçısı olmaqla izlərini əbədiləşdirmir. Müəllim, rəssam, şair, yazıçı, dülgər, bənna və s. Peşəsindən asılı olmayaraq yurduna, elinə-obasına bağlı,sənətinə vurğun, əhdinə- peymanına, ilqarına sədaqətli hər kəs bu dünyada özündən sonra ixini əbədiləşdirə bilər. Bir şərtlə ki,amalı xeyirxah olsun. “İzlər” hekayəsində deyildiyi kimi: “İzlər,izlər… Ürəkdə izlər…Saçlarda izlər…torpaqda izlər…” Bu izlərin etibarlısı da var, etibarsızı da. Müəllif isə müharibədə iki qıçını itirmiş

atanım əməllərini- saldığı yolları, irizləri daha etibarlı sayır. Mənim fikrimcə " İzlər" mənəvi aləmə açılan pəncərədir.İnsanın dünyada, həyatda necə yaşaması unvanını göstərən yoldur: " Yollarla addımlayıram. Atamın izlərini gizləmiş yollarla. Yollar məni sahilə aparır… Qumlu sahilə… Qayalı sahilə…" Hekayədəki lirik duyğular oyadan romantik bədii təsvir vasitələri ömrün-ilin bütün fəsilləri ilə səsləşən məqamların xatırladır. Hər kəs xəyalında bu yollarla dünyanın hansı bucağına gedib çıxsa, səyyah kimi dünyanı fırlansa belə, yenə də "İzlər" in ovsunundan, cazibəsindən uzaq qaça bilmir. Hökmən dönüb geriyə, saldığı izlərə baxmalı və özü – özünün mühakiməsinə tuş gəlməlidir. Bir sözlə, yaşadığı ömrün faydasını görmək üçün özünə hesabat verməlidir. İnsan özünə hesabat verirsə, mənəviyyatının sağlam, yaxud şikəstliyini görürsə, demək , yazıçı məqsədindən daha artıq ədəbi təlqinə nail olub. Nəinki faşizmə, müharibəyə nifrət, hətta yer üzündə insanlığa, sülhə, əmin-amanlığa qarşı yönəlmiş nə varsa hamısına lənət oxuyan duyğular oyada bilib. H. Mirələmovun yaradıcılığına dərindən bələd olduqca bir duyğular daha da ovxarlanır, mənəvi qüdrət kəsb edir.Mən yazımın əvvəlində qeyd etmişdim ki, ədibin hekayələri arasında müəyyən mənada mövzu və məqsəd yaxınlığı vardır. Görünür, bu hal yazıçının həmin əsərləri yazıb – yaratdığı dövrün, ədəbi prosesin havası bağlıdır. " Dəyirmana gedən yol" əsərində müəllifin həsəd, acgözlük, cinayət, xəstəlik gətirən müharibəni və insanlar arasında hər hansı ədavət toxumunu yer üzündən silmək arzusu var. Aqillər deyiblər ki, bu dünyada ən savab əməllərindən biri də yol çəkmək, körpü salmaqdır. İllahda ki, o yol ruzi, bərəkət yolu ola, adamlar bu yolla dəyirmana gedə. Ocaqlarını sönməyə qoymayan dəyirmana. Bu dünyada əbədi olacaqlardan biri olan dəyirmana. Müharibə həm də ona görə dəhşətlidir ki, dəyirmana gedən yollar bağlayır. O müqəddəs ocağın işartısını kəsir, həyatın axarını saxlayır, insanların ümidini qırır. Məhz dəyirmana gedən yolda yollar qırılır, ümidlər qırılır,həyat qırılır. Bir şair demişkən: "Arzulara güllə dəyir". Bütün bunlara səbəb nədir? Sualının bir cavabı var. Müharibə. Həmin cavabın vahiməsini yazıçı hekayəsinin canına hopdurmuş və bununla da, mövzunun psixoloji təsir gücünü olduqva artırmışdır. " O zaman uşaq idim. 6-7 yaşım ancaq olardı. Yadımdadır, bir gün ağsaqqallar kəndimizin çayı üstündə tikilən dəyirmana yol çəkməyi qərara aldılar. Təzə yol. Bərəkət yolu…Çörək yolu… Günlər ötdükcə o da uzanırdı. Ancaq bir dəfə soyuq bir xəbər sanki hər şeyi buza çevirib dondirdu. Yol yarımçıq qaldı. Müharibə başlanmışdı…" Hekayədə müharibənin başlanmasına qədər olan hissə yazıçının bir çox hallarda istifadə etdiyi ədəbi priyom kimi əsərin başlanmasına, bütövlükdə tamamlanmasına əlverişli şərait yaratdığı kimi, oxunaqlı olmasına da əhəmiyyətli dərəcədə təsir edir.Yazıçı əsərdəki ana obrazının yaşantılarını, hansı hadisələrdən təsir görübsə (burada müharibədən) konkret olaraq həmin hadisənin psixoloji sarsıntılarını sanki rəssam hünəri ilə obrazın fizionomiyasında yaradır. Duyğulu

oxucu həmin səhnədən etibarən ram olur. Sənətin intellektuallığı qarşısında axıra qədər müəllifi dinləməli olur.Hekayədə aldığı təzə fotoaparatla anasının şəklini çəkmək istəyən oğlu onun sifətində illərin ağrısını, kədərini görür. Müharibənin saldığı qırışlar, izlər oranın silinməyən əbədi cizgiləri kimi təbəssüm görüntüsünə yer qoymamışdır.

-" Ana qoy təzə fotoaparatımla ilk dəfə sənin şəklini çəkim. Ananın sifətində ani bir parıltı göründü. – Nə deyirəm ay oğul, çək…

Anam bir an ətrafı süzdü üzüntülü baxışlarla. Gözləri yol çəkdi, sonra obyektibə baxdı. Baxışlarda donmuş sevinc, yaralanmış təbəssüm vardı".

Bəli, ana istəyirdi gülümsəsin. Amma gülsə də, bu gülüş daxili kədərdən su içib gəlmişdi. Ona görə də sifətindəki təbəssüm yaralı, gözləri isə qara gün kimi kədərli idi. Məhz o gözlərin dikildiyi yolun nağılını oxuyuruq " Dəyirmana gedən yol" da. " Qış yenicə girmişdi. Müharibənin üçüncü qışı. Evimizdə çörək tükənmişdi. Anam ehtiyat üçün yaydan saxladığı bir neçə balqabağı qənaətlə bişirdi. Bir gün o da qurtardı. Biz acından qanadı sınmış körpə quşlar kimi büzüşdük. Odunumuz da qurtarmışdı. Aclıq və soyuq." Belə bir məqamda ehtiyac məngənəsində sıxılan ailənin acınacaqlı vəziyyətində ailənin bir üzvü körpə qızcığazın da ağır xəstələnməsi dərd üstündən dərd gətirir. Müharibə dəyirmana gedən yolları qırdığı, yarımçıq qoyduğu kimi ümidləri, taleləri də qırır. Xəstəlikdən əbədi gözlərini yuman körpə qızcığazı yarımçıq qalmış dəyirman yolunun başlanğıcında dəfn edirlər. Hekayə ana kədərinin keçdiyi yolun sonunda, yəni həmin kədərin fotolentə köçürülməsi ilə başa çatır.-" Çək oğul, çək.

- Anamın səsinə diksindim.

- Çəkirəm ana, çəkirəm. Obyektivi yenidən ona tuşladım. Çinarlı, çardaqlı, geniş bir yola dikilmiş gözlərin şəklini çəkdim. Mən o gözlərin arzusunu çəkdim."

Arzusuz insan həyatı yoxdur. İnsan həmişə müəyyən arzularla, ümidlərlə yaşayır. Arzular da insanın öz kimi müxtəlifdir. Daşıdığı fikir və ideya yükünə görə, elə arzular var ki, təkcə fərdin öz tələbatı çərçivəsində yaranır. Yalnız doğulduğu mənəvi mühitə fayda gətirə bilir. Elə arzular da var ki, ümumbəşəri münasibətə əsaslanır. Xeyirxahlığa, haqqa, ədalətə üz tutar. Hamının mənafeyini ifadə edir.

Məhz H.Mirələmovun əsərlərinə seçdiyi qəhrəmanların arzuları belə xeyirxah arzulardandır. Ananın arzuları dünyanın hər yerindən hansı səmtdən baxsan görünə biləcək arzulardır. Çünki bu istəkdə insanın azadlığı var, ruzisi var, məhəbbəti var, ədaləti var, haqqı var, təhlükəsizliyi var. Ən başlıcası düşmənlərin göz dikə bilmədiyi isti ocağı, yurdu-yuvası var. Bu yurdun varlığı isə dəyirmana gedən yolun əslində dəyirmanın yaşı qədərdir. Bu mənada ki, dünyada üç şey

əbədidirsə biri də dəyirmandır. Elə burdaca “ Dəyirmana gedən yol” da dayanıb “ Qayada çiçəy” ə baxıram. Hər ikisindn həyat boylanır. Dünya, həyat,təbiət, kainat, insan və cəmiyyət haqqında düşüncələr içərisində həyatın davamını düşünürəm. Həyat davam edir.

## “ DURNA YOLU”NDA QANA BATMIŞ

## BIR TİKƏ ÇÖRƏK

## HƏMİN EPİZOD MÜHARİBƏ CANİLƏRİNİ

## BEYNƏLXALQ TRİBUNALLARA ÇƏKMƏK

## ÜÇÜN BƏS EDƏCƏK DƏLİLDİR

Durnalar qayıtdı… Axı niyə getmişdi durnalar? Bu getmək və qayıtmaq durnaların adi yaz və payız fəsil dəyişməsi deyil. Dünyanı sarsıdan - ərzin bu başından o başına sarsıntı gətirən mərmilər yolları dağıdır. Öz səfi, öz yolu olan durna qatarını -Azərbaycan xalqının timsalı kimi görürəm. Yüz minlərlə oğul müharibə adlı əjdahanın ağzına atılmasaydı yağı bizi Qarabağ savaşında yenə bilərdim? “Durnalar qayıtdı” filminin yaradıcı heyətini də sarsıdan – hər bir təfəkkür məhsulu heyrətin bəhrəsidir – zənnimcə, həmin “ qayıtmaq” sözünün ifadə etdiyi hissi emosional duyğulardır. İstər – istəməz qayıtmaq varsa,demək, getmək də var. Söhbət Hüseynbala Mirələmovdan getmir, söhbət vətəndaş yanğısından,insanı qorumaq istəyəndən gedir. H.Mirələmovda isə bu yanğı və bu istək var. Artıq xalqımızın yaxşı tanıdığı H.Mirələmov da…

Mən müasir Azərbaycan ədəbiyyatının istedadlı nümayəndəsi kimi tanınan və xüsusən vətənpərvər ruhlu əsərlərinə görə ədəbi- ictimai aləmdə mötəbər yeri olan yazıçı Hüseynbala Mirələmovun yaradıcılığına həmişə bir oxucu marağından doğan duyğuların təsirli münasibət bildirməyə səy göstərmişəm. Qəzetimizin ötən sayında “Yollar səni yormayıb ki,.” Sərlövhəli məqaləmdə müəllifin ilk qələm təcrübəsi “ Bir tikə çörək”, “ İzlər” və “ Dəyirmana gedən yol” hekayələri haqqında publisistik düşüncələrimi oxucuların diqqətinə çatdırmışdım. Əlbəttə,hər üç hekayədə məqsəd müharibənin dəhşətli faciələrini yada salmaq, həyatı, taleyi bu faciələrdən keçən insanların xatirəsini bədii sözün gücü ilə əbədiləşdirmək, müharibələrə, nahaq qanlara hərislik düşüncəsinin qarşısına sipər çəkməkdir. Qeyd edim ki, H. Mirələmov “ Durnalar qayıtdı” hekayəsində də bu amala söykənərək müharibənin dərd, kədər, ağrı, iztirab, bütövlükdə bədbəxtlik gətirdiyini, hər şeyi

– canlı- cansız, nə varsa hamısını qara örtüyə - matəm rənginə büründüyünü özünəməxsus bir dillə, real həyati təsvirlərlə verə bildiyindən hekayə müəllifin tükənməz oxucu rəğbəti qazanmış əsərləri sırasına aid edilə bilər. Hekayədə dağlıq ərazidə məskunlaşmış bir kəndin müharibə dövründə necə yaşaması, o ağır sınaq illərində hansı faciələrlə üzləşməsi təsvir olunur. Hətta təbiətə belə müharibənin təsiri adamda heyrət doğurur. Müharibə başlayan gündən durnalar da hər il baharı qarşıladığı doğma yerləri birdəfəlik tərk edib gedirlər: " Durnalar erkən tərk etdi bu yerləri. Çox qəribə idi. Yayın ilk günü. 22 iyun. O günü sübh tezdən gümüşlənmiş durna yolu boş qaldı. Kimsəsiz qaldı. Durnasız qaldı. O günü harayla, həsrətlə başqa ölkələrə uçdu durnalar. İntizarla, kədərlə tellərini atdılar doğma torpağa.Gələcək faciələrini elə ilk gündən yaşamağa başlayan narahat torpağa. Elə ilk gündən odlandı torpaq. Ümid telleri, durna telleri külə döndü bu torpaqda".

Bəli, müharibə təkcə insanları yerindən – yurdundan eləmir, yalnız mənəvi tarazlığı pozmur, şüurları zəhərləmir, həm də iqlimi -təbiəti dəyişməklə insanın nəfəs aldığı mühiti zəhərləyir, ekoloji tarazlığı pozur, unutmayaq ki, ətraf aləmin dirçəlməsi bir də uzun ilərin hesabına başa gəlir. "Durnalar qayıtdı" hekayəsi Qarabağ müharibəsindən 5-6 il öncə yazılsa da, bu müharibənin ağrılarını yaşadığımız bir zamanda əsərin bədii gücü, əsas mənəvi dəyəri aşkarlanır və ictimaiyyətə əhəmiyyətli dərəcədə müsbət təsiri nəzərə alınaraq təbliğ olunması vacib sayılır. Təsadüfi deyil ki, H. Mirələmovun ssenarisi əsasında Azərbaycan Teleradio Şirkətində çəkilmiş "Durnalar qayıtdı" televiziya filminə tamaşa edənlər məhz bu qənaətin doğruluğunu təsdiqlədilər. Noyabrın 6 -da, yəni ötən şənbə A. Şərifzadə adına aktyorlar evində filmə ilk baxış keçirildi. Qeyd edim ki, film yazıçının " Durnalar qayıtdı", "Bir tikə çörək" və "Dəyirmana gedən yol" hekayələri əsasında çəkilmişdir. Filmdə istifadə olunan hekayələrdən " Bir tikə çörək" əsərini müəllif 13-14 yaşlarında olanda qələmə alıb. 1961- ci ildə Lənkəranda çıxan rayon qəzetində çap etdirib. İkinci Cahan savaşının ağrısına ayna tutan hekayələri H.Mirələmov sonralar da yazıb. Deməli, bu mövzu onu həmişə düşündürüb. Deməli, müharibə ağrısı ilə yol gedən xalqın taleyi ideya olaraq müəllifi həmişə düşündürüb. Çünki söhbət bir kəndin, hətta bir xalqın taleyindən getmir, bu, artıq bəşəri problemdir. Dünyanın , bütün insanlığın dərdidir…

Burpadaca bəri başdan deyim ki, filmin adı " Durna yolu" adlandırılsaydı daha uğurlu səslənərdi. İnsafən, ayrı- ayrı əsərlərdəki hadisələr filmdə ümumi xəttin ətrafında üzvi surətdə, məntiqi ardıcıllıqla əlaqələndirilib. Əlbəttə, bu, hekayələrin hər üçünü mən oxumuşdum, qeydlərim də vardı. Lakin filmə tamaşa etdikcə ekranda göstərilən əsrarəngiz təbiət mənzərələrinə, dağlar qoynunda

yerləşən obalara, oymaqlara baxdıqca qəlbim göynədi. " Qarabağım-qara baxtım" yadıma düşdü. Filmin çəkildiyi yerlər- Talış dağları, Talış meşəlıri necə də bizim yerlərə, illərdən bəri həsrət qaldığımız Cəbrayıla, Şuşaya, Laçına, Kəlbəcərə bənzəyirdi. Adamları da oxşar taleli, oxşar bənizli, oxşar təbiətli idi. Filmdə cərəyan edən hadisələr və bu hadisələrin bilavasitə iştirakçısı olan insanların ağrı-acıları, kədərli taleləri bütün dünyanın qərib övladları, vətənindən zorla ayrı düşənlərdən biri kimi qəlbimdə qübar bağlamış yurd həsrətini alovlandırdı. Ağrılarım baş qaldırdı. O ağrılar ki, loğmanı vətəndir, dərmanı doğulduğum torpaqdır. Və ən pisi odur ki, o ağrılara görə adamı həkimə aparmırlar, haran ağrıyır demirlər. Dərdinə əlac edəcək ünvana gedən yolları açmırlar. Bəlkə də, bir vaxtlar " dərd qalağı" üstündə əyləşən qoca Füzulini " Harda bir qəm itsə məndən istəsinlər, mən zəman " deməyə vadar edən elə vətən həsrəti, vətən ağrısı imiş.

**Dərdimi aləmdə pünhan tutduğum naçarıdır.**
**Uğrasaydım bir təbibə aşikar erməzmidim?-** deyəndə də, mövlanə dərdinə çarə bulacaq təbibi – vətəni arzulayırmış. Bəlkə də, bu hissi keçirməyənlər, vətənindən, elindən, obasından ayrı düşməyənlər inanmazlar ki, torpaq necə şirin olur. Ondan ayrı düşmək, həsrətində qalmaq adamı necə xəlvət-xəlvət, özü də hönkür – hönkür ağladır.

Burada bir sual qoyuram. Nə üçün həmin filmə baxanda Qarabağ yadıma düşdü? Axı zaman da başqadır, məkan da. Bunu artıq rejissor deməlidir, ssenarist deməlidir. Nə üçün onlar bir oxucu, bir tamaşaçı kimi mənim ruhumu göynətdilər. Əlbəttə, cavab istəmirəm, ancaq deyirəm ki, bu onların uğurudur.

H. Mirələmovun həyat və yaradıcılığı ilə bağlı " Sözə doğru" çox dəyərli tədqiqat əsərinin müəllifi- qeyd edim ki, əsər bu günlərdə oxucuların ixtiyarına verilmişdir -şair- publisist Əli Rza Xələflinin " Tənha durna " filmi ilə bağlı qələmə aldığı " İdeya və obrazın vəhdəti gözəlliyi yaradır" ünvanlı qeydlərindəki bir fikri ilə çox razıyam: " Xalqın ruhunu bütün gizli və aşkar tərəfləri ilə birlikdə duyub özündə, mənəviyyatında ehtiva etmədən xalqın qəbul edəcəyini yazmaq, insanları sevindirmək çətin olardı. Bu sevindirmək məfhumu burada şərtidir. İnsan bədii gözəllik qarşısında sarsılmalıdır. Əgər heyrət yoxdursa, demək, gözəllikdə də yoxdur. Bədii əsərin aşıladığı dərin kədər, hətta insanın yaşamaq ümidini üzən, onu dərin, psixoloji burulğanlara sala bilən əsər belə haqqında danışdığımız gözəlliyin təcəssümüdür". (Əli Rza Xələfli "Sözə doğru", Bakı, "Azərbaycan" nəşriyyatı, 2003, səh.206).

Əlbəttə, burada tədqiqatçının "ümidi üzən" ifadəsi ilə bağlı mübahisə də etmək olar. Ancaq bu, başqa söhbətin mövzusudur, ümumi xətdən kənardır.

Sadəcə, onu demək istərdim ki, bu qeydlərə ifadə olunan həqiqəti "Durnalar qayıtdı" filminə də şamil etmək olar. Ə.Xələfli "Durnalar qayıtdı" filminin təqdimat mərasimində Azərbaycan televiziyasına verdiyi müsahibədə də bu barədə danışdı.

Filmin baş qəhrəmanı, baş rolun ifaçısı, görkəmli aktyor, xalq artisti Əlabbas Qədirovun yaratdığı Yusif müəllim obrazı məhz belə bir yaralı ömür yaşayır. Əslində film Yusif müəllimin həyatından bəhs edir. Uşaqlıq illərini Azərbaycanın ucqar dağ kəndində müharibə sıxıntıları içərisində yaşayan Yusifin sonralar bəxti üzünə gülür. Şəhərdə uzun illər yüksək vəzifələrdə işlədikdən sonra ömrünün ahıl çağında doğma yurda qayıdaraq xatirələrinin qucağında ovunmaq istəyir, olub-keçənləri yada salır. Hekayədən fərqli olaraq filmdə Yusif müəllimin qəlbinə də daha bir yara – II Cahan savaşının vurduğu yara ilə bərabər, Qarabağ müharibəsinin vurduğu yara da görünür. Belə ki, Yusif II Dünya müharibəsində atasını itirmişdi, Qarabağ müharibəsində də oğlunu itirir. Ümumiyyətlə, Yusif müəllimin həyatını film boyu izlədikcə müharibəyə nifrət hissi, qəzəb dalğası güclənir. Tamaşaçı müharibəni törədənlərə nifrət yağdırır. Hələ Yusifin bacısının xəstələnərək acından ölməsi, atasının əkdiyi tut ağacının altında torpağa tapşırılması, anası xəstələnərkən Yusifin bir tikə çörək tapmaq arzusuyla qarlı-çovğunlu bir gündə evdən çıxması və yolda başına gələn hadisələr, bütün bu kədərli məqamlar insan mənəviyyatında dərin iz buraxaraq filmin uğurlu ekran əsəri kimi saysız tamaşaçı rəğbəti qazanacağına əminlik yaradır. Filmin ərsəyə gəlməsində rejissor Elçin Quliyevin xidməti ilə yanaşı, operator Elxan Nəbiyevin əməyi də istər-istəməz öz qiymətini tapır. Çünki filmdə diqqəti çəkən təbii mənzələri yalnız təbiəti duyan, dərindən dərk edən, qeyri adi duyğusu olan mütəxəssis tuta bilərdi.Qocaman sənətçi Muxtar Maniyev, gənc aktyor Adil Zeynalov oynadıqları rolların, yaratdıqları obrazların taleyindən keçib gəlmişdilər sanki. Filmin əvvəlində müharibə başlanan zaman perikib gedən durnalar bir də filmin sonunda, yəni dava qurtaranda geri dönürlər. Durnaların qayıtmasıyla həyat da öz ahənginə düşür, müharibənin gətirdiyi soyuq qış öz ömrünü başa vurur. Yurda bahar gəlir. İnsanlar durnaların gəlişini bayram əhval –ruhiyyəsi ilə qarşılayırlar. Çünki durnalar həmişə sakit, təhlükəsiz, güllə səsi gəlməyən yerlərə pənah gətirirlər. İndi durnalar gəlmişdi. Demək, müharibə də qurtarmışdı. Lap sonda müharibənin ağır sınaqlarından qəhrəmanlıqla çıxmış Yusifin gəldiyi yekun qərarı dinləyirik: "İnsan Allahın hökmü ilə müqəddəs amal uğrunda son nəfəsə qədər mübarizə aparmalıdır. O amalın adı Vətəndir, Azərbaycandır."

"Durnalar qayıtdı" filminin ekran əsəri kimi tamaşaçı rəğbəti qazanacağına şübhəmiz yoxdur. Əlbəttə, xırda texniki qüsurları, müəyyən çatışmazlıqları olsa da belə. Ən başlıcası film Azərbaycanın yarasının dərin olduğunu,nəinki təkcə

Qarabağın – bütövlükdə torpaqlarımızın 20 faizinin işğal altında inləməsini yada salır, həm də film diktə edir ki, bizim gücümüz tarixi Azərbaycanı, bütov Azərbaycanı özümüzə qaytarmağımızdadır. Ssenari müəllifi H.Mirələmov Yusif müəllimin dilində amalı vətən, Azərbaycan olan yurdun bütün vətənpərvər övladlarını haraylayır. Allahın hökmü ilə müqəddəs amal uğrunda mübarizəyə çağırır. Əsərin bugünki qiyməti, daşıdığı mahiyyət də əslində budur. Filmin ilk ictimai baxışında iştirak edən tanınmış ziyalılar və sənət adamları da filmin müasir gəncliyinin mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayacağını dedilər. Çıxış edənlərdən professor İlham Rəhimli H. Mirələmovun yaradıcılığını yüksək qiymətləndirdi:

- Müharibə mövzusunda yazılan əsərlər çoxdur. Əlbəttə, uğurlusu da, uğursuzu da var. Mən H.Mirələmovun əsərləri əsasında hazırlanmış film-tamaşalara baxmışam. Kitablarını da oxumuşam. Bu əsərlərin hər birində vətəndaşlıq yanğısı var, nüvəsində haray var, nəyin isə, kimin isə dadına yetmək istəyi var. Siz bunları bu filmdə də gördünüz. Həm də Hüseynbala müəllim heç vaxt yazıçı olmaq iddiasında olmayıb. Onun mənəvi paklığıyla yaradıcılığı arasında qırılmaz bağlılıq, daxili vəhdət olduğu aydın görünür.

Sonra respublikanın xalq artisti Əlabbas Qədirov öz çıxışında çəkiliş zamanı rastlaşdığı çətinliklərdən danışdı. Həm də bildirdi ki: “Belə mövzular həmişə insanlara lazımdır. Torpağa, Vətənə, anaya-ataya bağlılıq vacibdir. İnsan həmişə saflaşmağa can atmalıdır. Daxilində ülvi arzular, pak ideyalar yaşatmalıdır. Mən filmin çəkildiyi Orand kəndində - Hüseynbala müəllimin doğulduğu kənddə oldum. Oranın təbiəti, adamlarının saflığı məni heyran etdi. Quruluşçu rejissora, filmdə zəhmət çəkənlərin hamısına təşəkkürümü bildirirəm. Hüseynbala müəllim də sağ olsun ki, belə bir ssenari hazırlayıb bizə verdi.”

“Azərbaycan” jurnalının baş redaktoru, keçmiş kino işçisi, tənqidçi-publisist, əməkdar incəsənət xadimi İntiqam Qasımzadə dedi:- Bu hekayələri mən oxumuşam. Bu gün isə bu hekayələrdən yeni bir əsər yarandığını görürəm. Müharibə mövzusunda çox filmlər çəkilib. Lakin bu, o filimlərdəndir ki, burda güllə atılmır, lakin tamaşaçı müharibənin çətin, ağrılı məqamlarını ən incə detallarına qədər qədər görür, anlayır və özü üçün müəyyən qənaət hasil edir. Ən çətin rol burda Əliabbas Qədirovun oyandığı roldur. Çünki mükaliməyə girmədən obraz yaratmaq asan deyil. Ə.Qədirov bu obrazı böyük məharətlə yarada bilib. Bir də filmdə mənə ən çox təsir edən uşağın əlindəki çörəyin qana batması oldu . bu da müəllifdən gəlmədir.

İntiqam müəllimin sözünə qüvvət olaraq deyim ki, bu səhnə kulminasiya idi.Ən daşürəkli tamaşaçını belə krizis- böhran vəziyyətinə salır və sonra da “katarzis- mənəvi təmizləmə”(Aristotel ) süzgəcindən keçirir. “Durna yolunda

qana batmış bir tikə çörək". Həmin epizod müharibə canilərini beynəlxalq tribunallara çəkmək üçün bəs edəcək dəlildir.

Rejissor – aktyor Ağalar İdrisoğlu filmlə bağlı təəssüratlarını belə ifadə etdi:- Çox möhkəm adamam, ancaq filmə baxanda kövrəldim. İnsan psixologiyasının dərinlikləri görünür burda. Filmin gözəl atmosferası var. Baxmayaraq ki, bir neçə günə çəkilib. Filmdə müşahidə olunan insana sevgi, ülvi ideallar bu gün cəmiyyətimizə qayıtmalıdır. Biz hər şeyi itirə-itirə gedirik. İtirdiklərimizin tapılmasını arzulayan rejissor filmin geniş təbliğ olunmasının vacibliyini vurğuladı.

Teatrşünas Yaqub Əliyev filmin rejissoru Elçin Quliyevin ssenarinin müəllifi H.Mirələmovun mənəvi aləmini incə bir dəqiqliklə hiss etdiyini diqqətə çatdırdı. Filmin hazırlığında zəhməti onların – operator Elxan Nəbiyevin, aktyorlardan Adil Zeynalov, Əlabbas Qədirov, Muxtar Maniyev və başqalarının əməyini uca tutan Y.Əliyev filmə orijinal musiqi seçildiyini də bildirdi. Sürücü rolunun ifaçısı Aqil Sucayevin rolundan, yaradıcılığından başqa filmin başa gəlməsi üçün digər problemlərin həlli naminə böyük əziyyətlərə qatlaşması bir daha diqqətə çatdırıldı.

Şair Əli Mahmud çıxışında filmin uğurlu alınmasından və məziyyətlərindən danışaraq dedi ki, mən Şuşadan gələndəbir topa açar gətirmişəm – Həmin açarları mən indi də cibimdə saxlayıram ki, geri dönəndə evimin qapısından asdığım kilidi aça bilim. Və inanıram ki, 1 milyon insan –yurdundan didərgin düşmüş soydaşlarımızın hamısı o ümidlə gətirdikləri açarı saxlayırlar. Mən "Durnalar qayıtdı" filminə baxanda o ümidin göyərəcəyinə inandım. İnandım ki,amalı Vətən, Azərbaycan olanların səsi gəlirsə, ümidlərimiz də göyərə bilər. Daha sonra filmin ilk təqdimatında iştirak edənlərdən Teatr Xadimləri İttifaqının sədri Azərpaşa Nemətov, aktyorlardan Muxtar Maniyev, Adil Zeynalov, Milli Birlik Təşkilatının sədri Nadir Əliyev, jurnalist Flora Xəlilzadə və başqaları yazıçı H. Mirələmovun ssenarisi əsasında çəkilmiş bu filmi yüksək dəyərləndirdilər. Geniş tamaşaçı kütləsi tərəfində rəğbətlə qarşılanacağına əmin olduqlarını bildirdilər.

Mən özümə bağışlaya bilməzdim; əgər filmdəki uşaq rollarını ifa edən "aktyorları" unutsaydım. Yusifin, Yusifin bacısının , Əzizin rollarını ifa edən uşaqlar unudulmağa, diqqətdən kənarda qalmağa layiq deyil. Bildiymə görə, onlar aktyor A. Zeynalovun uşaqları idi. Heç şübhəsiz, müharibənin uşaqların taleyində sınan faciələri inandırıcı təqdim edən yeniyetmələrin böyük gələcəyi ola bilər. Əgər şərait və qayğı olsa. Müharibə dövrünün qadınları obrazları da kifayət qədər dolğun idi. Yusifin anası, Əzizin anası – rolları ifa edən aktyorlar da çox təbii və inandırıcı çıxış edirdilər. Mən onların simasında yaxşı tanıdığım Qarabağ qadınlarını, Qarabağlı uşaqları görürdüm.

Bəli, mənzərə çox oxşar idi. Fərq təkcə onda idi ki, mənim tanıdığım insanlar vaqonlarda, çadır evciklərdə zillət çəkirlər. Əsər yaddaşda nəyi isə oyadırsa, demək, müəllif, yaradıcı heyət məqsədə yaxınlaşa bilib.

Tanınmış tənqidçi Vaqif Yusifli yazıçı Hüseynbala Mirələmovun yaradıcılığına həsr elədiyi " Həyatın ritmi" kitabında müharibənin obrazını çox dəqiq mənalandırır: " Bu hekayələrin üçü də müharibənin insanların taleyindəki silinməz ağrı -acıları ifadə edir. Yəni burada müharibə yaddaş kimi iştirak edir. Daha doğrusu, müharibənin özü görünür, qara-qara kölgələri görünür ki, bu kölgələr müharibə başa çatandan sonra da kədərə, göz yaşlarına çevrilir. H. Mirələmov, heç şühhəsiz, bu hekayələri real müşahidələri əsasında qələmə almışdır. Eyni zamamda, muharibədən sonra Azərbaycan nəsrində bu tipli hekayələr çox yazılırdı (müharibənin lənətlənməsi, onun bəşəriyyətin taleyində oynadığı mənhus rolu, maddi və mənəvi itkilər doğurması və s.) yəni bu sahədə müəyyən ənənə də yaranmıdı". (" Kredo" qəzeti N- 58-59(157-158), 8 noyabr 2003-cü il).

Tənqidçi müharibə mövzusunu H. Mirələmovun yaradıcılığında ötəri xarekter danışmadığını bildiyindən bu məsələyə təkrar – təkrar qayıtmış, müharibə obrazının bədii yaradıcılıqda ( H. Mirələmovun əsərlərində) müxtəlif tərəflərdən görüntülərini diqqətə çəkmişdir. Daha əvvəl V. Yusifli fikrini şərh edərkən yazır: " Lakin sayca az olsa da, müharibə mövzusunda yazılan əsərlər barəsində söhbət açmaq olar. Sabir Əhmədlinin, Aqil Abbasın, Elçin Hüseynbəylinin və əlbəttə, Hüseynbala Mirələmovun bir sıra əsərləri buna misal ola bilər.

Hüseynbala Mirələmov hələ 60-80-ci illərdə yazdığı bir sıra hekayələrində bu mövzuya toxunmuşdur. O, Böyük Vətən müharibəsinin ağrı- acıların yaşayan insanların keçirdiyi mənəvi sarsıntıları " Bir tikə çörək", "Dəyirmana gedən yol", " Qayıtdı durnalar" hekayələrində əks etdirmişdir.

Bu hekayələrdə əsas obraz insanlara ölüm, fəlakət və ayrılıq gətirən müharibədir. Müharibə təkcə şəhərlər, kəndlər xarabaya döndərməmişdir, milyonlarla insanların qırğınlarına səbəb olmamışdır, həm də başa çatdıqdan sonra uzun illər yaddaşlardan silinməmiş, psixologiyalarda yaşamışdır.

H.Mirələmovun adını çəkdiyimiz hər üç hekayəsində məhz müharibənin mənəvi-psixoloji yaralarından söz açılır". ("Kredo" qəzeti N-57(156), 1 noyabr 2003-cü il). Buraya heç nə əlavə etmək lazım deyil. Bircə onu deyərdim ki, bəli, müharibənini mahiyyəti deyilənlərlə bitmir. Müharibə həm də əhdlərin, peymanların qırılması, arzuların, istəklərin güllələnməsidir. "Durnalar qayıtdı" filmində məhz bunu görürük.

Müharibə dövrünün kolxoz sədri – Muxtar Maniyev, kəndli obrazı – Qədim kişi, hərbi komissar – Əlibala Əsgərov həmin dövrü mühiti təkcə gözlərimiz önündə canlandırmadılar. Onlarhəmin zamanı qoparıb bizə gətirmişdilər. Bütün acıları, hissləri düşüncələri, göynərtiləri ilə birlikdə lal obrazının ifaçısı A. Zeynalov təbii oyunu ilə göstərdi ki, insanın böyüklüyü qəlbi, mənəvi zənginliyi ilə ölçülür. Həyat isə çox amansızdır. Bəzən bu amansızlığın özü insanın mənəvi böyüməsinə xüsusi təkan verir. Əsərin sonunda biz lal oğlanı şəxsiyyət kimi onun əsərin əvvəlindən müşahidə etdiyimiz mənəvi saflığının duruluğu, müdrikliyə doğru inkişafını da aydın görürük.

Sonda ssenari müəllifi yazıçı-dramaturq Hüseynbala Mirələmov filmin təqdimatında və ərsəyə gəlməsində iştirak edənlərə, xüsusilə filmin çəklişində böyük əmək sərf etmiş sənət adamlarına dərin minnətdarlığını bildirdi.

... Başqalarını deyə bilmərəm, mən dünyadan narazıyam. Zaman -zaman durnaların səfini pozduğuna görə. Ancaq gördüm ki, "Durnalar qayıtdı" filmini yaradanlar da, burada çıxış edənlər də elə mənim kimi bu ədalətsiz dünyadan narazıdırlar. Ən azı qana bələnmiş Qarabağ gözümüzün qabağındadır.

İnanıram ki, dünya nə vaxtsa o balaca qızın ölümünə bais olduğunu, ata intiqamı arzusu ilə alışıb – yanan Əzizi izsiz- soraqsız itirdiyinə və ən başlıcası, BİR TİKƏ ÇÖRƏYİ QANA BATIRDIĞINA GÖRƏ cavab verməlidir.

... Hələlik durnalar Qarabağa qayıtmayıb. "Durnalar qayıtdı" əsərini – filmini yaradan bu arzudur; durnaları Qarabağa qaytarmaq arzusu.

**04.12.2003**

## DAŞLAR QƏZƏBDƏN GÖYƏRİR

Görkəmli Amerika yazıçısı O.Henrinin "Son yarpaq" hekayəsini hələ uşaq olanda məndən böyük qardaşım kitabdan oxuyanda eşitmişdim. Bu qüdrətli sənət incisi elə o vaxtdan məni sarsıtmışdı. Yadımdadır, hekayəni dinləyəndə kövrəlmişdim. Ömrümdə ilk dəfə idi ki, sənətin təsiri ilə ağladığıma görə təəccüblənmişdim də. Mənim o vaxtkı təfəkkürümə görə uşağı döyəndə, incidəndə, yeməyini gecikdirəndə, yaxud istədiyini verməyəndə ağlayardı. Bir də kənddə hüzr düşəndə bir cavanın, yeniyetmənin ölümünü yaxından görəndə gözlərim nəmlənərdi. Mən hekayəni dinləyən zaman bu təsirlərin heç biri yox idi. Bəs onda mənə təsir edən, məni ağladan nə imiş? Hekayədə təsvir olunan o dövrün amansız xəstəliyi sətəlcəmin qapıları döyüb adamları bir-bir gedər- gəlməzə aparmasımı, uğursuz rəssam qoca Bermanın nəhayət 40 illik mənasız həyatından sonra müvəffəq olduğu – yaratdığı sənət incisinin – kərpic divara çəkdiyi sarmaşıq yarpağının xəstə Consini ölüm çarpayısından xilas etməsi, ölümcül xəstənin öləziməkdə olan sonuncu arzusu ən etibarlı yerində ürəyində saxladığı Neapol körfəzinin şəklini çəkmək istəyimi, yoxsa divara dırmaşmış qoca sarmaşığın sonuncu yarpağının budaqdan üzülmək qorxusumu. Və nəhayət, bu qorxunun gətirdiyi göz yaşlarının sevinc yaşına qarışması səhnəsi- qoca rəssamın yaratdığı son ümidi, son arzunu qırılmağa qoymayan aramsız yağışlara, şiddətli Amerika küləklərinə belə davam gətirə bilən son əsəri, sonuncu sarmaşıq yarpağının əbədiliyimi? Əlbəttə, bu məqamların hər birinin təsiri insan mənəviyyatının dərinliklərinə qədər işləməsəydi, bəlkə də mən ağlamazdım. Və mən sonralar anladım ki, mənim dinlədiyim əbədiyaşarı olan bir sənət incisi imiş və sənət qədər insana təsir edən ikinci bir nəsnə yoxmuş. Sənətin ecazkar təsirini elə ilk dəfə O.Henrinin "Son yarpağ" ında görmüşdüm. İndi o vaxtdan illər keçib. Mən insanı dahilik mərtəbəsinə qaldıran hisslərin, emosiyaların, duyğuların bəhrəsi olan O. Henrinin "Son yarpağ"ını sonralar dəfələrlə oxumuşam. Hər dəfə də eyni hissləri keçirmişəm.

Bu günlərdə müasir Azərbaycan yazıçısı H.Mirələmovun "Son arzu" hekayəsini oxuyanda bir daha o hissləri yaşadım. İstər-istəməz qəlbimdə baş qaldıran duyğular mənə ötənləri xatırlatdı. O. Henrinin " Son yarpağ"ını təkrar oxumalı oldum. Əlbəttə, mən bu qeydlərimlə "Son arzu" və "Son yarpaq" hekayələrini, eləcə də onların müəlliflərini müqayisə etmək fikrində deyiləm. Onsuz da bu hekayələr mövzu, süjet və ideya baxımından bir-birindən çox fərqlidirlər. Elə isə bəs nədən "Son arzu"mənə "Son yarpağ"ı oxumağı məcbur etdi. Bax bu fikir ətrafında düşünməli oldum. Və gördüm ki, hər iki hekayə bir-birindən nə dərəcədə fərqlidirsə, o qədər də insanın mənəvi aləmində oxşar duyğular, müsbət emosiyalar yaradır. Hər iki hekayədə müəllifin insanı son

mənzilə qədər aparıb ölümü göstərmək və sonra da diriltmək, həyata qaytarmaq cəhdi var. Konkret olaraq "Son arzu"da yazıçı məhz belə bir yol seçir. Hekayə olduqca təsirli, ən sərt, soyuqtəbiətli oxucunun belə qəlbindəki buzu əritməyə qadir olan sətirlərlə başlayır. "Xəstə saplağından üzülməkdə olan bir meyvəyə bənzəyirdi. Sanki həyatı bir xəfif yeldən, bir zəif hənirtidən asılı idi. Gözləri narahat, üzüntülü bir intizarla yol çəkirdi. Sönməkdə olan qəlbində fəryad dolu, peşmançılıq dolu, uğursuz bir əks-səda inləyirdi, yaralı quş tək çırpınırdı. Bu yaralı quş son gücünü, son qüvvəsini toplayıb sanki qanad çalmaq istəyirdi. Uçmağa, uçmağa can atırdı..."

Qəribədir, yazıçının insanın yaşamaq istəyini boğmağa, onu xəstəliyinin ağır məngənəsində sıxmağa, uçmağa can atmaq istədiyi qanadlarını qırmağa nə vadar etmişdi? Bəlkə bu bir sınaq, imtahanı idi.Bəlkə insana son məqamda günahlarını göstərmək istəyirdi. Bəlkə insanın son anda , vaxtı çatanda ətrafla ünsiyətdə olduğu adamlardan halallıq ala bilməməsinin cəzası idi. Bəlkə ömründə kimsəyə əl tutmamağının, bir acın, yalavacın ona sarı uzanan əlini boş qaytarmağının, yaxud ümumən xeyirxah hisslərdən uzaq olmağının divanı idi.

Bəli, hər halda bu, divan idi. Bax bütün bu suallara cavab verən "Son arzu" hekayəsinin məğzində məhz yazıçının xeyirxahlığa, alicənablığa, müdrikliyə söykənərək ömür yaşamağın hər şeydən ucada dayandığını, insana öləndən sonra da daimi bir şərəf gətirdiyini anlatmaq istəyi dayanır. Ümumiyyətlə, ölümünün yetişdiyini dərk edən insan həyatda hər şeyə biganə qaldığı halda, əsərdə əksinə, müəllif yaratdığı xəstə obrazını bu hisslərdən uzaqlaşdırır, xəstəni düşünməyə, onu mənəviyyatı ilə üz-üzə qoymağa, daha çox əməllərinə görə cavab verməyə məcbur edir. Özü də bu məcburiyyət qəflətən deyil, tədricən özünü göstərdiyi üçün xəstə ölümlə olum arasındakı məsafədə dayanıb geriyə baxanda elədikləri pisliklərə görə peşmançılıq çəkdiyini etiraf etməli olur. Etiraf isə həqiqətin təsdiqi deməkdir. Nadanlar isə etiraf anını yalnız zor qarşısında, aciz qalanda yaxına buraxırlar. Hekayədə təsvir olunan ağır xəstəliyin yaxaladığı Elmar ölüm çarpayısından məzarlığa qədər yol gedir. Məqsəd isə aydındır. Elmar qəbiristanlıqda vaxtilə üzünə qapı bağladıqları adamların yanına gedirdi. Müəllif qəsdən onu diriykən baş daşlarına həkk olunmuş tanış üzlər, tanış baxışlarla qarşılaşdırır. Ancaq bundan qabaq xəsənin nə keçirdiyini təsvir edir: " Xəstə bilirdi ki, son mənzilin astanasındadır. Ancaq buna inanmaq istəmir,özünü zorlayırdı ki, buna inanmasın. Xəstəyə elə gəlirdi ki, əgər dostları ona baş çəkməyə gəlsələr, mütləq sağalacaq, ağrıları azalacaqdır. Birdən gəlməsələr... bu soyuq, bu acı sual beyninin tutqunlaşmış və qaranlıq bir küncündə zəif bir əks-sədaya, sanki yeni bir suala dönərək onun xəstə, zəif vücudunu titrədir, həyacanlandırırdı." Bu titrəyiş və həyəcanlar Elmarın həyatla vidalaşmaq anının qaşla göz arasındakı məsafə qədər

olduğunu, dünyadan əl üzmək ərəfəsinin sona yetdiyini diqtə edirdi. Elmar bu həyacan və təlaş içərisində çabalayarkən – görəsən dostlarının biri sənin vəziyyətində olsaydı necə hərəkət edərdin, Elmar?... Çəkərdin onun əzab - əziyyətini. Ağır günündə, çətin günündə yastığının yanında oturardınmı onun, Elmar?... deyə öz-özünə verdiyi müşkül sualların cavabını axtararkən özünü qəbiristanlıqda hiss etməsi, axırıncı dəfə dostlardan kiminsə dəfnini xatırlaması hekayənin məqsədinə güzgü tutur, müəllifin təbliğ etmək istədiyi ideyanı oxucunun beynində işıqlandırır. Elmar məzarlıqda ağır ittiham qarşısında qalır. "Ona elə gəlirdi ki, minlərin səssiz – səmirsiz yatdığı şəhər qəbiristanlığında insanların son mənzil adlandırdıqları qara, boz, sarı daşların nizamlı – nizamsız duruşu, xırda torpaq təpəciklərinin soyuq lallığı olan bu yerdə torpaq da ölüb və bu sarı torpağın, bu saralmış otların altından minlərlə saralmış üz, saralmış bəniz, saralmış kədər, saralmış təbəssüm boylanıb üstündə qaynaşan bu canlı insan selinə baxır. Sanki baş daşları ağır-ağır nəfəs alırdı. Ağır-ağır düşünürdü. Müdrik qocalar tək susurdu, bu cürbəcür qara, boz və sarı daşlar."

Bu sətirləri oxuduqca adama elə gəlir ki, bu daşların qaralığına, sarılığına, bozluğuna və bir qədər də bəyazlığına məzarda uyuyanların qəzəbi, kini, təbəssümü, xeyirxahlığı və qəddarlığı hopub. Müasir Azərbaycan poeziyasının xəritəsində öz yeri olan Məmməd Arazın dili ilə desək,

**Çiçəklər insanın təbəssümündən,**
**Daşlar qəzəbindən göyərir orda.**

Məhz "Son arzu" nun yazarı Elmarı qəzəbdən göyərmiş baş daşının üstündəki şəklin önündə dünyadan, cəmiyyətdən, lap elə Elmarın özündən incik getmiş bir məzar əhlinin qarşısında saxlayır. Gələcək gor qonşusuna vaxtilə etdiyi pisliyi yadına salmaq üçün. "Elmarın diqqətini baş daşına həkk olunmuş bir şəkil cəlb etdi. Ona elə gəlirdi ki, haradasa bu baş daşının ətrafında tanış bir səs də dolaşmaqdadır... Şəkildəki tanış sima və tanış səs..."

Xain xoflu olar deyiblər. Ancaq indi Elmar xoflanmamışdı. Ölüm qorxusu, həyatdan əbədi qopub getmək vahiməsi Elmarı yumşaltmışdı. İndi onun gözləri həqiqəti görür, qulaqları yalanı eşitmir, ürəyi də ədalətli olmaq üçün döyünürdü. Elmar sanki səhvlərini düzəltmək üçün Tanrıdan möhlət istəyirdi. Bəlkə bu, ömrü uzatmaq, yenidən yaşamaq üçündür, yoxsa səhvlərini düzəltmək, Allah bəndəsi olmaq üçündür. Əlbəttə, hekayədə sonuncunun səmimiyyətinə inanmaq bir qədər oxucuda çaşqınlıq yaratsa da, fəqət, bu həqiqəti biz Elmarın dilindən eşidirik. Hələ bu etirafdan öncə Elmar cəzalanmışdı. Bu cəza fiziki işgəncə deyildi, bu cəza mənəviyyatın cəzası idi. Müəllifin Elmarın simasında həyatda, cəmiyyətdə yaşayıb inamını, imanını satanların, şəri xeyrə calayanların, insana münasibətində vəhşilik nümayiş etdirənlərin hamısını mənəvi olaraq cəzalandırmaq istəyirdir.

Yeri gəlmişkən qeyd edim ki, yazıçının bu missiyanı həyata keçirmək istəyini "Qayada çiçək" kitabında yazdığı ön sözdə Əli Rza Xələfli belə ifadə edir: "Müəllifin yaradıcılığını izləyəndə, onun ayrı-ayrı vaxtlarda qələmə aldığı hekayələrini təhlil edəndə cəmiyyətin taleyi üçün daim narahat olan binayiqədimdən aram olmayan dünyadan nigaran qalan, eyni zamanda bu nigarançılığın da məsuliyyətini dərk edən bir ziyalı mövqeyi görürük. O hiss edir ki, cəmiyyətdə baş verən faciələr, qanlı inqilablar, müharibələr üçün məsuliyyət bölünərsə onun da payına az düşməyəcəkdir." Məhz bu mövqe "Son arzu"da qəti şəkildə özünü göstərir. Elmar təsadüfi olaraq cəzalanmır. Yazıçı onu bilərəkdən bədənin cəzasına deyil, Tanrı cəzasına tuş edir. Allah divanında əyləşdirir. Çünki Elmar kimilərini cəmiyyət həmişə ədalətsiz olaraq qoruyur, müdafiə edir. H. Mirələmov da bu ədalətsizliyi gördüyündən Elmarı haçansa incitdiyi, qəlbinə dəydiyi, qanuni tələbinə əhəmiyyət verməyib aylarla süründürdüyü bir qocanın məzar daşından boylanan kəskin baxışları qarşısında mənəviyyatını, ruhunu edam edir. Onu sarsıdır. "Başdaşındakı şəkil gözlərini dikib sanki düz Elmarın gözlərinin içinə baxırdı. Nə ağır baxışları vardı bu mərhumun. Yox, bu adi baxış deyildi. Bu baxışda nəsə bir sehr, qəribəlik duyulurdu. Bu baxışlar canlı insan baxışları deyildi. Bu baxışlar sanki yatdığı torpağın nəmliyini, soyuqluğunu, sarılığını sovurub içinə çəkmişdi. Bu nəmlik, bu sarılıq, bu soyuqluq elə bil Elmarın baxışlarına axırdı. Oradan isə birbaşa ürəyinə, beyninə süzülürdü. Bu nəmlik, bu sarılıq, bu soyuqluq onun ürəyini üşüdürdü, iliyini dondururdu və qəlbini yavaş-yavaş sarı bir kədərə bürüyürdü. Harada görmüşdü o bu gözləri?"

Deyəsən Elmar yaman yerdə axşamlamışdı. İctimai təminat şöbəsində işlədiyi vaxt yamanlıq göstərdiyi qocanın sərt baxışları qarşısında aciz qalmışdı. Cavab tapa bilmirdi. Görəsən indi Tanrı bunları burda niyə görüşdürmüşdü? Əlbəttə, sual mənə aydın olduğu kimi, Elmarın özünə də aydın idi. Artıq indi gec də olsa, o, dərk edirdi ki, bu, son divandır. Son divandan qurtulmağa səy göstərmək isə əbəsdir. Yenə də Məmməd Arazın qanadlı fikirləri, haqdan gələn misraları məqamında yada düşür.

**Son divandan qaça bilmir pislikli pislər**
**Toz kimi də yapışsalar daşa-divara**
**Yer altında itib-batır qurama izlər**
**Meydan qalır yaxşılara, yaxşılıqlara.**

Şair sonra həmin şerində qeyd edir ki, məzarlıqda yaxşılar da, yamanlar da yanaşı dəfn olunurlar. Fəqət, yaxşılıqları dəfn etmək çətin olduğu kimi, yamanlıqları da dəfn etmək mümkün olmur. İndi Elmar nəhayət ki, həmin incitdiyi qocanın qəzəbli baxışlarının ittihamı qarşısında bu mətləbi anlamışdır. Elədiyi dəfnolunmaz yamanlıqlara görə peşmançılıq duyurdu. "Əsl insanlar heç vaxt ölmür, onların ömürlərinin davamı torpaq ömrüdür. Belə ömürlər torpağa qarışıb,

torpağa çevrilib yaşayır. Torpaq ömrü isə əbədidir" qənaətinin doğruluğuna inandığından mənasız bir ömür yaşadığını nifrətlə yad edir. Elə bu düşüncələr içərisində ömrünün son ucunda məzarlığı tərk edən Elmarın qəlbində yeni bir istək, yeni bir arzu doğur: "Kaş ömür bir az möhlət verəydi! Onda özüm bilərdim ki, necə yaşayıram!..."

Bu xəstənin – Elmarın son arzusu, son diləyi idi. Əlbəttə, indi Elmar da əvvəlki Elmar deyildi. O minlərlə insanın əbədi köç etdiyi məkanı axirət mənzilini, torpağın altında uyuyanların daş geyimlərini görüb gəlmişdi. Bu daş geyimləri, bu mərmər abidələri də insan yonub düzəltmişdi. Çəpər –çəpərə söykənmiş qəbir yerlərini – gor evlərini də insan öz əlləri ilə qazmışdı. Bəlkə də bu qoca qəbiristanlıqda neçə belə gorqazan, neçə belə daşyonan yatırdı. Hərəsinin də qəlbində bir istək, bir arzu. Fəqət, biz onlardan xəbərsizik. Ancaq Elmarın arzusunun, insan olmaq istəyinin dəfn olunmasını istəməzdik. Və bir də sözümün sonunda onu demək istəyirdim ki, "Son arzu" mənə "Son yarpaq" qədər təsir etdi. Yaddaşımda əbədi iz salmış qoşa adlar sırasına bir qoşa ad da yazıldı. "Son arzu" və "Son yarpaq" . Hər ikisində istək var, arzu var. Birində qoca rəssam Bermanın sənət incisi yaratmaq arzusu, digərində insan olmaq arzusu. Bu arzular bir-birinə nə qədər uzaqdırsa, bir o qədər də yaxındır.

## TARİXİ YADDAŞIMIZI OYADAN ƏSƏR

Flober yazırdı: "Bir kitab yazmaqdan ötrü min beş yüz başqa kitab oxumaq lazımdır". Belə çıxır ki, yaxşı yazıçı olmaqdan ötrü mütləq çoxlu kitab oxumalısan. Floberin dövrü ilə müqayisədə indi kitabların sayı xeyli çoxalıb. Demək, bir kitab yazmaq üçün daha çox kitab oxumaq lazım gəlir. Bu fikirdə müəyyən həqiqət olsa da, heç də çox kitab oxumaq adamı yazıçı etmir. Bu, həqiqətdir ki, "yeriyən kitabxanaya" bənzəyən adamlardan çox zaman yaradıcı şəxsiyyətlər çıxmır. Bəzən hansısa yazıçı haqqında söbət düşəndə deyirlər ki, kitabdan gəlməlidir. Bəzi yazıçılar haqqında isə deyirlər ki, həyatdan gəlməlidir. Bu tendensiya Azərbaycan ədəbiyyatşünaslığında mövcuddur və XVIII əsr rus ədibi tənqidinin təsiri ilə formalaşıb. Adətən belə hesab edirlər ki, yazıçılar iki qrupa bölünür; bir qrupu kitabların, qazandığı biliklərin hesabına yazır, digər qrup isə təbii istedadının gücünə, həyatı dərindən bilməyinin hesabına yazıb-yaradır.

Böyük rus yazıçısı L.N. Tolstoy bu amildən çıxış edərək həmişə M.Qorkini tənqid etmişdir. Bir dəfə o, rişxəndlə M.Qorkini süzərək demişdir:

-Sən heç yuxu görürsən?

M.Qorki ona cavab vermişdir:

-Srağagün dəhşətli bir yuxu gördüm. Gördüm ki, hər tərəf ağappaq qara bürünüb. Ətrafda heç nə görünmür. Bu ağ səhrada bir cüt qara sapoq yeriyir. Bu səhnə canıma üşütmə saldı... Lev Nikoleyeviç gülüb ona sataşır:

- Sənin yuxuların da elə kitabdan gəlmədir...

Maraqlıdır, qocaman rus yazıçısı həyatın dibindən gələn, lümpen proletar yazıçısına nə üçün belə deyirdi? Axı " Həyatın dibində" əsəri ilə şöhrət tapan M.Qorki kitabdan gələ bilməzdi? Maraqlı burasıdır ki, Azərbaycan ədəbiyyatında bir çox yazıçılara "kitabdangəlmə" damğası vurulur. Ən çox da onların əsərləri oxunur. Demək, iş kitabdan, yaxud həyatdan gəlməkdə deyil. İş ondadır ki, yazdığın əsər oxucuların qəlbinə işıq sala bilsin. Söz yox ki, V.Hüqo həyatı gözəl bilirdi.Ancaq eyni zamanda kitabları da bilirdi. Əgər belə olmasaydı, "Səfillər" kimi dünya şöhrətli əsər yaranmazdı. Həmin əsərdə bədii üslubla yanaşı, elmi-tarixi məlumatlarla zəngin publisistik üslub da mövcuddur.

Demək, yazıçı kitabdan bəhrələndiyi kimi, həyati da oxumağı bacarmalıdır. Ən başlıcası, o, əsərlərində qəhrəman obrazlar yaratdığı kimi, onun əsərləri qəhrəmanlar da yetişdirməlidir. Fikrimi böyük rus tənqidçisi Belinskinin belə bir sözü ilə tamamlamaq istəyirəm: "Talant əgər ağıla və biliyə, zəngin məlumatlara

əsaslanmırsa, fərasətsizliyə çevrilir”. Xoşbəxtlikdən H.Mirələmov təbii istedadını fərasətsizliyə çevirmədi. O, təbii, anadangəlmə istedadını dincə qoymadı, onu fəaliyyəti və zəhməti ilə daha da rövnəqləndirdi. Bu yerdə bir neçə kəlmə onun tərcümeyi- halından qeydlər vermək yerinə düşür: “Hüseynbala Fazil oğlu Mirələmov 1947 – ci ildə anadan olmuşdur. Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür. Əmək fəaliyyətinə ilk gəncliyindən mətbuatda başlamışdır. Elə o vaxtdan da sözlə ülfət ”bağlamış və bir daha ondan ayrılmamışdır. Həyati müşahidələrini yaradıcılıq “laboratoriyasında” hekayələrə, tarixi ədəbi esselərə, publisistik qeydələrə, ədəbi- düşüncələrə çevrilmişdir.

Onun “İnşaat fizikası” (1991), “ Qaz kondensatları” (2000) elmi metodik kitabları, “Karbohidrogen qazlarının emalının texnoloji sxemlərinin atlası” (2000) ali məktəblər üçün dərs vəsaiti çap olunub.

“ Tənha durna uçuşu” hekayələr kitabı xalq yazıçısı Elçinin ön sözü ilə 1986-cı ildə işıq üzü görüb. Dövri mətbuatda bədii -publisistik yazıları müntəzəm çap olunur. “ Amalın işığında” ədəbi-publisistik qeydləri bu il oxucuların müzakirəsinə verilib. Onun hekayələrində də, publisistikasında da dilin təbiiliyi, şirinliyi, həssas müşahidə qabiliyyəti (bu, yazıçı üçün birinci şərtdir) oxucunun diqqətini çəkir.

H.Mirələmovun “Qayada çiçək” hekayələr kitabına müxtəlif illərdə yazdığı ədəbi nümunələr daxil edilmişdir.

(“ Qayada çiçək” kitabından).

Göründüyü kimi, H.Mirələmov gənclik illərində bədii yaradıcılıqda məşğul olmuş, sonra fasilə vermişdir. Bir də, zorla cəlb olunduğumuz Qarabağ müharibəsi başlayanda əlinə qələm götürmüşdür. O, ikinci dünyabmüharibəsinin ağrı-acılarını,müharibədən sonrakı aclıq və səfaləti gözləri ilə görmüş, özü o illəri yaşamışdır.Təbii ki, qəlbi yaratmaq eşqi ilə döyünən bir yeni yetmə müharibə dəhşətlərinə biganə qala bilməzdi. O, başa düşürdü ki, bir tikə çörək dəyirmana gedən yoldan çıxıx. Ancaq müharibə dəyirmana gedən yolu bağlayıb, bir tikə çörək qəhətə çıxıb və balaca uşaqların acından yuxusu ərşə çəkilib, göy üzündə durnalar perik düşüb. Onu da başa düşür ki, müharibədə döyüşən atalarımızın “ izlər”i olmasa, nə dəyirman yolu açılandır, nə də durnalar qayıdandır.

Bir də o, ermənilərin torpaq iddiası baş qaldıranda, torpaqlarımı işğal olunanda qələmə sarılır. “ Xəcalət”, “ Güllələnmiş heykəllərin fəryadı”, “Vicdanın hökmü” kimi dəyərli əsərlərini yaradır. Onun gəncliyində yazdığı əsərləri ilə son dövrdə qələmə aldığı əsərləri arasında birləşdirici məqamlar çoxdur. Ancaq ən əsası mövzu yaxınlığıdır. Müharibə mövzusu onun ilk və son dövr əsərlərini bir

xətt kimi birləşdirir. Çünki H. Mirələmov istəmir ki, yer üzünün uşaqları atasız böyüsünlər, əlləri bir tikə çörəyə görə qana batsın… İstəmir ki, dəyirmana gedən yolda acından dünyasını dəyişən körpənin daş beşiyi yırğalansın… İstəmir ki, müharibənin gətirdiyi kasıblıq uşaqlara xəcalət versin… Və o, hələ yeniyetmə ikən qələmə aldığı " İstəmirəm" hekayəsində öz arzularını belə ifadə edir: "… Gecə qaranlığında ulduzlar və ay dənizin gümüşü sinəsində əfsanəvi naxışlar yaratmışdı. Yay gecəsinin sakit və zəif küləyi kiçik balıqçı qayığımızı asta – asta yırğalayırdı. Xırda ləpələr qayığın divarlarına dəyib parçalandıqca, ətrafa sanki cingiltili və məsum uşaq gülüşləri səpələnirdi.

Hər şey susurdu: göylər də, dəniz də, gecə də…

Təkcə susmayan mən idim. Mənim kövrək ürəyim . Mən sularla danışırdım. Suların dilindən atamın səsini eşidirdim.

- Dənizi sev… oğlum. Ona layiqli övlad ol.

- Sevəcəyəm ata, sevəcəyəm. Mən hər işdə sənə oxşayacağam. Bax neçə vaxtdır ki, sənin qayığında Mürsəl əmi ilə ova çıxıram. O gün Mürsəl əmi deyirdi ki, sağ ol oğlum, zirəklikdə atana oxşamısan. Ata, mən həmişə sənə oxşayacağam. Sənin həyatını yaşayacağam. Ancaq o gün keçirdiyin hissləri mən keçirmək istəmirəm. Yadımdadır, biz səni göz yaşları ilə yola saldıq. İstəmirəm ki, mən də göz yaşları ilə isti yuvamızdan ayrılam. İstəmirəm anamdan ayrılam. Yox! Bunu istəmirəm! İstəmirəm! İstəmirəm! İstəmirəm!..."

Qarabağ mövzusunda az – çox yazılıb. Ancaq boynumuza almalıyıq ki, hələ yetərincə deyil. Hələ müharibə qələbəylə başa çatmadığından mükəmməl qəhrəman obrazları yaradılmayıb. Hələ müharibə bütöv və tam şəkildə ədəbiyyatımızda bədii həllini tapmayıb. Demək lazımdır ki, Qarabağdakı ölüm - dirim savaşı və şəhidlər barədə yazılar mətbuatda ədəbiyyatımza nisbətən daha çox işıqlandırılır. Ancaq belə demək mümkünsə, H. Mirələmov Qarabağ mövzusunu yada salmaqla, bu boşluğu doldurmağa çalışdı və buna nail oldu. Təsadüfi deyil ki,onun " Xəcalət" povesti Azərbaycan Yazıçılar Birliyinin Bədii Ədəbiyyatı Təbliğ Bürosunun "Yaddaş " mükafatına layiq görüldü. " Güllələnmiş heykəllərin fəryadı" adlı ədəbi- essesi əsasında film hazırlandı. " Vicdanın hökmü" N. Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında və Dövlət Gənclər Teatrında tamaşaya qoyuldu. Bu üç əsərində H. Mirələmov Azərbaycan xalqına üzünü tutub çox böyük bir söz dedi. O, dedi ki, güllələnmiş heykəllərin fəryadı hər birimizdə xəcalət doğurmalıdır və vicdanımızın hökmü ilə Qarabağa getməli, torpaqlarımızı azad etməliyik. Yaxın olduğu qədər də, uzaq olan Qarabağın yaddan çıxdığı və siyasi alətə çevrildiyi indiki vaxtda bu sözü demək adamdan qeyrət və hünər tələb edir. Bu hünər və qeyrət isə H. Mirələmovda var. O, bunu əsərləri ilə sübut etdi.

“ Güllələnmiş heykəllərin fəryadı” əsərini müəllif daxili yanğı hissi ilə qələmə alıb. O, gördüyü hadisələri , yaşadığı hiss və duyğuların ürəyinin közündən keçirərək kağıza köçürüb. Bildiyimə görə, H. Mirələmov Qarabağın bütün obalarını qarış-qarış dolanıb, erməni qəddarlığını və didərginlik həyatını gözləri ilə görüb. Eyni zamanda o, bu əsərlərini yazarkən çoxlu elmi-tarixi mənbələrə də müraciət edib: “ Abidələr gülüstanı Şuşanın işğalından 10 il ötür. Bu günlərdə yenidən “Qarabağnamə” lərə, Qarabağ ədəbi mühitinin görkəmli simalarının yaradıcılığına nəzər yetirdim. Vətənimizin bu ecazkar güşəsinin ağrı – acısının səbəbini xıx əsrdə qələmə alınmış sənədli materiallarda, Xurşud Banu Natəvanın qəlb ovsunlayan qəzəllərində, Vaqifin “ Görmədim” müxəmməsində, “ mənə nə var?”- deyən xanların “ məndən ötdü, qardaşıma dəydi” çəkişmələrində axtardım. Və gördüm ki, yağı hiyləsi Azərbaycan xalqına qarşı düşmənçilik niyyəti, ermənilərin torpaq iddiası qara ilana dönüb, öz içimizdəcə balalaya-balalaya xx əsr aşırımı aşıb -adlayıb zəmanəmizə gəlib və qıvrılıb Şuşanın belinə dolanıb, göz dağı kimi durmuşdur. Başını da kömbəsinin üstündən qaldırıb, Cıdır düzündən xumar -xumar Azərbaycana baxır”.

Müəllif təkcə Qarabağ həyatına bələd olmaqla bu cür əsər yarada bilməzdi. O, eyni zamanda “Qarabağnamələr”ə, tarixi kitablara da yaxından bələddir. Qayıdırıq sözümüzün əvvəlinə. Yazıçı həm həyatı, həm də kitabları bilməklə sanballı əsər ortaya qoya bilər. Bizcə, “Güllələnmiş heykəllərin fəryadı” belə əsərlərdəndir.

Əsərin maraqlı məziyyətləri çoxdur. İnsanlar hadisədən çox, onun səbəbi ilə maraqlanırlar. Müəllif təkcə güllələnmiş heykəllərin fəryadını təsvir etmir, o, həm də tarixi yaddaşımızı oyadaraq bu fəryadın köklərini açmağa çalışır və buna müvəffəq olur. Əsərin bu məziyyətini şair-publisist Əli Rza Xələfli yaxşı tutmuşdur. O, H.Mirələmovun həyat və yaradıcılığına həsr etdiyi “Sözə doğru” kitabında yazır: “Həqiqət və xəyallar, bu günlə keçmiş, yuxu ilə gerçəklik, tarixilik və müasirlik. Bu mənada müəllifin özü və tarixi obrazlar dəfələrlə qarşı-qarşıya gəlir. Və sanki müəllif bütün bu təzadların fonunda Xeyirlə Şərin mübarizəsini göstərir. Heç də onun məqsədi yalnız Xeyirin qələbəsini təmin etmək deyil. O daha çox Şəri doğuran amilləri, mühiti açmağa çalışır. Bu mənada, Ü.Hacıbəyovun keçən əsrin əvvəllərində qələmə aldığı sərt sarkazmla müşayiət olunan publisistik əsəri tutarlı vasitə kimi istifadə olunur. Müəllif hadisələrinin psixoloji bağlılıq məqamlarını, intuisiyanın gücü ilə dəqiq tutur. “Sənsiz” romansını Bülbülün dilindən təqdim edir. Və sanki Şuşa danışır, Şuşa ittiham edir. Xeyir Şərə qarşı mübarizədə insanlardan kömək umur. Hələ öz içində Xeyiri dəfn etməmiş insanlardan böyük Üzeyir bəyin milli-mənəvi qüsurları amansızlıqla qamçılayan qeydləri oxucuya çox dəhşətli həqiqətlərdən xəbər verir.

H.Mirələmovun “Güllələnmiş heykəllərin fəryadı” əsəri diqtə edir. Tarixi yaddaşından məhrum olan millət əzaba məhkumdur. Bu əzab didərginlik də ola bilər, hədsiz qurbanlar bahasına qazanılmış müstəqilliyin itirilməsi də, dövlətçilikdən məhrum olmaq təhlükəsi də, vətəndaş müharibəsi də və s.”

Kamal Abdullanın belə bir sözü var; kimisə oxumaq kiməsə aparan yoldur, bu şərtlə ki, o yolu gedib bir də özünə qayıda biləsən. Biz “Güllələnmiş heykəllərin fəryadı”na qulaq asdıqca elə yazıçının özünə doğru yol gedirik və bir daha özümüzə qayıdırıq. Tarixi yaddaşımız bərpa olunur, başımıza gələn faciələrin kökləri barədə düşünməli oluruq. Bu mənada tam inamla demək olar ki, “Güllələnmiş heykəllərin fəryadı” tarixi yaddaşımızı oyadan əsərdir.

## “SİMUZƏR”
## İNSAN –TƏBİƏT TƏZADLARI
## HAQQINDA ELEGİYA

Mən H.Mirələmovun bədii yaradıcılığı, xüsusən müharibə mövzusunda qələmə aldığı hekayələri haqqında ötən yazılarımda qeyd etdiyim bir fikri yenidən diqqətə çatdırmaq istəyirəm . Əslində bu fikir mənim istəyimdən asılı olmayaraq bu yazıda özünə yer tapmaq üçün duyğularımı oyadır. Yəni ki, yazıçının müharibə mövzusunda yazdığı hekayələrin bədii təsirindən nə qədər uzaqlaşsam da belə, bu hekayələrin təsirindən yaddaşımda qalan ümumi qənaət məni tərk etmir.

Müharibə- bəşər sivilizasiyasının yaratdığı hər nə varsa onun məhv olunmasına fərman verən, fəlakətlər törədən, əzab- iztirab gətirən, təbiət və insanları iflic edən faciə, çayları, gölləri, dənizləri insan qanına boyayan, anaların ürəyinə dağ çəkən, günahsız körpələri yandıran, bir sözlə, təbii varlıqlara divan tutan dəhşətli bir hadisə, müharibədə iştirak edən tərəflərin iqtisadiyyatına və təbiətinə vurulan irimiqyaslı ziyandır. Sonuncuya – təbiətə insanın kobudcasına müdaxiləsi H.Mirələmovun bir çox hekayələrində ürəkağrısı ilə qələmə alınaraq oxuculara çatdırılır. Qeyd edim ki, təbiət təkcə müharibə vaxtı deyil, dinc –yaşayış illərində də həmişə insan tərəfindən ciddi təsirlərə məruz qalır. Xüsusən, texniki tərəqqinin indiki inkişafı dövründə insan təbiətə daha çox fəal müdaxilə edir. Əlbəttə, onun təbiətin nizamı pozulur, ekoloji tarazlıq ahəngini itirir, qiymətli, nadir heyvan və bitki növlərinin sayı günü-gündən azalır. Və təbiətdə xoşagəlməz nəticələr müşahidə olunur. Odur ki, təbiətin qorunması, ətraf mühitin mühafizəsi indi bütün tərəqqipərvər bəşəriyyəti narahat edən və həlli yolları axtarılan vacib bir problem olaraq qalır. Bu problem H. Mirələmovu da bir vətəndaş olmaqdan əlavə, həm də bir yazıçı kimi daha çox narahat edir. O, əksər hekayələrində təbiəti qorumağı, onu sevməti, hətta ondan necə istifadə etməyin yollarını da bədii söz vasitəsilə oxuculara çatdırır. Lakin konkret olaraq bu narahatçılığı – ekoloji mədəniyyətin anormal inkişafını, insanın təbiətə divan tutmasını onun “Simuzər” hekayəsində qabarıq şəkildə görürük. Yeri gəlmişkən qeyd edim ki, ideya baxımından qlobal əhəmiyyət kəsb edən bu hekayə Azərbaycan, türk, rus, ingilis, fransız və alman dillərinə tərcümə edilmiş, ayrıca kitab halında nəşr olunaraq geniş yayılmışdır. Həmin kitabın redaktoru şair Əli Rza Xələfli elə ordaca kitaba yazdığı ön sözdə qeyd edir ki, Azərbaycan nəsrində kifayət qədər tanınmış H. Mirələmovun “Simuzər” hekayəsi ötən əsrin 80 –cı illərində qələmə alınıb. Və

tam məsuliyyətlə deyərdim ki, sənətkarlıqla, daxili yanğı hissi ilə qələmə alınıb. Hekayədə insanın mənəvi oyanışı, bu yolda yaşadığı mənəvi əzablar o qədər inandırıcı təsvir olunur ki, oxucu bu ağrını duyur, yaşayır. Həqiqətən bir oxucu kimi bu fikrin təsdiqindən yan keçmək mümkün deyil. Nədən ki, hekayənin şirin bir dillə, lirik ovqatla yazılması, bədii təsvirin mənzərəni gözlərimiz önündə canlandırılması əsərin ideyasının yaddaşlara köçməsinə güclü təkan verir. Müəllifin təbiətə qəsd edənlərin simasında yaratdığı Qoca Keşikçi obrazının yuxuda öz günahlarına tuş gəlməsi, balığa çevrilərək torda çabalaması, təbiət – insan harmoniyasının pozulmasına yönəlmiş fəaliyyətinə görə cəzalanması və nəhayət, mənəvi əzablardan sonra özünü dərk etməsi, bilavasitə, özünü qoruması adama reallıq təsiri bağışlayır. İstər-istəməz müəllifin "dənizlərin suyunu şor edən balıqların göz yaşıdır" fikrinin bədii təsir vasitəsindən çox həqiqət olduğuna inanmaq istəyirsən. Hekayədə müəllif ilk cümlədən oxucunun diqqətini özünə sarı çəkərək ürəyini boşaltmaq üçün toxunduğu problemin acı nəticələrini sanki birbaşa dinləyiciyə danışır: − "Sular balıqların gecə harayını, soyuq mart gecəsinin qoyunda üşümüş, ucsuz-bucaqsız çölə danışırdı. Bu çöl – uzaqlarda ta gözişləməz uzaqlarda – hardasa suları duzlu olan bir dənizlə birləşirdi...

Kim bilir, bəlkə də, balıqların göz yaşıdır dənizlərin suyunu şor edən, duzlu edən?.."

Öz əməllərinə yaxşı bələd olan insan balıqların göz yaşını görmürmü, fəryadlarını eşitmirmi? Elə bu kiçik parçadan, əlbəttə, eşidir və bilir ki, Xəzər neçə il bundan əvvəlki Xəzər deyil. Suyunun təmizliyi də, barı, bərəkəti də əvvəlki deyil. Onu da bilir ki, toruna niyə daha ağ balıq, Şahmayı, Qızıl balıq düşmür. Hələ onu da bilir ki, müasir poeziyamızın canlı klassiki Məmməd Araz 37 il bundan əvvəl Xəzər dənizinin tədqiqi, qorunması sahəsində böyük addımlar atmış, tanınmış alim, professor Gülün xatirəsinə həsr etdiyi şerində niyə haray çəkirdi:

Xəzər Xəzər olandan,

Sağılır Qızıl inək kimi.

Sağıb, sorub,

Sonra yorub

Qısır inək kimi

Biz onu satmaq istəyirik.

Ölü dənizlər muzeyinə

Atmaq istəyirik.

Xəzərdə  Ağ balıq,

Şahmayı, Uzun burun,

Siyənək qurtarır.

Qızıl balıq adlı.

**Çiyələk qurtarır.**

“Simuzər” hekayəsi məhz bu  simuzərlərin – balıqların vəhşicəsinə talan edilməsinə həyacan siqnalı çalır. “Balıq intizarlı, balıq kədərli, balıq nigaranlı bir külək dolaşırdı bu çölün soyuq  qoynunda. Bu intizar külək suların  tamını, balıqların iyini  səpələyirdi bu çölün nəhayətsizliyinə”.

Yazıçının təbiəti qorumaq istəyindən irəli gələn, həyəcan dolu bu sətirlərdə sanki insan qınaq obyektinə çevrilib. O insanı qınayır ki, balıqların  fəryadını çölün nəhayətsizliyi də uda bilmir. Küləklər də bu fəryadı batırmaq istəmir. Fəqət təkcə insan eşitmir, yumşalmır. Təbiətin bu misilsiz nemətinə qarşı  qəlbində mərhəmət hissi oyanmır.  İnsan dərk etmir ki, vətən öz  təbiəti, təbii zənginlikləri ilə gözəldir.  Vətən təbii  sərvətləri ilə  bir daha qüdrətlidir. Təbiətsə  nə qədər gözəl olsa da, insansız  miskindir. Demək, təbiət-insan  vəhdəti pozulmalıdır. Yazıçının da “Simuzər” də  əsas məqsədi bu vəhdətin kamilliinə nail  olmaqdır. Yoxsa yazıçı  bu həqiqəti  anlamaq istəməyən Qoca Keşikçi obrazını tərbiyə etməz, düçar olduğu bəlanın girdabında  boğardı.

Tənqidçi Vaqif  Yusifli H.Mirələmovun yaradıcılığına həsr etdiyi məqalələrin birində bu məqama toxunaraq  yazır: “ Yazıçı  bu hekayədə Əli Rza Xələflinin doğru qeyd etdiyi kimi mifik təfəkkürdən qaynaqlanır. Ancaq bu, zahiri vasitədir. Əsas məsələ insan – təbiət vəhdətini əks etdirməkdir. İnsan təbiətin  bir parçasıdır. Lakin ona qarşı çıxanda, onu məhv etməyə can atanda  həyatın gözəllik qanunlarına qarşı çıxmış olur. Yazıçı ömrü boyu bu həqiqəti dərk etməyən  Qoca Keşikçini xəyali şəkildə (yuxu vasitəsilə( balığa çevirir və balığa çevrilən insan dərk edir ki, öz  mahiyyətinə qarşı çıxanda təbiətin gözəllik qanunlarını pozur”.

İnsan öz mahiyyətinə qarşı çıxanda nəinki təbiətin  gözəllik qanunlarını pozur, hətta cəmiyyətin özündə qarşısı alınmayan, insanlıq çərçivəsinə sığmayan neqativ hallar cərəyan etməyə başlayır. İnsan mürəkkəb, ziddiyyətli, varlıq olduğu üçün onun təbiətində olan bütün kefiyyətlər məhz həmin məqamda üzə çıxır. “Simuzər” hekayəsində Qoca Keşikçinin yuxusuna  girən balıq gəlin bir daha qocaya insanın  təbiətini danışır. Ona  xatırladır ki, “dağların, qayaların, sərt

küləklərin, ildırımların, mülayimliyin, qayğının, qəddarlığın, amansızlığın əkiz qardaşıdır insan. Həm ürəyiyanandır, həm də amansızdır o".

Təəssüflər olsun ki, insan təbiətə münasibətində məhz qəddarlıq, amansızlıq nümayiş etdirir. Belə olmasaydı həssas yazıçı Qoca Keşikçinin balıqların ittihamına verməzdi. Qoca da haqsız olmasaydı, yəqin ki, ittiham qarşısında susmaz, günahsız olduğunu sübuta yetirməyə çalışardı. Yuxuda gördükləri həqiqət idi qocanın. İlləedən bəri qoca balıqların harayına biganə qalmışdı, göz yummuşdu. Çünki özünün də əli təbiətin sərvətini talayanların əli kimi cinayətkar əli idi. Qoca indi özü öz əməlinin toruna düşmüşdü. Bir udum hava, nəfəs üçün darıxırdı. Boğulmağının səbəbini indi deyəsən yavaş-yavaş dərk etməyə başlayırdı. Ətrafında üzən balıqlar qoca balığa – insana nifrət baxır, onu didib – parçalamaq, düşdüyü vəziyyətin ədalət məhkəməsində boğmaq üçün zəncir kimi hər tərəfdən dövrəyə almışdılar. Qoca balıqların ittihamı qarşısında mənəvi oyanışını hiss edir, duyğularının təlatümə gəldiyini duyduqca balıqları qeyri –adi hisslə dinləyirdi. "Biz balıqları isə kürüləməyə, nəzil artırmağa qoymursunuz, qoca! Axı biz insanlar üçün artmalıyıq, çoxalmalıyıq. Sularda milyonlarla bala balıqlar məhv olur. Gör nə qədər nəslimizdən olan balıqların kökü kəsilmişdir dənizlərdən, çaylardan. Nə üçün? Fikirləş, qoca. Cavab ver: hanı Qızıl balıqlar, hanı Xan ziyadlar, Hanı Xəzər sifi... Eh, sadalayanda üzlər sızıldayır. Göz yaşımız tufana, fırtınaya dönür. Artıq indi qocanın beynində baş qaldıran müqəddəs duyğular ona insan olduğunu diktə edirdi. Qoca Keşikçi uzun illər idi ki, bunu unutmuşdu. O vaxt ovuc –ovuc qazandığı pul dəstələri qara örtük kimi gözlərindən çəkildikcə, qoca öz sədaqətli borcuna xəyanət etdiyini anlayırdı. Bu xəyanət təkcə öz peşəsinə - balıqların keşiyini çəkmək vəzifəsinə edilən xəyanət deyildi, həm də insanın öz-özünə xəyanət etməsi idi. İnsan haqlı olaraq öz cəzasını çəkəndə islah olunur. Qoca indi gec də olsa, islah olunurdu. Müqəddəs bildiyi anasının ona dediklərini xatırlamağa məcbur idi. Anası deyərdi ki, balıq simuzərdi: - Simuzər bayram axşamlarının, toy –düyünlərinin xoş niyyətidir. Kim o gecə yuxuda balıq görsə, niyyətinə qovuşacaq. Simuzər sədaqət rəmzidir, dəyanət rəmzidir, müqəddəslik rəmzidir. Simuzər bir nağıldlr, şaqraq bir nəğmədir!... Simuzər bolluq rəmzidir, əmin –amanlıq rəmzidir, etibar rəmzidir, ruzi rəmzidir...

Beləcə biz hekayənin sonunda yazıçının uğurunu görürük. O uğuru ki, insanı özünə qaytarır. Allahın verdiyi halal nemətsə, müqəddəs ruziyə qarşı insanın nankor münasibətini səhmana salır, tərbiyə edir. Bir qoca keşikçini törətdiyi cinayətlərin ağırlığına baxmayaraq bağışlaya bilirik. Çünki onu artıq təbiəti sevən, onu qorumaq istəyi ilə alışıb yanan bir əsgər kimi görürük. Əsgər Vətəni necə

qoruyursa, keşikçi də həmin məsuliyyətlə təbiətin misilsiz neməti olan balıqları o cür qorumağa hazır olur

Təsadüfi işlətmirlər ki, vətəni göz bəbəyi kimi qorumaq gərəkdir. Yəni Vətən əslində,insanın gözüdür. Kirpiklər gözü qoruyub müdafiə etdiyi kimi, insan da gözünü – Vətəni qorumalıdır. Vətəni qorumaqsa təkcə sərhədləri qorumaqla bitmir. Hər bir vətənpərvər insan yurdunun, geniş mənada, Azərbaycanın hər daşı, hər qarış torpağı, suyu havası, ağacı, otu, üçün məsuliyyət daşımağı bacarmalıdır.

"Simuzər" hekayəsinin əsas ideyası budur. Bu ideya yazıçının təbiəti insanlara sevdirmək, onun nemətlərindən qənaətlə istifadə etmək istəyidir. Və bir də insanın təbiətə amansız müdaxiləsinə qarşı bədii sözün gücünə arxalanaraq etibarlı sipər çəkmək istəyidir. "Simuzər" insan – təbiət harmoniyasını pozulmağa qoymuyan ədəbi sipər kimi çox qiymətli bir sənət əsəridir. "Simuzər" təbiətə qəsd edənlərin ədalət məhkəməsində ittiham kürsündə əyləşdiyi məqamdır. Əlbəttə, ədəbiyyatda, sənət aləmində. Unutmaq olmaz ki, fiziki işgəncə insanın mənəvi oyanışına, mənəvi islahına, mənəvi tərbiyəsinə təsir etmək gücünə malik olmayan təsir vasitəsidir. Bu kefiyyətləri yalnız sənətin, bədii ədəbiyyatın təsirinə güvənməklə qazanmaq mümkündür. Bu mənada, "Simuzər" mənəvi oyanışa təsir edə biləcək bədii gücə malikdir".

# BÖYÜK FACİƏNİN HEYKƏLİ

Kimsə mübahisə edə bilər ki, sədaqət, vəfa, etibar və s kimi keyfiyyətlər gözlə görünə biləz. Yəqin ki, binanı, ağacı, divarı gördüyümüz kimi, məsəlçün, sədaqəti görə bilmirik. Doğrudur, sədaqət maddi varlıq deyil, mənəvi varlıqdır. Ancaq maddi olmayan sədaqəti gözlə də görmək mümkündür. Bunun üçün insanın bəsirət gözləri açıq olmalıdır. Şair –publisist Ə.Xələflinin "Kredo" qəzetində "Sədaqət heykəli " sərlövhəli silsilə yazıları getdi. Mən bu yazılardakı səmimiliyə, tarixi faktların zənginliyinə görə müəllifə ninnətdarlıq edirəm. Xüsusilə, sərlövhə diqqəti daha çox cəlb edir. Sədaqət heykəli də maddi deyil, hansısa meydanda qoyulmur. Bu heykəl insanların qəlbində ucaldılır.İnsanın insana sədaqəti, doğulduğu elə, yurda sədaqəti onun əməlləri ilə heykəlləşir.

Elmi kommunizmin banisi K.Marksın heykəlləri, Leninin heykəlləri zamanın sınağına tab gətirə bilmədi, uçuruldu. Lakin sədaqət heykəllərini bütün tarix boyu zamanın tufanları uçura bilmir. Elə burdaca deməyi özümə borc bilirəm ki, Şuşada Bül-bülə, Ü.Hacıbəyova, Vaqifə qoyulmuş heykəllər sədaqət heykəlləri idi. Xalqın onlara məhəbbətinin abidəsi idi. Ancaq fakt budur ki, namərd qonşularımız bu heykəlləri güllələdilər və yaralı Bülbül, yaralı Üzeyirbəy, yaralı Natəvan paytaxtımız gətirildi. Yazıçı H.Mirələmov güllələnmiş heykəllərin fəryadına biganə qala bilmədi və erməni vandallığını şişirdib –eləmədən qələmə aldı. Beləliklə, "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi doğuldu. Hər şeydən əvvəl, demək lazımdır ki, əsər son dərəcədə poetik bir dillə yazılıb. Hətta obrazlı ifadələrlə, bənzətmələrlə o qədər zəngindir ki, əsəri şer kimi oxuyursan. Şair A. Həsənli bununla bağlı yazır "... Məgər " Güllələnmiş heykəllərin fəryadı" bütövlükdə nəsrlə yazılmış lirik poema deyilmi? Bu, həm də yeniləşən janrın çoxşaxəli ədəbiyyatımızda təzahürüdür. "Xumar-xumar baxmaq", "sim kimi tarıma çəkmək ", "ruhları ovundurmaq", "Möhürümüz, qibləmiz Şuşa, ziyarətgahım , ahım mənim", "sinənə yağı tikan əkir, tikan əkən gül dərməz", "Şuşa ünvanlı dirilik bulağı", "anasının əmcəyini kəsənlər", "Tanrı əyası, Tanrı vergisi", "yuxunun rəngi", "bağrımın başında "Şüştər"di çalınan, "Humayun"du hıçqıran", "zaman başımızın altında pərqu yastıqları qoyub", "ruhlar can qəfəslərinə doğru uçur", "qurd kimi ağız-ağıza yatmaq", "bir-birinin gözünü tökmək, qanına yerikləmək", "adı ilə öyünən " havası ilə böyüyən", "bəxtimizə gün doğmadı", "intiqama çağırış", "Xanlığı içindən kəsəyən kimi doğramaq, bayquş yuvasına döndərmək"... "Güllələnmiş heykəllərin fəryadı"nın bir neçə səhifəsindən gətirdiyim bu ifadələr şer misrasını xatırlatmırmı?! "Biz ruhumuzla, qanımızla Azərbaycanıq, Qarabağıq. Biz Şah İsmayıl Xətainin zühur eləmiş vücuduyuq, qolları kəsilmiş Babək fəryadıyıq, Boyat əsilli Füzuli misrasıyıq, "Cəngi" harayıyıq, içinə çəkilmiş Koroğlu

nərəsiyik, “Heyratı” üsyanıyıq... “Bəs bu parça necə, bizim yağmalanmış yurdumuzun fəryadına əks –səda verən qəhrəmanlıq nəğməsinin ürək dağlayan nəqəratı deyilmi?

Bəli, esse başdan-ayağadək şeriyyətlə doludur. Hər sətirdə güclü lirizm duyulur, hər parçada poetik bir ruf hakimdir. Bəlkə də, bu ondan irəli gəlir ki, əsərin qəhrəmanları Vaqifdir, Natəvandır, Nəvvabdır. Axı onlar başqa cür danışa bilməzdilər! Onların ruhu və fəryadı mütləq şer dili ilə danışmalı idi. Həm də deməliyik ki, essedə dramatizm də güclüdür. Bu isə oxucunu əvvəldən axıradək gərginlikdə saxlaya bilir. Neçə illərdir ki, ermənilər türkün qanına susayıb: azca fürsət tapan kimi torpaqlarını ələ keçiriblər. Qılığına girib süfrəsinin başında oturub, sonra namərdcəsinə arxadan zərbə vurublar. Neçə min illərdir ki, belədir. Babəki Səhl- Sumbat xilafətə satmadımı? Məgər ermənilər ruslara bələdçilik edib edib İrəvan xanlığının yerində Ermənistan yaratmadılarmı? Hətta bu yolda qızlarının namusunu da həraca qoydular. F.Kərimzadənin “Təbriz namusu” romanında bu məsələ öz əksini tapıb. Erməni qızı öyrədilərək Çingiz xanın qulluğuna göndərilir. Həmin romanda göstərilir ki, erməni keşişi millətinin eybəcər fiziki görkəmindən narahatdır. Ancaq çarə tapır: qanı dəyişdirmək. Və yaxud 1918 –ci il Bakı qırğınlarını ermənilər törətmədimi? Bu gün də ermənilərin əməlləri davam edir. Torpaqlarımız işğal olunub. Təkcə torpaqlarımız yox, musiqimiz, mədəni abidələrimiz də işğal olunub. Xain qonşularımız ağına – bozuna baxmadan, harda türk izi varsa, silməyə çalışırlar. Maddi – mədəniyyət abidələrimizi – məscidlərimizi, qəbirüstü abidələrimizi elə sökürlər ki, izi-tozu da qalmır. İndi də Azıx mağarasında qazıntı işlərinə başlayıblar. Bu gün yağmalanmış torpaqlarımız, dədə-baba qəbirlərimiz, güllələnmiş heykəllərimiz fəryad edir. Əsirlikdə qalan evlərimiz, ağaclarımız ağlayır. Erməni əlinə düşməmək üçün özlərini qayadan atan qız-gəlinlərimizin fəryadı qulağımızdan getmir. Ancaq başımıza gələn müsibətləri tez unuduruq. Yaddaşsızlıq millətin böyük faciəsidir. Əgər dünəni unutmasaydıq, bugünkü faciələri yaşamazdıq, tarixi səhvləri təkrar etməzdik. Təəssüf ki, yaddaşsızlıq bizi bu gün də uçuruma sürükləyir. Babalarımızın səhvlərini təkrar edirik. Heykəl Vaqif deyir: “Azərbaycan xanlarının içindəki mənəm-mənəmlik iddiaları həmin o müdhiş şəraiti yaratmışdı. Bəlkə də, bu günün zirvəsindən dayanıb həmin tarixi yaradan insanları tənqid atəşinə tutmaq, bəzən ifrata varıb, lənətlə damğalamaq istəyəndə demək istəyirsən ki, əgər siz XX əsrin sonunda baş verən olaylardan düzgün nəticə çıxarmışdınızsa və tarixin birləşmək tələb etdiyi məqamda birləşə bilmədinizsə, onda keçmişi topa tutmağa haqqınız varmı?

Mən xanlığa gələndən sonra qonşu xanlarla düzgün siyasi əlaqələr qurmağa çalışdım. Amma onları bir araya gətirə bilmədim. Dəfələrlə dediyimiz və

bildiyimiz kimi onlar ağız –ağıza yatırdılar. Rusiya nəhəng əjdahaya dönmüşdü. Bu acgöz, çoxbaşlı əjdaha Şimala, Cənuba, elə Qərbə də od püskürürdü. Onlar İstanbulu paytaxt görmək istəyirdi. Rusiyanın siyasəti böyük yol keçmişdi. Qeyrətinə, kişiliyinə və təpərinə güvənən Azərbaycan xanları isə öz keçmişlərindən qopmuş "tifil və yetim uşağa" bənzəyirdilər. Hər kəs öz, öz xanlığı, xanədanı haqqında düşünürdü. Nə qədər ağır olsa da, bu, həqiqət idi..."

Pənahəli xanın ruhu isə əmanətini istəyir: "...Mən düşməndə günah görmürəm. Düşmən dünən də var idi, sabah da olacaq. Cinayət törədənlər düşmənin varlığını unudanlardır. Unutqanlıqdan gələn bəlanı unutmağa haqqınız yox idi. Mən sizə əmanət vermişdim Pənahabadı. Qaytarın əmanətimi!"

Ancaq bu xanların övladları əmanəti qoruya bilmədilər. Çünki xan babalarının seçdiyi cığıra düşdülər. Elə bildilər ki, babalarının yolu çıxış yoludur. Əslində isə bu yol fəlakət demək idi. Bax müəllif bu həqiqəti diktə edir ki, yaddaşsızlıq, tarixi səhvlərin təkrarı, torpaqlarımızın işğalına , heykəllərimizin güllələnməsinə gətirib çıxarır. Bir də müəllif onu diktə edir ki, ancaq milli birlik Azərbaycanı fəlakətdən xilas edə bilər. Məncə bu, əsərin əsas qayəsini təşkil edir.

Əsərdəki obrazlar rəmzidir. Üzeyir bəyin, Bülbülün, Vaqifin,Natəvanın , Pənahəli xanın, Nəvvabın, Nuru paşanın , Ağabəyim ağanın... ruhları danışır. Onların səsləri tarixdən gəlir. İllərin o tayından gəlir. Ancaq gəlib bu günümüzə çatır, tarixi yaddaşımızı silkələyərək faciələrimizin kökü barədə düşünməyə məcbur edir. Tarixilik və müasirlik. Yazıçı ustalıqla tarixiliklə müasirliyi vəhdətdə verə bilmişdir. Tarixi faciələrimizi bu günlə qovuşdura bilmiş, eyni zamanda bugünkü faciələrimizin kökünü tarixlə bağlaya bilmişdir. Yazıçının ifadə etdiyi "Qarabağnamə"lər, Qarabağ ədəbi mühitinin görkəmli simalarının yaradıcılığından gətirdiyi nümunələr bu gün də çox aktualdır. Əsər onu təlqin edir ki, güllələnmiş heykəllərin fəryadını hamımız eşitməliyik. Əgər bu fəryadı eşitməsək, onda ermənilər yenə də bildiklərini edəcəklər. Azərbaycan xalq mahnılarını və oyun havalarını öz adlarına çıxacaqlar. Azərbaycan xalçalarını dünya muzeylərində özlərininki kimi təqdim edəcəklər. Güllələnmiş daş heykəllərin fəryadını nəinki özümüz eşitməli, həm də dünyaya eşitdirməliyik. Əfqanıstan talibləri qədim Budda məbədlərini dağıtdılar və cəzalarını aldılar. Ermənilər də törətdikləri əməllərə görə cəzalarını almalıdırlar.

Əsərdə İlan obrazı da var. Tək bir yerdə xatırlanır: "... Və gördüm ki, yağı hiyləsi Azərbaycan xalqına qarşı düşmənçilik niyyəti, ermənilərin torpaq iddiası qara ilana dönüb öz içimizdəcə balalaya-balalaya XX əsr aşırımını aşıb –adlayıb zəmanəmizə gəlib və qıvrılıb Şuşanın belinə dolanıb, göz dağı kimi durmuşdur.

Başını da gümbəzinin üstündən qaldırıb, Cıdır düzündən xumar-xumar Azərbaycana baxır..."

Ancaq bütün əsər boyu bu qara ilan xəyalımızdan çəkilmir, bir an da olsun gözümüzün qabağından getmir. Sanki hər dəfə xumar-xumar Azərbaycana baxanda başımıza yeni müsibətlər gəlir. Bu qara ilan təsadüfi xatırlanmayıb, erməni təhlükəsidir. Müəllif bu kiçik ştrixlə də bizi həmişə ayıq –sayıq olmağa çağırır. Yazıçı Qara İlan obrazı ilə Şərir obrazını – ermənilərin ümumiləşmiş obrazını yarıdıb.

Esse ibrətli bir sonluqla bitir: "... Vətən daşları Vətəndə doğulub Vətənə övlad ola bilməyənlərdən qeyrətli çıxar, ürəkli çıxar!"

Daş heykəllər göyə qalxıb, abidələr pərvazlanıb...

Göz üzünü bulud kimi tutmuş daşlar Vətənin Baş Övladından him gözləyər, çağırış, haray gözləyər yağmağa.

Allah, sən saxla! Özün köməyimiz ol. Ulu qismət, məğrur tale!

Siz deyin, insanlar, məgər böyük Göy üzü daş saxlayar?

Göy üzü daş saxlayan deyil, nə vaxtsa düşmənin başına yağmalıdır. Ancaq bu şərtlə ki, Vətəndə doğulub Vətənə övlad ola bilək, güllələnmiş daş heykəllərin, qəhərlərimizin , kəndlərimizin... fəryadlarını eşidə bilək.

Bu dünyada maddi heykəllərlə yanaşı, mənəvi heykəllər də mövcuddur. Ermənilər təkcə maddi heykəllərimizə güllə atmayıblar. Onlar həm də Qarabağdakı mənəvi heykəllərimizi gülləlәdilər. H. Mirələmov isə güllələnmiş heykəllərimizin fəryadını bizə çatdırmaqla yaddaşımıza oyatdı. "Güllələnmiş heykəllərin fəryadı" ilə Azərbaycanın faciə və fəryadına heykəl qoydu.

# “XƏCALƏT”İ MÜHARİBƏ YARATDI

Oxucu hər hansı bir əsəri əlinə götürüb oxuyursa,birinci növbədə ondan yüksək estetik zövq almalıdır.Amma gərək əsər də əsər ola.Əgər oxunan əsər oxucunun ruhunu oxşamırsa,onun hiss və duyğularına təsir göstərə bilmirsə,onu heç oxumağa dəyməz.Məlunm həqiqətdir ki.ədəbiyyat həmişə həyatdan qabaqda getməlidir,yəni insanları arxasınca aparmalıdır.Ədəbiyyatın vəzifəsi təkcə həyatdakı qəhrəmanların surətini yaratmaqla məhdudlaşmamalıdır.Ədəbiyyat həmdə qəhrəmanlar yetişdirməlidir.

Yer üzərində saysız-hesabsız müharibələr olmuşdurşİbtidai insan hirslənib başqasına daş atmışdır.O daş zaman-zaman qılınca,nizəyə dönmüş,insan təfəkkürü inkişaf etdikcə bugünkü atom və digər kimyəvi qırıcı silahlara çevrilmişdir.Bəlkə də,o zaman birinci daş atan insandır,indiki müharibələrin baiskarı.Bunu bilmək olmaz.Ancaq bildiyimiz odur ki,elə insanın apardığı ilk müharibənin təsiri ilə ədəbiyyat da yaranıb.Danılmaz faktdır ki,dünyadakı bütün müharibələr böyük ədəbi əsərlər yaradıb.Lap ox-qılınc davasından tutmuş,ikinci dünya müharibəsinə qədər istənilən sayda əsər adı çəkmək olar ki,müharibələr bu əsərlərdə bədii şəkildə ifadə olunmuşdur.Demək kimsə müharibələrin bıdii ədəbiyyata təsirini dana bilməz.Eyni zamanda ədəbiyyatında müharibəyə təsirindən danışmaq mümkündür.Əlbətdə ,hər hansı bir əsər müharibəni ya başlaya,ya da dayandıra bilməz.Odur ki,bu fikir mübahisə doğura bilər.Elə ona görə də “şerlə,əsərlə Qarabağı almaq mümkün deyildir”,-deyənlər də tapılır aramızda.Çox təəssüf .Demirəm ki,şer deməklə düşmən qaçıb gizlənə bilər.Amma əsgəri də düşmən üstünə havalandıran şer olmalıdır.Ermənilər silahla torpaqlarımızı işğal etməmişdən qabaq nə qədər psixoloji hazırlıq gördülər.Z.Balayanın “Ocaq”ı nə qədər erməni gəncinin beynini zəhərlədi.Məgər B.Vahabzadənin,M. Arazın və daha kimlərin vətənpərvər ruhlu şerləri uzun müddət ruhumuzun bayrağı olmayıbmı?”Fəryad”kinosuna baxan azərbaycanlı cavan necə əlinə silah götürüb vuruşmaya bilər?Yaddan çıxartmayaq ki,döyüşdə şair,yazıçı əlinə silah götürüb güllə atmaqdan çox əsəriylə döyüşür.Bu həqiqətdir.Elə bu həqiqəti başa düşdüyünə görə,yazıçı H.Mirələmov Qarabağ mövzusunda əsərlər yazdı.”Xəcalət” povesti,”Güllələnmiş heykəllərin fəryadı” ədəbi essesi,”Vicdanın hökmü” dramı(iki variantda”Vicdanın cəzası”hekayəsi) ədəbi ictimayyət tərəfindən rəğbətlə qarşılanır.Onun bu əsərlərinin hər üçü yatmış vicdanları oyadacaq bir əsər olmaqla yaddaşımızı silkələyə biləcək təsir gücünə malikdir.Bu əsərlərin ən böyük dəyəri ondadır ki,Qarabağ mövzusundadır.Müəllif Qarabağ mövzusunu qabartmaqla bizi Qarabağa yaxınlaşdırır.Sanki demək istəyir ki.ermənilərin

həyasızlıqlarını və xalqımızın başına  açdıqları oyunu unutma,öz torpağına shiblik elə.İtirilmiş torpaqlarımıza ,güllələnmiş heykəllərimizə görə bizdə xəcalət hissi oyandırmağa çalışır.İstəyir ki,torpaqlarımız vicdanımızın hökmü ilə düşmən caynağından qurtulsun,didərgin soydaşlarımız yurd-yuvalarına dönsün.Eyni zamanda didərgin heykəllərimiz də Vətənlərinə qayıtsın.Hərdən fikirləşirsən ki,müəllif hər üç əsərində ürək dağlayan səhnələri  necə qələmə ala bilib?Onun ürəyi güllələnmiş heykəllərin fəryadına,qışın qar-çovğununda don vuran körpələrin fəryadına necə tab gətirə bilib?Təsadüfi deyil ki,xalq şairi B.Vahabzadə “Xəcalət”i oxuyandan sonra yazıb:

“...Yox qardaş,”ikinci dərəcəli”vətəndaşlara çevrilən bacı-qardaşlarımızın dəhşətli və dözülməz həyatını mənə göndərdiyiniz bu mərsiyə kitabını sona qədər oxumağa mənim xəstə ürəyim tablamaz”.

Artıq on oldən artıqdır ki, Şuşasızıq, Cəbrayılsızıq, Kəlbəcərsiz, Laçınsızıq... Atəşkəs elan olunsa da . hələ müharibə qurtarmayıb.On ildən artıqdır ki,Qarabağ mövzusunda mətbuatda publisistik yazılar oxuyuruq.Eyni zamanda Qarabağ mövzusuda bir çox dəyərli bədii yazılar işıq üzü görür və yaxud filmlər çəkilir.Belə filmlərdən biri hələ 1993-cü ildə çəkilmişdi.Mən o zaman bu film haqqında qeydlərimi yazmışdım.Məqsədə müvafiq olduğu üçün həmin qeydlərimi bu  yazıda verməyio özümə borc bilirəm:”...Son illər üzüntülü günlər yaşayırıq,hər səhər-axşam bir birindən acı xəbərlər qulağımızı dalayır. Bəli, müharibə gedir, adamlar həlak olurlar. Delidantlar iqtisadiyyatımızı bərbad günə salıblar. Bununla belə, bütün uğursuzluqlara qalib gəlmək mümkündür. Bundan ötrü sabahkı günümüz, gələcəyimiz barədə düşünməyə özümüzdə güc.qüvvə tapmalı,borcümüzdan vicdanla çıxmalıyıq.

Digər tərəfdən deyirlər ki,xeyirlə şər qardaşdır.Çünki doğuliş da haqdır,ölüm də.Ölənlə ölmək olmur.Amma gedənlərin əməllərini,tarixi həqiqətləri gələcək nəsillərə çatdırmaq biz dirilərə məxsusdur.Necə ki min illərin əməllərini,tarixini az-çox bizə çatdırıblar.Bu mənada oktyabrın 21-də Respublika sarayında ilk baxışı keçirilən “Fəryad” filmindən danışmaq olar.

Filmin ssenari müəllifi Vaqif Mustafayev,quruluşçu rejissoru və baş rolun ifaçısı Ceyhun Mirzəyevdir.O Ceyhun ki,indi aramızda yoxdur.Özündən sonra isə çox çey qoyub getdi.Gözəl  ?,ad sanını... bir də “Fəryad” ını.Və mənə elə gəlir ki.onun çəkdiyi “Fəryad” müəllifini həmişə yaşadacaq.Həm də ona görə yaşadacaq ki,Qarabağ döyüşlərindən bəhs edən ilk filmdir.

Film haqqında nə uzun-uzadı danışmaq ,nə də onu təhlil etmək fikrindəyəm.Yəqin ki,”Ögey ana” xatirinizdədir.Balaca İsmayıl da yadınızda

olar.Bax "Fəryad"elə bil ki,həmin "Ögey ana" nın davamıdır."Ögey ana" da atasının dalınca hönkürən İsmayıl Arif oğlunu artıq "Fəryad"da böyümüş görürük.İndi onun özünün ailəsi var.O,cəbhəyə yollanır.Qəhrəmanlıqlar göstərir.Döyüşlərin birin də isə yaralanaraq ermənilərə əsir düşür.62 gün quldurların sitəmlərinə məruz qalır."Fəryad"ın sujeti də əsirlik üzərində qurulmuşdur.Film başdan-başa ermənilərin azərbaycanlı əsirin başına gətirdiyi müsibətləri.eyni zamanda onların alçaqlıq və şərəfsizliyini tamaşaçıların diqqətinə çatdırır.Səhnələr bir-birini əvəz etdikcə hər dəfə erməni murdarlığının yeni "klassik" nümunələri ilə tanış olursan.

Mahnımızı,musiqimizi özlərininki hesab edən,hətta "Azərbaycan dili də bizimdir" deyən ermənilər nə qədər gülünc görünürsə,"Vağzalı"havasına "rəqs edən" ermənilər adama bir o qədər həyasız təsiri bağışlayır.O,"Vağzalı" ki,xəzəlləri xışıldadır,qanadlarında qızlarımız isti yuvaya köçürlər.

Kiçik bir epizodu xatırlatmaq istəyirəm:düşmənlər Azərbaycan kəndini talan ediblər.Körpə,qoca deməyib güllədən keçiriblər.İsmayılın dostu al –qana bürünmüş bir körpəni qucağında tutub zülüm-zülüm ağlayır.Bu səhnə,bu dərd hamını ağladır,lap tamaşaçını da.Bu yerdə Viktor Hüqonun müdrik bir kəlamı yada düşür:"Əgər körpə uşağı ağlayan görürsənsə,onda heç nə görməmisən,qadını ağlayan görürsənsə ,yenə də heç nə görməmisən,kişini ağlayan görmək lazımdır.əgər kişi ağlayırsa ,faciə budur".Və bu faciə fəryada çevrilir.Yumşaq ürəkli İsmayılın qəlbi daşa dönür.Silahsız,yaraqsız düşmən səngərinə üz tutur.Hətta səngərdən ermənilərin başının üstündən tullanaraq keçir.özünü bir anlıq erməni qulduruna yetirir.Yalın əli ilə bir daş götürüb salır ermənininin başına.O daş çevrilir ermənin baş daşına.

İsmayıl həm də şox həlimdir.Yaralı olsa da,ona zülmlər etsələr də körpə erməni uşağını yanğından qoruyur. Yanan erməni evini söndürür və bütün bu murdarları heyrət içəsisində qoyur. Bax, budur bizim xalqın təbiəti, xisləti!

Bir sözlə, filmə baxdıqca özünü müharibədəmi, zaldamı olduğunu unamırsan. Yüksək ustalıq, ürək yanğısı ilə çəkilmiş "Fəryad"ı yalnız alqışlamaq olar. Filmin yaradıcı kollektivinin işinin qiymətinə gəldikdə isə belə deyərdik: çəkdikləri zəhmət hədər getməyib.

("Həyat" qəzeti, 27 oktyabr 1993- cü il.)

Qarabağ faciəsi ilə bağlı bir çox yazıçılarımız bədii nəsr nümunələri yaratmışlar. Bu əsərlərin əksəriyyətində döyüş səhnələri, erməni qəddarlığı və əsirlik həyatı əks olunmuşdur. Ancaq elə əsərlər də var ki, o əsərlərdə

müharibənin özü deyil, onun törətdiyi fəsadlar qəlbimizi ağrıdır. V.İsaqoğlunun "Yağış damcıları" adlı bir hekayəsi var. Bu hekayədə müharibə görünmür. Cavan ər və arvad çadırda yaşayırlar. Arvad nə qədər çalışırsa, ər ona tərəf heç gözünün ucu ilə də baxmır. Səbəb nədir? Çadırın dəlmə -deşiklərindən içəri süzülən yağış damcıları. Cavan ərin fikiri-zikiri yağış damcılarına yönəlib; o, ləyən və vedrəni növbə ilə yağış damcılarının altına tutmaqla məşğuldur. Bunu isə ona bəxş edən müharibədir. Və yaxud X. Göyyallının "Bıçaq" hekayəsini götürək. Kənd təsvir olunur. Müharibədən uzaq bir kənd. Ancaq müharibə bu kəndin kişilərini aparıb. Ona görə də can verən inəyi kəsən tapılmır. Bıçaq havada qalır. Çox gözəl tapıntıdır. Müharibənin adı belə çəkilmir. Ancaq müharibənin ağrı-acısını duyuruq. İstər-istəməz "yağış damcıları"na və "bıçağ" a görə müharibəyə nifrət yağdırırıq.

H.Mirələmovun "Xəcalət"ində isə həm müharibənin özü var, düşmənlə üzbəüz döyüş səhnələri, ölümlə əlbəyaxa savaş var, həm də müharibənin insanlarda doğurduğu xəcalət hissi, yataqxanalarda məskunlaşan qaçqınların dözülməz həyat şəraiti var. Povestin başlanğıcı bu baxımdan çox maraqlıdır:

"- Getməyəcəyəm !... – Didar, deyəsən, sayıqlayırdı:

- Anama da demişəm. Ata, mən bir də o məktəbə getməyəcəyəm ..."

Didar 9- cu sinifdə əla qiymətlərlə oxuyur. Müəllimləri ondan razılıq edir. Bəs görəsən, nə üçün məktəbə getmək istəmir? Ona görə ki, onun sinif yoldaşları yaxşı geyinirlər. O isə bundan məhrumdur; üst-başı nimdaşdır. Sinif yoldaşları onu yoluxmağa gələndə də sevinmir. Əksinə xəcalət çəkir. Çünki onun yaşadığı yataqxana ürəkaçan deyil:

"Vətənin ailəsi Qarabağdan gələndən sonra Bakıda -6 –cı mikrorayonda tikintisi yarımçıq qalmış xəstəxana binasında məskunlaşmışdı. Binanın 5-ci mərtəbəsi tikilmədiyindən damı yox idi. Suyu həyətdən götürürdülər. Pilləkənlərin böyrü bağlı deyildi, eyvan əvəzinə, açıq panel idi. Vətəngil 3 –cü mərtəbəyə - gələcəkdə cərrah otağı olacaq otağa yığışmışdılar. Vətən çətinliklə divarları suvamış, döşəməyə linoleum döşəmişdi. Otağa köhnə dəmir çarpayı da tapıb gətirmişdi. Aranı da həyətdə tikinti zamanı tökülüb qalmış kərpiclə hörmüş, iki otaq, bir də ayaqqabı yeri düzəltmişdi. Elə bu ayaqqabı yeri həmdə mətbəx idi. Qaz xətti olmadığına görə elektrik piltəsindən istifadə edir, yeməyi burda hazırlayır, çayı həmin pilətənin üstündə qaynadırdılar. "

"Xəcalət" tarixi həqiqətləri bizə çatdıran tarix kitabıdır. "Xəcalət"i müharibə yaratdı. "Xəcalət" Qarabağ müharibəsinin və faciələrinin bədii ifadəsidir. Hər hansı bir millətin torpaqlarının işğalı o qədər də qorxulu deyil.

Qorxulu odur ki, hər hansı millətin inamı, ruhu işğal olunsun. Bu mənada "Xəcalət"in bizdə inam və ruh doğuracağı şəksizdir.

# YAZIÇI VİCDANI DÖYÜŞ MÖVQEYİNƏ ÇIXARIR

**İnsanlar əvvəlcə öz vicdanları ilə üz-üzə durur, Onun mühakiməsini dinləyir, sonra ədalətli, vicdanı hökm ilə barışırlar**

Hər bir sənət adamına, şairə, yazıçıya əbədilik gətirən, onu gələcək nəsillərə təqdim edən əsərləri olur. Bu əsərlər heç vaxt ölmədiyi kimi, müəllifinə də ölməzlik gətirir. Bu mənada yaradıcı adamlar qısa və uzunömürlü olurlar. Sənətkarın uzunömürlü olması, ədəbi aləmdə mənəvi olaraq daim yaşaması bilavasitə onun yaradıcılığının taleyindən - əsərlərinin ömründən aslıdır.

Söhbət müasir ədəbiyyatımızda özünəməxsus yeri olan yazıçı H.Mirələmovdan gedirsə və bilavasitə onu gələcək nəsillərə təqdim edən uzunömürlü əsərləri xatırlanırsa, hökmən "Vicdanın cəzası", "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi və "Xəcalət" povesti ilk növbədə yada düşür. Yeri gəlmişkən qeyd edim ki, bu əsərlər müəllifin "Xəcalət" kitabında toplanaraq oxucuların ixtiyarına verilmişdir. Və hər üç əsər böyük ədəbi maraqla qarşılanaraq yazıçıya sonsuz sevgi və ədəbi uğur gətirmişdir. Təsadüfi deyil ki, bu əsərlər əsasında hazırlanmış film tamaşalar da xüsusi ictimai rəğbətlə qarşılanmışdır. Hər üç əsərin nüvəsində Qarabağ faciəsi, bu faciənin Azərbaycanın taleyində, Azərbaycanın sinəsində açdığı şırımlar, sağalmayan yaralar öz əksini tapmış, müharibənin iqtisadiyyatımıza və mənəviyyatımıza vurduğu ziyanlar vətəndaşlıq yanğısı ilə qələmə alınmışdır.

H.Mirələmov "Vicdanın cəzası" adlı hekayəsində müharibə dövrü psixologiyasını təcəssüm etdirməklə bərabər , hər bir Azərbaycan övladının qəlbində Vətənə sevgi məşəli yandırmaq arzusunda olub. Əlbəttə, bu müqəddəs arzu yazıçının bütün yaradıcılığı boyu ana xətt kimi diqqəti cəlb edir. Lakin konkret olaraq əsərin ideyası kimi qarşıya qoyulanda yazıçı bu məşəli ürəklərdə yandıra bilir və öz qəhrəmanını Vətən uğrunda şəhid etməklə bu işığın əbədiliyinə zəmin yaradır. "Vicdanın hökmü"ndə olduğu kimi. Əsərin qəhrəmanı Rəhim Rusiya bazarlarında alver edərkən təsadüfən öz dostu, "reket" Firudinlə rastlaşır.

Əsərdən məlum olduğu kimi, reket Fedya kimi tanınan Firudin şərəfsiz və ləyaqəti olmayan bir insandır. Lakin necə olsa da qəriblik xarakter baxımından əks qütblərdə dayanan bu adamları- obrazları bir-birinə yaxınlaşdırır. Fəqət bu yaxınlaşma mənəvi yaxınlıq olmadığından uğurlu nəticə vermir. Rəhim Fedyanın yaşadığı mənəvi mühitlə barışa bilmir, onu öldürür. Erməni Aşota

tuşladığı bıçaq zərbəsi təsadüf nəticəsində Firudinə dəyir. Əslində Firudin Aşotu müdafiə etmək istəyəndə alınır belə vəziyyət. Rəhim necə olsa da öz həmyerlisini öldürmək fikrinə düşməzdi. Əgər bilərəkdən öldürmüş olsaydı belə yenə də oxucunun gözündə müsbət obraz kimi qalardı. Çünki hekayədə Fedya obrazı kifayət qədər nifrətə layiqdir. Daha doğrusu, yazıçı Fedyanın yaşamaq haqqının olmadığına görə onun ölümünü ucuzlaşdırıb. Fedyanın simasında bir növ cəmiyyətdə mənəvi təmizlənməyə, mənəvi saflığa mane olanları, əngəl törədənləri cəzalandırıb. Fedyanı öldürərkən Rəhim Rusiya hüquq orqanlarına təslim olmaqdansa, həmin vilayətdə yaşayan başqa dostunun köməyi ilə Vətənə - Azərbaycana qayıdaraq Qarabağ uğrunda gedən döyüşlərdə fədakarlıqla vuruşur. Tale elə gətirir ki, Rəhim sonrakı cəbhə həyatında qətlə yetirdiyi Firudinin atası və bacısı ilə rastlaşır. Firudinin atası Aslan kişi həkimdir. O, yüzlərcə əsgəri ölümün pəncəsindən xilas edib. O cümlədən ağır döyüşlərdən çıxmış Rəhimin də yaralarını sarıyır. Onu həyata qaytarmaq üçün əlindən gələni əsirgəmir. Lakin son nəticədə Rəhim Firudinin bacısı Aygünün qucağında gözlərini əbədi yumur. Aygün qardaşının qatilinin kim olduğunu bilirsə də, Rəhimə olan sevgisindən dönmür. Əksinə, onu daha dərin məhəbbətlə sevməklə, Vətəni uğrunda ölümü qəbul edən əsgərə mənəvi güc, əzəmət verir, ona yeni mənəvi həyat bəxş edir. Hekayə Rəhimin ölümü ilə bitir.

Tanınmış tənqidçi, filologiya elmləri namizədi Vaqif Yusifli “Həyatın ritmi” kitabında əsərə olan münasibətini belə ifadə edir: “Vicdanın cəzası” adlı hekayə öz dramatik axarı ilə seçilirdi: burada obrazların hərəkət və əməlləri hekayənin özünün içindəki “gizli pyes” gec-tez səhnəyə də çıxmalıydı. Elə də oldu. “Vicdanın cəzası” çox keçmədən əvvəlcə Gənclər Teatrında, az sonra isə Nəcəf bəy Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında “Vicdanın hökmü” adı ilə pyes olaraq tamaşa həyatı qazandı. Daha sonra tənqidçi fikri pyesinin əsas qayəsinə yönəldərək əsərin ideoloji xəttini qiymətləndirərək yazır: “H.Mirələmovun pyesinin əsas qayəsi vətənpərvərlik harayıdır. Azərbaycanın Qağabağ adlı böyük bir yarası var. Bu yara sağalmayınca məmləkətimiz rahat nəfəs almayacaq. İşğal olumuş torpaqlarımızı azad etməyincə Azərbaycanın Azərbaycan olmağa haqqı yoxdur. Ümumi ideya belədir. Lakin bu ideya həm də pyesdə konkret şəkildə ifadə olunmuşdur – pyesin qəhrəmanı öz vicdanın hökmü ilə Qarabağ uğrunda döyüşlərdə iştirak edir və həlak olu”.

Elə burdaca qeyd edim ki, pyesin adı, ilə ideyası arasındakı qırılmaz bağlılıq adamı daha çox düşünməyə vadar edir və əslində vicdan dediyimiz ümumi hisslərinin oyanışı insanın bütövlükdə mənəvi aləmini silkələyir. Qarabağ müharibəsinin başlandığı ilk günləri, ayları, illəri xatırlayırıq. Həmin ərəfədə Rusiyanın ucqar şəhərlərində daimi yaşayış vəsiqəsi almış Azərbaycan oğulları axışıb Vətənə gəlir, könüllü cəbhəyə getmək üçün müvafiq hərbi komissarlıqlara

müraciət edirlər. Eyni ilə həmin ruh respublika daxilində yaşayan gənclərin də qəlbinə hakim idi. Ancaq danmaq olmaz ki, Vətənin səsini eşitmək istəməyən , harayına əl uzatmayan Fedya kimiləri də az deyildi. Əsgərin yaşı çatmış gənclər müxtəlif vasitələrlə Azərbaycandan uzaqlaşır, Rusiyanın ayrı-ayrı vilayətlərində özlərinə sığınacaq tapırdılar. Lakin gənclərin respublikadan kənara kütləvi axınına səbəb təkcə müharibə amilini göstərmək düzgün olmazdı. Respublikada yaranmış iqtisadi çətinlik, maddi böhran, işsizlik problemi, sərf olunan fiziki əməyin müqabilində verilən əmək haqqının minumum yaşayış səviyəsini təmin etməməsi və s. kimi hallar hamısı səbəb kimi göstərilə bilər. Hekayədən də göründüyü kimi, müharibənin ilk illərini – 1988-1990- cı illər ab-havasının yazıçı ustalıqla, bədii təsvir vasitələrindən məharətlə istifadə etməklə canlandıra bilib. Rəhim ali təhsili müəllimdir. Sual oluna bilər. Elə isə bəs nə üçün Rusiya bazarlarında günlərini piştaxta arxasında keçirir? Axı o, alicənab bir insandır, gözəl ailə başçısıdır, ləyaqətli vətəndaşdır, elmli, ziyalıdır, ən başlıcası isə elm-tərbiyə ocaqlarına gərəkli pedaqoqdur. Bütün bu kefiyyətləri özündə birləşdirən Rəhimi Vətəndə -Azərbaycanda yaşamağa qoymayan nədir, kimdir? Bu məqamda nədir, kimdir sualının cavabı adamı sarsıdır. Birmənalı olaraq bu cavab əsərin pyes variantına seçilmiş adın mahiyyətindədir. Əslində Rəhimi Rusiyaya aparıb çıxaran da vicdanın hökmüdür, Qarabağa qaytarıb müqəddəs amal uğrunda şəhid edən də vicdanın hökmüdür. Şair Əli Rza Xələflinin H.Mirələmovun yaradıcılığından bəhs edən "Sözə doğru" kitabında "Yol üstə görüşlər" məqaləsində ("Vicdanın hökmü"nə baxarkən( istedadlı nasir Elçin Kamalın bu məqamla bağlı fikirləri də maraqlıdır:- Tamaşa başlayan kimi səhnədə anasının məktubunu oxuyan bir gənc gözlərimiz qarşısında canlanır. Bu, "Raqozin" bazarının alverçisi Rəhimdir. Təbiətcə mülayim, ailəcanlı, ev-eşik adamı olan Rəhimin günləri sıxıntı içərisində keçir. Düşdüyü həyat onu darıxdırır. Amma neyləməli? Ömrünü bazarda – piştaxta arasında keçirib, anadan yetim qalan uşaqlarına, anasına pul göndərməli və həmdə özü yaşamalıdır. İxtisasca tarix müəllimi olan Rəhim düz söz danışdığına, ağa qara demədiyinə görə iş yerini itirib. Vicdanının səsinə qulaq asdığı üçün doğma evindən, uşaqlarından, Vətənindən aralı düşərək Rusiya bazarında alverçilik edir. Deməli, onu bura gətirib çixaran vicdanının hökmüdür, - Elçin Kamal haqlıdır. Rəhim harda olmasından asılı olmayaraq vicdanını unutmur. Daha doğrusu , vicdan onun qəlbinin hakimidir. Müdriklər deyirlər ki, ehtiraslarına qalib gələn, nəfisni saxlaya bilən insan kamildir. Nəfsinin qulu olan isə heyvani ömür etməyə məhkumdur. Rəhimdən fərqli olaraq Fedya nadandır. Onun üçün Vətən, torpaq, lap elə həyatın özü eyş- işrətdən ibarətdir. Fedyalar heç bilmir ki, Vətənin Qarabağ adlı yarası var, yaxud Azərbaycanın düşmən işğalına məruz qalmış əraziləri hansı rayonları əhatə edir. Vətənin ən dar günündə, millətinin qan içində

boğulduğu, faciəli anlar yaşadığı bir vaxtda belə Firudinin vicdanı oyanmır. Hələ bu azmış kimi Rəhimi də kef məclislərində gün keçirməyə dəvət edir, özü kimi onu da hissiz, duyğusuz, yaddaşından bixəbər, hər şeyə biganə bir varlığa çevirmək arzusu ilə yaşayır. Rəhim könülsüz getdiyi həmin məclisdə bir daha həmyerlisinin şərəfsiz olduğunu gözləri ilə görür. Əsərdəki həmin parçaya diqqət edək: "Erməni dığası Aşotun məclisdəki fəallığı ermənilərin Azərbaycan torpaqlarında hegemonluq etməsinə bənzəyirdi. Qapının ağzında xüsusi bir stol qoyulmuşdu. Bu stolda fahişəliklə pul qazanan 5-6 qız əyləşmişdi. Siqareti acgözlüklə sümürən bu yarıçılpaq qızların arasında azərbaycanlı qızının olması Rəhimi daha da sarsıtdı. Ən hörmətli ailəyə, ən yaraşıqlı oğlana qismət olası bu qaragöz, qar kimi bəyaz qızı Rusiyaya Fedya gətirmişdi. Əvvəllər bir müddət onunla yaşasa da, hər bir hərəkətini qısqansa da, indi heç bir əməli, hətta harda yaşaması, kiminlə intim münasibətində olması Fedyanı maraqlandırmırdı".

Rəhim bilirdi ki, bu qaragöz, qara kimi bəyaz qız Firudinin 2 yaşlı qızının anasıdır. Amma indi ərinin səhvləri ucbatından analıq qürurunu ayaqlar altına atmış bu qadını övladının anası gözündə görməyən nankor Fedya Rəhimin gözündə daha da alçalırdı. Rəhim –Fedya obrazlarının təzadlı xarakterlərini biz həmin səhnədə bütün çılpaqlığı ilə gördük. Rəhim qürbətdə yaşamasına baxmayaraq, azərbaycanlı qürurunu, azərbaycanlı mənliyini, azərbaycanlı olduğunu unutmur. Bu gün üçün yaşayan, sabahını görməyən Fedya üçün isə mühit amili həlledicidir. O, milli məsubiyyətini itirmiş bir adamdır. 2 yaşlı körpə qızının gələcək tərbiyəsi də heç onu düşündürmür.

Göründüyü kimi, istər "Vicdanın cəzası" hekayəsində, istərsə də əsərin səhnə variantında – "Vicdanın hökmü"ndə yazıçı diqqəti bir çox məsələlərlə yönəldir. Aydın olu ki, Vətənə sevgi, onu hər hansı qara qüvvədən qorumaq istəyi təsədüfi olaraq birdən –birə yaranmır. Yaxud b boğazdan yuxarı Vətən-Vətən deməklə də vətənpərvər olmaq mümkün deyil. Bəs vətənpərvər olmağın sirri nədir? Yazıçı bu məsələni Rəhimin keçdiyi həyat yolunun əvvəlindən axırına kimi çözələyir. Rəhimin tərbiyə olunduğu ailədən başlayır onun torpağa, yurda, Vətənə olan böyük sevgisi. Bu sevgi onun qəlbində daim alovlandıqca, Vətəni qorumaq istəyi onu ağuşuna alır, ahənrüba kimi Qarabağa sarı çəkib aparır. O, Qarabağ uğrunda gedən qanlı savaşlarda şücaət göstərir. Ölümü mərdana bir hünərlə qarşılayır. Fəqət bunula bərabər, Rəhimin qəlbində daim bir əzab yuva salıb, ona əziyyət verir. Rəhim bütün müsbət kefiyyətləri ilə bərabər, həm də qatildir. O, insan öldürüb. Baxmayaraq ki, Fedya bu ölümə layiq idi. Hər dəfə Aygünlə, atası Aslan kişi ilə üzbəüz gələndə sarsılırdı Rəhim. Ad günündə törətdiyi qətl hadisəsi bütün təfsilatı ilə gözləri önündə canlanırdı. Rəhimin bu ağrını ömrü boyu daşıması onu bir insan kimi daha çox sevdirir.

“Vicdanın cəzası”nda insanın mənəvi dünyasına təsir edən, onu yaşadığı həyata, dünyaya qırılmaz tellərlə bağlayan təsirli səhnələrdən biri də Aygünün Rəhimə olan sevgisidir. Bu sevgi sarsılmaz bir sevgidir. Bu sevgi insanın təkcə bioloji xüsusiyyətlərindən törəyən halət deyil, bu sevgi ümuməm insanın insana olan sevgisidir. Rəhimin yaşadığı hisslər, duyğular, ürəyindən keçən arzular Aygünə də doğmadır. Hər ikisinin həyata baxışında, vicdani borcları ödəmək istəyəndə, lap elə vətəndaşlıq mövqeyində doğmalıq var. Bu doğmalıqdır əslində onları bir-birinə bağlayan. Əks halda Aygün biləndə ki, qardaşının qatili sevdiyi oğlandır, yəqin ki, ona nifrət etməli idi.

Əsərdə müəllifin əsas diqqəti yönəltmək istədiyi məsələlərdən biri də Aşot obrazını yaratmaqla erməni xarakterini, erməni xislətini ifşa etməkdir. Yaxud bizi məkrli düşmənin siyasətindən duyuq salmaq, ehtiyatlı olmaq niyyətidir. Aşotun simasında biz erməni millətinə xarakterik olan əlamətləri aydın görə bilirik. Aşot iblis təsiri bağışlayır. Belə ki, o, daxili xislətini hər an gizləməyi, maskalanmağı məharətlə bacarır. Onun daxilini görmək hələm – hələm asan iş deyil. Məqsədini yalnız məqamı çatanda həyata keçirir. Üzdə sənə dost deyir, amma arxadan zərbə vurmağa hər an fürsət gözləyir. Yadıma məşhur türk- Anadolu aşığı Camal Xocanın erməni millətinin boynuna biçilmiş misraları düşür:

Özündən bixəbər günəş üzü var
Xoş görünür, hər kəs qılsın etibar
Fürsət tapsa səni qılar tarımar,
Oturub- durub məkan sakınır.

Eşq olsun, belə qüdrətli aşığa – Camal Xocaya ki, onun həyatı güclü müşahidə etmək qabiliyyəti belə əzəmətli deyimin doğuluşuna fərman verib. İblisi bundan artıq necə yamanlamaq olar? Erməni iblisdir. Onun şərindən, hiyləsindən oturub – durduğu torpaq da çəkinir. Erməni azərbaycanlı təfəkküründən daim şər-qara qüvvə timsalı kimi yaşamalıdır.

“Vicdanın hökmü” pyesində Aşot obrazını yaradan aktyorun ifasında da tamaşaçı bu qənaətə gəlir. “Vicdanın cəzası”nı oxuyan da ermənilərin zaman-zaman ərazilərimizə hansı siyasi gedişlərlə sahib çıxdığının şahidi olur. Bir sözlə, “Vicdanın hökmü” yaddaşı silkələyir. Yazıçı sənətin dili ilə beyinlərdə psixoloji döyüş, mübarizə ruhu təlqin edir, hər kəsin vicdanı olduğunu yada salır. Vicdanın varlığı isə o deməkdir ki, ədalətli haqqını tələb et, qaytar Qarabağı, qaytar qədim Göyçə torpaqlarını, qaytar mədəniyyət beşiyi Şuşanı, qaytar əsir düşmüş oğul və qızlarımızın şərəfini, qaytar ulu babalarımızın dəfn olunduğu böyük türk ərazilərini.

“Vicdanın hökmü”nün tələb etdiyi bu siyahını uzatmaq da olardı. Yəni itirdiklərimiz saydıqlarımla məhdudlaşmır. Hər halda “Vicdanın hökmü” qaytarmağı tələb edir.

Yazıçı H.Mirələmov necə və nə cür qaytarmağın yolunu birinci növbədə insanın mənəvi hakimi olan vicdanın oyanışında görür.

Şair Əli Rza Xələfli "Sözə doöru" tədqiqat kitabında "Vicdanın hökmü" ilə bağlı təəssüratında yazıçının vicdanın simasında Qarabağ uğrunda savaşa qalxdığını yazır: "Onun əsərlərindəki obrazlar bilavasitə hıyatın özündən gəlir. Həyatdakı naqislikləri, görünən və görünməyən həqiqətləri bütün çılpaqlığı ilə açıb göstərirlər. İndi Qarabağı azad etməyin yolları haqqında çox söz-söhbətlər gedir. Birinci növbədə Qarabağ yad tapdağına çevrilməməli idi. İndi keçmişin səhvlərini görməyin vacibliyi nə qədər şərti olsa da, əsas vəzifə Qarabağı azad etməkdir. Siyasətçilərdən fərqli olaraq yazıçı bunun yolunu vicdanın hökmünü hər bir azərbaycanlının qəbul etməsində görür. Yazıçı elə bu səbəbdən vicdanı döyüş mövqeyinə çıxarır. İnsanlar əvvəlcə öz vicdanları ilə üz –üzə durur, onun mühakiməsini dinləyir, sonra ədalətli, vicdanı hökm ilə barışırlar.

Beləliklə, yazıçı özü birinci olaraq vicdanının simasında Qarabağ uğrunda savaşa qalxır. İndi kimsə bu savaşdan kənarda qala bilməz. "Vicdanın hökmü " isə hər yanda eşidilir".

Xəstəni sağaltmaq üçün bütün gücünü sərf edən həkim andına sadiq qalmaqla sənətinə də böyük ucalıq gətirmiş olur. Ruhun, mənəviyyatın keşiyini çəkən, onun sağlamlığını qoruyan qələm adamları, o cümlədən yazıçılar da ömürlərini bütünlüklə insanın mənəvi sağlamlığına həsr edəndə, onun ölmüş ruhunu ayağa durğuzanda ən ali və iftixar olunan bir dərəcəyə yüksəlirlər. Çünki ruhu dirilmiş adam, yaxud bütöv bir xalq nə qədər bədbəxt olmuş olsa belə məqsədinə doğru yol gedir.

H.Mirələmovun əsərləri xüsusən vətənpərvər ruhda qələmə aldığı ədəbi nümunələr. "Vicdanın hökmü", "Güllələnmiş heykəllərin fəryadı", "Xəcalət" povesti bizi məqsədə doğru aparır. Torpaqlarımız işğaldan azad edilməlidir. Yeganə məqsəd budur. Azərbaycan özünün yenilməz və qüdrətli ordusunun gücünə arxalanmaqla bu məqsədə yetişməlidir. Ordunun gücü isə təkcə onun hərbi hazırlığında deyil. O ordu basılmazdır ki, həqiqəti anlaya, torpağın müqəddəsliyini dərk edə, düşmən qınağı altda yaşamaqdansa, ölümünü yey bilə.

Bu məsələdə ədəbiyyatın da üzərinə böyük məsuliyyət düşür. Bu mənada H.Mirələmovun həqiqi və səmimi hiss və ehtiraslardan yaranan, insanın böyük duyğularına təsir edən onun fikrini və hissini arzu olunan məcraya yönəldən, zehninə hakim olan əsərləri misilsiz əhəmiyyətə malikdir. Unutmaq olmaz ki, sənət bütün tarixi dönüşlərdə, tarixi mərhələlərdə insanları və xalqları öz ardınca apara biləcək güc mənbəyi olmuşdur. H.Mirələmovu gələcək nəsillərə təqdim edəcək yaratdığı belə sənət əsərləri ədəbiyyatımızın pozulmayan səhifələri kimi zaman keçdikcə daha böyük mənəvi dəyər kəsb edəcək, ədəbi nəsillərin yaddaşına həkk olunacaqdır.

# VƏTƏN: QƏDİM TARİX KİTABININ SƏHİFƏLƏRİ

Yazıçı elm adamlarında fərqli olaraq obrazlarla düşünür. Əgər hansısa alim faktlara, arqumentlərə əsaslanırsa, müxtəlif elmi mənbələrə söykənirsə, bundan fərqli olaraq söz adamı ancaq fikirlərini obrazlar vasitəsi ilə ifadə edir. Yazıçının yaradıcılıq laboratoriyasında qələm və ağ kağızdan başqa heç nəyi olmur. Professor N.Şəmsizadə demişkən, dünyada ağ kağızla üz-üzə qalmaqdan çətin şey yoxdur. Deməli, dünyada yazıçılıqdan da çətin şey yoxdur. Bir dəfə Nobel mükafatı qazanmış island yazıçısından soruşurlar ki, indiki texniki tərəqqi dövründə niyə makinadan istifadə etmir, əllə yazır? O, cavab verir ki, əlyazması əllə yazılmalıdır, həm də ən gözəl fikirlər sükutun hakim olduğu vaxtlarda yaranır.

Məlumdur ki, bədii ədəbiyyatın əsas vasitəsi sözdür. Tutaq ki, heykəltəraş gildən, qumdan, rəssam və boyalardan istifadə etməklə əsər yaradır. Yazıçı isə sözdən istifadə edərək duyğularını kağıza köçürür. Ancaq onun istifadə etdiyi söz, eləcə də yaratdığı obraz təxəyyüldə bişməlidir. Əgər söz alaçiy olsa, obraz tamamlanmamış olsa oxucu tərəfindən həzm olunmayacaqdır. Mən H.Mirələmovun “Xəcalət” povestini oxuyub qurtardıqdan sonra başa düşdüm ki, müəllif bütün sözləri yerində işlədib, yaratdıqları obrazların xarakterlərini tamamilə açmağa müvəffəq olub.

Gördüyü hadisələri obrazların dili ilə canlandırmaq hər yazıçıya müyəssər olmur. Ancaq “Xəcalət” dəki obrazların hamısı bitkin obrazlardır və onlar oxucuda Qarabağ faciəsi və onun kökləri haqqında aydın təsəvvür formalaşdıra bilir.

Povestəki əsas obraz Vətəndir. Müəllif bu obrazı ədəbi qəhrəman səviyyəsinə qaldıra bilmişdir. Əslində Vətən başıbəlalı Azərbaycanı əks elətdirir. Vətən taleyinə didərginlik düşmüş milyonlarla soydaşımızın ümumiləşdirilmiş obrazdır. 37-nin qara yeli onun da nəslinin üstündən əsib. Odur ki, o, Özbəkistanda doğulub. Yurd həsrəti ilə bu dünyadan köçən babası İsgəndərin arzusu ilə ona Vətən adı verilib. Bəraət qazandıqdan sonra Qarabağa – dədə-baba yurdlarına köçüblər. Onun kimi qəriblikdə doğulmuş, həm də qohumu Fərqanə ilə ailə qurublar. Didar və Qəmxar adlı övladları var. Yaxşı güzəran keçirirlər. Ancaq ermənilərin nankorluğu və torpaqlarımıza tamah salmaları onların yuxularına haram qatır. Hamı kimi onlar da illərlə tikdikləri – qurduqları həyat-bacanı qoyaraq balaca bir bağlama ilə evlərini tərk edirlər. Yolda çətinliklərlə üzləşirlər... Nəhayət Ağdama çatırlar. Ağdam işğal olunduqdan sonra isə Bakıda uçuq- sökük bir yataqxanada məskunlaşırlar. Göründüyü kimi, çox sadə bir süjetdir. Amma ilk

baxışda sadə görünən bu süjetdə müəllif çox böyük mətləblər qoymuşdur. Əsərdə sürünə-sürünə düşmən mühasirəsindən çıxmağa çalışan Vətənin xatirələri bir-bir çözələndikcə, bizə aydın olur ki, ermənilər nəyin hesabına torpaqlarımızı işğal edə bildilər. Necə oldu ki, torpaqlarımızı itirdik? Necə oldu ki, yüzlərlə qız –gəlin əsir düşdü, qoca və körpələr qışın sazağında dondular? Kimdir günahkar? Bax bu suallara "Xəcalət" də cavab tapmaq mümkündür. Yazıçının məharəti orasındadır ki, o, hamımızın bildiyi bir hadisəni əsərinə süjet götürməklə bu suallara yaratdığı obrazların dili ilə cavab vermişdir. Görəsən, həmişə süfrəmizin qırağında oturan qonşularımız niyə nankor çıxdılar? Axı bunun səbəbi nədir? Kim bilmir ki, bütün tarix boyunca nə Qarabağın dağlıq, nə də aran hissəsi heç vaxt erməni dövlət birləşmələrinin tərkibində olmamış, əksinə həmişə Azərbaycanın bir parçası kimi tanınmışdır. Guya ki, Dağlıq Qarabağda ermənilər azərbaycanlılardan çoxdur. Erməni alimləri bu faktı şişirdərək Moskvanın gözünə kül üfürdülər. Əvvəla, ən ilkin rus qaynağına görə 1832 –ci ildə Qarabağ əyalətində 34, 8 faiz erməni, 64, 8 faiz azərbaycanlı olmuşdur. Sonralar Rusiya –İran sövdələşməsinə əsasən İrandan Qarabağa ermənilər köçürülmüşdür. Bu barədə də Rusiyanın İranda səfiri olmuş A.S.Qriboyedovun qeydləri var. Bizim dədə-babalarımızın da onları öz qapılarında yerləşdirmişlər. Ümumiyyətlə, Rusiya bu millətdən Azərbaycana, İrana qarşı həmişə bir alət kimi istifadə etmişdir. Amma görünür, bu millətin də mayası xarabdı ki, həmişə xəyanət yolunu tutublar, üzə gülüb zərbəni arxadan vurublar. Bəs bunları biz niyə unutmuşuq? Niyə özümüzü mənfur düşmədən qorumamışıq? Görünür,yaddaşımız korlanıb, tarixin dərslərindən ibrət götürməmişik. Bu mənada "Xəcalət" yaddaş kitabıdır. Yazıçı bütün olub – keçənləri, erməni qəddarlığını sənədli faktlarla açıb ortaya qoyur, bununla da bizi ayıq –sayıq olmağa çağırır, tarixin sərt həqiqətlərini unutmağa çağırır. Yazıçı istəyir ki, köhnə bir yataqxanada yaşayan məktəbli qız geyiminə görə sinif yoldaşlarından utanıb xəcalət çəkmisən . Çünki onun günahı yoxdur. Milyonlarla insanı qaçqınlıq girdabında boğan siyasətbazlar xəcalət çəkməlidir. Bir də, törətdikləri əməllərə və qəddarlıqlara görə ermənilər xəcalət çəkməlidir.

"Xəcalət" povesti ədəbi ictimaiyyət tərəfindən birmənalı qarşılanmadı. Çap olunduğu vaxtdan güclü əks-səda doğurdu. Bədii ədəbiyyatı təbliğ Bürosunun "Yaddaş" mükafatına layiq görüldü. Bu əsərlə bağlı çoxlu tənqidi- publisistik məqalələr meydana çıxdı. Tənqidçi V.Yusifli, yazıçı Ə.Fərzəli, şair-publisist Ə.Xələfli və digər söz adamları povestin bədii məziyyətəri barədə məqalələr yazdılar. Eyni zamanda "Xəcalət"ə irad tutanlar da oldu. İrad tutdular ki, tendensiyalı və primitiv süjeti olan bir əsərdir. Əlbəttə, biz də o fikirdəyik ki, ədəbiyyat tendensiyalı olmamalıdır (əgər "Xəcalət"də varsa?(. Çünki yazıçı diplomat deyil, o, öz içini yazmalıdır. "Xəcalət"ə "primitiv süjeti" yapışdırmaq isə primitivlikdir və adamda güclü etiraz doöurur. Belə bir ədəbi lətifə mövcuddur:

“Bir dəfə cavan bir yazıçı ustad bir sənətkarın yanına gəlib xahiş edir ki, ona elə bir süjet versin ki, həmin süjet əsasında böyük bir əsər yazıb tanınsın. Ustad bir az fikirləşdikdən sonra deyir: - Oğlan qızı sevir, qız da onu. Günlərin birində oğlan bir neçə aylığa ezamiyyətə gedir. Qayıdanda görür ki, qız başqasına vurulub. Bundan xəbər tutan oğlan dəli olmaq dərəcəsinə çatır.

Ustadın susduğunu görən cavan yazıçı gülür:

- Elə by?! Bu ki, sadə bir şeydir!

- Elə bu, - qoca sənətkar dillənir: - Yaddan çıxarma ki, dünya ədəbiyyatının nadir incilərindən sayılan “Ağıldan bəla” bu sujet əsasında yazılıb. Və yaxud da “Anna Karenina” nədən bəhs edir?” sualına L.Tolstoy belə cavab vermişdir: “Boş şeydir. Ərli bir qadının hərbiçiyə məhəbbətinin tarixçəsidir”.

Göründüyü kimi, çox sadə və boş görünən hadisədə bütöv bir tarix yaratmaq, böyük bir xalqın faciəsini göstərmək mümkündür. H.Mirələmov “Xəcalət”də sadə görünən bir həyat hadisəsini məharətlə ədəbi hadisəyə çevirə bilmişdir. Vətənin fərdi taleyini təsvir etmişdir. Bu,həm də Azərbaycanın taleyidir. Xəstə məktəbli qız Didarın taleyi elə bütün didərgin uşaqların taleyidir. Müəllif ustalıqla fərdi taleləri ictimai taleyə qovuşdura bilmişdir.

Povestdə insan obrazları təbii və inandırıcıdır. Həyatda hər gün rastlaşdığımız və gördüyümüz insanlardır. Heç biri uydurma deyil. Bəziləri xəcalət çəkməyə məhkum olunublar. Bəziləri isə buna görə günah yükünü daşıyanlardır. Müəllif isə bu obrazları danışdırmaqla, qarşı- qarşıya qoymaqla, onların hadisələrə münasibətini verməklə xarakterini açır və bununla da istəyinə nail olur.

Əsərdə canavar və çay obrazları uğurlu alınmışdır. Canavar obrazı rəmzi məna daşıyır. Nə vaxt ki, Vətən yaralanır, elə o vaxtdan boğaz bir canavar onu izləyir. Ancaq ona hücum etmir. Ac olsa da belə. Boğaz canavar hər ovu yemir. Bu mənada burada bioloji məna axtarmaq olar. Ancaq bizcə, yazıçı qurd obrazını yaratmaqla heç də bunu demək istəməyib. Məlumdur ki, qurd türkün mifik obrazıdır, onun xilaskarıdır. Bəli, Vətən xilas olana qədər canavar onu müşayiət edir, sanki canavarın gözlərindən saçan işıq onun yolunu işıqlandırır. Elə ki, Vətən təpəni aşıb xilas olur, canavar ulaşmağa başlayır. Belə demək mümkünsə, Vətən “qurdu ulayır”.

Çay obrazı da yerinə düşüb. Bütün yolları ermənilərin tutduğu vaxtda çay ən etibarlı yoldur. Çay burada tək Vətənin ailəsinin deyil, yüz minlərlə didərgin ailəsinin xilas və nicat yoludur.

Povestdə Qarabağ camaatının qonaqsevərliyi, ürəyiaçığlığı və səxavəti bədii boyalarla çox təbii erilmişdir. Eləcə də əsərdə Vətənin mərmi və güllə yağışı altında anasının Quransız, kəfənsiz dəfn etməsi səhnəsi çox kədərli və acınacaqlıdır. Ermənilərin fikirləşib tapdıqları dəhşətli cəza üsulları adamı

dəhşətə gətirir. Maraqlı burasıdır ki, bütün bunlar uzaq tarix deyil, günümüzün reallığıdır və hələ ki, bu ağrıları yaşayırıq.

Əsərdəki təbiət təsvirləri və peyzajlar təsadüfü verilməyib. Tənqidçi V. Yusifli "Həyatın ritmi" kitabında yazır: H. Mirələmovun nəsrində təbiət təsvirləri və peyzajlar haqqında da ayrıca söz açmaq olar. Bədii təfəkkürün obrazlı ifadəsi, fikrin daha təsirli obrazlarla təqdimi üçün peyzajın böyük əhəmiyyəti var. H. Mirələmovun nəsrində peyzajlar ən çox üç məqsədlə işlədilir. Birinci halda məkanın təsviridir – yazıçı qəhrəmanların, düşdüyü yerin təsvirini verir, hansı bir şəhərdən, kəddən isə söz açır və bu mənada həmin məkan haqqında müəyyən məlumat verir. İkinci halda isə obrazların keçirdiyi hiss və həyacanların dərəcəsini ifadə etmək üçün təbiətə müraciət edir. Obrazların düşdüyü vəziyyətlərlə təbiət arasında kontrast yaradır. Üçüncü halda müəllif əsərdə müəyyənləşdirdiyi başlıca qayəni, əsas fikri ümumiləşdirir, bir növ əsərə yekun vurur.

Qeyd edək ki, onun təsvirlərində təbiət hadisələrinə, təbiətdə baş verən proseslərə dərindən bələdlik hiss olunur. Bu da təsvirlərdə reallığı heç bir şübhə yaratmır.

Bəzi misallara müraciət edək.

"Xəcalət" povesti belə bir sonluqla başa çatır: "Üfüqdə aydın, alqırmızı bir günəş doğulurdu".

Gecənin təkərli arabası səzsiz – səmirsiz üfüqdən uzaqlaşırdı. Ətraf pak, müqəddəs bir odun alovuna bürünmüşdü.

Dünən bütün günü tər tökən qoca bağban yoxa çıxmışdı. Bəlkə əlləri zəhmət ətirli, o müdrik el ağsaqqalı günəşin yanınacan qalxmış, elə günəşin özünə çevrilmişdi? Məmləkətin hər yerini, elə Qarabağa gedən yolları da işığa, nura bələmək üçün dan üzü qızarırdı. Sabah açılmaqdaydı. Yeni dövrün, yeni zamanın daha bir ümüd sabahı...

Üfüqdə aydın, al – qırmızı günəş doğulurdu. Gecənin təkərli arabası səzsiz səmirsiz üfüqdən uzaqlaşırdı.

Başdan – ayağa kədərli bir povestin sonu beləcə nikbinliklə bitir və bu da müəllifin bədii məramı ilə səsləşir. Çünki, povestdə təsvir edilən hadisələr kədərli olsa da, ümid sönməyib, bunu ayrı-ayrı obrazların daxili inamı təsdiq edir.

Həmin povestdə təbiətlə insanın harmoniya və vəhdətini əks etdirən təsvirlər daha artıq diqqəti cəlb edir. Povestin bir yerində oxuyuruq : "Şərt qayalar, qayaların sinəsindən boylanan kollar, ağaclar, daşların arasında cilvələnən gözəllər kimi nazlanan çiçəklər nigarançılıq çəkir, kimisə arxa – dayaq durmağa çağırır". Bu gün kimsənin ağlına gəlməzdi ki, bir vaxt atının yalmanına yatıb, bu dağları dörd dolanan igidlərin nəvələri, nəticələri bu daşları, bu qayaları kimsəsiz qoyacaqlar. Bir – birinə heçnə deməsələr də, bu adamların hər birinin

içərisində gizlənən nigarançılıq tarixin hansı qatındasa gördükləri haqsızlıqarın, allahsızlıqların cavabı olaraq daşlaşmış babaların ruhları ilə danışır, dilləşir.

"Xəcalət" povestində bu mənada bitkin bir təbiət obrazı haqqında söz açmaq olar ki, bu obraz əsərdəki hadisələrin iştirakçıları ilə bir sırada görünür.

... Povesti oxuduqca qədim bir tarix kitabının səhifələri açılır gözümüzün qabağında. Hər səhifəsi qanla – qadayla dolu tariximizi danışır müəllif, 26 dekabr, 1992- ci il... Xocalı qırğını. Bu da tarixdir. Ancaq bu soyqırıma qədər yazıçı dünyanın əvvəlindən baş alıb gələn qədim bir yolun yolçuları olan ulularımızdan, əcdadlarımızdan da danışır. Danışdıqca Qarabağda əcdadlarımızın əzəl məskənlərindən olan Azıx mağarasında yandırılan tonqalların işığı düşür onun üzünə. O qədim yolda babalarımız görünür. Nizami yedi gözəllə söhbətləşir, Nəsimi dabanından soyulur, Füzuli düşünür, Qorqud qopuz çalıb şücaət göstərən igidlərə ad qoyur. Müdrik bir qoca Qobustan qayalarında yonduğu rəsmlərə tamaşa edir. Memar Əcəmi Məhəmməd Cahan Pəhləvanın arvadı Möminə Xatunun şərəfinə tikdirdiyi türbənin son daşını qoyur. O yolda Qarabağlar türbəsi, Şuşa abidələri görünür. Şirvanşah İbrahim xan ağıllı siyasəti ilə ölkəsini təcavüzdən qorumaq üçün plan cızır. Nadir şah Əfşar əzəmətli görkəmi ilə keçib gedir. Şah İsmayıl Ərdəbildən Dərbəndəcən o yolda əlində qılınc atını çapır. 37-nin qara yeli Cavidi, Müşfiqi... qabağına qatıb Sibirə doğru aparır. Vətənin babası "qızıllı"İsgəndər də onlarladır. 22 yaşlı Üzeyir opera yaradır. O yolda Babəki xəyanətlə tutduran Səhl – Sumbatın irişən sifəti də görünür. O yolda rusların qabağına düşüb Qarabağın, Zəngəzurun, Göyçənin,Vedibasarın yollarına bələdçilik edən ermənilər də qaralır. Yüz minlərlə soydaşımız Stalinin fitvası ilə dədə - baba yurdlarından Sibir çöllərinə sürülür. O yolda erməni terrorunun qurbanı olan bir milyon didərgin bacı – qardaşlarımız çadır evləri qurur,uçuq-sökük yataqxanalarda xəcalət çəkirlər. Bu ailələrdən biri də Vətənin ailəsidir. Bu xəcaləti isə müharibə yaradıb. Ancaq çadır evlərindən, yataqxanalardan canımızı qurtarmayınca xəcalətdən qurtula bilməyəcəyik. Bunun üçün isə bizi bürümüş xəcalət hissini düşmənə nifrət hissi ilə əvəz etməliyik. Amalımız itirilmiş torpaqlarımıza yiyə durmaq olmalıdır. Elə "Xəcalət" də bu amala xidmət etdiyindən gərəkli və dəyərlidir.

# BƏDİİ SÖZ: TƏFƏKKÜRÜN QASIRĞASI

H.Mirələmovun "Qasırğa tez keçdi" adlı bir hekayəsi var. Doğrusu, bu hekayəni oxuyub üstündən sükutla keçmişdim. Düzdür, hekayədə yazıçının toxunduğu problemlər məni düşündürmüş, aşılamaq istədiyi nəcib duyğular qəlbimə hopmuşdu. Amma nədənsə bu əsər haqqında duyğularımı qələmə almağa tələsməmişdim. Bu gün isə əlimə qələm götürüb yazı stolunun arxasına keçəndə hekayənin məndə oyatdığı hisslərə, duyğulara biganə qala bilməyəcəyimi hiss edəndə yadıma böyük türk mədənyyətinə, türk mənəviyyatına bir dünya üstünküklər qazandırmış Mövlana Cəlaləddin Ruminin müdrikliyini bu günə çatdıran bir əhvalat düşdü. Deyilənə görə, Mövlananın insanları ədəb -ərkana dəvət etmək niyyətilə söhbət etdiyi məclislərinin birində özündən razı birisi ətrafındakılara deyir: - Mövlana bu məclisdə nə danışsa, onun söylədiklərinə qarşı çıxıb, soruşduqlarına da qeyri- münasib cavab verəcəyəm. Bir qədər sonra mövlana məclisə gəlir və toplaşanları salamladıqdan sonra, "la-ilahə- illəllah, mühəmmədun – rəsulillah" deyə söhbətə başlayır. Mövlananın danışığına zidd getmək istəyən bayaqkı adam təəccübdən donub qalır və həqiqəti etiraf etməkdən başqa çıxış yolu qalmadığından üzr diləyərək mövlananın böyük dünyasına qarışır və deyilənə görə sonralar onun sevimli tələbələrindən biri olur. Mövlana dünyasından xəbər verən bu hikmətli əhvalat burda bir qədər yerinə düşməsə də, nəticə belədir ki, həqiqəti fəhm edən insan inkaredilməzdir. Böyük sənətin insan mənəviyyatına təsiri də heç vaxt izsiz qalmır. Bu mənada hər hansı sənət əsərin insanın duyğularını nə vaxtsa dilləndirməsi şübhəsizdir. "Qasırğa tez keçdi" hekayəsini oxuyub qurtarınca intizarda qalmışdım. Əsərin ədəbi qəhrəmanlarından biri Zəminə öz insani varlığını – böyük mənəvi ideallar sahibi olduğunun təsdiq edə biləcəkdimi? Onun sonsuzluğuna – övladı olmadığına görə ittiham edən mühiti susdura biləcəkdimi? Zəminənin ömür- gün yoldaşı Rəhim nəhayət, müqəddəs sevgi qarşısında diz çökəcəkdimi? Yaxud dənizdə qəfləti baş verən qasırğanın, tufanın gətirdiyi ölüm qoxusu şahə qalxan dağların qoynunda olum- ölüm arasında çarpışan, uzun illərin sirdaşı Rəhimlə Xəlilin dostluğuna xələl gətirə biləcəkdimi? Əsərin gedişatından yaranan bu tip sualların cavabı bəlli olunca oxucu psixoloji burulğandan xilas ola bilmir. Əsəri oxuduqca keçirdiyin gərginlik, mənəvi sarsıntı sonda təsvirəgəlməz bir rahatlıq gətirir adama. Müəllif bütün hadisələri uğurla sona çatdırır. Hətta qasırğa, tufan belə son nəticədə xətərsiz sovuşub – ötür. Hekayə insanın bütün diqqətini səfərbər edə biləcək cümlələrlə başlayır. – Gecə vahiməli idi. Külək qarı toz kimi sovuraraq Zəminənin üz- gözünə çırpırdı. Onu hər addımda qara basır, hər şey ona qorxunc

və zəhmli görünürdü. O tini burularkən istər- istəməz dayanıb arxaya baxdı. Nəzərləri uzaqda sezilən tutqun bir işığa dikildi. İşığın zəif ziyası Zəminin ürəyinə iynə kimi sancıldı. Axı bu işıq ordan, o soyuq evdən gəlirdi... Zəminə çox dayanmışdı. Tufanlı gecədə hara getdiyini özü də bilmirdi.

Zəminənin soyuq qış gecəsində evdən çıxıb getməsi səbəbsiz deyildi. Onun övladı olmurdu. Elə bu səbəbdən də ailə qurduğu evdən ona olan soyuq, biganə münasibət sonsuzluğuna görə hər gün təhqir, acı sözlər eşitməyə məhkum olması onu cana doydurur, evdən baş götürüb getməyə vadar edirdi. Əvvəla onu deyim ki, əsərin əsas mənəvi dəyərlərindən biri elə bu məsələnin qoyuluşudur. Çünki hər hansı məsələdə ərinə sədaqətli qadının taleyindən gəlmə bir bədbəxtliyinə görə ittiham etmək, onu evdən – eşikdən bezikdirmək, nəhayət , evdən çıxıb getmək zorunda qoymaq ən böyük ədalətsizlikdir. Hətta mən deyərdim Tanrısına asi olmaqdır. Həyatda belə hallara çox rast gəlinir. Nə qədər gənc ailələr bu səbəbdən dağılır. Neçə sevən könüllərə bu səbəbdən xal düşür. Yazıçı isə bəşəri duyğular aşılamağı özünün mənəvi borcu hesab etdiyindən belə halların qarşısını almaq istəyi ilə belə bir vacib problemə toxunaraq insanın taleyinə yazılmış və bilavasitə insanın özünün imkanı xaricində olmayan bəxti, qisməti ilə barışmağı ən böyük insani kefiyyət hesab edir. Filosoflar deyirlər ki, analıq, məhəbbət, fədakarlıq, dostluq, vətənpərvərlik, sevmək, sevilmək və s. kimi hisslər müqəddəs hisslərdir. Müqəddəs hisslər olmadan nə insanın varlığı, nə də ki, onun müdrikliyinə təsəvvürə gətirmək ağılasığmazdır. “Qasırğa tez keçdi” hekayəsində Zəminənin ana olmaq istəyi ilə qarşılaşdığı hadisələrdən qürurla çıxması, taleyindən gəlmə bədbəxtliyinə görə ailənin, yaşadığı mühitin ona verdiyi mənəvi əzablardan ağılla xilas olması, özünü, sevgisini, məhəbbətini təsdiq etməsi əslində qadının fədakarlığıdır. Zəminə ər evindən birdəfəlik çıxıb getsə də, qayınanası onu ailə qurduğu yeni həyatından küsdürsə də, fəqət, qəlbinin dərinliklərində tutiyə kimi qoruyub saxladığı məhəbbətini, Rəhimə olan sarsılmaz sevgi hisslərini heç vaxt ürəyində dəfn etmək xəyali ilə yaşamır. Əksinə, o, hər an uzaqlardan Rəhimi xəyali olaraq görür, onun yaşaması ilə təsəlli tapır, bir növ qəlbindəki inam işığı həmişə Rəhimə tərəf boylanır. Təsadüfi deyil ki, müəllif əsərdə həmin inam işığının sönməsinə şərait yaratmır. Zəminəni sanki dişi aslan kimi təsvir edərək, məhəbbətinə doğru oddan – alovdan keçirərək sədaqətinə qovuşdurur. Dənizdə qasırğa, tufan baş verəndə Rəhimlə Xəlil qurduğu balıq torlarını açarkən qəfil qəza onları yaxalayır. Qasırğanın yaratdığı səs-küy bir anda kəndə - kəsəyə də yayılır. Rəhimin dənizdə olmasından xəbər tutan Zəminə birbaş sahildə doğru qaçmağa üz qoyur. Axı orda onun inamı vardı. Yazıçı məhz bu səhnəni təsvir etməklə Zəminəni düşdüyü dəyirman boğazından həyatın sərt, keçilməz dolanbaclarından xilas etmək niyyəti güdür. Elə burdaca əsərdəki həmin parçaya diqqət etmək yerinə düşərdi: “Sahilin özü dəniz kimi

təlatümlü, həyacanlı  idi. Balıqçı məhləsindən kimi axtarsan burada idi. Boz-bulanıq dalğa  sahilə dəyib geri qayıdanda  qaraltı  gördülər. Bir neçəsi  dənizə hücum etdi. Güclü  dalğa neçəsini  geri qaytardı, yenidən sahilə atdı. Amma İsaya, Nəhmədə, Feyziyə və dişi aslana  dönmüş  Zəminəyə gücü çatmadı. Onlar qaraltıya  çatdılar, götürdülər  və sahilə  çıxartdılar. Elə  bu vaxt Zəminə haray qopardı".

Ayıq oxucu artıq bu harayda müəllifin  birbaşa  nə demək istədiyini anlayır. İdeya oxucunun beynində şimşək  kimi çaxır. İnsan haray çəkir, fəryad qoparır. Ümidlərimin  qırılmasına, inamının sönməsinə imkan verməyin deyir. Zəminə haray qopardıqca  daxili bir yanğıyla  mənəvi  dünyasından  qopub  gələn nisgil-kədərdər yanaqlarından al –qana boyanır. O, əl atıb üz- gözünü şah igidi ölmüş analar kimi cırmaqlayır, şivən qoparır. – Evim  yıxıldı ay camaat, Rəhim getdi əlimizdən... haranın  daşın salım  başıma... ələrini  yanaqlarına atdı Zəminə. Həmişə od kimi  alışıb – yanan  kükələrdə  qan dolu şırımlar  açıldı.

Bu kiçik parçadan  göründüyü  kimi, müəllif  hadisələri  olduqca təbii boyalarla təsvir etdiyindən insanın  daxilindəki gizli  məqamları üzə çıxara bilir.

Bir məsələni də burda qeyd edim ki, H.Mirələmov  bir qayda  olaraq hekayələrində və başqa irihəcmli  əsəsrlərində təbiət  təsvirlərindən  və peyzajlardan  məhərətlə, yüksək  sənətkarlıqla  istifadə edərək hadisələri çoxsaylı oxucuların  qavraua biləcəyi  tərzdə işıqlandıra bilir. Tanınmış  tənqidçi  Vaqif Yusifli  H. Mirələmovun yaradıcılığından bəhs edən "Həyatın ritmi" kitabında yazıçının  təbiət təsvirləri, eləcə də peyzajlardan  hansı  məqsədlərlə  istifadə etdiyini şərh edərək yazır: "H.Mirələmovun  nəsrində peyzajlar ən çox üç məqsədlə  işlədilir. Birinci  halda  məkanın təsviridir – yazıçı  qəhrəmanlarının düşdüyü yerin  təsvirini  verir, hansı bir şəhərdən, kənddən isə söz açır və bu mənada  həmin  məkan haqqında müəyyən məlumat verir. İkinci halda isə obrazların  hiss və həyacanlarının  dərəcəsini  ifadə etmək üçün  təbiətə  müraciət edir. Obrazların  düşdüyü  vəziyyətlə  təbiət  arasında kontrast yaradır. Üçüncü halda müəllif əsərdə  müəyyənləşdirdiyi  başlıca qayəni, əsas fikri ümumiləşdirir. Bir nöz əsərə yekun vurur".

Həqiqətən H.Mirələmovun yaradıcılığını izlədikcə tənqidçinin dəqiq müşahidəsini  ifadə edən, fikirləri  ilə səsləşən  məqamlara çox rast gəlinir. Konkret olaraq " Qasırğa tez keçdi" hekayəsində  təbiətin  birdən – birə qeyzə gəlməsi, dənizdə  qopan  fırtınanın  qəzaya səbəb olması, bayırda  şaxtanın  sərtliyi – insanın  iliyinə qədər işləməsi və s kimi təsvirlər hekayədə təsvir olunan hadisələrlə, insanın  düşdüyü psixoloji  vəziyyətlə  ahəngdarlıq  təşkil edir. "Qasırğa tez keçdi" hekayəsində  məqsəd  təkcə müqəddəs sevginin  qalibiyyətini bəyan  etmək  deyil, oxucu bu əsərdə ümumən  insana  xas olan bütün  dəyərli hisslərin  yazıçı tərəfindən  təlqin  edildiyini  duyur  və dərk edir. Əsərdə  Rəhimlə

Xəlilin dostluğu heç bir maddi maraq tanımır. Onların dostluğu təmənnasızdır və sonadək onları bu dostluqda sədaqətli saxlamaqda sanki yazıçı demək istəyir ki, insanları heç də həmişə maddi maraq və qorxu hissi birləşdirmir. Əgər birləşdirsə belə, dayanaqlı olmur. Əsl dostluq, saf sevgi təmənnasız olanda bütün sədləri, maneələri dəf edib keçə bilir. Rəhimlə Xəlilin dostluğu kimi, və ya Rəhimlə Zəminənin sevgisi kimi. Əsərin sonunda biz` bu qənaətin doğruluğuna tam əmin oluruq. Belə ki, Zəminə yenidən həyata qayıdır, öz halal sevgisinə qovuşur. Onu sonsuzluğuna görə qınayan ailə, daha doğrusu mühit şəxsiyyətin fədakarlığı qarşısında sınır, tərbiyə olunur və insanın taleyinə yazılmış bəxti, qisməti ilə barışırlar. Rəhim dənizdə boğularkən ölümcül vəziyyətdə xəstəxanaya çatdırılır. Təcili tibibi yardımdan sonra özünə gəlib ayılanda Zəminəni yanında görür. – Zəminə Rəhimin yatağı yanında oturmuşdu. Dərman içirdirdi ərinə. Acı idi dərman. Lakin Rəhim bu acılığı hiss eləmirdi, çünki zəhər kimi acı dərmanın üstündən Zəminənin bal kimi təbəssümünü içirdi.

Əsərdəki qeyd etdiyim bu sonluqda yazıçı bir daha təbliğ etmək istədiyi fikri, ideyanı yenidən qabardır. İnsanın bir anlıq təbəssümü məqamında həyat iksiri qədər qiymətli olur. İllah da ki, bu xeyirxahlıq müjdəsi olan təbəssüm insanın çöhrəsində daim yaraşıq verə. Əslində Zəminənin çöhrəsindəki təbəssüm onun daxili duyğularının ifadəsi idi. Deməli, insan inamlı və imanlı olanda, həm də ədalətli olur. Bu üç kefiyyət müdrikliyin nişanəsidir. Mən bu yazımın əvvəlində mövlanə Cəlalləddin Rumini xatırlamışdım. Türk dünyasının böyük şəxsiyyəti öz məntiqi ilə "la – ilahə illallah mühəmmədin – rəsulillah" kəlamını məqamında deməklə, bir imansıza iman bəxş etmiş və neçəsini də doğru yola dəvət etmişdi.

"Qasırğa tez keçdi" hekayəsində insanı müdriklik mərtəbəsinə ucaldan hisslərin, duyğuların tərənnümü var. İnsanın varlığını təsdiq edən sevgisi, inamı, imanı və ədaləti var.

İnamla deyə bilərəm ki, duyğusu olan hər bir kəs bu əsərdən bəhrələnərsə, qazanar və dünyanın ən böyük mənəvi sərvətlərinə sahib olar. Unutmayın ki, sərvət mənəvi olandır, maddi olan ötəridir.

# İNSANIN KEÇDİYİ YOLUN BƏDİİ SÖZLƏ İFADƏSİ

Tanınmış tənqidçi, filologiya elmləri namizədi Vaqif Yusifli "Həyatın ritmi" kitabında yazır: "... H. Mirələmovun ədəbiyyata qayıdışı bu mənada uğurlu oldu. Adətən, belə bir qayıdışda bəzi yazıçılar inkar yolunu seçirlər. Onlar qayıdışdan əvvəl yazdıqlarını zəif yaradıcılıq məhsulu hesab edərək onlardan imtina edirlər. Guya ki, ötən illərdə yazdıqları əsərlər qeyri- ədəbiyyat nümunələriymiş, yaxud bunlar böyük ədəbiyyata hazırlıq "məşqləri " imiş. Ancaq H.Mirələmov "Tənha durna uçuşu" kitabındakı heç bir hekayəsindən imtina etmədi və əksinə, həmin yazıların böyük bir qismini qayıdışdan sonrakı kitablara da daxil etdi. Bunun başlıca səbəbini biz ilk növbədə yazıçı xarakterində axtarmalıyıq. H.Mirələmovun yazıçı xarakteri üçün başlıca stimul bədii həqiqətdir, bu bədii həqiqət reallığa söykənir, həyat həqiqəti ilə qovuşur. Bu bədii həqiqət insanın (XX əsr insanının) daxili- mənəvi dünyası, psixologiyası, mühit və cəmiyyətlə qarşılıqlı münasibətləri, tarix və zaman qarşısında məsuliyyəti və s. amilləri üzərində qurulmuşdur. H. Mirələmovun təsvir etdiyi insan ümumiləşmiş halda XX əsrin ictimai- siyasi, mənəvi psixoloji durumunu ifadə edir, onun sosial – tarixi simasının cizgilərini müəyyənləşdirir, zəif və qüvvətli cəhətləri haqda aydın təsəvvür yaradır. Ona görə də bu insanın keçdiyi tarixi yolun heç bir mərhələsindən imtina etmək olmaz. Bu, birinci səbəb. İkinci səbəb odur ki, H.Mirələmovun fərdi üslubu onun yaradıcılığının qayıdışdan əvvəl və sonrakı çağları arasında bağlılığı inkar etmir, yəni fərdi üslubun əsas cizgiləri "Tənha durna uçuşu" kitabındakı hekayələrdə formalaşmağa başlamışdır. Fərdi üslubda qazanılan keyfiyyətlər əsas cizgilərin üzərinə kölgə salmamışdır, əksinə, onun bütövləşməsinə, dolğunlaşmasına kömək etmişdir...

Mən H.Mirələmovun bütün yaradıcılığına bələdəm, demək olar ki, onun bədii əsərlərini, publisistik məqalələrini, esselərini dönə- dönə oxumuşam. Ona görə də tam inamla deyə bilərəm ki, V.Yusifli bu fikirlərində səmimi və haqlıdır. Doğrudan da, H.Mirələmov orta məktəb illərində yazdığı, eləcə də gənclik illərinin məhsulu olan hekayələrindən imtina etmədi. Nəinki imtina etmədi, əksinə, onlara qol-qanad verdi, onları daha da böyütdü, dolğunlaşdırdı. Çünki onun əsas obyekti insandır, insanın cəmiyyətlə qarşılıqlı münasibətidir. Onun təsvir etdiyi insanın tarixi yolu əsərlərində də əksini tapdı. İnsan yaşa dolub böyüdüyü kimi, onun qəhrəmanları da yaşa dolub böyüdülər. 14 yaşında qələmə aldığı "Bir tikə çörək" hekayəsindəki Məmməd bir tikə çörəyə görə əli qana batmış balaca oğlan artıq "Xəcalət" dəki Vətəndir, yetki bir kişidir. Və yaxud da "Vicdanın hökmü" ndəki Rəhimdir.

Ümumiyyətlə, H.Mirələmovun gənclik illərində yazdığı bədii nəsr əsərləri ilə son dövr bədii əsərləri arasında daxili bir vəhdət mövcuddur. Hər şeydən əvvəl, mövzu yaxınlığı bu əsərləri birləşdirir. İstər " Bir tikə çörək", "Qayıtdı durnalar", "Dəyirmana gedən yol" və s. hekayələri, istərsə də son illər qələmə aldığı "Xəcalət" povesti, "Güllələnmiş heykəllərin fəryadı", "Vicadının hökmü" dramı müharibə mövzusundadır. Bu əsərlərin hamısında müharibəyə nifrət aşılanır, müharibənin insan psixologiyasını zədələməsi və doğurduğu fəlakətlər bədii sözün köməyi ilə oxuculara təqdim olunur.

İkincisi, V.Yusiflinin sözlərinə istinadən deyə bilərik ki, yazıçının "Tənha durna uçuşu" kitabında toplanmış hekayələrindəki formalaşan fərdi üslubu sonrakı əsərlərində dəyişmir, sadəcə yeni keyfiyyətlər qazanır. Yəni onun "Bir tikə çörək " dəki fərdi üslubu ilə "Xəcalət"dəki fərdi üslubu arasındakı bağlılığı kimsə inkar edə bilməz.

Üçüncüsü, yazıçının bütün əsərlərində lirika çox güclüdür, insan əhval – ruhiyyəsinin bədii tərənnümü başlıca yer tutur. Adını çəkdiyimiz əsərlərdə elə parçalar var ki, şer kimi adamın qanına hopur. Ancaq bu lirika insanda şən əhval- ruhiyyə və sevinc doğurmur. İnsanı kədərləndirir və beləliklə onun hiss və duyğularına güclü təsir edir.

Dördüncüsü, gənclik illərində və son dövrdə yazdığı əsərləri birləşdirən emosiyadır. Yaxşı deyiblər ki, emosiyasız bədii əsər yoxdur. Bu mənada H.Mirələmov bəxtəvər taleli yazıçıdır ki, onun hər bir əsərində, hətta publisistik əsərlərində belə emosional əhval – ruhiyyə duyulur. Misalçün, müəllifin 14 yaşında yazdığı " Bir tikə çörək" hekayəsindəki balaca Məmmədin qızdırma içində yanan anasına çörək tapması və bu yolda əlinin qana batması bizi nə qədər sarsıdırsa, "Xəcalət" dəki Vətənin anasını dəfn etməsi səhnəsi, balaca Didarın kasıbçılıqdan doğan xəcalət hissi bizi o qədər ağrıdır.

Yazıçının "Tənha durna uçuşu" kitabında toplanmış hekayələri üçün ancaq bədii üslub xarakterikdir. Lakin kifayət qədər püxtələşmiş H.Mirələmovun son dövrdəki əsərlərində qarışıq üsluba rast gəlmək mümkündür. Yəni bədii üslubla yanaşı, publisistik üslubun da cizgiləri görünür.

Ancaq onun heç bir əsərində publisistik xətt oxucunu əsas xəttdən yayındırmır. Əksinə, onun publisistik düşüncələri əsərin ideyasının açılmasına yardımçı olur. Belə deyək ki, oxucunu yormayaraq işini asanlaşdırır, onun əsəri qavramasına kömək edir.

Dünya ədəbiyyatında az –az yazıçı tapılar ki, ilk dəfə yazmağa başlayanda böyük (həcmcə) əsərlərlə meydana çıxsın. Əksər yazıçılar xırda hekayələrlə yaradıcılığa başlayıblar. Sonradan həcmcə böyük olan digər janrlara müraciət ediblər. ( Biz o fikirdə deyilik ki, yazıçının böyüklüyü əsərin böyüklüyündən, həcmindən asılıdır). Hətta bir çox dünya şöhrətli yazıçılar bütün ömürləri boyu

hekayə janrında yazıblar, elə bununla da tanınıblar. H. Mirələmov gənclik illərində ancaq hekayələr yazıb. Özü də dəyərli hekayələr. Ancaq ədəbiyyata qayıdışından sonra onun yaradıcılığında yenə də hekayə janrı əsas yer tutsa da, müxtəlif janrlara müraciət edib. Bir – birinin ardınca povestləri (“Xəcalət”, “Həyat eşqi”, “Gəlinlik paltarı”), dram əsərləri (“Vicdanın hökmü”, “Həsrət”), kinossenariləri və esseləri işıq üzü görüb. Bundan bu nəticə çıxır ki, H.Mirələmovun son dövr yaradıcılığı əvvəlki illərdən fərqli olaraq janr əlvanlığı ilə seçilir.

Ancaq bu fərqlərə baxmayaraq, bütün əsərləri qırılmaz tellərlə bağlayan bir amil var; o da insandır. Yazıçı insanın keçdiyi yolu bədii sözün gücü ilə işıqlandırır, ona güc və inam verir.

H. Mirələmov “Qartal ” adlı bir hekayəsi var. 1987 – ci ildə qələmə alınıb. Əsərin qəhrəmanı tarixi, fəlsəfəni, ədəbiyyatı, musiqini dərindən duyan, istedadlı yazıçı Toğrul Aydəmirdir. Evdə gecə - gündüz intensiv işləyən, roman, povest, hekayə, şer tarixi esselər, bioqrafik oçerklər yazan bu adamı başqalarının gözü götürmür, ona bu yolla diz çökdürmək istəyənlər. Amma istəkləri baş tutmur. İki- üç ildən bir çapdan çıxan kitablarının qonararı hesabına ailəsini dolandırır, heç kimə boyun əymir. Onun kimsədən çəkinəcəyi yoxdur, azaddır. Yazıçı göydə süzən qartalla onu eyniləşdirir: “... Mən gördüm ki, dostum indi başqa bir yerə baxır. Gördüm, göydə süzən qartala tamaşa edir. Qartal bircə dəfə də qanaq çalmadan maviliyin içində hey süzür- süzürdü.

- Yəqin ki, biz onun gözünə siçan boyda görünürük, - dedi. O, dalğın – dalğın qartalı süzdü: - Allah dünyada bu qədər xoşbət canlı yaratmayıb. Heç bir düşməni yoxdur, saf, təmiz havada süzür, ömrü boyu təzə, ləzzətli ət yeyir, nə dərdi, nə qayğısı, nə də kimsədən qorxusu var. Əgər dünyada azadlıq deyilən şeyin əsil dadını bilən bir məxluq varsa, o da bu qartaldır.

Mən dostumu ağır düşüncələr içində dinləyir, onun mühitə, hətta öz qabığına necə sığmadığını bütün varlığımla hiss edirdim. Bəli, o da qartal idi. Ancaq cismən yerdə sürünməyə məcbur olan, ruhən isə daim zirvələrdə süzən və heç bir varlığa əyilməyən, ətrafda eşələnən paxıllar və cılızlar ordusu üçün əlçatmaz olan bir qartal”.

Bu kiçik parçadan göründüyü kimi, müəllif Toğrul Aydəmiri qartal kimi görür və təsəvvür edir. O, öz qabağına heç cürə sığmır. Cismən yerdə sürünməyə məcbur olsa da, ruhu göylərdə pərvaz edir. O, ətrafda eşələnən cılız insan sürüsünə baş qoşmur və onlar üçün əlçatmaz yüksəklikdədir. İstər-İstəməz diriykən dərisi dabanından soyulan Nəsimi və onun “Mən bu cahana sığmazam” fəlsəfəsi yada düşür. İnsan nə zaman bu cahana sığmır? O, zaman ki, dünyanın malı onun gözündə heçə dönür, xəyalında fövqəladə təsəvvürlər yarada bilir, müdriklik mərtəbəsinə qalxa bilir, mənən kamilləşir. Kamil insan isə Alah –

taalanın say – seçmə bəndələrindəndir. Yalnız o, əbədi həqiqət uğrunda mübarizə apara bilər, qartal kimi azadlığın dadını dada bilər. Toğrul Aydəmir bu mənada kamil insandır və müəllif onu qartala oxşadır. Ancaq kiçik hekayə janrında çox da uzağa getmir. Çünki onun fikirləri hekayə janrının tələblərinə sığmır. Elə ona görə də hekayəyə nisbətən daha iri həcmli janra müraciət edir. “Həyat eşqi” yarımfantastik povest janrındadır. H. Mirələmovun əsərlərində bədii həqiqət reallığa söykənir. O, həyat həqiqətini məharətlə bədii həqiqətə qovuşdura bilir. “Həyat eşqi” ndə isə yazıçı fantaziyası və təxəyyülü çox qabarıqdır. Doğrudur, yazıçının söylədiyi fantastik əhvalatdır. Ancaq bu fantastika oxucuya uydurma kimi görünmür. Çünki həyatın özündən, insanın öz başına açdığı problemlərdən doğur. Həm də müəllif fantastik əhvalatı real elə bürüyüb ki, fantastika heç yada düşmür, oxucu bunun fərqinə varmır.

Tam inamla deyə bilərəm ki, “Həyat eşqi” “Qartal” ın davamıdır. Bu dünyaya sığmayıb ruhən zirvələrdə süzən Toğrul Aydəmir elə “Həyat eşqi” ndəki 40 yaşlı Müdrikdir, Qartal – İnsandır, Palıd – İnsandır.

“Həyat eşqi” bu cümlələrlə başlayır: “Tələsir, arxaya baxmadan gedir, alıcı quş kimi, güllə ağzından ov alan şahin kimi şığıyırdı. Yaxş ki, qabağına qarlı-buzlu zirvələr, sıldırımları qabağına qatıb aparan iri çaylar çıxmırdı. Yoxsa dayanmalı, çarə axtarmalı, təzədən tədbir tökməliydi. Ensiz, yaşıl dərələrdə, saç kimi uzanıb gedən xırdaca dağ çaylarında yuyunur, sərinlənir, sonra yenə aramla yoluna davam edirdi...” Görəsən, bu yoçu kimdir və hara tələsir? Bu insan qırx yaşlı müdrikdir. O, insanlardan qaçaraq doğma yurduna – ins- cins ayağı dəyməyən ocağına tələsir. O yerə ki, orada qırqovullar, kəkliklər, turaclar - bütün quşlar adamdan uçmur, ceyran – cüyür perikmir, arılar ağacların koğuşunu təbii pətək salıb balla doldurur. Orada əsrlərlə heç nə dəyişmir, olduğu kimi qalır, bulaqlar, çaylar həmişə eyni cür nəğmə oxuyur. Ona elə gəlir ki, ömrünün qırx ilini yelə verib. Düzdür, onun heybəsində hələ heç kəsə tanış olmayan nəğmələr, fəlsəfi rübailər, dini minacatlar var. Ancaq bunlar dünyanın müasir nəşriyyatlarında ən nəfis şəkildə çap olunsalar belə onun üçün əhəmiyyətsizdir. O, insan həyatından bezib. Bundan sonrakı ömrünü başqa bir canlının ömrü kimi yaşamaq istəyir. Yolda – rizdə heç nə onu qorxutmur. Yaxşı başa düşür ki, dünyada qorxunun və müsibətlərin mənbəyi yalnız insandır. Odur ki, insan ayağı dəyməyən yerlərlə gedir. Nəhayət, yurd yerinə çatır və üzünü Tanrıya tutur: “... Ey ulu Yaradan, qüdrətinin hökmü ilə bütün kəhkəşanı məşələ döndərən, yerin – göyün ölçüsüz miqyaslarını nura qərq edən! Niyə yaratdıqlarından birinin içini işıqla doldurursan, başqa birisinin qəlbini zülmət xofu basır? Bəyəm ağı qara ilə bahəm ərsəyə gətirirsən? Sonda bütün yaratdıqlarına eyni qisməti verib, heç birinə fərq qoymursan? Nə üçün məni və mənim kimiləri ayrı donda – biçimdə, başqa xislət sahibi deyil, məhz insan yaratmısan? Niyə? Nə üçün?

Olmazdımı ki, zəkalarına görə həmcinslərini neçə min il qabaqlamış Platonlara, Aristotellərə, İbn- Sinalara, Tusilərə, Nyutonlara artıq ömür verəydin, onların görmək, duymaq, dərk etmək səlahiyyətlərini artıraydın, genişləndirəydin, əsrlərlə kainata, yerallahları sayağı tamaşa eləmək imkanı yaradaydın? Qüdrəti verəydin? Niyə? Niyə?"

Onun çağrışı cavabsız qalmır. Göylərdən səs gəlir: "- Nə istəyirsən?!"

"O, özündə yalnız indi cəsarət tapdı və ehmalca başını qaldırıb, titrək səslə:

- Qartal olmaq istəyirəm!... - dedi".

Yaradan onun səsini eşidir və arzusuna qovuşdurur. O, indi artıq hər kəsin addımbaşı döyüb – söydüyü, təhqir edə biləcəyi insan deyil, göylər sultanıdır. Bütün torpaqlar onun ixtiyarındadır. Sərhəd dirəkləri, amansız qadağalar, hakimlər ona mane ola bilmir. Heç kəsə tabe deyil, heç kəsə boyun əymir. Heç kimin qapısında durmur. Heç kəsdən qorxmur, çəkinmir. Müstəqil, azad varlığa çevrilib. İndən belə qartal ömrü yaşayacaq, onun üçün soyuğun – istinin əhəmiyyəti olmayacaq, azuqə tapmaq üçün baş çatlatmayacaq. Ən başlıcası, insanlara xas olan pis keyfiyyətlər, hiylə - kələk onu tərk etmişdi. "Daha nə bir düşməni, nə də gecə- gündüz rahatlığını əlindən almış rəqibi qalmışdı. " O, meşədə ən uca, ən qollu – budaqlı, nəhəng palıd ağacını özünə əbədi məskən seçib insanları müşahidə etməyə başlayır: "... Qartal – ürəyində insanları qınayır, onların bir – birini bəyənən – bəyənməyən, bir – birinin ətini şişə çəkən məxluq adlandırırdı. Onu da dərk edirdi ki, bəşər övladı mübarizə aparmasa, arada rəqabət hökm sürməsə, inkişafdan danışmağa dəyməz. Bəs niyə belədir? Səbəbini bir yalnız sirri- xuda bilir."

Günlər, aylar ötdükcə Qartal – insan hiss edir ki, onun ali istəyi azadlıqdan daha da ucadır. O, günü – gündən qocalır, onu çöllü – biyabana salanlar isə yaşayırdı. Onlardan qabaq ölməyi isə özünə yaraşdırmırdı. O, başa düşür ki, canlı məxluğa əbədilik, ölməzlik yaddır. Odur ki, Tanrıdan iltimas edir ki, onu min il ömür sürən palıda çevirsin. Onun bu arzusu da həyata keçir. Palıd – insan başqa ağaclardan fərqli olaraq qlobal təbiət dəyişikliklərini, texniki tərəqqilər, sivilizasiya və intibahların dünyanın mənzərəsini kökündən dəyişdirməsini görür. Başının üstündən gurultuyla uçan təyyarələr, kosmik gəmilər, Yerə yaxınlaşan kosmik cisimlər onun yuxusuna haram qatır: "... İnsan ən ağır xəstəliklərə əlac tapsa da, yer üzündə yeni – yeni daha qorxulu azar – bezar meydan sulayır, milyonlarla bəşər övladını göz qırpımındaca ağuşuna alıb aparırdı. Bitkilərin ruhu ölmüş, hər cür qidanın dadı qaçmış, atmosferin azon qatının dəlikləri get – gedə şadar – şadar olub böyümüşdü. Bəlkə, kainatın sonu yaxınlaşırdı? Bəs onda Adəm övladı ağlını toplayıb, papağını qabağına qoyub, niyə gələcək taleyinə əncam çəkməyə tələsmirdi? Heç olmasa, sonrakı nəslin

sabahı naminə...” Palıd – insan təbiətindən yana bərk narahatdır. Bu, yazıçının özünün narahatçılığıdır. Çünki insan get- gedə daxili xislətini və zahiri quruluşunu dəyişir. Hər şey məzmundan çıxır. Yer amansız toqquşmalar nəticəsində ziyan çəkir. Bütün bunlar Palıd – insanı qorxuya salır, ona görə insanlar Yaradanın qoyduğu qanunları pozurdu, Allahın işlərinə qarışırdı. Bunun nəticəsində isə Yeri fəlakətlər gözləyirdi. Palıd – insan bunları görsə də, əlindən heç nə gəlmir. O, başa düşür ki: “... Ekologiyada, fauna və florada baş verən köklü dəyişikliklər təbiətin ümumi mənzərəsinə də təsirsiz ötüşmürdü, axı ! Ətraf mühit toxunulmaz qalanda bitki örtüyü rahat dincini alırdı. Palıd –adam bilirdi ki, elmi – texniki tərəqqi həmişə təbiətə baha başa gəlib, meşə zolaqlarının, əkini – biçinin, allı-güllü yaylaqların məhvinə gətirib – çıxarıb. Düzdür, daha süni yağış da yağdırılır, göydə siklonları qovmaqla qar da əmələ gətirmək olur, hətta külək əsdirməyin də yolları öyrənilmişdi. Bütün bunlar fəsillərin yerini qarışdırır, dəyişik salır, bitkiləri çaşdırır, tozlanmanı gecikdirirdi. Bu qəbahətlərinə görə təbiət az qala insanın üzünə ağ olmağa hazır idi. Hərdən – hərdən olurdu da! Tərs üzünü göstərirdi.” Meşədə yarıminsan, qarımqartal, yarımağac ömrünü yaşayan palıd – adam yəqinlik hasil edir ki, gec-tez o da başqa ağaclar kimi məhv olub əbədiyyətə qovuşacaq. Elə də olur. Bir göz qırpımında çaxan ildırım qocaman palıdın şah budağını cilikləyib yerə tökür.

“Həyat eşqi” hər şeydən əvvəl, bədii- fəlsəfi əsərdir. Ancaq eyni zamanda elmi əsərdir, həyat dərsliyidir. İnsanın təbiətə qəsdi və bununla da özünə qəbir qazması, insanın təbiətə müdaxiləsi və bunun nəticəsində gözlənilən fəlakətlər bədii boyalarla təsvir edilmişdir. Əsər həm də insanlığı düşündürən suallara cavab tapır, təbiət haqqında sırf elmi məlumat verir. Fikrimizi sübut etmək üçün belə bir parçaya diqqət edək: “... Bir səhər palıd qəribə hisslər yaşadı. Onun milyonlarla zərif yarpağı çox – çox uzaqlardan, kəhkəşanın dərinliklərindən gələn güclü bir cazibənin təsirilə hiss olunmayacaq dərəcədə titrəşdi. Bu nə idi? Varlığı heç zaman belə tir-tir əsməmişdi. Bəlkə, təzə, indiyədək bəlli olmayan xəstəliyə tutulub, çarəsiz dərdə mübtəla olub? Yox, onu azar – bezar sıradan çıxarmağa qadir deyildi. Çünki onun özünün yarpaqlarından, kökündən və qozalarından tanın və tannalbin adlı dərmanlar hazırlanırdı. Bundan başqa, dünya binə olandan insanın yaratdığı gündən palıd dözümü, dəyanəti, qəddi – qaməti ilə canlı təbiətin şahı elan olunmuşdu. Nuh peyğəmbər öz nəhəng gəmisini palıd ağacından çəkilmiş taxta və tirlərlə inşa etdirmişdi. Hər azar- bezara can verəsi olsaydı, onda nəsli, şəcərəsi dünyanın hər yerinə yayılmazdı, Şimal yarımkürəsinin tropik və subtropik zolağında 450, Uzaq Şərqdə, Qafqazda 20 növü ömürlük yaşamaq haqqı qazanmazdı. Özünün Araz palıdı nəslindən olduğunu da yadına salandan sonra tam arxayınlaşmışdı ki, ən azı 1.000 illik bir ömür yaşamaq imkanı var.

Ağac –adam 40 illik insanlıq ömründə palıdla öyünsə də, həmişə palıda yazığı gəlmiş, onu qorumağa çalışmışdı. Çünki evində yaraşıqlı mebel görmək istəyənlər, tikdirdiyi imarətin sütununun, döşəmə və tavanının möhkəmliyini arzulayanlar həmişə palıda əl qaldırmış, onun 40 metrə qədər uzanan şah qamətini, qol – budağını doğram – doğram etmişdilər...” Bu cür misalların sayını artırmaq olar və bunlar elmi məlumatlardır.

Hər hansı əsəri oxumamışdan qabaq onun adı ilə maraqlansan. Düzü, “həyat eşqi” ifadəsi mənə birtəhər gəldi. Çünki bu adda Cek Londonun hekayəsi var. Ancaq əsəri oxuyub başa çatandan sonra yanıldığımı duydum; Cek Londonun “Həyat eşqi” H. Mirələmovun “Həyat eşqi” deyil, tamamilə fərqlidir. Əgər birincidə insanın cismani həyatı uğrunda mübarizəsindən söhbət gedirsə, ikincidə insan həyatından doyan və əbədi həyat uğrunda mübarizə aparan 40 yaşlı müdrikin ömür olundan söhbət gedir. Əgər birincidə həyati reallıq əsas götürülürsə, ikincidə yazıçı təxəyyülü başlıca yer tutur və s. Onu da demək yerinə düşər ki, insanın başqa canlı məxluğa – quşa çevrilməsi arzusu təzə deyil, folklorumuzda bununla bağlı çoxlu nümunələr var və H. Mirələmov da folklordan faydalanaraq bədii məqsədinə nail olmuşdur.

Nədənsə “Həyat eşqi”ni oxuyub qurtarandan sonra “Ay və qara şahı” romanındakı Strikləndi xatırladım. Öz ailəsini və səhhətini ideyaları yolunda qurban verib ömrünü ağır xəstəliklə başa vuran talesiz, həm də taleli rəssam. Onun qarşısında iki yol durur; ya ailəsinə xidmət etməli, ya da bəşəriyyətə xidmət etməlidir. İkinci yolu seçərək əbədi ölməzlik qazanır. Öz təfəkkürünü və enerjisini xırda işlərə, ailəsinə sərf eləmir, bəşəriyyətə sərf eləyir və gözəl rəsm əsərləri yaradır. Belə demək mümkünsə, o da insan həyatından doyaraq başqa həyata qədəm qoyur, rəssama çevrilir.

A.P.Çexovun “Qara rahib” adlı bir hekayəsi var. Əsərin qəhrəmanı Kovrin gərgin iş rejimindən, elmi axtarışlardan xəstələnərək doğulduğu kəndə yola düşür. Kənddə onun gözünə qara paltarda rahib görünür. O, öz xəyalı ilə söhbət edir. Qara rahibə deyir ki, əgər mən xəyalımla söhbət edirəmsə, demək, dəliyəm. Heç kim mənə inanmayacaq. Qara rahib isə (əslində xəyal) deyir ki, sən mövcusan, sən təbiətin bir parçası olduğu kimi, xəyalın və təsəvvürlərin də təbiətin bir parçasıdır. Məgər bəşəriyyətin biət etdiyi dahilər xəstə olmayıblarmı? Əbəs yerə deməyiblər ki, dəliliklə dahiliyin arası bir addımlıqdır. Əgər Məhəmməd, yaxud Şekspir əsəblərini cilovlamaq üçün, özlərini qorumaq üçün dərman içsəydilər, onlardan nişana qalardımı? Peyğəmbərlər, şairlər Allahın seçmə bəndələridir. Ona görə də onlar digər insanlardan fərqlənirlər, insanlara məxsus heyvani qabiliyyətdən – sağlam və normal olmaqdan məhrumdurlar. Əgər sən də sağlam və normal olmaq istəyirsənsə, get, insan sürüsünə qoşul. Bütün dahilər isə əvvəlcə səhhətlərini, sonra isə həyatlarını

ideya yolunda qurban verənlərdir. İstər – istəməz “Həyat eşqi” ndəki 40 yaşlı müdrik yada düşür. O da ideyası yolunda insan həyatı ilə vidalaşaraq qartal, sonra da ağac ömrü yaşamalı olur. Yəni ideyası olan insan bu dünyaya sığmır. Necə ki, böyük Nəsimi müdriklik və kamillik qazandıqdan sonra bu dünyaya sığmırdı.

Hər halda Çexovun “Qara rahib”ini “Həyat eşqi” mənə xatırlatdı. Hər iki əsərdə insanın azadlıq istəyi çox güclü verilib, insanın keçdiyi tarixi yol parlaq bədii boyalarla əksini tapıb. Kovrinin xəstə bədəni başındakı dühaya və ideyalara tab gətirməyərək yerə çökür və onun cismani həyatının sonu qoyulur. Qırx yaşlı müdrikin də bədəni başındakı ideyaya dözməyərək qartala, palıda çevrilir və əbədi həyat eşqi ilə ömür sürür. Bu ömür isə onun şəxsi insan ömrünə son qoyur və qartal, ağac ömrü kimi davam edərək bəşəriyyətə xidmət edir. Bunlar hamısı əsərdən doğan fəlsəfi qənaətlərdir və bədii bir dillə oxuculara çatdırılaraq onlara estetik zövq verir. Bu mənada “Həyat eşqi” bədiifəlsəfi bir əsər olmaqla, həm də müəllifinə filosof yazıçı haqqını verir.

Axırda onu deyərdim ki, bu əsər oxucularda mütləq azadlıq duyğusu yarada biləcəkdir. Məncə, “Həyat eşqi” nin ən böyük dəyəri elə bundadır.

## DUYĞULARIN HARAYI
## yaxud yazıçı qəlbindən gələn səs

“Xəcalət” povestinin bədii məziyyətləri, ideyası, süjet ilə bağlı mətbuat səhifələrində gedən ədəbi mübahisə xarakterli yazılarda əsərin ayrı- ayrı parçaları geniş təhlil olunaraq ən müxtəlif sənət adamlarının fikir və mülahizə obyektinə çevrilib və “Xəcalət”in Azərbaycan tarixində müəyyən zaman kəsiyinə güzgü tutması gələcək nəsillərin yaddaş kitabı kimi yüksək dəyərləndirilib. Lakin buna baxmayaraq əsərə verilən bu qiymətlə razılaşmayanlar da var. Görünür, adamlar müxtəlif olduğu kimi, təfəkkürlər də müxtəlifdir. Necə deyərlər, hər kəs öz fikrinin ağasıdır. Lap klassik bir misalda deyildiyi kimi: “Ərdəbil bil vilayətdir, hər kəs öz vəkili”. Lakin söhbət tarixi həqiqətlərimizdən gedirsə və ona dodaq büzülürsə bu artıq vətənpərvərlik hissini itirmiş və bu müqəddəs hissin şirinliyi duymayan adamların keyfiyyətidi. Başqa cür ifadə etsəm, yaddaşa biganəliyin çalarıdı. Yaddaşa biganəlik isə ümumi xarakter alanda,yəni kütləviləşəndə zaman-zaman, tarix boyu faciələrə gətirib çıxarır. Ayrı-ayrı etnoslar, tayfalar xalqlar tədricən həmin biganəliyin qurbanı olurlar. Bəlkə də tarix səhnəsində daim təqiblərə məruz qalmağımızın elə birinci səbəbi budur. Təkrar edirəm, söhbət yaddaşa biganəlikdən gedir. Ümumiyyətlə, biganəlik isə bir millət kimi təbiətən bizim qüsurlu xarakterimizi aşkarlayan göstəricidir desəm, yəqin ki, mənə etiraz edənlər az olar. Erməni xalqı bizim tarixi düşmənimiz olduğunu dəfələrlə əməli olaraq sübuta yetirib. Hər dəfə də torpaqlarımızı eyni qayda ilə,oxşar üslulla zəbt ediblər. Di gəl ki, ayılmırıq, gözlərimiz yuxudan açılmır. Qərbi Azərbaycan torpaqlarından üzü bəri ərazilərimiz kiçildikcə bu qədim oğuz yurdunun adamları Xəzərə doğru sıxlaşdıqca milli qeyrətimiz də sozalır, namusumuza kəsir gəlir. Və daha çox vətənpərvər olmaqdansa, yağıdan intiqam hissi ilə alışıb – yanmaqdansa daha çox taleyimizlə barışmağa üstünlük veririk. Bu isə o deməkdir ki, hələ tariximizi əks etdirən yeni “Xəcalət” kitablarının doğulmasına doğru gedirik. Görünür, yazarlarımızın qəhrəmanlıq səlnamələri yazmaq həsrəti hələ çox uzun çəkəcək. “Xəcalət” povesti bu həsrətin, möhnətin ömrünü qısaltmaq üçün haray salır, yaddaşları oyadır, duyğularımıza qanad verir. Azərbaycanı “Bağrıqan” dağına döndərən ermənilərlə son nəticədə əlbəyaxa döyüşə çıxmağın zəruriliyini diqqətə çatdırır. Əsərdə Bağrıqan dağının hekayətini xatırladan müəllif düşmənə nifrətin ən kəsərli silah – qələbənin açarı olduğunu yada salmaqla yanaşı, erməni vəhşiliyinin sərhəd tanımadığını da önə çəkir. Gəlin, həmin parçaya diqqət edək: - Adamları soyundurub, yerə uzadırlar. Dərilərindən bir parça kəsib, əydikləri ağacın budağına bağlayır, sonra da budağı buraxırdılar. Bu zaman dəri

bədəndən zoğ- zoğ qopur, insanların ah – naləsi bütün dağları başına götürərmiş. Ağrının şiddətindən dəli – divanə olmuş insanlar üzü dağa sarı qaçır, arxalarınca fişqıran qan iz salırmış. Az keçməmiş bu qədər insanın zillət və əzabının şahidi olmuş dağın köksü qıpqırmızı qan rənginə çalır.

... O gündən bu dağın adı Bağrıqan qalır. Erməni vəhşiliyinin şahidi olan soydaşlarımızın qanı ilə suvarılmış belə dağlara, dərələrə, düşmənin işğal etdiyi bütün ərazilərdə rast gəlmək mümkündür. Yəni oxucu zənn etməsin ki, Bağrıqan dağı ilə bağlı hekayət əfsanədir. Nə qədər faciəli olsa da, bu, bir tarixi reallıqdır. Mənfur düşmənin insanlığa sığmayan zülmünün, sitəminin yadigarıdır. Qarabağ müharibəsinin şahidi olanlar yaxşı bilirlər ki, ermənilər döyüşdə girov götürdükləri əsgərlərimizin diri –diri köksünü yarıb, ürəyini çıxardırlar. Və sonra da qəsdən həmin cəsədi ürəyi ilə birlikdə sahibinə qaytarırdılar ki, millətin mübarizə əzmi qırılsın, yaxud yeganə çıxış yolunu dünya tarixində müşahidə olunmayan bu vəhşilikdən qaçıb qurtarmaqda görsünlər. Şəxsən mən şahidəm. Ermənilər 7 əsgərimizi bir gündə həmin üsulla qətlə yetirib, meyitlərini də neytral bir ərazidə qoyub getmişdilər. Qarabağ müharibəsində ermənilərin törətdiyi belə qanlı qətllərin, vəhşilik nümunələrinin sayı – hesabı bilinməz. Nə qədər ki, nu qisas yağıdan alınmayıb biz xəcalətliyik. Povestin müəllifi əslində xəcalətli olmağımızı cəzasız qoymağımızda görür və demək istəyir ki, cinayət cəzasız qalanda yenidən təkrar olunur. Odur ki, bizi məlum hadisələrdən nəticə çıxarmağa çağırır və Bağrıqan dağını yada salaraq yazır: “ Bu nəhənglikdə şahid dağı görməyən ölkə rəhbərliyinin gözü yumulu idi. O, elə yuxuda idi ki, ermənilərin yeni təcavüzkarlıq niyyətləri nəinki onun beynini oyadar, heç gözünün xumarlığını da qova bilməzdi. Bizim tarixin bu sayaq o qədər ibrət kitabları var ki, təki hər insan bu ibarət kitablarını oxuyub, oxuduqlarınıda yadda saxlaya biləydi.

... Deyirlər Əmir Teymur həmişə gözü açıq yatarmış. Ondan soruşanda ki, niyə yatanda gözünü yummursan?... Cavab verərmiş ki, əgər mən gözlərimi yumsam, məmləkətin sərhədləri basılar”.

Əsərdən gətirdiyim bu misalda çox mətləblərə toxunulub. Bir tərəfdən torpaqların işğalı tarixi yaddaşımızın korluğu kimi qələmə alınıb. Digər tərəfdən müharibədə uduzmağımızın səbəbi həmin dövrdə ölkəyə rəhbərlik edən məmurların şəriştəsizliyi, məsuliyyətsizliyi kimi qiymətləndirilib. Əmir Teymurun sərhədləri necə qorunmasını xatırlamaq isə o deməkdir ki, Azərbaycanın düşmənləri həmişə başının üstündədir. Nə vaxt mürgü vursa yağının qılıncı boynunda parlayacaq, atları da yurdumuzda şahə qalxıb kişnərti salacaq. Povesti oxuduqca hiss olunur ki, müəllif hansı yolla olur olsun düşməndən intiqam almaq məqamı güdür. Və sanki fürsət gözləyir. Bu hissi mənəviyyatlara hopdurmaq üçün vətənsizlik dərdinin ağırlığını, bu yükü

çəkməyin dözülməz olduğunu yaratdığı obrazların dili ilə səsləndirir. – Oğul, Vətən, Vətənsizlik dərdi çəkməyən sənin adına dodaq büzər, vətənsizliyi Allah düşmənə də göstərməsin. İnsan ayağı doğulduğu torpaqdan üzüləndə bilər kökündən qopmaq nə deməkdir. Körpə ağacı bir yerdən çıxarıb, başqa yerdə basdırsan əvvəlki inkişafından dayanır. Nə qədər qulluq edirsən, başına pərvanə kimi dolanırsan, suyunu verirsən, gübrəsini çatdırırsan, yenə faydası olmur. İnsan bu torpaqda bitmiş yeriyən ağacdı. Harda doğulubsa, harda bitibsə, həmişə o yerə sarı dartınır. Çünki qürbət məmləkət gəzmək, görmək üçündür, ölmək üçün yox...

Əgər diqqət etsəniz görərsiniz ki, vətənpərvərlik duyğusunu oyatmaq üçün müəllif genetik yaddaşı silkəyir. Axı bizim babalarımız gəzməyə qürbət ölkə, ölməyə Vətən yaxşı deyiblər. Təsadüfi deyil ki, indi Vətəndən uzaqlarda dünyasını dəyişən didərgin yurddaşlarımız vəsiyyət edirlər ki, doğulduğu torpaqlara yaxın yerlərdə salınmış məzarlıqda dəfn olunsunlar. Bu arzu qəriblikdə yaşayan insanın Vətənə qovuşmaq istəyinin son gümanıdır. Yazıçı həmin psixoloji gərginliyi təfəkkürdə yaratmaqla məqsədinə müvəffəq olur. Təlqin etdiyi ideyanın arxasınca adamları çəkib apara bilir. İnsanın ayağının torpaqdan üzüləndə başına faciələr gələr fikrini diqqətə çatdıran müəllif həm də qədim yunan qəhrəmanı Anteyin gücünün sirrini yada salmış olur. Əfsanə görə Anteyin ayaqları torpaqda olanda onu heç vaxt məğlub etmək olmazmış. Elə ki, ayaqları yerdən üzüldü qəhrəmanın qüdrətindən əsər- əlamət qalmazmış. Nəticə belədir ki, Azərbaycan xalqı o vaxt qüdrətli olduğunu təsdiq edə bilər ki, tarixi ərazilərin bütövlüyünə sahib dursun. Qarabağın gözəl təbiətinin, Xarı bülbülün ətrini özü qoxlasın. Povestin ədəbi qəhrəmanı Vətənin keçirdiyi hisslər də elə bunu deyir. Azərbaycanın təriqət poeziyasının məşhur nümayəndəsi, Qarabağ ədəbi mühitinin yetişdirdiyi simalardan biri Seyid Nigarinin qəzəlini oxuduqca Vətənin gözləri önündə cənnət Qarabağın misilsiz təbiəti canlanır. Qeyd edim ki, Vətənin həyatını izləyən oxucu da həmin anda Vətənlə birlikdə xəyalən Qarabağa, yaxud hansı məkanda doğulubsa ora sarı qanadlanır. Amma yollar, bərələr bağlı olduğundan içindəki inam işığı sönməsin deyə yazıçı həmin anın da qarşısın alır. Yəni inam işığını sönməyə qoymur. Bu inam işığı Vətənin qəlbindədir.. Və o daim yurda qovuşmaq istəyi ilə çırpınır. Vətən Seyid Nigarini vərəqlədikcə min dəfə ölüb – dirilir, Vətənə dönmək istəyir. - Oxuduqca əli üzülən doğma yerlərin bulaqları, barlı – bəhərli dağları, talası, meşələri, güllü- çiçəkli yamacları gözləri önündən keçirdi. Bir də nə vaxt bu yerlərə dönəcəyini düşünürdü. Nə qədər ağır anlar yaşasa da, içində bir inam işığı közərirdi. Bəzən bu közərtinin üstünü kül basır, işıq öləziyirdi. Ancaq insanı ayaq üstə saxlayan yenə qəlbindəki inam odudur. Onun üstünü kül

örtəndə bəlkə də ata – babalarının ruhlarından başlayıb gələn səmum küləyi bu külü sovurub dağıdır, həmin qoru – odu sönməyə qoymur.

Elə burdaca demək istəyirəm ki, H. Mirələmovun əsərlərindən nə qədər kədərli hadisələrlə üzləşsən də, sonda insanı yaşadan, həyata, mübarizəyə çağıran bir inam hissi ilə ayrılırsan. “Xəcalət” povestində bu inam daha gurdur. Belə ki, yazıçının qəhrəmanı Qarabağa qayıdacağı günə inanır. İnanır ki, doğma Qarıqışlaq kəndinə qayıdacağı gün uzaqda deyil. Hətta o məşkunlaşdığı xəstəxana binasından təzə mənzilə belə köçməyini qəbul etmir. Bilir ki, təzə mənzilə köçsə köhnə yurdu görmək arzusu göyərməyəcək. Bəlkə də belə düşündüyündən dostu Murad ona yeni mənzilin orderini təqdim edəndə deyir: - Bütün etdiklərinə görə çox sağ ol. Ancaq bil ki, mənim o xəstəxana binasından çıxmağım üçün iki yol var. Biri Qarıqışlağa - Qarabağa gedir, digərinin səmti qəbiristanlığadır.

Bir anlığa düşünürəm ki, görəsən çadır evlərindən daş şəhərciyə köçənlər necə? Onlardamı Vətən kimi iki yoldan birini seçərdilər? Hər halda hələ Qarabağdan gələn köç oturaq deyil. Demək Qarabağa qayıtmaq ümidi hələ bizimlədir. “Xəcalət”in sonuncu cümlələri də elə bu ümiddən yoğrulub.

Dan üzü qızarırdı. Sabah açılmaqdaydı. Yeni dövrün, yeni zamanın daha bir ümid sabahı...

Üfüqdə aydın al – qırmızı günəş doğulurdu. Gecənin təkərli arabası səssiz – səmirsiz üfüqdən uzaqlaşırdı.

“Xəcalət” povesti Azərbaycanın taleyinə gecə kimi qaranlıq gətirən günlərin ağrısından doğulub. Bu ağrı daha çox 1988-93- cü illəri əhatə edir. İndi isə Azərbaycan həmin illərin ağrısını xatırlayır və yaşayır.

Ümid edirik ki, yaddaşımızı silkələyən, duyğularımızı ehtizaza gətirən, bizi sözüylə, sənətiylə Vətənə sarı çəkən yazıçıdan qələbə soraqlı salnamələri yazmaq qisməti də yan keçməyəcəkdir.

# DÜYANIN ƏN QİYMƏTLİ PALTARI

“Gəlinlik paltarı” povesti yazıçı H. Mirələmovun ən iri həcmli əsəridir. Ümumiyyətlə, yazıçını son dövr yaradıcılığı üçün ən səciyyəvi xüsusiyyət onun povest janrına müraciət etməsidir. Povest bədii ədədbiyyatın elə bir janrıdır ki, burada müəəlif əsas hissədən kənara çıxaraq, əlavə hadisələrə də yer ayırır. Eyni zamanda romana xas olan geniş epik lövhələr, həyatı fəlsəfəsi və bu barədə obrazları düşüncələri, hadisələrin bütün təfərrüatı ilə təsviri əsas yer tutur. Demək lazımdır ki, bu xüsusiyyətlər “Gəlinlik Paltarı” üçün çox xarakterlikdir. Bu mənada “Gəlinlik Paltarı” povestı janr etibarilə romana yaxınlaşır. Belə demək mümkünsə, bu povestin içində bir romana aid ola biləcək bədii material yatır. Ancaq zaman və məkan prinsipini, daha doğrusu, hadisə və obrazları zaman və məkan çərçivəsində genişləndirməməsi bizə əsas verir ki, bu əsəri povest janrına aid edək. Bu xücuciyyətləri tənqidçi, filologiya elmləri namizədi Vaqif Yusifli dəqiqliklə tutduğuna görə haqlı olaraq yazır: “Gəlinlik Paltarı”nıda müəllifin roman təfəkkürünə doğru yol getdiyi hiss olunur. Ancaq bəri başdan deyək ki, müəəlif bu povestdə bəzən uzun-uzadı təfərrüatlara qaçır, təsvirlərdə yığcamlıq meyyarını pozur. Yığcamlıq, laknoizim, poetika anlayışdır, o, həm kiçik janra, həm də romana xasdır və heç şübhəsiz, ilk romanını yazarsa, H.Mirələmov bu meyarı unutmayacaq”.

Povest “Kredo” qəzətində hissə-hissə çap olunmuşdur. Bəlkə də , bunun özü də bir təbii qanunauyğunluqdur. Ona görə bu fikrə gəlirəm ki, povesti ayrı-ayrı hissələrinin hər biri yığcamlıq və bitkinlik baxımdan hekayə və novellanı xatırladır. Götürək sərraf və sadiqənin toy səhnəsini. Götürək Fənayani Sahil Əkbərli ilə qarşılaşma səhnəsini. Yaxud da Cıdırda atları yarışı, Fənayənin tələbə dostları-Zaur, Zahir və Faiqin yataxanadakı söhbətləri və s. səhnələri. Məgər bu səhnələrin hər biri ayrılıqda hekayə təsiri buraxmırmı? Əlbəttə, bu belədir. Ancaq bu hekayələri gəlinlik paltarı bir-birinə bağlayır. O gəlinlik paltarı ki, müəllif bu adı əsəsrinə sər lovhə seçib və əvəldən-axıradək oxucu gəlinlik paltarının sehrinə düşür. Böyük yazıçımız Sabir Əhmədlinin belə bir sözü var: “Bəşəriyyətin ən böyük ixtiralarından biri körpüdür”. Bu, həqiqətən belədir. Insanlar, xalqlar körpü vasitasilə bir-birlərinə ünsüyyət bağlayır. Ancaq mən deyərdim ki, bəşəriyyətin ən böyük ixtiralarından biri də paltardır. Əvvəla, paltar soyuqdan, istidən qorunmaq vasitasidir. Ikincisi, paltar abırdır, həyadır. Eyni zamanda paltar rəmzdir. Indi hər məclisin ruhuna uyğun paltar geynilir. Bunu da bəşər övladı fikirləşib. Indiki dövrdə gündə bir “Moda” çıxır. Insanlar “moda” ya uyğun olaraq paltar geyinirlər. Allaha şükür, iqtisadi sərhədlər qırılıb, mağazalar ağzınacan müxtəlif çeşidli zərli

və bahalı geyimlərlə doludur. Hansını istəyirsən, seç geyin. Eləcə də gəlinlik paltarları. Ancaq gəlinlik paltarlarını hər qız geyinə bilmir, buna mənəvi haqqı çatmir, daha doğrusu, buna ehtiyacı olmur. Əgər gəlinlik paltarları qızlar üçündürsə, bəs nə üçün bəzi qızlar bu paltarları geyinə bilmirlər, eləcə qıraqda dayanıb gəlinlik paltarları eşqi ilə alışıb-yanırlar? Bunun səbəbini nədə axtarmalıyıq? Qızların özündəmi? Yoxsa, cəmiyyətdə? Məncə, müəllif Fənayə obrazını yaratmaqla bu suallara cavab çalışmışdır.

Əsər toy barəsində müəllifin lirik düşüncəlriylə başlayır: “Toylar sevgilərin çiçəyi çırtlayan vaxtdır. Bu sevgi çiçəkləri ürəklərdə o zaman gül açır ki, onun bağbanı hər cür əziyyətə qatlaşır, taleyin bütün zirvələrinə inadla sinə gərir. Və bu yol insan övladını həmin istəyə, həmin sirli-sehirli dünyaya qovuşdurur. Dünya həyat ananın gözündə böyümüş, gözəlləşmiədi”. Görəsən, niyə? Sonrakı sətrləri oxuduqca məlum olur ki, oğlu Sərrafın toydur, oglunun sevib-seçdiyi Sadiqəni evinə gəlin gətirir. “Vağzalı” sədaları altında məclisə daxil olan Sadiqə gəlinlik paltarında mox gözəl görünür: “Ağappaq gümüşü parıltılı saplarla işlənmiş gəlinlik paltarı mərasimin ovsunlamış kimiydi. Çiyinlərindən ayaqlarına qədər bürümüş paltar onu xeyli uzun göstərirdi. Bəyaz parıltılı gümüşü rəng onu cox əl catmaz, zirvəsi ətəklərinə qədər qarla örtülü bir dağ zirvəsinə bənzədirdi...”

Sərrafla Sadiqənin toyuna bütün qohumlar rəfiqələr, qonşular yiğışıb. Toyda xalqımızın adət-ənənələrinə, ciddi riayət olunur. Gəlin evə keçəndə yığışanların başına konfet tökülür. Kimi göydə tutur, kimi yerə əyilib götürür. Amma: “...Bir konfet lap kənarda rəfiqələri ilə dayanmış Fənayənin başına dəydi. Yanındakı qızlardan biri konfeti yerə düşər-düşməz tutb ona uzatdı: Bu, sənin qismətindir...” Bu yolda müəəlif ədəbi priyom işlədərək oxucunun diqqətini Fənayayə yönəldir. Istər-istəməz oxucuda Fənayayə maraq güclənir; axı bu qız kimdir? Niyə konfet basqalarının yox, məhz onun başına dəyməlidir? Niyə o da başqaları kimi gəlinlik paltarına baxıb sevinə bilmir? Bu suallara cavab tapmaq istəyən oxucunun marağı və diqqəti Fənayəyə yönəlir və onun düşüncələri ilə tanış olur. Fənayə düşünür ki, gəlinlik paltarının şəhanə görkəmi, parıltıları içərisində ondan uzaqlaşan Sadiqə ilə özü arasında dərin bir uçurum var. Bu nəticəyə gəlir ki, “ləyaqətini təsdiq eləmək üçün, arvad olmağa, ailə-uşaq sahibi olmağa yeganə yol bu gəlinlik paltarından keçir. Bu paltar sehirli bir sənəd, vətəndaşlıq pasportu kimi bir şeydir”.

Fənayə universitetin jurnalistika fakültəsində oxuyur. O, çox istedadlıdır, hətta gözəl şeirlər yazır. Ancaq bununla yanaşı, onun üçün heç bir əxlaqi ölçü yoxdur, onun üçün heç bir qadağa yoxdur. Əslində bunu onda heç valideynləri də tələb etmir. Atası Qadir əyyaşlıqla gününü keçirdiyi kimi, anası Zinayə də evə kişi gətirməyi (özü də Fənaynin gözü qabağında) özünə ar bilmir. Belə bir ailədə

tərbiyyə almış Fənayə də anasına çəkir. O, azad və sərbəstdir. Bütün əxlaq qanunlarını insan təfəkkürünün buxovları kimi qəbul edir. Onun üçün həyat heç bir mənəvi ölçüyə məhəl qoymadan, ürəyi istədiyi kimi yaşamaqdan ibarətdir. Yazıçı-tədqiqatçı Ə.Fərzəli Fənayə barədə belə düşünür: "... povestin əsas obrazlarından biri-Fənayə yazıçı qələmində öz adını dünyanın fənalığından-boş, etibarsız düşünülməsindən almışdır. Fənayə bir gənc qız və yetgin qız kimi bir çox mənfilikləri də özündə cəm etmişdir. O, bəzən daş aparan at kimi cilovunu özü buraxır, hərdən də yığır bir cilovu: öz qızlıq, qadınlıq xoşbəxtliyini özü ucuzlaşdırır, öz-özünü gözdən, abırdan salır. Fənayə bir çox sahədə dəyanətli olmaq da acizdir. Və acizliyi üzündən cox çətinliklərlə qarşılaşır, axtardığını tapa bilmir, güman edir tapdığını, amma inanan bilmir. Fənayə axına qarşı dayanmaq istəyini cəm etmək əvəzinə, özündən kənara itələyir. Pis meylərin cəlb ediciliyi Fənayəni özünü tapmağa, onu əsl ləyaqət mərtəbəsində dayanmağa qoymur".

Göründüyü kimi, Fənayə ziddiyyətli obrazdir. Fənayənin beynində yaratdığı qanunlarla cəmiyyətin əxlaq qanunları arasında güclü təzad var. O, cəmiyyətin əxlaq prinsiplərindən qaçaraq təbiyyətin qanunlarına üstünlük verir. Cıdırdakı atlar kimi azad və sərbəst olmaq istəyir. Elə bu istəyi də əxlaqsız uçurumuna yuvarlayır. Fənayə ilə Sadiqə kimi yuzlərlə qızlar arasında güclü təzad var. Fənayə onların həyata baxışlarını qəbul etmir. Ürəyinin hökmü ilə hərərkət edərək hisllərini esirinə çevrilir. Elə buna görə də gəılinlik paltarı ona qismət olmur.

Ümumi axına arxa çevrilməklə qızlıq ləyaqətini öldürür. Qeyd etmək lazımdır ki, Fənayənin daxili aləmi də təzadlıdır. Ona müsbət qəhrəman demək olmadığı kimi, mənfi qəhrəman da demək olmur. O, həyatı boş, mənasız sayaraq əylənməyə meyllənməklə yanaşı, həm də yaxşı insandır, kovrək qəlbi var, yeri düşəndə qürur nümayiş etdirir, insanlara qayğılı münasibət bəsləyir. Onun qarşısında iki yol durur; ya Fədaini, ya da Harisi seçməlidir. Fədai Qarabağ müharibəsi əlilidir, qəzet köşkündə satıcı işləyir. Hər gün ondan qəzet alan Fənayənin şeirlərinin vurğunudur, onu təmiz bir məhəbbətlə sevir. Ancaq Fənayə onun sevgisinə biganə qalır, Harisi seçir, öz idealınl seçir. Çünki Haris var-dövlət, içki və arvad düşkünüdür. Başqa cürə də ola bilməzdi. Çünki Fənayə hər gün evdən çıxanda ayağı "zibil"ə batır və istər-istəməz onların "zibil"in qoxusu cəmiyyətə də yayılır. Bəzən cəmiyyət insanlara soyuqluq göstərir. Bu, faciədir. Ancaq ailəninin cəmiyyəti korlaması ondan da betər faciədir. Müəllifi Fənayənin yaşadığı ailənin timsalinda bunu əks etdirə bilmişdir. O, Fənayənin və onun kimilərin faciəsinin kökünü ailə ilə bağlamaqda çox haqlıdlr. Məsələ burasındadır ki, az da olsa Fənayələr, Zinayələr cəmiyyətimizdə mövcuddur və onlar insanları özlərinə toy etməyə çalışırlar. Amma buna nail ola bilmirlər. Çünki cəmiyyət təkcə Harislərdən, Qadirlərdən, Fənayə və Zinayələrdən ibarət deyil. Bu cəmiyyətdə Fədayə kimi

əxlaqlı gənclər vətənpərvər, təmiz, məhəbbəti uca tutan Sadiqə kimi gəlinlik paltarı geyinməyə layiq qızlar, Sərraf, Zahir kimi işıqlı insanlar daha çoxluq təşkil edir.

Indi bazar iqtisadiyyatı dövründə yaşayırıq. Keçid dövrü özüylə bir cox problemlər də gətirmişdir. Ən başlıcası, milli-mənəvi dəyərlərimizin sıradan çıxması da keçid dövrünün xüsusiyyətidir. Nə qədər əcnəbi ölkələrdən idxal olunan mənəvi dəyərləri həzm edə bilməsək də, hər halda bu mənəvi-əxlaqi ölçülərlə yaşayanlar tapılır. Fənayə də bunlardan biri olduğu üçün keçid dövrünün qəhrəmanıdır. O, yazıçı uydurması deyil. Sırf indiki həyatımızdan götürülmüşdür. Bu mənada “Gəlinlik paltarı” həyati və aktualdır. Günümüzün acı reallığını əks etdirməsi baxımından isə tərbiyyəvi əhəmiyyət daşıyır.

Povest başdan-başa rşmzlşr üzərində qurulmuşdur. Gəlinlik paltarı rəmzi məna daşıdığı kimi, əsərdəki obrazların adı da, rəmzi məna kəsb edir. Zinayə bu cəmiyyətə Zinalar buraxa bilər. Fənayə bu dünyanı boş, mənasız sayır. Haris pula və qadına çox hərisdir və s. Bu obrazların hər birinə öz xarekterlərinə və əməllərinə görə müəllif ad seçmişdir. Ancaq rəmzlər təkcə adlarla bitmir. əsərdə belə bir parça var: “...Fənayəgilin evləri Bakıətrafı qəsəbələrin birində idi. Çox da hündür olmayan daş hasarın həyətin çöl qapısının ağzı nisbətən çökək idi. ətrafdan axan çirkab suları buraya yığılırdı.... Fənayəgil də bir müddət bu gölməçədən keçmək üçün suyun içinə daş düzdürmüşdülər. Ayaqlarınl daşların üstünə qoya-qoya buradan birtəhər keçirdilər. Bir müddət sonra daha əhəmiyyət vermədilər. Ayaqları çirkab sulara dəymədən şəhərə çıöa bilməzdilər. Elə evə qayıdanda da göyərmiş çirkab gşlməçəsindən ayaqları az-çox dadmış olurdu. Məncə, bu “çirkab gölməçə” əsərdə təsadüfi verilməyib. Yazıçı çirkab içində batmış ailəni nəzərdə tutur. Bu ailə isə belədir: “Bir dəfə anasının dostu oturdu. Zinayə də Fənayəni yatırmaq istəyirdi. O da yatmaq istəmirdi.

-Au qız, niyə yatmırsan?

-Yatmıram, qoy o əmi çıxıb getsin.

-Axı niyə?

-Sənin üstündə yatacaq.

-Boy, ay qız, nə danışırsan?”

Və yaxud Fənayə özünü Harisə təslim etdikdən sonra üzüyünün qaşını itirir: “-Üzüyümün qaşını itirmişəm. Buralarda düşə bilərdi. Çünki gecə gələdə üstündə idi. Biz içəri girəndə çıl-çırağın işığında par-par yanırdı...” Bəli Fənayənin

üzüyünün qaşını onun Harislə ilk gecəsi itirir. Eləcə də Zinayənin 40 illik bəxt güzgüsünü divara çırpıb sındırması da rəmzidir.

Ümumiyyatlə, yazıçı fikrini açmaq üçün bədii ifadə və təsvir vasitələrindən ustalıqla istifadə etmişdir. Onun işlətdiyi ədəbi üsullar əsas verir, deyək ki, əsas sənatkar qələmindən çıxmışdır. Müəllif Fənayənin hadisələrdən keçirərək, müxtəlif xarekterli adamlarla qarşılaşdıraraq onun xarakterini açır və demək isdəyir ki, Fənayə və onun kimilər gəlinlik paltarı geyinib ailə sahibi ola bilməzlər. Fənayə kimi yaşamaq gəlinlik paltarınə gedən yolu bağlayır. Dünyanın ən qiymətli paltarları gəlinlik paltarının yanında solğun görünür. Çünki gəlinlik paltarı qızların tacıdır, ismətidir, ailə vəsiqəsidir. Məncə, H.Mirələmovun oxucularına təqdim etdiyi ideya budur.

# TƏBİƏTİ QORUMAQ İSTƏYİ

Müasir ədəbi tənqidin tanınmış nümayəndəsi Vaqif Yusifli H.Mirələmovun bədii yaradıcılığından bəhz edən "Həyatın ritmi" kitabında yazıçının təbiət təsvirlərindən və peyzajlardan məharətlə istifadə etmək bacarığından ayrıca söhbət açır. Tənqidçi inamla qeyd edir ki, onun təsvirlərində təbiət hadisələrinə, təbiətdə baş verən proseslərə dərin bələdlik hiss olunur. Bu da təsvirlərdə reallığa heç bir şübhə yaratmır.

Doğurdan da, H.Mirələmovun yaradıcılığını izlədikcə onun əsərlərində tez-tez təbiətə müraciət etməsinin şahidi oluruq. Özü də bu müraciət əsərin sujetini əsasında dayanan ziddiyətlərin, hadisələrin təkcə təfəkkürdə geniş və aydın analiz olunmasına xidmət etmir, həm də təlqin olunan əsas ideyadan əlavə ikinci bir istəyi, arzunu nəzərz çarpdırmaq mövqeyindən də irəli gəlir. Bu, yazıçının insanın qoynunda yaşadığı ana təbiəti qorumaq istəyidir. Zənnimcə, bu istəyin müəllifin əksər povest və hekayələrində görmək mümkündür. Hətta H.Mirələmovun bəzi əsərlərinin qayəsində məhz təbiəti sevmək və qorumaq amalı dayanır. Konkret olararq yazıçının "Simuzər" hekayəsində təbiətə qəsd edənləri tərbiyyə etmek məqsədi güdülür. "Həyat eşqi" adlı povestində bu ideya daha qabarıq səkildə özünün göstərir. Başqa bir çox hekayələrinin nüvəsində insanı düşündürən , narahat edən, ictimai həyatın bir çox sahələrini əhatə edən ziddiyətlər dayansa da, yenə də müəllif oxucunu təbiəğtlə danışmağa, dilləşməyə sövq edən səhnələrlə üzləşdirməyi unutmur. Bilavasitə insanın təbiətə kor-koranə müdaxiləsinin qarşısını almaq məqsədilə onu təbiətin iddihamına verir. Yaxud onu əsrarəngiz təbiət gözəlliləri ilə qarşılaşdıraraq heyrətləndirir və sonra da insanın heyrət etdiyinə münasibatini açıqlayır, ədəbi vasitələrlə buna aydınlıq gətirir. Nəticədə insan dərk edir ki, tşbiətin bir parçasıdır, onun övladıdır. Təbiətə laqeydlik insanın özünə, eləcə də milyonlarla sələfinə laqeydlik deməkdir. əslində insan özünü, həyatını qorumaq üçün birinci növbədə yaşadığı mühiti, təbii ərazini qorumalıdır. Məsələn, "Qayada çiçək" hekayəsində insanın diqqətini tıbiətə yönəldən, onunla ülfət bağlamağa çağıran lirik ovqatlı notlar var.

"-Ətrafda sakitlik hökm sürürdü. əslində bu sakitlikdə nisbi idi. Təbiətin özünün səsi var idi. Bu səsi aydınlaşdırmaq, daha doğrusu, səsləsri ayırmaq istədi. Yadına düşdü ki, dastanlarda gülgülü çağırıdı, bülbül-bülbülü" ifadəsi təsadüfi deyilmiş.

Qəribədir, sakit təbiətin sinfoniyası var imiş. Bu sinfoniya insanın varlığını əlindən alır, onu öz arxasənca çəkib aparırdı".

Həqiqətən də, hər kəs mürgüləyən xatirələrini oyatsa görər ki, nə vaxtsa təbiətin bu ecazkar simfoniyasını dinlədiyi vaxtlar məqamlar olub. Hətta mən deyirdim ki, adamların həyatı boyu arzuladığı xoşbəxt anlar, dəqiqələr bəlkə də, elə həmin sakit təbiət nəğməsini dinlədiyi vaxtlar, məqamlardır. Istə gecə olsun, istər gündüz, istər soyuq olsun, istər isti, istərsə də yaz-payız olsun. Yenə də fərq etməz. Hər an təbiətin səsini dinlədikcə zövq alar, saflaşar, ayna bulaqlar kimi durularsan, duyğuların arınar, qəlbindəki duman-çən ayazıyıb səni tərk edə, ruhun sənə doğmalaşar, şəhanə, mərdanə bir ömür arzulasan Tanrıdan. Bax yuxarıda əsərdən misal gətirdiyim parçadan məndə belə ülvi hisslər yarandı. Indi elə həmin hekayədən ardıcıl olaraq növbəti bir parçanı təqdim edirəm. Diqqət edin, müəllif duyğuların kamilliyə doğru qapı açmasına bədii sənətin təsiri ilə necə nail olub.

“-Bu il yaz tez gəlmişdi. Torpağın sinəsi qızmış, yaz otu köpəşiyib qalxmışdır. Yaz günlərinin şüaları altında yaşıllıq nazlanırdı. Günəşlə torpaq arasında məhəbbətin, sevginin bəhrəsi idi bu yaşıllıq. Bu da təbiətin bir möcüzsidir. Bir əl içi boyda yerdə müxtəlif rəngə çalaç çiçəklər aça bilir, burda qan qırmızı lalələr də var, çəhrayı rəngə çalan çilik burnu çiçəklər də. Hələ göm-göy, ortasında qırmızı xalı olan zambağa bənzər çiçək....”

Əvvəlki parça oxucuda xatirələri oyadır. Nə zamansa çay qırağında, meşə kənarında, bulaq başında dayanıb gözəlliyə tamaşa edərkən yaşadığı hissləri keçirir. Sonrakı parçada isə artıq duyğuları oyanmış oxucu əsrarəngiz təbiət gözəlliyi təsvirində sanki vəcdə gəlir və hardasa yaşıllığa münasibətində də qücurlar axtarır. Deməli, müəllif qələmə aldığı əsərdə əsas ideyadan əlavə, həm də ikinci bir məsələnin qoyuluşuna və təbliğinə nail olur. Əsərin əsasını təşkil edən hadisə ilə yanaşı, oxucu eyni zamanda təbiətə münasibətini də anlayır. Düz və ya səhv yolda olduğunu dərk edir. “Qartal” hekayəsində yazıçı əsərin əsas qəhrəmanı Toğrul Aydəmirin həyatından danışdığına baxmayaraq, yenə də həmin hekayədə təbiət haqqında duyğular oyada bilir. Belə ki, ədəbi qəhrəman təbiətin məğrurluq rəmzi sayılan qartalla müqayisə olunur.

“-Məzn dostumu ağır düşüncələr içərisində dinləyir, onun mühitə, hətta öz qabığına necə sığmadığını bütün varlığımla hiss edirdim. Bəli, o da qartal idi. Ancaq cismən yerdə sürünməyə məcbur olan, ruhu isə daim zirvələrdə süzən və heç bir varlığa əyilməyən, ətrafda eşələnən paxıllar və cılızlar ordusu üçün əlçatmaz olan bir qartal”.

Göründüyü kimi, bu hekayədə də insan necədir və necə olmalıdır qənaətinin kökünü təbiətlə müqayisədə araşdıranda cəmiyyətin insan mənəviyyatını zorlamasını təfəkkürdə aydınlaşdırmaq o qədər də çətin olmur. Təbiət qartala azadlıq verib. Bəlkə də qartal öz məğrurluğu ilə bu azadlığı qazanıb. “Qartal”

hekayəsinin ədəbi qəhrəmanı Toğrul Aydəmirdə də qartal məğrurluğu, əyilməzliyi var. Fəqət, qartaldan fərqli olaraq, Aydəmirin yaşadığı mühit ona istədiyi azadlığı vermir. Aydəmir təbiətdə saf adamdır, elmli-ziyalıdır, çörəyini halallıqla, alın tari ilə qazanmağı sevən bir insandı. Cəmiyyət isə beləlderini nədənsə sevmir. Daha doğrusu, belələrinə ehtiyac məngənəsində sıxaraq kölə, müti bir varlığa çevirməyi üstün sanır.

"Meşədə tənha ev" hekayəsində isə müəəlif təbiətə şəxsi münasibətindən irəli gələn fikirləri önə çəkir. Ekoloji tərbiyyə aşılayır.

"-"Vilis" maşını ilə eyri bir yolla gedir, maşındakılar vəh xüsusi ilə mən ətrafa heyranlıqla tamaşa edirdim. Qocaman palıd, vələz, dəmirağac, çıinar, qovaq, qoz və nəhayət, nəhəng ağ gövdəliaad ağacları sanki səmaları çiyinlərində saxlayırdı.

Məndən olsa, -dedim bu meşələri qarış-qarış gəzib hər ağacı nömrələyə, yaşını da üstünə yazardım ki, kimsə ora toxuna bilməsin. Bəlkə də bunların şoxu min illərin yadigarıdır".

Elə buradaca da qeyd etməliyəm ki, meşə örtüyü təbii sərvətlərdən fərqli olaraq, hansı ölkənin ərazisində olmasına baxmayaraq, bütün dünya xalqlarının sərvəti hesab edilməlidir. Bu mənadakı sakini olduğumuz Yer planetini əhatə edən təbii meşə örtüklərinin qırılması və yanması nəticəsində ekoloji tarazlığın pozulması ümumən yer səthində ciddi təhlükələrə səbəb ola bilir. Onsuz da bu gün təbii sərvətlərdən kortəbii, ehtiytsız, qayğısız istifadə dünya miqyasında torpaq, su və hava kimi həyat amillərini çatışmazlığına gətirib çıxarır. Məhz təbii sərvətlərdən amansız istifadə olunduğu üçün bu gün insanın gündəlik istifadə etdiyi qidanın, hətta içdiyi şirin suyun tərkibi dəyişib öz əvvəlki keyfiyyətini itirib. Təsadüfi deyil ki, hər gün televiziya və mətbuat xəbərlərində dünyanın ayrı-ayrı ölkələrində təbii fəlakətlərər üzləşmiş insanların acı fəryadlarını eşidirik. Bunlar hamsı insanın ətraf mühitə təsirinin, başqa sözlə, təbiətə müdaxiləsini, qəstinin nəticəsidir. Elə ona görə də ekoloji tarazlığın pozulmasının bşhran səviyyəsinə çatdırdığını hiss edən yazıçı "Meşədə tənha ev" hekayəsində ağacların nömrələnməsi və üstünə də tarixlərinin yazılaraq toxunulmaz olduğunu anladır. Hekayə həm də lirik duyğular yaradaraq adamda təbiətə, yaşıllığa qarşı ılıq münasibət doğurur. Yadıma şair Musa Yaqubun ağaclarla, otlarla danışan misraları düşür.

Şair yaşıl bitkiləri öz dostu, doğması sanaraq deyir:

Salam, atək qanad qoca göyrüşüm,

Qoy bu ağaclarla bir-bir görüşüm,

Solanın, qalanın, ay yaşıllarım,

Salam, a dostlarım, ay yaşıdlarım

Yaşa dolmusunuz ki, əməlli-başlı...

H.Mirələmovun "Qasırğa tez keçdi" hekayəsini xatırlayıram. Orda insanın düşdüyü psixoloji vəziyyətlə təbiət arasindakı ahəngdarləqdan əlavə, oxucu təbii sərvətlərin talan edilməsini diqqətə çəkən müəllifin vətəndaşlıq hisslərini də yaxşı duyur. Həmin hekayədən bir parçanı diqqətinizə çatdırmağa vacib sanıram.

"-Xəlil torları sudan azca aralayan kimi kücü çatdıqca sirkələdi. Diri idi balıqlar. Ziyadlar, sıflar, Gülmələr ağ yağış kimi səpələnirdi dənizin boz-bulanıq sularına. Belində ağ-qara pullar şüalanmış erkək Ziyad balığı tordan çırpılan kimi tappıltı ilə suya düşdü, arxası üstə çevrildi. Bir aranlıq beləcə qaldı. Sonra quyruğunu tərpədərək ağzını geniş-geniş açdı, qəfildən suyun təkinə baş vurdu. "Yaşasın azadliq! Eşq olsun dənizin qasırğasına da, tufanına da". Gülümsündü Xəlil... Diri idi balıqlar. Dənizçilər yaxşı deyirlər ki, tora düşən yalnız qızıl balıqlar ölür. Çünki əsəbidilər. Dəniz kimi, dalğalar kimi əsəbidirlər".

Yəqin ki, hekayənini bu hissədəki əsas məqsəddən kənar mətləbi duyğulu oxucu anlamamış deyil. Yazıçı təbiətin qeyzlənməsini təsadüf olaraq alqışlamır. Eşq olsun dənizin qasırğasına da, tufanına da deyir. Cəmiyyət qanunları insanın təbiətə qarşı azğın əməlinin qarşısını həmişə ala bilmir. Belə olan təqdirdə insan təbii sərvətlərdən qənaətlə deyil, talançılıqla istifadə etməyə vərdiş edir. Odur ki, müəllif müəyyən mənada təbiətin qəzəblznmzəsini, dənizdə baş verən qasırğanı, tufanı alqışlayır. Əslində təbiətin insanla mübarizısinə sevinir. Çünki canlı təbiətin özünün qorumaq instinqti olmasaydı, Yer planeti bəlkə də çoxdan məhv olardı. Qeyd edim ki, H.Mirələmovun ədəbi yaradıcılığında təbiəti qorumaq istəyindən irəli gələn bu sayaq misalları çox gətirmək olar. "Qayıtdı durnalar", "Tənha durna uçuşu", "Xəcalət" povesti, lap elə "Güllələnmiş heykəllərin fəryadı" essesində insanı qırılmaz tellərlə təbiətə bağlayan onunla dostluq etməyə səsləyən və parlaq duyğular oyadan təbiət təsvirləri çoxdur.

Doğrudur, bu yazıda "Simuzər" hekayəsindən də geniş söhbət açmaq olar. Ancaq mən şair-publisist Əli Rza Xəliflinin bu hekayə haqqında mətbuat səhifəsinə çıxartdığı dəyərli publisist qeydlərindən bir parçanı təqdim etməklə mövzunu yekunlaşdırıram.

"-Müəllif qələmə aldığı mövzunu zirvədən başlayır. Qoca balıqçı, balıqçı koması, təbiəti şaqqalayıb lum-lum udan hərislər, xeyir-bərərkt rəmzi olan simuzərlər-balıqlar, -bütün bunlar "Simuzər" hekayəsinin dəyişən lövhələri,

maraqlı həyatı obrazlarıdır. Və eyni zamanda, oxucu adı çəkilməyən tamam başqa bir aləmi də burada görür. Insanın mühakimə səhnəsini: “Nə üçün bəlnmirik insan qayğısına, insan köməyinə? Nə üçün zəifliyimizi, gözəl xallarımızı, gümüşü zərlərimizi qorumur insan? Nə üçün məskəsnlsrimizi zəhərləyir, mazutlayır, çirkab batırır insan...”

İnsan təqzib edə bilmədiyi ittihamlar qarşısındadır. Onun yeganə nicat yolu etirafdır; həm də təkcə etirafda yox, günahlarını yumaq üçün Tanrıdan möhlət istəməsindədir”.

## “VİCDANIN HÖKMÜ”-

## DÖVLƏT GƏNCLƏR TEATRI

“Hüseynbala Mirələmovun “Vicdanın hökmü” iki hissəli pyesi əsasında hazırlanmış tamaşanın premyerasına baxandan sonra qeyri-adi hislər keçirməyə başladım. Bir az kövrəldim acı qəhər məni boğdu, qəlbimdə düşmənə, nankör qonşularımıza nifrət hissi bir qədər böyüdü, bir az da saf sevgi çalarları məni özündən qoparıb uzaqlara apardı. Qabaqcadan deyim ki, “Vicdanın hökmü” Azərbaycanın müctəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların əziz xatirəsinə ithaf edilib. Əsəsrin mövzusu  Qarabağ hadisələrindən götürülüb. Amma bu hadisələr Qarabağda baş vermir. Birinci hissədədki hadisələr Rusiyanın şəhərlərindən birində cərayan edir. Buna baxmayaraq, Rusiya mühiti Qarabağ həyatına elə ustlıqla bağlanıb ki, oxucu və ya tamaşaçı heçnayin fərqinə varmadan əhvalatın sonunu səbirsizliklə və intizarla gözləyir. Bu onu göstərir ki, müəllif süni ştrixlərdən qaçaraq əllaməçilikdən uzaq, içərisində yaşadı\ı həyatın bir parçasını, gözü ilə gördüklərini, müşahidə etdiklərini  duya-duya, yana-yana, ustaliqla qələmə ala bilmişdir.

Tamaşa başlayan kimi səhnədə anasının məktubunu oxuyan bir gənc gözlərimizin qarşısında canlanır. Bu, “Raqozin” bazarının alverçisi Rəhimdir. Təbiətcə mülayim, ailəcanlı, ev-eşik adamı olan Rəhimin gülləri sıxıntı işərisində keçir. Düşdüyü həyat onu darıxdırır. Amma neynəməli? Ömrünü bazarda, piştaxta arxasında keçirib anadan yetim qalan uşaqlarına, anasına pul göndərməli və həm də özü yaşamalıdır. Ixtisasca tarix müəllimi olan Rəhim düz söz danışdığına, ağa qara deməyinə görə iş yerini itirib. Vicdanın səsinə qulaq asdığı üçün doğma evindən, uşaqlarından, Vətənindən aralı düşərək Rusiya bazarında alverçilik edir. Deməli, onu bura gətirib çıxaran vicdanının hökmüdür. Amma Rusiya mühiti onu açmır. O, yolpulu düzəldib Vətənə-ailəsinin içinə qayıtmaq istəyir. Elə bu anda qapı döyülür. Gözlənilməz qonaq-Aşot içəri daxil olur. Bu obraz barədə bir qədər sonra. Tamaşaçı ikinci bir obrazla tanış olur. Bu, Rəhimin həmyerlisi Firudindir-Qara Fedyadır, bütün bazarların reketi Fedya.

Dialoq dramatik əsərlərin əsas komponentlərindən biridir. Yazıçı məhz bu komponentdən bacarıqla istifadə edərək hər iki obrazın-həm Rəhimin, həm də Firudinin fərdi xüsusiyyətlərini, xarakterlərini açmağa müvəffəq olur.

Rəhim-Xoş gəlmisən, Firudin. Heç gözləmirdim.

Fedya-Firudini qatla qoy qırağa. Mənim bir adım var-Fedya! Özü də iman haqqı bu şəhərdə üç kişi varsa birinci olmasa da, yenə birinci mənəm. Indi tanıdın qardaşını?

Rəhim-Həmişə yaxşı olasan, Allah balalarını saxlasın.

Fedya-Brat, öz işidir, istəyər saxlayar, istməz saxlamaz. Adamın öz canı sağ olsun.

Rəhim-Nə danışırsan, Firudun, uşaqsız biz nəyə lazımıq?

Fedya-Bilmirəm! Uje bir il olar ki, arvadın başını buraxmışam, uşaqdan da xəbərim yoxdur heç. Brat, iman haqqı, kopaqqızı mənə-Fedyaya ağıl öyrədir. Ilanın yarpızdan zəhləsi gedən kimi, mənim də məsləhətdən zəhləm gedir. Uşaqlıqdan belə olmuşam. Nəsihət eşidəndə ele bilirəm məni  ilan çalır, allergiya oluram.

Və yaxud:

Rəhim-İnanma ona. Düşmən adətən ətək altından çıxar. Ermənilər dadanıblar. Dadanan quduranda pis olar. Bəs bizi bəlaya salan, əsərlər boyu can deyib, can eşitdiyimiz kirvələr deyil? Qardaş, səsimiz bu gün "Raqozin" bazarından deyil, Vətəni qorumaq üçün cəbhə bölgələrindən gəlməli idi.

Fedya-Vətən?! Nə verib mənə, ala bilmir o Vətən? Axmağam canınımı verəm güllə qabağına? Vətən salmayıb səni çöllərə?

Rəhim-Firudin, axı belə güman edir ki, çaylar yalnız ona su verməк üçün yaranıblar.

Fedya-Məni bu söhbətlərlə azdıra bilməzsən, brat. Mənim öz dünyam var. Mir bezzakonye, mir pristupnikov. Na konets, de görüm, mənə qoşulursan, ya yox?

Rəhim-Yox, Firudin. Mən Vətənə qayıtmağa hazırlaşıram, ta Vətəndən, ailədən uzaqda qala bilmirəm.

Fedya-Eh, brat, brat! Bir dəfə yanımca gəlsəydin, bu mən ölüm, hər şeyi unudardım. Nə Vətən yada düşərdi, nə arvad-uşaq. Mən bu şəhərdə üç kişidən biri ola-ola tüpürmüşəm arvada da, ailəyə də. Mən yalquzağam.

Dialoqdan da göründüyü kimi, yad bir şəhərdə iki Azərbaycanlı üz-üzə dayanıb. Hərəsinin öz dünyası var. Biri ailəni, Vətəni müqəddəs hesab edir, o biri isə arvad-uşağa, Vətənə oyuncaq kimi baxır. Biri ağır gündə "Vətənə dönəcəyəm",-deyirsə, o biri "Vətən salmayıb səni çöllərə?"-deyərək istehza edir.

Beləliklə, müəllif kiçik bir dialoqda ikiu təzadlı xarekteri qarşılaşdırmaqla çox mətləblərə nail olur. Bu, onun dialoq qurmaq bacarğını açıq-aydın təsdiq edir.

Sonrakı pərdədə Fedyanın böyür-başında fırlanaraq pul yığan Aşotun Yerevana zəng vurmaq səhnəsi, eləcə də Rəhimin Fedyanın ad günündə iştirakı və burada birinci dəfə sevdiyi Güllü-Qara Fedyanın arvadı ilə görüş səhnələri çox inandırıcı və təbii boyalarla təsvir edilmişdir. Əsərin bura qədər olan hissəsi "zavyazka" adlandırıla bilər. Çünki bura qədər olan hadisələr yuksələn xətlə gərginliyə doğru gedir. Və ad günündə Rəhimin əlindən xata çıxması, Fedyanın ölümü ilə hadisələr kluminasiya nöqtəsinə çatır. Fedyanın ölümü də maraqlı səhnələrdəndir. Ona deyak ki, Fedyanın ölümü tamaşıçını heç də sarsıtmır. Çünki Rəhim Firudini yox, yüzlərlə insana pislik etmiş Fedyanı öldürür. Elə həmin axşam Rahim dostugildə 20 Yanvar faciəsini eşidir. Həm də müəllif bu xırda ştrixlə hadisənin 1990-cı ildə baş verdiyinə işarə vurur. Bu hadisə Rəhimi Vətənə qayıtmağına güclü təkan verir. O, yenə dəd vicdanın hökmü ilə hərəkət edir.

Piyesin ikinci hissəsindəki hadisələr döyüş bölgəsində baş verir. Döyüşlərdə qəhrəmanlıq göstərən Rəhim yaralı vəziyətdə qospitalda yatır. Oğul itkisinə dözə bilməyən Aslan həkim və qızı Aygün qospitalda yaralılara qulluq edirlər. Aslan həkimin oğlu döyüşdə həlak olmsyıb. O, Qara Fedyanın atasıdır. Oğlunun qatilini axtarır. Rəhimlə Aygünün arasında sevgi münasibətləri yaranıb. Aşot Qarabağda Azərbaycanlılara qan uddurur. General rütbəsi qazanıb. Döyüşlər ara vermir. Rəhim döyüşə getmək istəyir, amma həkim icazə vermir. Aygünün qardaşı Fedyanın şəklini Rəhimə göstərməsi və onu yenidən Güllü ilə görüşməsi ilə hadisələr açılmağa başlayır. Rəhim başa düşür ki, şəkildəki oğlanın-Fedyanın qatili özüdür. Bu hissə isə dramatik növün tələblərinə uyğun olaraq pyesi razvyazkasıdır.

Pyesdəki ən maraqlı obrazlardan biri də Aşot obrazıdır. Müəllif bu obrazı əsərə daxil etməklə, bizi, ayıq-sayıq olmağa, düşmən hiyləsinə aldanmamağa çağırır. Əsərin əvvəlində Qara Fedyanın qılığına girən, süfrəsinin qır-qırıntısı ilə qarnını doyduran Aşotu sonda qan içən, azərbaycanlıların qapına yerikləyən bir erməni kimi görükür. Sanki yazıçı bununla bizlərə ibrət verir. Amma ibrət gğtürəcəyikmi?

Pyes Rəhimin qəhrəmancasına ölümü ilə sona çatır. Hələ 1993-cü ildir. Bunu biz Rəhimin: -"Mən bu alaçağı (Aşotu) üç ildir axtarıram. Sözlərindən başa düşürük. Indi isə 2002-ci ildir. Atəşkəs olsada müharibə hələ də başa çatmayıb. Həm də biz tikə çörək dalınca Rusiyaya gedənlərin qara tabutları ölkəmizə idxal olunmaqdadır. Hələ də erməni şərinə və hiyləsinə aldananlarımız var. Hələ də torpaqlarımız işğal altındadır. Bu baxımdan Hüseynbala Mirələmovun "Vicdanın hökmü" əsəsri çox aktual və əhəmiyyətlidir. Bu gün də Qarabağ döyüşləri davam

edir. Məncə, yazıçı H.Mirələmov “Vicdanın hökmü” ilə bu döyüşlərin, bu mücadilənin ən fədakar döyüşçüsüdür.

Bir qədər də tamaşanı ərsəyə gətirənlər barədə. Dövlət Gənclər Teatrının (teatrın bədii rəhbəri Hüseynağa Atakişiyev) hazırladığı bu tamaşanın quruluşçu rejisoru, əməkdar incəsəsnst xadimi Hüceynağa Atakişiyev, rejisoru İslam Həsənov, rejisor asistanı Zəhra Talıbova, rəssamı dşvlət mükafatı laureyatı Nazim Bəykişiyevdir.

H.Mirələmov “Vicdanın hökmü ilə Qarabağ uğrunda tək vuruşmur. Onun “Vicdanın hökmü pyesini səhnədə təcəssüm etdirən aktyorlardır. Pulsuz-parasız özlərini sənətin qucağına atan aktyorları bu gün kamikadzelərə bənzətmək olar. Onlar da, öz vicdanlarını hökmü ilə yaratdıqları rollarla-İslam Atakişiyev “Rəhim” ilə, Hücniyyə Əhmədova “Ana”sıyla, Rəzzaq Məmmədov –“Aslan”ıyla, Xalidə Əliməmmədova “Aygün” ilə, Mahir Tapdıqov “Kamran”ıyla ermənilərə qarşı döyüşürlər.

Təsadüfi deyil ki, tamaşa qurtarandan sonra uşaqlar gül-çiçək dəstələrini güllə dəyən oğlana- Rəhimə vermək istəyirdilər. Məhərrəm Mucayev Aşot rolunu elə ustalıqla oynadı ki, biz ermənin əsl simasını görə bildik. Daha doğrusu, səhnədə “erməni” gördük.

Tamaşadan sonra bir uşaq anasının ətəyini dartışdıraraq Məhərrəmi göstərirdi: “Ana, erməniyə bax!” bu, aktyorların uğrudur. Eləcə də müəllifin uğurudur.

Bir sözlə, tamaşada maraqlı anlar çox idi. Pərdələrarası səslənən musiqiyə isə biganə qalmaq mümkün deyildi. Vaqif Səmədoğlunun mətnləri əsasında Cavanşir Quliyevin bəstələdiyi mahnıların Sərvər Əliyevin və Nəsibə Eldarovanın ifasında səslənməsi elə ayrıca bir tamaşaya bərabər idi.

Və nəhayət, H.Mirələmovu “Vicdanın hökmü” pyesi haqqında mənim vicdanımın hökmü belədir: əgər ədəbiyyatı canlı bir insana bənzətsək, ora əsərləri ilə gələnlər əvəllcə ədəbiyyatın başında dururlar. Amma burada duruş gətirmək mümkün deyil, sürüşüb aşağı düşürlər. ədədbiyyatın ürəyinə də, düşə bilərlər, yerə də. Tam inamla deyərdim ki, H.Mirələmov “Vicdanın hökmü” ilə Azərbaycan ədəbiyatının ürəyində otura bildi”.

(“Kredo” 41 (92) 2 noyabır 2002-ci il).

# “VİCDANIN HÖKMÜ” LƏNKƏRANDA

“Böyük tənqidçi-alimimiz Nizməddin Şəmsizadənin bir sözü heç yadımdan чыхмыр: «Дцнйада ян чятин шей аь каьызла цз-цзя отурмагдыр». Бу, доьурданда белядир. Кюмяксиз-филансыз, гаршыдакы аь каьызла тямасдат олмаг чятиндян чятиндир. Бялкя дя, дцнйада йазмагдан язяблы иш йохдур. Анъаг бу яязабын ширинлийи инсанын ъфнындан бцтцн аьры-аъыны чыхарыр, она оращатлыг эятирир. Истяр-истямяз суал доьур; яэяр йазмаг бу гядяр чятиндирся, нийя йазырсыныз? Ялбятдя, бу суалла айры-айрыт дюврлярдя мцхтялиф философлар тяряфиндян ъаваблар верилиб. Юзц дя там, йерли-йатаглы. Мянъя, инсанын щиссляри, емосийалары цряйиня дарлыг едяндя, сяси ешидилмяйяндя, гялбимдян кечянляри гышгыра-гышгыра дейя билмяйяндя ялиня гялям эютцрцр вя юз ялийля цряк пычылтыларыны каьыза кючцрцр.

Мяня еля эялир ки, Щцсейнбала Мирялямлову йазмыьа вадар едян еля ьу амиллярдир. О, йашындайкян йаздыьы «Бир тикя чюряк»ля ядябдиййата эялиб. О заман онун аьлына эялмяздяки бюйцк ясярляр йазаъяг. Анъяг йазды. Гараьда итирдикляримизя, гачгын балаларынын йол чякян эюзляриня бахмайыб «Хяъалят»и йазды. «Эцллялянмиш щейкяллярин фярйады»на биэанягала билмядийи цчцн гяляmя сарылды. «Виъданын щюкмц» ортайа чыхды. «Виъданын щюкмц» она эюря йазылды ки, щяр бир сойдашымызын виъданы щюкмцнц версин; Сян  бу торпаг цчцн ня етмисян?

«Виъданын щюкмц» йатмыш виъданлары ойадаъаг бир ясяр олмагла йаддашымызы силкяляйя биляъяк тясир эцъцня маликдир.

«Виъданын щюкмц» Гарабаь щягигятляриндян, ермянилярин щяйасызлыьындан двят халгымызын башына ачдыглары ойунлардан бящс едян тарих китабыдыр.

«Виъданын щюкмц» Гарабаь мювзусуну габартмагла бизи Гарабаьа йахынлашдырыр.

Ялбятдя, «шерляр, ясярля Гарабаьы алмаг мцмкцн дейилдир», -дейянляр дя тапылыр арамыздя. Чох тяясцф демирям ки, шер демякля дцшмян гачыб эизляня биляр. Дцшмян ясэярин ялиндяки силащла говулмалыдыр. Амма ясэяри дя дцшмян цстцня щаваландыран шер олмалыдыр. Ермяниляр силящла торпагларымызы  ишэал етмямишдян габаг ня гядяр психоложи щазырлыг эюрдцляр. З.Балайанын «Оъаьы» ня гядяр ермяни эянъинин бейнини зящярляди. Мяэяр Б.Ващабзадянин, М.Аразын вя даща кимлярин вятянпярвяр рущлу шерляри узун мцддят рущумузун байраьы олмайыбмы? «Фярйад»  киносуна бахан азярбайъанлы ъаван неъя ялиня силащ эютцрцб вурушмайа биляр? Йаддан чыхармайаг ки, дюйцшдя шаир, йазычы ялиня силащ эютцрцб эцлля атмагдан чох ясяри иля дюйцшцр.

«Виъданын щюкмц» драмынын тамашасына баханда цряйимдян бир арзу бой атды. Каш ки, мцмкцн олайды, бу тамаша бцтцн щярби щиссяляримиздя эюстяриляйди.

О дейим ки, Щцсейнаьа Атакишийевин гурлушунда Дювлят Эянъляр Театрынын актйор коллективинин щазырладыьы «Виъданын щюкмц»нцн сящня щяйаты уьурлу алынмышды. Бязи хырда гцсурлары чыхмаг шяртиля.

Амма тамашадан алдыьымыз тяссцрат щяля бейнимиздян силинмямиш Лянкарана йола дцшцрдцк. Н,вязиров адына Лянкяран Дювлят Драм Театрынын щазырладыьы «Виъданын щюкмц»нц эюрмяк цчцн

Автофусда кимляр вар иди; йазычы Щцсейнбала Миряламов вя онун йахынлары, сюз сянят адамлары. Милли Мяълисин депутаты Щады Ряъябов эюзял деди ки, бу автобусун йцкц чох аьырдыр. Чцнки, бу автобус буэцн сюз дашыйыр, «Виъданын щюкмц»нц апарыр.

Лянкарана эцнортацстц чатдыг. Дянизля даьын говушуьунда йерляшян бу шящярин тябии эюзялликляри йорьунлуьумузу ъанымыздан чыхартды. Лянкяран ъамааты вя шящяр Иъра Щакимиййятинин башычысы, йазычы Йашар Рзайев бизи чох црякля гаршылады. Тамашайаъан вахт галдыьындан тябиятин гойнуна чыхды. Ханбуланын сещрли щавасыны ъийярляримизя чякдик. Автобус доламбаъ йолларла дикляндикъя гаршымызда эюзял мянзяряляр ачылырды. Профессор Н.Шямсизадя демишкян. «Автобус йолуну азмышды». Она эюря ки, щямин эцн онун йцкц сюзц иди, сюзцн ихтийарында иди. Беляликля, «йолуну азмыш автобус»дакы сюзлярдян:

«Эялинъик» няшриййатынын директору Ялиъан Ялийев.

-Щ.Миряламов бу ясяриндя Азярбайъанчылыьы габартмагла дювлятчилийиня сядагятини сцбут етди…

«Гарабаь» гязятенин редактору Ч.Тофигоьлу:

-Гардаш, мяня о ясяр лазымдыр ки, Гарабаьы йадыма салсын, «Виъданын щюкмц» мяни евимя, обама йахынлашдырыр….

Азад Суъайев: -Мян дайымын ясярляринин илк охуъусу олмушам. Ян гиймятли китаблары онун китабханасындан эютцрцб охумушам. Щцсейнбала мцяллим щяр ан Гарабаь дярди иля няфяс алан адамдыр. Она эюря онун Гарабаь мювзусунда ясярляр йаздыьыны ешидяндя тяяъцблянмядим…

«Кредо» гязетинин баш редактору Ялирза Хяляфли: -Биз Гарабаь аьрымызы йаддан чыхмаьа гоймайян бир ясяр йаздыьына эюря Щ.Миряламова миннятдар олмалыйыг. Галдыдки, бир чох мятбуат сящифяляриндя гысганълыгдан доьан гярязли йазылары, буна севинмяк лазымдыр. Ядяби тянгиддян кянарда галан ясяр охунмур…

Бираздан автобусла эери дюнцрцк. Шаир Аьаъяфяр шерлярини охуйур. Неъя дя эюзялдир? Лап Лянкаранын тябияти кими. Физулинин гязялляри Аьаъяфярин ифасында шящяря гядяр бизи мцшащидя едир.

Дцшцнянядя ки, улу бабамын 500 ил бундан габаг йаздыглары Шяргдя щюкмранлыг едир, бундан гцрур дуйурам. Йолуну «азмыш автобус» мящз «Виъданын щюкмц»нцн бялядчилийи иля Лянкяран театрынын бинасы гаршысында яйлянир…

Тамаша башланыр. Ямякдар инъясянят хадими Баба Рзайевин гурулушчу режисору олдуьу бу тамашаны щеч дя Щцсейнаьа Атакишийевин щазырладыьы тамаша иля мцгайися етмяк фикриндя дейилик. Анъаг Лянкяран театрынын тамашасында актйорларын юз ролларыны йашайараг ойнамалары вя ясярин эюзял бир сонлугла гуртармасы хцсусиля гейд олунмалыдыр.

Тамашанын режисору Адил Зейналов гурулушчу ряссамы Мяммядйар Ъяфяров, мусиги тяртибатчысы Гялям Фяряъоьлу иди. Тамашанын Ана ролунун эюзял ифачысы Земфира Ящмядова идаря едирди.

Республиканын ямякдар артисти Елшад Зейналов Асланы, Сцъяддин Мирзяйев Рящим ролуну чох усталыгла вя инандырыъы ойнадылар. Гызылэцл Гулийева йаратдыь Эцллц образы иля мян дейирдим ки, тамашачылары сарсытды. Диэяр актйорлар- Нифтулла Ясэяров (Ашот), Ялибала Ясэяров (Камран), Мираслан Аьайев (Ящяд), Айнур Ящмядова (Айэцн), Емин Рзайев (Каро), Асиф Ъяфяров (Накор), Емин Фярзялийев (Сабир), еляъя дя Эцляр Аббасова, Самиря Щцсейнова да мящарятля ясяря сящня щяйаты веря билмишдиляр…

Автобус Бакыйа гайыдыр. Йеня дя, «йолуну азмыш автобус»дакы сюзлярдян:

Професcор Низамяддин Шямсизадя: -Гадыны гадын йанында тярифлямяк дцзэцн дейил. Режисору ися режисор йанында тярифлямяк олар. Мянъя, Баба Рзайев классик цслубда бир тамаша щазырламаг истямишдир, ясасян дя буна наил олмушдур. Биз бу эцн ики тамашайа бахдыг. Бир Губанын тябиятиня бянзяйян Лянкяранын тябии эюзялликляриня тамаша етдик. Бир дя «Виъданын щюкмц» ня….

Шаир Аьаъяфяр Щясянли: -Щяр ики режисор ясяря юз пиризмасындан йанашмышдыр. Мяня еля эялир ки, бу тамаша чох йахшы алыныб:

Шаир-публисист Ялирза Хяляфли: -Лянкяранын еъазкар тябитинини тамашасындан доймадым. Щцсейнбала Мцяллимля Ханбулан эюлцнцн гашында дайаныб тябиятин сейриня далмышдыг. Бирдян гайытды ки, Ялирза, бу тябият сяни тярпятмир? Башымы йырьаладын, щеч цстцндян йарымсаат ютмямиш дуйьуларымы каьыза кючцрдцм:

Эюзляр цзя эцлцр, арзулар чичяк,
Эюр нечя ачылыб эцл Лянкяранда.
Шейда бцлбул кими кюнлцм щявясдя,
Мин няьмя охуйур дил Лянкяранда

Шаир, чабалама сюз цмманымда
Щикмятин йери вар сярраф йанында.
Танры гялям чякиб хош мягамында,
Онунчцн эюзял ел Лянкяранда.

Тябият эюзялдир гышда, бащарда,
Аллащ гоймаз сяни чятиндя, дарда.
Ъянняти-Ризванын гапысы бурда;
Хяляфли истясян гал Лянкяранда
Хяляфли, истясян йол Лянкяранда.

....автобусун йолу Бакыйадыр, амма щялядя йолуну тапа билмир. Чцнки щямин автобус сюзя хидмят едирди, сюз апарырды, юз рейсинджян чыхмышды «йолуну азмышды». Вя йягин ки, та Бакыйаъан автобус юз йолунда йох, сюз йолунда ирялляйяъякди».

# KİŞNƏSƏ NAMƏRD ATLARI,

## YAXUD YADDAŞIN QANI AXIRDI...

Kişnəsə namərd atları obalar viran qalar!

Qədim xalq təfəkküründən süzülüb, min illik sədləri öz hikməti ilə dəlib keçən bir müdrik deyimin bu gün öz təsdiqini tapması mənsub olduğu xalqın böyüklüyündən və uzaqgörənliyindən xəbər verir. Lakin bu hikmətin mayasında bir xəbərdarlıq da gizlənib. Düşməninizin, özü də namərd düşməninizin atının kişnəməyinə fürsət verməyin. Nə yazıqlar olsun ki, bunu bilə-bilə, görə-görə, qana –qana namərd atına meydan verdik. Başımıza nələr gəlmədi. İtirilmiş torpaqlar, viran qalmış obalar, yanmış- yandırılmış, talan edilmiş maddi və mənəvi sərvətlər, tökülmüş qanlar, didərgin düşmüş insanlar, gülü solmuş bağlar, şəhid məzarları, xiyabanlar, əsir düşmüş insanlar... hansını deyəsən bu müsibətin, faciənin , sayı yox, hesabı yox... Amma nə yaxşı ki, bütün bunlara dözmək üçün ümidlər, təsəllilər və bir də böyük şəxsiyyətlər var. Özü də o şəxsiyyətlər ki, zaman onları hər vaxt yetirmir. "Bəzən bir millət əsrlərcə hamilə olduqdan sonra, onlardan birini doğub gətirə bilir". Ondan nə dərəcədə faydalanmaq missiyası isə xalqın öz ixtiyarına verilir. Bu yaxınlarda Azərbaycan televiziyasının birinci proqramında yazıçlı – publisist Hüseynbala Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" adlı ədəbi essesinin televiziya tamaşasına baxdım, doğrusu, həmin gecəni gözlərimə yuxu getmədi. Sanki çovğuna, borana

düşmüşdüm. Məni təəccübləndirən o idi ki, mən, erməni vəhşiliyini və onların törətdiyi dəhşətli hadisələrin şahidi olmuşdum. Bəlkə də bu qədər həyacan keçirməmişdim. Keçirdiyim hisslərin, psixoloji məqamların səbəbini araşdırmağa başlayanda, bir daha inandım ki, böyük şəxsiyyətlərin, əsl sənət adamlarının, yaratdığı əsərlər insan mənəviyyatında, psixologiyasında əsaslı dönüş, eyni zamanda vəhşiliyə, amansızlığa qarşı üsyan notları sintez edir. Müəllifin "Əsl insanlığa baş ucalığı və əbədi şöhrət gətirmiş Xanqızı Xurşudbanu Natəvan, ölməz Üzeyirbəy Hacıbəy, böyük Bülbül bu gün sağ olsaydılar, bəşəriyyətə qarşı növbəti cinayət işlətmiş ermənilər xəcalət çəkməkdən belə onları doğma şəhərlərində güllələyərdilər" fikri erməni vəhşiliyinin sonuncu həddinə endirilmiş ən ağır psixoloji zərbədir.

"Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesinin səhnə əsərinə baxdıqca yazıçı qüdrətinin təsdiqinə heyran olur və eyni zamanda insan "qeyb aləmindən şühud aləminə" enərək varlığının bütün məqamlarını dərk edərək əsl həqiqətə qovuşmaq ehtiyacı duyur. Və bu acı həqiqəti bizə təlqin etməkdən ötrü müəllif heykəlləri güllələnmiş tarixi şəxsiyyətlərin və başqa müdriklərin ruhları ilə bizi qarşı- qarşıya qoymaq məcburiyyətində qalır. Qanımıza, iliyimizəcən işləmiş iyrənc, hakimiyyətə hərislik xəstəliyinin tarixən bizə zərbə vurduğunu Vaqifin, Natəvanın müqəddəs ruhları ilə çatdırır. "Heykəl Vaqif - Vətənimin xaqan, xan oğulları bir-birinizi aradan götürmək arzusu ilə alışıb-yandınız"...

Qətiyyətlə demək mümkündür ki, son illər Azərbaycan xalqının başına gələn faciələrin əsas səbəbkarlarından biri də elə bu prinsiplə yaşayan siyasət adamlarının xalqın taleyinə müdaxilə etməsi idi. Güllələrdən dəlik- deşik olmuş "Heykəl Natəvanın-... mənim babamın da vaxtında belə idi, şair , sənin də təcrübən çatmadı bu didişməni kəsməyə, elə sən də bu sarsaq özündənrazıların qurbanına çevrildin" cavabı tamaşacının yaşadığı, şahidi olduğu tarixlə keçmiş əsrlərin müqayisəsinə çəkir və tamaşaçı anlayır ki, ağacı qurd öz içərisindən yeyər prinsipi milli mənliyimizə hopmuş genetik bir xəstəlik kimi tarixən dərin köklərə malik bir xəyanət yuvasıdır, ondan da taixi düşmənlərimiz daim istifadə edərək hətta dilsiz- ağılsız heykəlləri də güllələmək kimi sonuncu əməllərini də həyata keçiriblər. Əlbəttə, güllələnmiş heykəllərin fəryadı erməni barbarlığının sonuncu həddini göstərən fakt olsa da, əslində bütövlükdə Azərbaycan xalqının fəryadıdır. Bu fəryadı unutmağın, unutqanlığın özünün də milli keyfiyyətlərimizə xas olan təhlükəli virus olduğunu xatırlatmaq üçün müəllif İbrahim xanın ruhunu oyadır. "Ömrüm müharibələrdə keçdi, başım qeylü-qalda oldu. Torpağıma köçürülən, qovulan ermənilərin acından, soyuqdan qırılıb tələf olmasına yol vermədim, axırda mənə qənim kəsildilər. Xanlığı içindən kəsəyən kimi doğradılar, qanımıza susadılar"...

Təkcə XX əsrdə neçə dəfə erməni hücumlarına məruz qalsaq da, yenə də bu tarixi düşmənlərin saxtalığını qəbul etmiş və onlarla dostluq edərkən çomağımızı əldən qoymuşuq. Yazıçı Hüseynbala Mirələmov demək istəyir ki, ermənilər tarixən bizim zəif damarımız olan müdrikliyimizdən , yetimə- yesirə əl tutmağımızdan, yurdsuza-yuvasıza sığınacaq verməyimizdən hiyləgərcəsinə bəhrələniblər. Sonra da xəyanətkarcasına bildiklərini ediblər. Bir sözlə, müəllif tarixi şəxsiyyətlərin, görkəmli ədiblərin ruhlarını dinləndirməklə onları yenidən tarix səhnəsinə gətirmiş və bu cür ədəbi üslubdan istifadə etməklə tarixin acı həqiqətlərini ədəbi təfəkür sferasına kəskin şəkildə diqtə edə bilmişdir. Bəzən görürsən ki, söz ürəkdə qalanda insanın mənəvi rahatlığı pozulur, bu mənada mən ədəbiyyatçı və yaxud tənqidçi deyiləm, lakin sözü gedən əsərin televiziya tamaşasına baxdıqdan sonra, yazıçının vətəndaşlıq mövqeyi, Vətən gözəlliklərinə olan hədsiz məhəbbəti, ana yurdumuz Azərbaycanın təkrarolunmaz və misilsiz təbiətinə vurğunluğu və müasir insanın mürəkkəb daxili aləminə baxışı məni məcbur etdi ki, mən duyğularımı sözlə ifadə edim.

Güllələnmiş heykəllər danışır, onların soyuq, lal baxışları dilə gəlir. Hərəsi bir tarix danışan, qranit qayaların, sal daşların özülündən yonulmuş bu daşlar tarixə, ədalətsiz müharibəyə, əmanətə xəyanət edən üzü dönüklərə və namərd düşmənlərə etiraz üsyanına qalxır və sirli sandıqları açaraq hələ də içimizdə sürünən xallı gürzənin – xəyanətkarlıq ideologiyasının məhv edilmədiyini deyərək xalqın azadlığının və bütövlüyünün qızıl açarını təqdim edirlər. Müəllifin Üzeyirbəyin ruhu vasitəsilə dedikləri onun damarlarından axan qanıdır. Bu qan hər dəfə bədəni dövr edib ürəyə qayıtdıqca sanki dolama yolların döşü ilə Şuşaya qalxır. “Şuşam mənim! Bəlkə də dağların başına dolanıram. Yolları tutmuş sis – dumanın içində yol gəzirəm, yol arayıram. Əgər üç dəfə dolansan qapı açılar. Axı ocağı da üç dəfə dolanadan sonra çıraq yandırarlar”. H. Mirələmov doğma Qarabağa mədəniyyət beşiyi olan Şuşaya gedən yolların açılmasını gücə arxalanan ağılda görməklə bərabər sanki müqəddəs ocaqların, müqəddəs ruhların köməyini də arzulayır. Odur ki, müəllif xalq tərəfindən sevilir və onun əsərləri böyük hörmət və ehtirama layiq görülür. Bu yerdə yadıma ən çox sevdiyim ustad şair – Seyid Nəsiminin bir beyti düşür:

Mərifətdir xalis altun, sikkəsi fəzli hünər,

Altunu tanı, dəğəldən ari dinar istəmə

Bu mənada əsərlərini sevə-sevə oxuduğumuz yazıçı-publisist H.Mirələmov son dövr Azərbaycan ədəbiyyatının xalis altunu hesab edilməli və bəşəri keyfiyyətləri, fəziləti, hünəri, milli qeyrəti, ədəbi dəyəri, çəkisi olan ari söz çələngini də onun əsərlərində və şəxsiyyətində axtarıb – aramaq olar.

Mən həm də bir oxucu kimi yazıçının əsərinin sonunu Tanrının bir gün yer üzünə nur əvəzinə daş yağdıracağına və bu daşlar təkcə yağıların namərdliyi üzündən deyil, həm də ümumən günakar bəndələrinin günahları ucbatından yağacaqdır fikri ilə bitirməsini bir islami tərbiyə üsulu hesab edirım.

Eyni zamanda bir gün torpaqlarımızda kişnəyən namərd atlarının səsinin kəsiləcəyinə və bu yağı atlarının dırnaqlarında parça-parça olmuş, bağrından qan sızan yurd yerlərinin , ziyarətgahların, müqəddəs ocaqların yaralarına məlhəm qoyacaq yel qanadlı atlının – Xızr İlyasın peyda olacağına inanıram. Bax onda hər kəsə "Xəcalət"dən və "Güllələnmiş heykəllərin fəryadı"ndan pay düşəcək. Bu pay xilaskarın qurduğu mizan – tərəzinin olum və ölüm dilemması qarşısında qalanların yaşamaq haqqını təyin etmək üçün ədəbi meyarı, çəkisi olacaq **(F.Çobanoğlu, "Kredo" N47(98) 14 dekabr 2002-ci il).**

**"Yaddaşın qanı axırdı..."**

**"Hüseynbala Mirələmov. Boynuma alıram: mən bu müəllifi son vaxtlar tanımağa başlamışam. Bunun üçün onun haqqında bədxahlıqla və qərəzkarlıqla qəzəblərini gizləyə bilməyib ötəri də olsa mətbuat səhifələrində qeybət səviyyəsində danışanlara minnətdaram. Onlar çox güman ki, özləri də dərk etmədən H.Mirələmovun əsərlərini ədəbi döyüş mövqeyinə çəkdilər. Qısa olmayan zaman göstərdi ki, Qarabağ mövzusunda yazılmış bu əsərlər müəllif təxəyyülündə kifayət qədər bişdiyindən döyüşə hazır imiş. Mən bu əsərləri nə müəllifin, nə qədər acı olsa da etiraf edirəm, - nə də Qarabağın xatirinə yox, müasir mənəviyyatın ədəbi fakta nə dərəcədə obyektiv münasibət göstərdiyini özümə aydınlaşdırmaq üçün oxudum.**

**... Və sarsıldım. Bu əsərlər sözün həqiqi mənasında ürək qanı ilə yazılıb. Qoy hər kəs vicdanın hökmünə tabe olsun. Təsadüfi deyil ki, müəllif məlum mövzuda əsərlərindən birinə "Vicdanın hökmü" adını verib və çox hörmətli professor N.Şəmsizadənin dediyi kimi çoxdan bəri küncə sıxışdırılmış Vicdan obrazını şübhə yoxdur ki, ədəbiyyata gətirib, səhnəyə gətirib. "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi maraqlı quruluşu, dili və ilhamlı, emosional çalarları ilə diqqəti cəlb edən ədəbi hadisədir. Və mən sevinirəm ki, bu əsərin əsasında sənət dünyamızda nadir inci ola biləcək film-tamaşa yaradılıb. Mirələmovun əsəri əsasında film – tamaşanı yaratmış quruluşçu rejissor Nadir Diridağlı sözü qədərincə duya bildiyindən, ən başlıcası bu faciəni bütün ağırlığı ilə dərk etdiyindən və yetərincə istedad sahibi olduğundan yaddaşımızın qaraçuxası ola biləcək bir əsər həyata**

vəsiqə almışdır.Əsər keyimiş, donmuş yaddaşları qanada bilmişdi. Bəli, həmin gün yaddaşımızın qanı axırdı.

Mən artıq bir dəfə bu barədə - “Güllələnmiş heykəllər” haqqında “KİŞNƏSƏ NAMƏRD ATLARI OBALAR VİRAN QALAR” adlı publisistik qeydlərlə duyğularımı qələmə almışdım. Ancaq hiss etdim ki, bağrımın başına od qoymuş “güllələrin” yeri hələ də göynəyir.

Əziz oxucu, bəlkə sözümü bir qədər uzaqdan başlayıram. Amma məni qınama, söz sözü çəkirsə demək düşünürük. Demək bizi düşündürən sözün sahibinə minnətdar olmalıyıq.

Milyon illərdir ki, günəş yer üzünə işıq saçır, yanıb – yaxılır, daşa, torpağa, suya, bütün canlı və cansız varlıqlara həyat enerjisi verməkdən usanmır. Bəs görəsən hansı qüvvədir bu misilsiz həyat mənbəyini tükənməyə qoymayan? Hansı bir ədalətli qanunun hökmüdür ki, günəşə hansı səmtdən boylansan fərq etməz. Qədərincə ondan faydalana, bəhrələnə bilərsən. Azərbaycan xalqının, Azərbaycan ədəbi-ictimai fikir tarixinin keçdiyi təkamül yolunda da daim sönməyən günəşlə müqayisə ediləcək mütəfəkkirlər, dahilər, müdrik insanlar olub ki, onlar da günəş kimi daim cahana, bütün yer üzünə nur ələyiblər. “Milliyyətindən asılı olmayaraq süfrəmə qonaq olanlar narazı getməzlər” – deyən mövlana Füzuli həm də:

Cifeyi-dünya deyil karkəs kimi mətlubumuz,

Bir bölük ənğalarız, qafi- qənaət bəkləriz deyir. Dünyaya karkəs gözü ilə baxanların mübarizələri də, ideyaları da, hətta sonuncu nəfəsinədək səngimək bilməyən mənəvi- psixoloji ehtirasları da leş yemək üçün uyğunlaşıb və bu yönümdə də irsi adaptasiya qazanıblar. Yalnız ənqa quşu kimi qənaət qafını güdənlər “günəşdən nur alıb, bu yurda səpələnənlər” dir ki, onlar əbədiyyət kimi bir dövlətin azadlıq qədər şirin bir nemət olduğunu dərk edirlər. Artıq Azərbaycan ədəbi-ictimai mühiti son dövr ədəbiyyatımıza isti bir nəfəs gətirən, hərarəti ilə hisslərimizə yol açan, daha sonra düşüncəmizə, şüurumuza sirayət edən bir günəşin doğulduğunu etiraf etməyə bilməz.

Hüseynbala Mirələmovun əsərlərini oxuyan hər bir kəs nə qədər mənəvi- fiziki zərbələrə məruz qalsa da belə bu günəşin hərarətindən qızınar, özünə məhrəm olan bir duyğuyla təskinlik tapar, yaxud mənəviyyatının həqiqətə açılan qapılarını bağlayan kör- kötükləri görər və yaxşı mənada

**öz haqqını dərk edər. Haqqını dərk edən insana artıq vətəndaşdır, Vətəni qorumağa layiqdir.**

Xüsusən vətənpərvərlik mövzusunda yazdığı əsərlərə görə böyük nüfuz qazanmış H.Mirələmovun dekabrın 23-də Azərbaycan Televiziyasının istehsalı olan yeni çəkilmiş "Güllələnmiş heykəllər" film-tamaşasının Hökümət Evində Kinematoqrafçılar İttifaqının böyük salonunda ictimai baxış mərasimi keçirildi. Mərasimə respublikanın ədəbi ariyentasiyasını təmsil edən böyük ziyalı qrupu, dövlət nümayəndələri, müxtəlif sahələrdə çalışan elm adamları, tədqiqatçı alimlər, eyni zamanda qüdrətli incəsənət ustaları və müəllifin sənətinin pərəstişkarları toplanmışdılar.

Film-tamaşaya baxmazdan əvvəl Azərbaycan kino sənətinin parlaq ulduzlarından biri, Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri Rasim Balayev ilk çıxışıyla mərasimdə iştirak edənlərə bildirdi ki, "Güllələnmiş heykəllər" film – tamaşasına baxmaq, belə əsərləri yazmaq nə qədər vacibdirsə, bir o qədər də acıdır. Fəqət həqiqətdir, dilsiz-ağızsız daşları, heykəlləri güllələmək qeyri – insani hərəkətdir, vandalizmdir. Bu, yalnız erməni millətinə xas olan bir vəhşilikdir. Yazıçı H.Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" əsəri əsasında istedadlı rejissor Nadir Diridağlının hazırlayıb ərsəyə gətirdiyi film – tamaşada ibrət götürməli faktlar çoxdur. Ümumi düşmənlərə qarşı birləşməyin vaxtı çoxdan çatıb. Əsərin əsas ideyası bax budur. Rasim Balayevin çıxışından sonra zala bir sakitlik pərdəsi çökdü.

... "Dünyaya çox xanlar gəldi-getdi... lakin bircə xan qaldı, o da muğamatın xanıdır". Bəli, ölməz sənətkar Xan Şuşinskinin ecazkar səsi qürbətdə qalan Vətənin – Şuşanın abı-havasını sanki ətrafa yaydı:

Şuşanın dağları başı dumanlı,

Qırmızı koftalı, yaşıl tumanlı,

Dərdindən ölməyə çoxdur gümanlı...

Beləcə musiqi sadaları ilə başlayan tamaşaya baxan mərasim iştirakçıları respublikanın tanınmış aktyorlarının – Əliabbas Qədirovun, Nurəddin Quliyevin, İlham Əsgərovun, Ramiz Mirzəyev, Firəngiz Mütəllimovanın və başqalarının ifasında bir daha şahid oldular ki, Şuşa, eləcə də digər işğal edilmiş rayonlar tarix boyu içimizdə göyərən, pöhrə verən xəyanətin qurbanı olmuşdur. Bunu yağı gülləsindən dəlik – deşik olmuş, yaralarından qan sızan daş abidələr deyir. Və tarix dünəndən bu günə, bu gündən gələcəyə boylanaraq heç nəyin izini itirmir. Tarixi şəxsiyyətlərin ruhu "məkrli düşmənlə mübarizədə yalnız ağıla arxalanan

güc qalib gələ bilər”, - deyir. Bu isə ölkə daxilində fəaliyyət göstərən ayrı-ayrı siyasi partiyaların vəhdəti və məqsəd birliyi deməkdir. Həmin gecə tamaşanın baxış mərasiminə yığışanlar sanki çətin bir sual qarşısında qalmışdılar. Axı tamaşaya baxdıqca İbrahim xanın, Molla Pənah Vaqifin, Xurşudbanu Natəvanın, Mir Möhsün Nəvvabın baxışlarından sarsılır, onları dinlədikcə hər kəs tutduğu vətəndaşlıq mövqeyinə vicdanına güzgü tutaraq müqəddəs Vətənə xidmət və sədaqətini arayıb axtarırdı. “Güllələnmiş heykəllərin fəryadı” ədalətsiz Qarabağ savaşının vurduğu yaraların qaysağını qopardı, Üzeyirbəyin, Bülbülün alnından sızılan qan damlaları, daş heykəllərin üsyanı dünyanın mədəniyyət xəzinəsinə nadir incilər verən Şuşa azad edilməyincə yaralarımıza məlhəm tapılmayacağını təlqin etdi. Film-tamaşaya baxdıqca insan müxtəlif psixoloji vəziyyətlərə düşərək müqəddəs Vətən uğrunda şəhid olmadığına peşiman olur və əsərin müəllifi xalqın oğlu, zamanın övladı kimi artıq borcunu ödədiyini düşünür. Eyni zamanda keçmişimizi bizə xatırladan, dünənimizi, bu günümüzü, tarix qarşısındakı bağışlanılmayacaq səhvlərimizi diqtə edən, yaddaşımızı oyadan yazıçı qələminin gücünü həlledici döyüşdə inamla qılınc çalan qüdrətli sərkərdənin polad üzlü qılıncıyla müqayisə etməyə bilmirsən. Onu da deyim ki, filmin cəngi sədalarıyla sona çatdırılması tamaşaçılarda bir qələbə soraqlı ovqat da yaratdı. Demək, haqq savaşında mübarizə edənlərin qisməti mütləq qələbədən keçir.

Tamaşaya baxış mərasimindən sonra gecəyə toplaşanlar “Güllələnmiş heykəllərin fəryadı” ədəbi-essesi və onun əsasında çəkilmiş film-tamaşa haqqında fikirlərini söylədilər və belə əsərlərin bu gün üçün nə dərəcədə gərəkli olduğunu diqqətə çatdırdılar. Sənətşünas, tənqidçi Vaqif Yusifli çıxış üçün sözü “Gənclik” nəşriyyatının direktoru Əlican Əliyevə verdi. O, tədbirdə iştirak edən böyük sənətkar Bülbülün ömür-gün yoldaşını alqışladı. H.Mirələmovun “Xəcalət” kitabının (məlum olduğu kimi, kitabda üç əsər “Xəcalət” povesti, “Güllələnmiş heykəllərin fəryadı” ədəbi-essesi və “Vicdanın hökmü” dramı əhatə olunur. Hər üç əsər Qarabağ mövzusundadır) rus dilində də nəşr olduğunu qeyd edərək martın 15-də bu əsərin ingilis dilində, daha sonra ərəb və fars dillərində nəşr olunub yayılacağını bildirdi. Həmçinin əsərin ədəbi dəyəri və məna yükü haqqında böyük qırğız yazıçısı Çingiz Aytmatovun bu yaxınlarda öz rəyini bildirəcəyi haqqında məlumat verdi. Sonra filologiya elmləri namizədi Vaqif Yusifli öz fikirlərinə aydınlıq gətirdi: “Bu gün biz yaralı bir mövzunun əksi ilə tanış olduq. Yaşar Qarayev deyərdi ki, yaddaş itkisi ağır faciədir. Buna görə tarix bizi hər dəfə cəzalandırır. İşğal edilmiş torpaqları azad etmək üçün ilk növbədə ruhunu işğaldan azad etməlisən. Bu isə çox çətindir. “Güllələnmiş heykəllərin fəryadı” bizi öz ruhumuza qaytarır. Dəyərli bədii ədəbiyyatın gücü onda təsdiqlənir ki, ruhun işğalına mənəvi sipər çəkir. “Güllələnmiş heykəllərin fəryadı” əsəri bir haraydır,

insanları mübarizəyə səsləyən dəli bir çağırışdır". Tənqidçi müəllifi ədəbi şəxsiyyət kimi alqışlayaraq tamaşanın rejissoru Nadir Diridağlıya, o cümlədən filmin hazırlanmasında əməyi olan bütün incəsənət adamlarına təşəkkürünü bildirdi və uğurlar arzuladı.

Yeri gəlmişkən qeyd edim ki, rejissor Nadir Diridağlı çox gözəl bir kompozisiya quraraq teatrla kinonun sintezini yaratmışdır. "Xalq" qəzetində M.Mükərrəmoğlunun yazdığı kimi: "Heç sübhəsiz, filmdə aktyorların da az rolu olmayıb. Onlar bütün imkanları çərçivəsində can yandırıblar. Onlarla söhbətimdə hansı birisə dedi ki, bu sənətdən də uca olan bir borcdur. Mənəviyyatdan da uca olan bir borcdur. Bu İlahi bir borcdur. Bu Tanrı qarşısında insanın əbədi borcudur. Bu Vətən, torpaq borcudur. Bəlkə ona görədir ki, film-tamaşada iştirakçı olan bütün aktyorlar bu borcu ləyaqətlə yerinə yetiriblər. Nurəddin Quliyev, Əlabbas Qədirov, İlham Əsgərov, Bəsti Cəfərova, Sevil Xəlilova, Abbas Qəhrəmanov, Firəngiz Mütəllimova, Həlimət Məmmədova, Sabir Məmmədov, Məleykə Əsədova maraqlı bir aktyor ansambılı yaradıblar.

... Mən Mənsum İbrahimov və Nəzakət Teymurovanın, Aygün Bayramovanın Qarabağ, Şuşa haqqında oxuduqları mahnı və muğam parçalarının ümumi süjetlə necə qovuşduğunun şahidi oldum. Və sonda cəngi musiqisi altında rəqs edən əsgər geyimli igidləri görəndə, nədənsə, içimdə bir yüngüllük duydum. Bu bizim arzumuz, amalımızdır. Bu ruh oyanmalıdır bu xalqda. Film bu ruhdadır, bu ab-havada çəkilmişdir" (26 dekabr 2002-ci il).

Yazıçı Səyyad Aran filmin bəzi texniki qüsurlarını qeyd etməklə yanaşı dedi ki, dünyada indi o xalq güclüdür ki, o dünya ictimaiyyətinə özü haqqında daha çox informasiyalar verə bilir. Bu mənada H.Mirələmovun vətənpərvərlik mövzusunda yazdığı əsərinin süjeti əsasında hazırlanmış film çox maraqlı alınıb. Yazıçı istedadlı rejissor Nadir Diridağlıya da öz təşəkkürünü bildirərək fikrini yekunlaşdırdı.

Millət vəkili Gültəkin xanım Hacıyeva tamaşaya baxışdan sonra kədərləndiyini, psixoloji gərginlik keçirdiyini qeyd etdi.

- Filmdəki adi təsvirlər belə, insanda dərin emosional iz buraxır- deyən deputat tamaşanın musiqi tərtibatını yüksək qiymətləndirdi. Sonra fikrini ədəbi yönümdə deyil, daha çox siyasi mövqeyi ilə bağlı şərh etdi: - İnsanlar müxtəlif sahələrdə çalışırlar. Eyni zamanda fəaliyyətlərini də elə həmin sahə üzrə məhdudlaşdırırlar. H.Mirələmov da gözəl mütəxəssis, nüfuzlu peşə sahiblərindən biridir. İlk baxışdan bu insan da öz fəaliyyətini müəyyən bir çərçivədə bitmiş hesab edərdi. Lakin baxdığımız filmin müəllifi bizim hörmətli prezidentimizin

irad tutduğu adamlardan fərqli olaraq, bütün mənəviyyatıyla, ruhuyla xalqına bağlı vətəndaşdır, Qarabağ dərdi, Qarabağ yanğısı ondan uzaqda deyildi. Belə bir daxili yanğının bəhrəsidir ki, müəllifin müraciət etdiyi mövzu ədəbi aləmdə genişmiqyaslı marağa səbəb olur və müxtəlif instansiyalar səviyyəsində qiymətləndirilir. Hər bir Azərbaycan övladının vicdanında Qarabağ ləkəsi var. Özünü bu Vətənin övladı hesab edən hər bir kəs bu ləkədən yaxasını qurtarmağa, mənəvi rahatlığına can atmalıdır. Bu filmdən sonra mənə aydın oldu ki, H.Mirələmov nə qədər ki, Azərbaycanın problemləri həll olunmayıb özünü xoşbəxt insan hesab edə bilməz. Millət vəkili müəllifə öz təşəkkürünü bildirərək, mərasim iştirakçılarına Şuşalı günlər arzuladı.

Xalq artisti Əliabbas Qədirov isə: Mən kinli deyiləm atam kimi, mən kinli deyiləm xalqım kimi: Fəqət erməni vəhşiliyini unutmaq, xalqın fəlakətlərini, acılarını unutmaq olarmı? – deyərək fikrini çox qısa və dəqiq izah etdi.

Növbəti çıxış üçün söz professor Nizaməddin Şəmsizadəyə verildi. O, daha çox filmin estetik mahiyyəti və bədii təsiri məsələlərinə toxunduqdan sonra dedi:

- Ermənilər bügünkü mövqelərinə görə daha çox erməni tarixçilərinə borcludurlar. Bizim isə qədimliyimizə görə öz xalqımıza borcluyuq. Üzeyirbəyin başına dəyən güllə, əslində bizim yaddaşımıza açılan gülldədir. Əsərdə maraqlı faktlar çoxdur. Tariximizin dünəni ilə bu günü arasındakı müqayisə filmdə çox bariz şəkildə öz əksini tapıb. Filmin bədii və estetik gücü ordakı qan izidir. Hər hansı bir əsər də qanla yazılarsa, öz qüdrətini təsdiq etmiş olar.

Professordan sonra tədbirdə iştirak edənlər Azərbaycan Qadın Problemləri Komitəsinin sədri Zəhra xanım Quliyevanı dinlədilər. Zəhra xanım film- tamaşanı ərsəyə gətirənlərin hamısına dərin təşəkkür və ehtiramını bildirərək, öz düşüncələrini məclis iştirakçıları ilə bölüşdü:

- Doğrudur, bu filmə baxdıqdan sonra, biz tariximizə qayıtdıq, bir daha keçmişimizə diqqət yetirdik. Yağı tapdağı altında qalmış torpaqların vətəndaşı özünü dinc hiss edə bilməz. Özümüzü səfərbər etməli və bu məhəbbəti, psixoloji hazırlığı yeni nəsil ordusuna aşılamalıyıq. H.Mirələmovun qələmi buna qadirdir.

Daha sonra müəllifə və tamaşanın yaradıcı heyətinə münasibətini bildirən millət vəkili Hadı Rəcəbli yazıçını ədəbiyyatı sevən bir adam kimi hələ uzun illər bundan öncə tanıdığını qeyd etdi və Azərbaycana xidmət etməyin bir yolu da budur – dedi. Yəni bu gün belə qiymətli əsərləri yazıb, xalqa çatdırmaq özü qeyri-peşə sahibi üçün böyük fədakarlıqdır. Müəllifin xalqına etdiyi böyük xidmətidir.

"Qarabağ savaşı ilə bağlı mənim tərcümeyi –halım var" – deyən, istedadlı aktyor Nurəddin Quliyev öz emosional çıxışıyla özgə bir aləm yaratdı: - Hüseynbala Mirələmov hər dəfə bizim yaddaşımızı oyadır. Millətin dərdini demək üçün heç də hansı sahədə çalışmağın fərqi yoxdur. Amma nədənsə müasir

Azərbaycan dramaturgiyası hələ də susur. Görəsən Azərbaycan xalqı o bəraəti onlara verəcəkmi? “Güllələnmiş heykəllərin fəryadı” çoxlarını yaxşıca qeyrətə gətirəcək. “Şuşa bizi gözləyir” deyən aktyor, rejissor Nadir Diridağlının və onun bacarıqlı aktyor və işçi heyəti seçə bildiyini xüsusilə vurğuladı, istedadına böyük qiymət verdi və bizim ən müqəddəs borcumuz torpaqlarımıza sahib olmaqdır sözləri ilə çıxışını yekunlaşdırdı.

Ədəbi müzakirə davam etdikcə, çıxış edənlər də bir –birini əvəz edirdi. Respublika Ali məhkəməsinin hakimi Ənvər Seyidov ən ağrılı yerimizə toxunaraq qeyd etdi ki, illər keçdikcə insanların qəlbində torpaq itkisi, düşmənə nifrət hissi tədricən unudulur. Belə bir zamanda yeni çəkilmiş film- tamaşanın əvəzsiz rolu var.

Ənvər Seyidov filmdə müəyyən texniki qüsurlar olduğunu da diqqətə çatdırdı. Daha sonra Azərbaycan Dövlət Qadın Problemləri Komitəsi sədrinin müavini Dilrubə xanım Camalova sevimli şagirdi olmuş H.Mirələmovun “Xəcalət ” povestinin təqdimatı ilə bağlı təəssüratlarını və Xocalı faciəsində gözlərindən məhrum olmuş 13 yaşlı qızın qələmə aldığı şerlə bu faciənin dəhşətini yada saldı və hesab elədi ki, film-tamaşa bu dəhşətin əyani təsdiqidir. Dilrubə xanım H.Mirələmovun hələ üçüncü sinifindən etibarən yazmağa başladığını və ədəbiyyata olan xüsusi marağının fitri olduğunu qeyd etdi.

Mərasim iştirakçısı Əli Qədirov xalq şairi Məmməd Arazın “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı” məşhur misrasını yada salaraq, müəllifin vətəndaşlıq mövqeyindən, milli qeyrətindən danışdı.

Tədbirin sonunda yazıçı – publisist H.Mirələmovun: “ Həyatın davamı naminə, Vətənin azadlığı, bütövlüyü uğrunda mübarizədə zərrə qədər xidmətim duyulursa, demək hardasa düz yoldayam” – deməsi son dərəcə təvazökar bir insanın sadəliyinin və böyüklüyünün təsdiqi idi. Yazıçı həm də tədbirdə iştirak edənlərə və film- tamaşanı hazırlayan əməkdaşların hamısına hörmət və ehtiramını bildirərək, ədəbi aləmdə fəaliyyətini davam etdirəcəyinə söz verdi.

**...Film – tamaşa qurtardı. Heykəllər güllələndi. Və sənət sübut elədi ki, bu güllələr onları öldürə bilməz. İki yüz illik bir tarix çözüldü. Bütün əsər boyu dəhşətli faciələr səhnədə yaşanıldı. Ancaq bizim inamımız ölmədi. Necə ki, güllələr heykəlləri öldürə bilmədi. Bu, əsərin təlqin elədiyi əsas qayədir. Mən tamaşadan əvvəl üşüyürdüm. Bəlkə də soyuq qış fəslinin nəfəsi boş salonu işğal eləmişdi, bu salona istilik, hərarət gətirən tonqalın, məşəllərin gücünə enmək, təslim olmaq istəmirdi...**

**... Mərasimin sonunda canımı od götürmüşdü. İndi üşümürdüm. İndi qəlbimə, mənəviyyatıma hopmuş gücü təkcə duymurdum, həm də görürdüm.**

**İnsan, sən nəyə qadirsən? Lap dərimi də soysalar, dilimi də kəssələr deyirəm... bu sualın bircə cavabı var:**

**İnsan, sən torpaqlarını azad etməyə qadirsən. Bu güc səndə var.**

**Və bir də insanın mənəviyyatına sənət qədər heç nə təsir edə bilməz..” (F.Çobanoğlu, “Kredo” N1 (100)2003-cü il)**

## ZƏFƏR YOLU HƏQİQƏTDƏN KEÇİR

***“Zəfər yolu” və “Həqiqət” kitablarının təqdimat mərasimindən qeydlər***

Zaman keçdikcə tarix yalnız dahi şəxsiyyətlərin, müdrik elm və dövlət xadimlərinin danılmaz həqiqətləri hesabına bir-birini əvəz edən nəsillərin yaddaşına həkk olur. Azərbaycan xalqı dünya tarixinə neçə-neçə belə dahilər, mütəfəkkirlər, elm-sənət korifeyləri, qüdrətli sərkərələr, dövlət xadimləri bəxş edib. Təsadüfi deyil ki, XX əsri həm də Heydər Əliyev əsri adlandırırlar. Bakı, Azərbaycan özünün dünyanın nadir şəxsiyyətləri sırasında ləyaqətli yerlərdən birini tutan övladı ilə fəxr edə bilir. Bu övlad sadə azərbaycanlı ailəsində dünyaya göz açmış, öz xalqının dahi oğlu olmaqla yanaşı, həm də dünyanın ən qüdrətli tarixi simaları səviyyəsinə yüksəlmiş təkrarsız şəxsiyyət, eləcə də ümumdünya tarixinin azərbaycanlı dahisidir. Misilsiz dövlət xadimi kimi Azərbaycan tarixinin şanlı səhifələrində, həmçinin dünyanın siyasi təcrübəsində daim müraciət ediləcək bu nadir düha sahibi Heydər Əliyev şəxsiyyətidir.

10 may Azərbaycan xalqının yaddaşında, həm də bu nəhəng siyasi liderin – Heydər Əliyevin anadan olduğu gün kimi əbədi qalacaqdır. Bu günü – 10 may 2003-cü il tarixini- Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 80 illik yubileyini respublikamızın hər yerində əsl milli bayram təntənəsi kimi qarşıladılar. Bu münasibətlə keçirilən bayram tədbirlərindən biri də Qaradağ rayon Lökbatan qəsəbəsi Ə.Əmirov adına NQÇİ-nin mədəniyyət sarayında qeyd edildi. Mərasimdə həm də tanınmış yazıçı – dramaturq H.Mirələmovun prezidentin ömür yoluna həsr edilmiş “Həqiqət” və “Zəfər yolu” kitablarının təqdimatı oldu. Əvvəlcədən onu deyim ki, təntənəli mərasim iştirakçıları arasında Qaradağ rayonunun zəhmətkeş təbəqəsini təmsil edən ən sadə iş adamları, əliqabarlı fəhlələr, qəsəbənin tanınmış ağsaqqalları, rayon ziyalıları, Qaradağ rayon İcra Hakimiyyətinin nümayəndələri, YAP Qaradağ rayon təşkilatının fəal üzvləri, eyni zamanda

respublikanın tanınmış elm və sənət adamları, şair və yazıçılar, Milli Məclisinin üzvləri, habelə mətbuat işçiləri vardı.

Həmin gün tədbirə gələnlər sanki prezidentin 80 illik yubileyini deyil, kökü min illik qatlara gedib çıxan xalqımızın milli-ənənəvi bahar bayramını qarşılayırdılar. Saraya toplaşanlar prezidentin Bakıya dönüşünə qədərki “soyuq qışın” gətirdiyi acı yellərin hər an insanları dondurmaq təhlükəsi qarşısında qoyduğu dövrləri xatırlayaraq 80 yaşlı müdrikin – möhtərəm Heydər Əliyevin özü ilə Bakıya gətirdiyi hərarətin, əmin-amanlığın əsl qiymətini verməklə, ürək sözlərini prezidentə ünvanladılar. Çünki Azərbaycanın gələcək firavan həyatına, insanların hər cür maddi və mənəvi rifahının təminatına, bütöv Azərbaycana, itirilmiş torpaqların işğalından azad olunmasına doğru gedən yolun açarını dünya şöhrətli siyasətçinin 80-illik tarixi təcrübəsində, illərin sınağından çıxmış, yenilməz sərkərdəlik məharətində gördülər. Qeyd edim ki, saat 11-də başlanan mərasimi Qaradağ rayon icra hakimiyyətinin başçısı Yaqub Əliyev öz çıxışıyla açıq elan etdi. Və öncə yığıncaq iştirakçılarını salamlayaraq Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin anadan olmasının 80 illik yubileyi münasibətilə təbrik edərək bildirdi:

- Xalqımızın xilaskarı Heydər Əliyevin 80 yaşının tamam olması ərəfəsində respublikanın bütün bölgələrində olduğu kimi, Qaradağ rayonunun ayrı-ayrı təşkilatlarında, mədəniyyət ocaqlarında, məktəb və xeyriyyə evlərində prezidentə sonsuz məhəbbətin təzahürü kimi bayram tədbirləri keçirilir və 2003-cü ildə prezident seçkiləri ərəfəsində Heydər Əliyevin namizədliyi, Azərbaycan Respublikasına rəhbərliyi əhali tərəfindən böyük rəğbətlə qarşılanır.

Y.Əliyev 1993-cü ilin iyul günlərindən Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş əldə edildiyindən, Azərbaycan dövlətinin siyasi varlığının yox olması təhlükəsindən xilas edilməsindən, onun ictimai-siyasi həyatımızda, həm də Azərbaycan dövlətçiliyinin xilaskarı kimi çox şərəfli bir missiyanı uğurla həyata keçirdiyindən söhbət açaraq bugünkü möhtəşəm tədbirə qaradağlıların da əliboş gəlmədiyini dedi. O, YAP-ın Qaradağ rayon təşkilatının fəal üzvü, yazıçı – dramaturq Hüseynbala Mirələmovun prezidentin ömür yoluna həsr etdiyi “Həqiqət” və “Zəfər yolu” kitablarını prezidentin 80 illik yubileyinə dəyərli töhfə kimi qiymətləndirdi və eyni zamanda, Azərbaycan xalqının müdrik rəhbərinin alternativi olmayan siyasi dəst-xəttinin bəhrəsi kimi nail

olduğu, Azərbaycan dövlətçiliyi uğrunda həyata keçirdiyi beynəlxalq əhəmiyyətli məsələlərin müəllifin dahi rəhbərə həsr etdiyi kitablarında hərtərəfli və dolğun şəkildə özünəməxsus bir dillə qələmə aldığına görə yazıçı Hüseynbala Mirələmova dərin təşəkkürünü bildirdi. Sonra çıxış üçün sözü rayon icra hakimiyyətinin başçısının müavini Rəhman Yusifova verdi. Rəhman müəllim prezidentin son on ildəki gərgin siyasi əməyindən danışaraq, onun tarixlər yola salmış siyasi mübarizə məktəbinin layiqli varisi ola biləcək İlham Əliyev fenomenindən – bu gənc siyasi liderin Azərbaycan gənclərinin xoşbəxt və firavan həyatı naminə respublikanın müxtəlif rayonlarında olduğu kimi, Qaradağ rayonunda da həyata keçirdiyi işlərdən, şəhid ailələrinə, erməni işğalına məruz qalmış, dədə-baba yurdlarından didərgin düşmüş soydaşlarımıza göstərdiyi diqqət və qayğıdan ətraflı bəhs edərək sözünün sonunda bir daha doğma Azərbaycanın gələcəyi naminə, müstəqil dövlətçilik ənənələrinin qorunması naminə, insanların sülh və əmin-amanlıq şəraitində yaşaması naminə prezidentə uzun ömür, cansağlığı dilədi.

Sonra tədbirin hörmətli qonaqlarından biri –“Azərbaycan” jurnalının baş redaktor müavini, tənqidçi-ədəbiyyatşünas Vaqif Yusifli möhtəşəm bir çıxışla mərasim iştirakçılarını heyran etdi. Həqiqətən söz ərrafının natiqlik məharəti dinləyicilərinə xüsusi estetik zövq verməklə yanaşı, 80 illik ömrün zirvəsində dayanmış qüdrətli siyasi rəhbərin Azərbaycan xalqına etdiyi misilsiz xidmətləri təkzibedilməz faktlarla diqqətə çatdırdı. O, qeyd etdi ki, “XX əsri kosmos əsri, elm-texnika əsri, atom əsri adlandırmaq olar. Amma eyni zamanda, XX əsri Azərbaycan üçün Heydər Əliyev əsri də adlandırmaq olar. H.Əliyev bundan sonrakı əsrlər üçün də fenomenal işlərin təməlini, bünövrəsini qoymuşdur. Bunu unutmaq öz türklüyünü unutmaq deməkdir” – deyən tənqidçi sözünə davam etdi: - Mən yazıçıyam, prezidentin xidmətləri haqqında saatlarla, günlərlə danışa bilərəm, lakin vaxta qənaət xatirinə Heydər Əliyevin mənə daha çox doğma olan Azərbaycan mədəniyyətinə, incəsənətinə, ədəbiyyatına göstərdiyi qayğıdan, bu yönümdə yaratdığı yeniliklərdən danışmaq istəyirəm. Mən onun sənətkarlarla görüşündən sonsuz bir səmimiyyət görürəm və duyuram. Bu insanda böyük ədəbiyyatşünas ürəyi, memar ürəyi, bəstəkar ürəyi, şair ürəyi var. Bu bir həqiqətdir ki, Heydər Əliyevin gəlişindən sonra böyük yazıçıların əsl qiyməti verildi. Ən gözəl rəssamlar, teatr xadimləri, incəsənətin müxtəlif sahələrində əmək sərf etmiş qocaman sənətkarlar fəxri adlarla təltif olundular, fəxri

təqaüdlərə layiq görülülər. Bu qayğıları görməyən gözlər kordur deyən natiq türk dünyasının tanınmış ədibi və ictimai-siyasi xadimi Oljas Süleymenovun Heydər Əliyev şəxsiyyətinə münasibəti barədə də söz açdı. Bu gün Azərbaycanda, eləcə də dünyanın əksər ölkələrində Heydər Əliyev siyasi elminin gücünü tərənnün edən bədii, sənədli əsərlərin yaranmaqda olduğunu qeyd etdi. Şübhəsiz ki, bu əsərlərin hamısı ədəbi baxımdan uğurlu hesab edilə bilməz. Lakin bu əsərlərdən yaşayanları da çox olacaqdır.Belə ədəbiyaşarlıq hüququ qazanmış kitablardan biri də müasir ədəbiyyatımızda öz orijinal üslubu ilə tanınan yazıçı Hüseynbala Mirələmovun "Həqiqət" və "Zəfər yolu" kitablarıdır. Mən hələ H.Mirələmovun ilk mətbu hekayələri, yaradıcılıq nümunələri ilə tanış olanda bu qənaətə gəlmişəm ki, H. Mirələmov yazıçıdır. Onun qələmindən çıxan hər bir əsər Azərbaycan ədəbiyyatına nadir töhfədir.

Yazıçının prezidentin keçdiyi şərəfli yola həsr etdiyi "Zəfər yolu" kitabında Böyük İnsan obrazından söhbət gedir. Əsər boyu prezidentin adını çəkməkdən ümumi obraz yaratmaq müəllifin bədii uğurudur. Mən dəfələrlə demişəm, yenə də deyirəm: H. Mirələmovun "Xəcalət", "Vicdanın hökmü", "Güllələnmiş heykəllərin fəryadı" və başqa əsərləri də diqqətəlayiqdir. Həmçinin yazıçının Azərbaycan ədəbi mühitində özünütəsdiqinə rəy verən kitablardır.

Çıxışına yekun vurarkən Vaqif Yusifli özünün Azərbaycan adlı şah əsərini yaratmış müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyevin 80 illik yubileyinə təqdim etdiyi gərgin əməyinin bəhrəsi olan "Həqiqət" və "Zəfər yolu" kitablarına görə müəllifə dərin hörmət və ehtiramını bildirərək ona yeni ədəbi yaradıcılıq uğurları arzuladı, eyni zamanda, prezident Heydər Əliyev nə qədər çox yaşayarsa, Azərbaycan xalqı da o qədər firavan yaşayar- deyərək sözünü tamamladı.

Növbəti çıxış üçün söz verilən millət vəkili Eldar İbrahimov mərasimdə həm də Heydər Əliyevin keçdiyi yola həsr edilmiş, təqdimatı keçirilən "Həqiqət" və "Zəfər yolu" kitablarına münasibətini, bu əsərlər haqqında fərdi rəyini bəyan etməyə üstünlük verdi:

-Əvvəla, onu deyim ki, hər iki kitabın adı məzmuna görə çox dəqiq seçilib. Əsasən "Həqiqət" kitabındakı xüsusi başlıqlarla getmiş məqalələri oxumazdan əvvəl seçilmiş sərlövhələrdən artıq məlum almaq mümkünür. Hətta mən deyərdim ki, kitabdakı "Liderin güc mənbəyi", "Zaman bizdən keçir", "Bayraq qürur simvoludur", "Ümid qəlbin işığıdır", "Siyasi olimpin

zirvəsində" və başqa məqalələr hər biri ayrılıqda Heydər Əliyev Haqqında bir həqiqət əsəridir. Müəllif "Siyasi olimpin zirvəsində" məqaləsində yazır: "Əlbəttə, sərlövhə məcazi məna daşıyır. Bir var olimpin zirvəsində dayanıb Allahlıq edəsən, bir də var siyasət zirvəsinə öz ağlın, dərrakən, gücün, qüdrətin və zəhmətinlə qalxıb oradan bu zirvəyə qalxmaq üçün sənə dayaq duran xalqın taleyi uğrunda vuruşan. Bütün əzmin, gücün və iradənlə mübarizə aparasan. Əlbəttə, bunların fərqi var". Bu, həqiqətən də belədir. Yazıçı Heydər Əliyev həqiqətlərinə bədii-publisistik bir dillə sanki güzgü tutur. Böyük siyasi liderin dünya siyasət meydanında qazandığı uğurları təfərrüatı ilə qələmə alıb.

Millət vəkili daha sonra "Zəfər yolu"ndan – Böyük İnsanın tərənnümündən bəhsetdi. Hər iki kitabı şərəfli ömür yaşayanlar üçün ensiklopediya kimi dəyərləndirdi və son olaraq Heydər Əliyev ideyalarının Azərbaycan dövlətçiliyinin , demokratiya və humanizm prinsiplərinin sədaqətli tərənnümçüsü Hüseynbala Mirələmovu yeni nəşr olunmuş əsərlərinə görə təbrik etdi, həm də dahi təhbərə 80 illik yubleyində uzun ömür və cansağlığı arzuladı. Elə bu arzuyla da tribunada çıxışına başlayan millət vəkili Asya xanım manafova uzun illər ərzində prezidentlə çiyin-çiyinə çalışdığı illəri xatırlayaraq onun necə qayğıkeş, insanlara qarşı atalıq məhəbbəti göstərməsindən ürəkdolusu söhbət açdı. – Dahilərin dağlara bənzəri var. Onlar nə qədər əlçatmaz zirvə olsalar da belə, o qədər də sadə və səmimidirlər – deyən Asya xanım prezidentə Ulu Tanrıdan şəfa dilədi. Digər məruzəçilər kimi, o, da Hüseynbala Mirələmov şəxsiyyətinə, onun sənət dünyasına, yazıçı qələminə, uğurlu yaradıcılığına və xalqına, doğma Azərbaycanına ürəkdən bağlı olduğuna öz münasibətini bildirdi. Tədbirin maraqla dinlənilən məruzəçilərindən biri də Qaradağ rayon fəallarından yazıçı-publisist, polis əməkdaşı Ramin Məmmədovun çıxışı oldu. R.Məmmədov Heydər Əliyevin uzaqgörən və cəsarətli siyasiti, müdrik və səriştəli rəhbərliyi dövrlərinin ayrı-ayrı tarixi məqamlarına nəzər saldı. O, prezidentin hələ 1969-82 – ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə əldə olunan ən mühüm tarixi nailiyyətləri sadalayaraq qeyd etdi ki, məhz həmin illərdə ölkədə güclü kadr potensialı, nadir ixtisaslar üzrə mütəxəssislər ordusu yaradılmışdır. Hər il xüsusi ixtisaslara yiyələnmək üçün Azərbaycandan Rusiyanın mərkəzi şəhərlərinə yüzlərlə tələbə yola salınırdı. Azərbaycanın müstəqillik dövründə olduqca gərəkli olan ali hərbi təhsilin inkişafına o illərdə yüksək səviyyədə diqqət yetirilirdi. Heydər

Əliyevin rəhbərlik etdiyi dövrlərdə Azərbaycanın gələcək inkişafına ünvanlanmış strateji əhəmiyyətli quruculuq işlərindən söhbət açan polis əməkdaşı, həm də böyük yaradıcı insan Hüseynbala Mirələmovla ilk tanışlığını xatırladı. Bildirdi ki, "bəzən oxucu mütaliə etdiyi əsərlərin müəllifini yaxından görmək qərarına gəlir. Elə bu da hardasa, yaradıcı adamın böyüklüyü deməkdir. Bu gün müəllifin təqdimatında iştirak etdiyim kitabları da prezidentin 80 illik yubileyinə böyük töhfədir".

Onu da deyim ki, tədbir iştirakçılarının hörmətlə qarşıladığı qonaqlardan biri də gürcü şairi, Azərbaycan dilini ana dili qədər sevən tərcüməçi Giya Paçxataşvili (Givi)oldu. Givi Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlərini yükək qiymətləndirdiyi üçün Azərbaycan ədəbiyyatını da dərindən bilir və gürcü ədəbiyyatı qədər sevir. Azərbaycan xalqına, Azərbaycan ədəbiyyatına olan sevgisi Givinin mərasimindəki çıxışından da aydın oldu. Şair xalqımıza olan məhəbbətini Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin şəxsində bildirdi. O, prezidentin qonşu Gürcüstanla dostluq münasibətindən , iki dövlət arasında qurduğu ictimai- mədəni əlaqələrdən və Gürcüstan Respublikasının prezidenti E.Şevardnadze ilə səmimi görüşlərindən danışmağa üstünlük verdi. Givi eyni zamanda, yazıçı- dramaturq H.Mirələmovun gürcü dilinə tərcümə olunmuş əsərlərinin Gürcüstanda da maraqla qarşılandığını mərasim iştirakçılarına çatdırdı. "Borçalı" qəzetinin baş redaktoru Azadə xanım sözünü birbaşa dedi: "Mən ümumiyyətlə, cənab Heydər Əliyevin nəfəs aldığı mühitdə yaşadığım üçün özümü xoşbəxt hesab edirəm. Və bu gün belə bir insanın 80 illik yubileyinin qeyd olunduğu təntənəli mərasimdə iştirak etdiyimə görə mənəvi qürur hissi keçirirəm, "Borçalı" qəzetinin daim Heydər Əliyev siyasi xəttini, onun müstəqil dövlətçiliyimizin keşiyində dayanan ardıcıl mübarizə kursunu dəstəklədiyini diqqətə çatdırdı. Onu da dedi ki, yubiley ərəfəsində prezidentin tarixi sınaqlardan çıxmış şərəfli ömür yoluna həsr etdiyi kitablara görə H.Mirələmova minnətdardır. Elə bu yönümdə çıxışına bir qədər yumor əlavə edən "Qarabağ" qəzetinin baş redaktoru Çingiz Tofiq oğlu yazıçı H.Mirələmovun Qarabağ faciəsini əks tdirən "Xəcalət " povestinin ədəbi qəhrəmanlarını, bu əsərin aşıladığı duyğuları yada saldı. Böyük İnsan Uca Tanrının qanadı altındadır. Tanrı Heydər Əliyevi bu xalqa çox görməsin Ç.Tofiq oğlu rəhbərin itirilmiş torpaqların, eləcə də Dağlıq Qarabağın geri qaytarılması uğrunda apardığı siyasi mübarizəsini ürəkdən bəyəndiyini vurğuladı. Qeyd etdi ki, Heydər Əliyev Qarabağı bizdən çox istəyir. Çünki

prezidentin o yerlərdə inşa etdirdiyi binaların, ictimai-iaşə obyektlərinin , məktəb və uşaq bağçalarının, mədəniyyət ocaqlarının sayı – hesabı yox idi. Bunlar hamısı H.Əliyevin gərgin siyasi əməyinin bəhrəsi kimi qiymətləndirilməlidir.

Çingiz müəllim respublikanın rəhbəri Heydər Əliyevə uzun ömür dilədi və xalqın belə bir tarixi şəxsiyyətə hələ ehtiyacı çox olacaqdır, - dedi. YAP Qaradağ rayon təşkilatının sədri Aydın Hüseynov isə H.Əliyevin demokratik, hüquqi və dünyəvi dövlət quruculuğundan, Milli Məclisin deputatı kimi İlham Əliyevin ölkədə geniş və çoxsahəli fəaliyyətindən danışdı. Göstərdi ki, İlham Əliyev daim xalqın içərisindədir, ona həyan olur, əhalinin problemlərini öyrənir, eləcə də xalqın sosial müdafiəyə ehtiyacı olan təbəqələrinə həmişə qayğı göstərir.

İ.Əliyevin Qaradağ rayonunda apardığı olduqca dəyərli iş prinsipləri rayon əhalisinə göstərilən böyük qayğının əməli göstəriciləridir. H.Əliyev Azərbaycana dövlət və dövlətçilik bəxş edib. Müasir dünyada artıq yetkin bir siyasətçi kimi tanınan ilham Əliyev kimi diplomat bəxş edib. Aydın Hüseynov öz məruzəsi zamanı müxalifətin qərəzli mövqeyini pislədi və Qaradağ rayon YAP üzvləri hər an İlham Əliyevlə birgədir deyərək sözünə belə yekun vurdu: “Vaxtilə dövlətlər özünü yadelli işğalçılardan qorumaq üçün müxtəlif variantlar arayıb. Bu məqsədlə sərhədlər boyu böyük müdafiə istehkamları yaradıblar.

Çin dövləti Çin səddi yaradıb. Bizə isə o səddi çəkmək lazım deyil. H.Əliyevin getdiyi yolla getmək özü ən böyük müdafiə istehkamıdır. Sözün həqiqi mənasında Çin səddidir. Xatırladım ki, yubiley iştirakçılarından “mən 70-ci ildən Heydər Əliyevçiyəm” deyən Oruc müəllimin çıxışı salonda gurultulu alqışlara səbəb oldu. O, H.Əliyevlə bağlı xatirələrini özünəməxsus yumor hissi ilə dinləyicilərə çatdırdı və H.Əliyevə həsr etdiyi mahnıalr toplusunu kitab halında rayon rəhbərliyinə təqdim etdi.

Daha sonra “Gənclik” Dövlət nəşriyyatının direktoru Əlican Əliyev tribunaya qalxdı. O, öz növbəsində H.Əliyev amalının işığından, onun dünyada anoloqu olmayan liderlik məharətindən və bənzərsiz natiqlik sənətindən danışdı. Yazıçı-dramaturq Hüseynbala Mirələmova Heydər Əliyev ideyalarına sədaqətli olduğuna görə minnətdarlıq ifadə etdi. Və yazıçının yenicə nəşr olunmuş dahi rəhbərə həsr etdiyi Həqiqət“ və “Zəfər yolu ” kitablarını prezidentin 80 yaşının tamam olduğu gündə geniş oxucu

kütləsinin ixtiyarına verilməsini müəllif tərəfindən böyük nailiyyətlər kimi qiymətləndirdi.

Türkiyəli qonaq Sait Akat, professor Nizaməddin Şəmsizadə, millət vəkili Hadı Rəcəbli və mühəndis Aqşin Paşayev müstəqil dövlətçilik təfəkkürünün formalaşmasında H.Əliyevin rolundan və siyasi liderin fədakarlıqla apardığı mübarizələrin H.Mirələmovun əsərlərində dolğunluqla əks etdirilməsindən bəhs etdilər.

Sonda söz müəllifin özünə - yazıçı Hüseynbala Mirələmova verildi. Böyük İnsanların heç vaxt dəyişilməyən təbiətləri olur. Onlar həmişə təvazökardırlar, sadə və mehribandırlar. Bu dəfə də Hüseynbala müəllim böyük təvəzökarlıq etdi. Yazıçının Heydər Əliyev mövzusunda "Amalın işığında", "Həqiqət" və "Zəfər yolu" kimi maraqlı, sanballı əsərləri olsa da belə, Azərbaycan xalqının tale-yükünü çiyinlərində daşıyan Heydər Əliyev əməyinin müqabilində bunu çox az hesab etdiyini etiraf etdi. Xalqın gələcək taleyini Heydər Əliyev yolunda görən yazıçı bu yolun son ucunda qələbə müjdəsinin varlığını da təsdiq etdi. Çünki Heydər Əliyev heç vaxt məğlubiyyət haqqında düşünməyib. "O, həmişə qələbəyə doğru gedir", - deyən yazıçı tədbir iştirakçılarına, gələn qonaqlara və məruzə edənlərə dərin təşəkkürünü bildirdi. Elə bu sonuncu çıxışla da tədbir sona çatdı.

Azərbaycanın böyük siyasi fenomeni Heydər Əliyevin 80 illik tarixi fəaliyyətinə işıq salan şanlı səhifələrdən biri də belə yazıldı. Mərasimə toplaşanlar 2003-cü ildə də ənənəvi olaraq prezident seçkiləri zamanı Heydər Əliyevə səs verdiklərini bildirdilər. Lap sonda Qaradağ rayon icra hakimiyyətinin başçısı Yaqub Əliyev rayon ziyalıları adından möhtərəm prezidentə 80 yaşının tamam olması münasibətilə təbrik məktubu göndəriləcəyini bildirdi.

## BİR QOVLUĞUN İZİ İLƏ...

Heç kim bədii yaradıcılığa birdən – birə başlamamışdır. İstər onun yazdığı kiçik həcimli əsər olsun, istərsə də böyük həcmli əsər, fərqi yoxdur. Ancaq həqiqət budur ki, yazılan hər bir əsər mütləq yazanın təfəkküründən süzülüb gəlir. O artıq başqa məsələdir ki, təfəkkür necə və hansı mühitdə formalaşır. Nə qədər yazıçı adı çəkmək olar ki, onlar həyatı öyrənərək ancaq təbii istedadlarının gücünə yazırlar. Eləcə də çoxlu sayda məşhur yazıçılar var ki, yaradıcılığa mətbuat aləmindən qədəm qoyurlar. H.Mirələmov birincilərdəndir. Belə demək

yerinə düşər ki, o yazıçılığa həyatın özündən gəlmişdir. Yalnız Allah –taalanın ona bəxş elədiyi qabiliyyət və ilhamın gücünə yazıb –yaratmışdır. Əgər belə olmasaydı, onun 14 yaşında qələmə aldığı “Bir tikə çörək” hekayəsinin adını bu gün çəkə bilməzdik. Ancaq eyni zamanda demək olar ki, H.Mirələmovun bədii təfəkkürünün formalaşmasında başqa amilin də ciddi rolu var. Və biz elə bu barədə danışacağıq.

H.Mirələmov Azərbaycan ədəbi aləmində yaxşı tanınır. Onun 1986-cı ildə işıq üzü görən “Tənha durna uçuşu ” hekayələr kitabı oxucular tərəfindən rəğbətlə qarşılanıb. “Qayada çiçək” hekayələr kitabı, “Xəcalət” və s. kitabları, həmçinin kinossenariləri onu Azərbaycan ictimaiyyətinə sevindirib. Bunlarla yanaşı, o, həm də neftçi – mühəndisdir. Uzun müddət qaz sənayesində müxtəlif vəzifələr tutub. Hazırda böyük bir müəssisəyə rəhbərlik edir. Təqribən 20 illik zamandan sonra necə oldu ki, o ədəbiyyata qayıtdı? Bu sual bir çoxları kimi məni də düşündürüb; onun ədəbiyyata olan sevgisinin kökünü axtarmağa çalışmışam və axırda bu nəticəyə gəlmişəm ki, H.Mirələmov heç vəchlə bədii ədəbiyyatdan kənarda qala bilməz. Çünki o, ədəbiyyatı həyatının ritmi hesab edir, onun ürəyi sözlə döyünür. Başqa sözlə desək, ədəbiyyat H.Mirələmovun taleyidir.

Bu günlərdə ağsaqqal jurnalist Hafiz Hüseynxanlı mənə dedi ki, H.Mirələmov gənclik illərində “Azərbaycan pioneri” qəzetində mənimlə işləyib. Düzü, mən bunu bilmirdim və aldığım xəbər məni çaşdırdı. Axı bu necə ola bilərdi? Hafiz müəllim söz verdi ki, H.Mirələmovun o illərdə çap olunmuş yazılarını tapıb mənə verəcək. O, tezliklə vədinə əməl etdi. Sən demə, H.Mirələmov tələbəlik illərində jurnalistik fəaliyyəti ilə məşğul olubmuş. Onun ədəbiyyata, jurnalistikaya vurğunluğu mənə aydın oldu. Həm də bu qənaətə gldim ki, onun bədii təfəkkürünün yetişməsində, ədəbiyyata gəlməsində “Azərbaycan pioneri” qəzetinin də müstəsna rolu olub. Demək olmaz ki, o qəzetçilikdən böyük ədəbiyyata gəlib. Ancaq qəzetin yazıçının ədəbi taleyində buraxdığı izi danmaq mümkün deyildir.

H. Hüseynxanlının təqdim etdiyi qovluqda H. Mirələmovun “İstəmirəm” adlı bir hekayəsi var. Yerdə qalan yazılar publisist yazılardır (bir də, yəqin ki, tələbəlik şəkli). Bu, onun jurnalist qələmini göstərir. Bir çox yazıları isə qəzete Lənkərandan göndərib. Yəni orta məktəbdə oxuyan vaxtı. Qovluqda “Qartallar uçan yerdə” məqaləsi diqqəti cəlb edir. Bu yazı Ə.Mustafayevlə birgə qələmə alınıb. (Onu da deyək ki, o illərdə yazıçı “Hüseynbala Faziloğlu” imzası ilə məqalələr yazıb). Mən bu oçerki oxuyandan sonra özümü qartallar uçan yerdə - Talış dağlarının uca zirvəsində hiss etdim. Mənə elə gəldi ki, “Talış dağlarının üstü ilə gələn lay buludlar birdən –birə sıxlaşdı... Tatyançay vadisinin əbədi sakinləri - əlacəhrələr, qaratoyuqlar, zığzığ quşları, kol sərçələrin hərəsi bir tərəfə qanadlandı. Bircə muradquşları zəmi boyu basdırılmış elektrik dirəklərinin

məftillərinə qonub yağışa məhəl qoymurdular...” Bunlar çox gözəl təbiət təsvirləridir və sətirləri oxuduqca dərk etdim ki, yazıçının ədəbiyyata məştunluğunun bir kökü də elə doğulduğu yerin-yurdun təbiəti, saf havası ilə bağlıdır. Qəzetdə işləməsi onun taleyində rol oynadığı kimi, Lerikin dağları Lənkəranın, Astaranın əsrarəngiz təbiəti onun ədəbi taleyində ciddi rol oynayıb. Bəlkə də elə buna görədir ki, H.Mirələmovun əsərləri doğulduğu, biya-boşa çatdığı təbiəti xatırladır.

“Qatarlar uçan yerdə” oçerk janrında yazılmışdır. Məlum olduğu kimi, bu janr son illər yaranmış və sovet dövründə daha da inkişaf etmişdir. Qeyd etmək yerinə düşər ki, oçerk epik janr olmaqla yanaşı, həm də bədii publisistikaya yaxındır. Gigər epik əsərlər kimi, oçerkdə də təsvir və təhkiyə əsas götürülür, ümumiləşdirmə və tipikləşdirmə vacib sayılır və s. Fərq burasındadır ki, oçerk yalnız həyati faktlara söykənir. Bu isə çox cüzi olduğundan çox zaman hekayə ilə qarışdırılır. Bu mənda “Qartallar uçan yerdə” ilk oxunuşda hekayə təsiri buraxır. Bəlkə də, bu oçerk H.Mirələmovun sonralar yazdığı “Qartal”hekayəsi və “Həyat eşqi” povesti üçün hazırlıq imiş. Çünkü yuxarıda qeyd eləmişdik ki, heç kəs yaradıcılıqla birdən məşğul olmur. Müəyyən hazırlıq keçdikdən sonra bu iş başlayır. Təkcə onu demək kifayətdir ki, Ü.Hacıbəyov yaradıcılığa publisistika ilə başlamışdır. Onun “Həyat”, “İqbal”, “İrşad”, “Tərəqqi”, “Yeni iqbal” qəzetlərindən işlədiyini bildirmək kifayətdir. Azərbaycanın ədəbiyyat və musiqi tarixində dəyərli əsərlər yardan dahi sənətkarımız hələ xeyli qabaq bu qəzetlərdə musiqiyə aid məqalələr, felyetonlar yazmaqla gələcək əsərləri üçün hazırlıq görürdü. Mənə elə gəlir ki, bu oçerk yazıçının “Həyat eşqi” üçün bədii zəmindir. Qartallar uçan yeri görmək, insanı Qartala oxşatmaq və nəhayət insanı Qartala çevirmək istəyi məhz bir ürəkdən baş qaldırır.

Oçerkin dili şirin, təsvirləri canlıdır. Məncə, müəllifin təbiəti qorumaq istəyi bu yazının əsas qayəsini təşkil edir. Elə buna görə də təbiət təsvirləri ilə başlanan oçerkdə biz meşəbəyi ilə görüşürük. O, uşaqlarla görüşə tələsir və çox keçmir ki, uşaqlara təbiət haqqında danışır. Meşələrin xəz dərili heyvanlarını – samuru, dağ keçisini, cüyürü, dələni qorumağın vacibliyindən söhbət açır. Dəmirağacının budaqlarını həmişə azat, vələs, palıd ağaclarının budaqlarına dolamaq xasiyyətindən danışır. Bir sözlə, elə bil təbiətşünaslıq dərsində müəllimi dinləyirsən. Meşəbəyi Rüstəm kişi hər ağac, hər heyvan haqqında danışdıqca məlumat toplayırsan. Xüsusilə onun dəmirağacı haqqında danışdığı əfsanə çox maraqlıdır: “...Lənkəran torpağında bir xan yaşarmış. O, quş ovlamağı çox sevərmiş. Bir dəfə xan palıd ağacının budaqlarında yuva qurmuş iri leyləyi tutmaq istəyəndə ağacdan yıxılıbmış. Buna görə əmr edibmiş ki, taladakı bütün ağacları kökündən çıxarıb atsınlar. Xanın nökərləri iti baltalar götürüb, meşəni qırmağa başlayıblarmış. Ağaclar da bir yerə toplaşıb məsləhətləşiblər ki, necə

etsinlər ki, nökərlərin baltaları küt olsun. Gövdəsi yoğun olmayan ağaclar döşlərini qabağa verib dayanıblarmış. Nökərlər nə qədər baltalamışlarsa da, onları qıra bilməyiblərmiş. Bax, elə buna görə də, onlara dəmir ağacı adı veriblərmiş".

"Yoldan qatar keçir" məqaləsi də çox maraqlıdır. Lənkərandakı 2 nömrəli məktəbin şagirdi Hüseyn Faziloğlunun imzası ilə ışıq üzü görən bu yazı məktəbdə qazanılmış bilikləri möhkəmləndirmək baxımından diqqəti çəkir. Eləcə də Hüseyn Faziloğlunun "Yorulmayasınız, uşaqlar!", "Qum ustaları", "Düşərgəyə axşam düşür", "Orand dağlarında", "Məktəbli bazarlarında", "Təzə qonaq", "Düşərgədə nələr gördük", "Alqış sənə, qardaşım!", "Sevinc aləmində", "Musiqi diyarında" kimi məqalələri onun jurnalıstlik fəaliyyəti üçün bəs edir. Ancaq mənim üçün maraqlı burasıdır ki, H.Mirələmovun bu məqalələri quru, sxolastik, ştamp üsulla yazılmamışdır. Bu məqalələrin hər birində bədiilik nəzərə çarpır, obrazlılıq görünür. Sanki hər bir məqalə böyüyüb hekayə, povest olacağını indidən vəd edir. Bu mənada deməliyəm ki, H.Mirələmovun böyük əsərlərinin mayası elə bu məqalələrdən tutulub.

Təsadüfi deyil ki, onun "Azərbaycan pioneri"ndə məqalələri ilə yanaşı, "İstəmirəm " adlı bir hekayəsi də çap olunub. Lirik bir hekayədir. İnsanda həzim və kövrək duyğular yaradır. Mənə elə gəlir ki, "Bir tikə çörək" onun ədəbiyyata gəlişində hansı rolu oynayıbsa, "İstəmirəm"də bir o qədər rol oynayıb. Qüssəli və kədərli səhnələrlə dolu olan bu hekayədə müəllif müharibəyə nifrət bəsləyir. O,istəmir ki, müharibə olsun. İstəmir ki, göz yaşları ilə kimsə isti yuvasından ayrılsın, doğma dənizdən, doğma anasından ayrılsın.

H.Mirələmov birinci növbədə yazıçıdır. Onun bir çox əsərləri aktuallığına görə ekranlaşdırılıb . "Gəlinlik paltarı" povesti və digər əsərləri sevilə-sevilə oxunur. Ancaq eyni zamanda o, publisist kimi də tanınır. Onun publisistikası da, bədii əsərləri kimi maraqlı və oxunaqlıdır. H.Mirələmovun "Amalın işığında " və "Həqiqət" kitablarında toplanmış məqalələri, esseləri siyasi publisistikanın gözəl nümunələri sayıla bilər. Eləcə də, onun Rəsul Rza yaradıcılığından bəhs edən ədəbi-publisistik düşüncələri nə qədər qiymətlidir. Bu məqalələri onun publisistik yaradıcılığının zirvəsi hesab etmək olar. H.Mirələmov "Həqiqət" (publisistik düşüncələr) kitabının redaktoru Əli Rza Xələfli yazır: "Vaxtilə xalq yazıçısı Elçin Hüseynbala Mirələmovun hekayələrindən söhbət açarkən onun səmimiyyətini xüsusi qeyd etmişdir. Biz onun səmimimiyyətini onun publisistikasında da görürük.

Oxucu əsər boyu dərin fəlsəfi mühakimələrlə qarşılaşır. Sərrast və çox vaxt aforizm səviyyəsində olan deyimlər yaddaşa hopur. Dərin siqləti və məna tutumu ilə hər kəsi düşünməyə, ibrətli nəticə çıxartmağa məcbur edir.

Mən "Həqiqət" əsərini təkcə ilhamla yazılmış publisistik əsər yox, həm də obyektiv yazılmış müasir tarix kitabı hesab edirəm. Bu kitabda üç il ərzində

xalqımızın həyatında baş vermiş ən vacib hadisələrin şərhinə, bu hadisələri xarakrerizə edən sonsuz faktlarla, dəlillərə, mətbuat qeydlərinə rast gəkmək olar. Bu da əsərin mötəbərliyini təsdiq edir. Müəllif yeri gəldikcə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin fikirlərinə istinad edir, çıxışlarından gətirdiyi sitatlara söykənir, eyni zamanda mənbənin yerini və tarixini göstərməyi yaddan çıxarmır.

Əsərin dili şirin və oxunaqlıdır. Xalq deyimlərindən, atalar sözü və məsələlərdən yeri gəldikcə istifadə etməklə daha çox məhdud ixtisas sahələrini əhatə edən, siyasi dairələrə məxsus terminlərindən qaçmaqla fikirlərini sadə, kütləvi oxucunun su kimi içəcəyi bir dillə şərh etməyə çalışır və buna nail olur. Bir sözlə, H.Mirələmov oxucunun başa düşəcəyi dildə danışır. Bir vaxt "Amalın işığı" kitabı haqqında yazmışdım: "H.Mirələmov istər obrazın daxili aləmini təsvir edəndə, istərsə də öz mövqeyini bildirəndə quru, süxolastik təqdimat yolu seçmir. Faktları mənalandırır, bədii müqayisələr aparır, öz fikrinin bədii təsdiqini tapır. Bu zaman oxucunu yaddan çıxarmır. Oxucunun əks arqumentlərinə də cavab verməyə çalışır. Demək olar ki, ziddiyyətli, qaranlıq yer qalmır. Oxucu sözün səmimiyyətini qəbul edir. Ürəkdən gəldiyini duyur. Bu səmimiyyət bir də müəllifin dili ilə bağlıdır. Şirin, cəlbedici, sevgili dil oxucunu yormur. Oxucuya kömək edir, dəyişən səhnələrdə onun əlindən tutur, yarı yolda qalmasına imkan vermir".

H.Mirələmov bu gün də publisistika ilə məşğuldur. "Kredo", "İki sahil", "Respublika" və digər mətbu orqanlarda ara-sıra onun publisistik yazılarına rast gəlmək mümkündür. H.Mirələmovun publisist və bədii əsərləri bir- birinə çox bağlıdır. Onun publisist əsərlərində bədiilik, bədii əsərlərində publisistik meyillər özünü büruzə verir.

Qeyd etməliyik ki, publisistika da bədii ədəbiyyatının janrı hesab olunur. Yəni publisistika bədii ədəbiyyatdan kənarda deyil.Ancaq publisistika zamana daha yaxındır. Hadisələrə münasibət bildirmək baxımında, eləcə də cəmiyyətdə yaranmış suallara isti-isti cavab vermək baxımından bədii ədəbiyyatın digər janrlarını üstələyir. Əbəs yerə deməyiblər ki, publisistika zamanın xronimetridir. Belə bir gözəl fikir var ki, əgər bədii ədəbiyyatı saat mexanizminə bənzətmək mümkün olsaydı, onda bədii ədəbiyyatın poema və pyes kimi böyük janrlarını saatı göstərən əqrəbə, hekayə, şer kimi kiçik janrlarını dəqiqəni göstərən əqrəbə oxşatmaq olardı. Qaldı ki, publisistikaya, bədii ədəbiyyatın bu janrı saniyəölçən əqrəbdir. Demək, publisistikanın zamanı zamandan birbaşa asılıdır. Cəmiyyətdə gedən təbəddülatlar, çaxnaşma, inqilab və müharibələr publisistikaya geniş meydan açır. Çünki belə dövrlərdə oxucu suallara, yaranmış problemlərə cavab gözləyir. Oturub hekayə, yaxud povest oxumağa hövsələsi çatmır. Publisistika o

zaman arxa plana keçir ki, cəmiyyətdə ictimai-siyasi sabitlik yaransın. Bu zaman bədii ədəbiyyatın hekayə, povest və s. janrları publisistikanı üstələyir.

H.Mirələmov nə zaman publisistikaya üz tutar? O zaman ki, zamanın doğurduğu suallar cavab istəyir. Fikir vermişəm, onun publisistik əsərlərinin yazılma tarixi ən çox 1990-1993- cü illərə, o cümlədən 1994-1995 –ci illərə təsadüf edir.

H.Mirələmovun publisistik əsərləri də özünəməxsusluğu ilə seçilir. O, hekayələrində olduğu kimi, publisistik əsərlərində də səmimidir. O, heç nəyi uydurmur, demək istədiyi fikirləri faktlarla mənalandıraraq oxucunu inandırır. Onun publisistikası qərəzdən, kiminsə bostanına nahaqdan daş atmaqdan uzaqdır. Ən başlıcası, H.Mirələmovun publisistikasında qiymətləndirdiyim cəhət budur ki, o, ideyasız, mətləbsiz əlinə qələm götürmür. Vaxtilə Ü.Hacıbəyov yazırdı ki, yazan adam kağıza "ideya büküb" oxucuya verməlidir. Məncə, bu kefiyyət H. Mirələmov publisistikasının ən səciyyəvi xüsusiyyətidir.

## MƏNƏVİ – ƏXLAQİ DƏYƏRLƏRİN TƏBLİĞİ

Bu günlərdə "Kredo" qəzetinin 2002-ci saylarını vərəqləyirdim. Orda çağdaş ədəbiyyatımızın tanınmış nümayəndəsi H.Mirələmovun müxtəlif illərdə qələmə aldığı hekayələri diqqətimi cəlb etdi: "Yeni həyat", "Çimərlikdə", "Qarınqulu". Düzü ki, bu hekayələri əvvəllər oxumuşdum. Lakin yenidən qəzet səhifələrində qarşıma çıxanda bu əsərlərin məndə oyatdığı duyğuları oxucularla da bölüşmək qərarına gəldim. Və təbii ki, hər üç hekayəni yenidən oxudum. Bu hekayələrin bədii məziyyətləri, yüksək sənətkarlıqla qələmə alınması bir yana, məni daha çox yazıçının həyatı son dərəcə dəqiq, həssas bir gözlə incəliklərinə qədər müşahidə etməsi faktı heyran etdi. İstər-istəməz ədəbi tənqidin cəfakeş nümayəndəsi Vaqif Yusiflinin yazıçının bu həssaslığını qiymətləndirən fikirləri yadıma düşdü: "Hüseynbala Mirələmov hər hansı bir hekayəsində, onun gördüyü, müşahisə etdiyi, duyduğu və ən başlıcası, yaşadığı anlar, məqamlar əks olunur. Bədii səviyyəsindən asılı olmayaraq bu hekayələrin hər birində canlı həyatın nəfəsini hiss edirsən. H.Mirələmov belə demək mümkünsə, ədəbiyyatdan- oxuduğu kitablardan yox, canlı həyatdan ədəbiyyata gəlmişdir. Ola bilsin, onun hekayələrinin hər hansı birində nəsə çatışmasın, obrazlar dolğun rəsm olunmasının, bəzən solğun çıxsın, süjet xəttində səliqəsizlik gözə dəysin, amma ən mühüm məziyyət orasındadır ki, bu hekayələrdə həyata, gerçəkliyə süni müdaxilə yoxdur, böhtan atılmır."

Məhz bu əlamətlərinə görə, yuxarıda adlarını çəkdiyim hekayələr müxtəlif illərdə yazılsa da, öz mövzusuna görə bu gün də aktual səslənir. "Çimərlikdə" hekayəsini yazıçı 1980-ci ildə qələmə alıb. 23 il bundan əvvəl. Heç də qısa vaxt deyil. Bir igidin ömrüdür. Amma bu qədər zaman fasiləsinə baxmayaraq,

hekayədə təsvir olunan, müəllifi narahat edən, ictimai həyatın bu və ya digər ziddiyətləri bu gün də var və bəlkə də daha çox. Hekayədə gəncliyin formalaşmasında əvəzsiz rolu olan mənəvi mühitin eybəcərlikləri diqqətə çatdırılır. Onu da deyim ki, hekayə çox sadə bir süjetə malikdir. Əsərin qəhrəmanı Elçin Ayçiçək adlı bir gözəli sevsə də, vüsalına qovuşa bilmir. Səbəb isə Ayçiçəyin əhatə olunduğu ictimai mühitdə müqəddəs sevgi anlayışını qiymətləndirməyi bacaran adamların barmaqla sayılmalıdır. Elçin isə ali təhsilli bir gəncdir. Moskva Kooperativ İnstitutunun Bakı filialını - əmtəəşünaslıq üzrə bitirdikdən sonra ticarət idarələrindən birində işə düzəlir. Elçinin atası da ali hüquq təhsili aldığına görə, bu ailədə nizam –intizam, təlim – tərbiyə yetərincədir. Fəqət, Elçinin ailədən kənarda əhatə olunduğu ictimai mühit və bu mühitin adamları saf deyil, mənəvi - əxlaqi dəyərlərdən uzaq düşmüş, sevgiyə- məhəbbətə də alverçi gözü ilə baxan insanlardır. Elçinin ən çox dostluq etdiyi Nahid də nəinki dostluqda sədaqətli deyil, hətta xəyanətkardır. Onun könül verdiyi, ürək qızdırdığı, sevib- seçdiyi Ayçiçək də həmin mühitin övladıdır. Və təsadüfi deyil ki, Ayçiçəyi son bir neçə gün ərzində görməyən Elçin onun yerini dəqiq bilmədiyi üçün ümidsiz bir axtarışla dəniz kənarına gəlib çatanda qəribə bir mənzərə ilə rastlaşır. Susuzluğunu söndürmək üçün bir stəkan su alıb içdiyi anda təsadüfən dostu Nahidi görür. Elə Bu təsadüf nəticəsində də dostunun və sevgilisinin xəyanəti üzə çıxır. Yaxşı olar ki, hekayədən həmin hissəni birlikdə oxuyaq: “Elçin bərk susuz idi. Ancaq stəkanı axıra qədər içə bilmədi. Sudan palçıq iyi gəlirdi. Seyrək, alçaq yolka ağaclarının kölgəsində qızlar, oğlanlar uzanmışdı. Aha, bu kimdir? Nahid?!

Başını kiminsə sinəsinə qoyub uzanmışdış Nahid dönüb baxmasaydı bəlkə də Elçin ötüb keçəcəkdi. Nahidin başını çevirməsi ilə başını sinəsinə qoyduğu qızın qışqırması bir oldu. Bu Ayçiçəyin səsi idi. “Fındıqburun” . Elçinin gözü qabağında bir anlıq babasının şəkli canlandı. Əli xəncərinin qəbzəsində olan şəkli. O, yalnız bir anlıq donub qaldı. Sonra necə oldusa birdən-birə gülməyə başladı. Nahid elə bil ikinci dəfə diksindi. Ayçiçək əlləri ilə üzünü örtdü. Nahid nə isə demək istədi. Ancaq Elçin elə qəh-qəh çəkir, yırğalanır, gülürdü ki... ötüb keçənlər təəccüblə ona baxırdılar. Ayçiçək birdən donunu qapıb ilan kimi çevrildi, Sıçrayıb adamların arasında gözdən itdi. Elçinə elə gəldi ki, ətrafda hər şey od tutub yanır, adamlar canlı məşəllər kimi o yana – bu yana qaçırdı”.

“Çimərlikdə” hekayəsinin əsasında duran Elçinlə Ayçiçəyin sevgi macərası beləcə uğursuzluqla nəticələnir. Və əslində əsərin qəhrəmanı şahidi olduğu hadisə zamanı daha çox emosional oxucunun gözlədiyi mövqeyi seçmir. Daha doğrusu, hekayənin müəllifi Ayçiçəyi və Nahidi əməllərinə görə cismani deyil, mənəvi olaraq cəzalandırmağı üstün tutur. Belə hadisələri görmək, eşitmək, şahidi olmaq hekayənin qələmə alındığı 1980-ci illər üçün bəlkə də qəribə səslənirdi. Amma bu gün həmin mühitin adi hal alması heç də qəribə deyil.

Demək, xalqa məxsus millimənəvi - əxlaqi dəyərlər 20 il bundan əvvəlki ilə müqayisədə daha çox ucuzlaşıb və öz dəyərini keçmişdə qoyub. Görünür, yazıçı məhz bu gedişi duyduğu üçün həyatın ümumi axarını yaratdığı obrazın fərdi taleyində canlandırır. Zənnimcə, müəllifin real həyati hadisəni bədii hadisəyə çevirib oxucuya çatdırmaqda məqsədi aydındır. Qənaət belədir ki, insanın sevgisi də, məhəbbəti də ailə qurmağa və şərəflə övlad böyüdüb ərsəyə gətirməyə xidmət etməlidir. Bu mətləbi dərk edən insan hər zaman heyvani hisslərini öldürməyi bacarmalıdır. Təbii ki, ailənin bünövrəsi də tərəflərin bir-birinə olan sarsılmaz sevgisi üzərində qurulanda möhkəm olur. Qeyd edim ki, həmin hekayədə məhz belə bir epizod var. Elçin Ayçiçəklə Nahidi bir yerdə gördükdən sonra ordan uzaqlaşır və gözləri yeni bir səhnəyə dikəlib qalır. Həmin səhnəni təsvir etməklə yazıçı dübarə öz oxucusunu təlqin etdiyi ideya ətrafında düşünməyə vadar edir: "Beşcə addım o tərəfə quma sancılmış çətirin kölgəsində gənc bir oğlan – elə Elçinlə həmyaşıd olardı – bir qızla yanaşı uzanmışdı. Güclə ayaqları yer tutan bir körpə də onların üstündə oynayırdı, addım layırdı. Uşağın ayağının biri anasının, o biri də atasının sinəsində hərəkət edirdi. Elçin düşündü ki, hər ailə bir saraydır. Bu sarayın bünövrəsi ata-ana məhəbbəti, sarayın göylərə ucalan qülləsi, sütunları övladdır. Elçin gənc ata-ananın yerində özü ilə Ayçiçəyi təsəvvür etmək istəsə də, düşüncələri bir yerdə qərar tuta bilmədi."

"Yeni həyat" hekayəsi ailə - məişət mövzusunda və yazıçı təxəyyülündən çox reallığa əsaslanaraq yazılmış bədii əsərdir. Burda da ədəbi qəhrəman ziyalıdır. Ailə daxilində, işlədiyi müəssisələrdə, ictimai həyatın ən müxtəlif sahələrində gördüyü,rastlaşdığı hadisələri analitik təfəkkür süzgəcindən keçirməyi sevən bir obrazdır. Ancaq onu daha çox narahat edən, incidən, heç cürə barışa bilmədiyi həyat yoldaşının şit hərəkətidir. Konkret ifadə etsək, Maratı qəzəbləndirən Gültəkinin açıq – saçıq geyinməsi və onun dalınca gələn bir xarici maşına minib işə getməsidir. Xatırladım ki, müəllif bu hekayədə mənəvi - əxlaqi problemə biganə qalmayan obrazın daxili ruhi aləmini çox aydın şəkildə təsvir edir. Və Maratın qısqanclıqdan doğan hisslərini bütün çılpaqlığı ilə oxucuya çatdıra bilir. "Ta bu nə işdi ey. Maratın hirsindən rəngi qızarmışdı. Getməyə hazırlaşan Gültəkin bunu hiss edib təəccüblə onu süzdü. Ancaq tələsdiyindən səbəbini soruşa bilmədi. Ay Allah, "razrez"ə bax. Hər şeydən çox bu "razrez" Maratı dəli edirdi. O boyda da "razrez" olar?" Göründüyü kimi, Maratın keçirdiyi hisslərin , psixoloji sarsıntıların səbəbsiz olmadığını anlamaqda həyati müşahidələrimiz də bizə yardımçı ola bilir. Yazıçı bu hekayədə yeni mühitin gətirdiyi dəbin, formanın mənəvi mühitə təsirini, ailə daxilində yaratdığı psixoloji durumu önə çəkir. Həm də oxucu bu əsəri oxuyanda bir məsələni də düşünməyə bilmir. Ümumiyyətlə, Şərq ailəsində hər bir qadın öz kişisi, ömür – gün yoldaşı üçün gözəl görünməyə çalışdığı halda, Gültəkin daha çox özünü reklam etməyə

üstünlük verir. Üstəgəl Gültəkinin geydiyi paltarın qiyməti, qazandığı pulun qədəri də onun aldığı maaşın miqdarından qat-qat çoxdur. Belə olan halda yeni sual doğur. Bəs Gültəkin müasir dəbdə geyinib gəzinmək üçün bu qədər məvacibi hardan və necə alır? Ailə daxilində Maratın özündən çıxmasına da elə məhz bu sualın cavabını aydınlaşdıra bilməməsi səbəs olur. Fəqat bütün bunlara baxmayaraq, Marat özündə güc tapmağa çalışır ki, yeni həyatın gətirdiyi ab-havanı asanlıqla həzm edə bilsin. Amma şübhələri ona rahatlıq vermir ki, ahəstə nəfəs ala bilsin.

Əlbəttə, hekayənin sonluğu bu şübhələrin heç də inama çevrilmədiyini təsdiqləyir. Çünki yeni dövrə alışmaq istəyən Marat onda dumanlı fikirlər içərisində çabalayaraq düşünür. Doğrudan da görəsən Gültəkin bir dəstə "pijon " un içində öz namusunu qoruya bilirmi? Mənimsə yadıma namusla qadınlar, qızlar haqqında deyilən bir ifadə düşür. Filankəs kişi kimi qadındı. Bir ordunun içərisində salamat çıxır. Nizam – intizamı olan ordunun içərisindən təbii ki, salamat çıxmaq mümkündür. Amma müəllifin ədəbi qəhrəmanın düşdüyü mühit məhz "pijon"lar ordusudur. Gültəkinin isə bir dəstə "pijo" nun içərisindən qadınlıq şərəfinə xələl gətirmədən qurtulması çox çətindir.

Zənnimcə, yazıçı cəmiyyətinin mənəvi tarazlığının pozulduğunu və yaranmış mənəvi mühitin "pijon" lar ordusu yaratdığını da vurğulamaq istəyir.

"Qarınqulu" hekayəsində isə H.Mirələmov insanda mənəvi boşluğa qapı açan yaramaz kefiyyətləri, konkret olaraq yeməyə həddən ziyadə hərisliyi göstərmək istəyir. Və təsvir etdiyi tipik obrazın yeməyə təşnəliyini inandırıcı həyati faktlarla oxucuya təqdim etməyi bacarır. "Zamin səhər həmişəki vaxtdan oyandı. Yuxudan doymasa da, bilirdi ki, işə gecikmək olmaz... Ancaq yuxu o qədər şirin idi ki, yatmaq həvəsi işə gecikmək qorxusuna üstün gəlirdi. O, bir az da yatım, - deyə yuxuya getmək istəyirdi ki, zehninin dərinliklərində doğma bir hiss keçdi. "Onu yemək gözləyir axı". Yemək... bu elə bir güclü istək , elə bir ehtiras idi ki, cəmi bir neçə an sonra Zamin artıq çarpayıda oturub məğlub etdiyi yuxunun son iplərinin qırılmasını gözləyirdi.

Qeyd edim ki, Zamin kimilərinə ictimai həyatın müxtəlif sahələrində rast gəlmək mümkündür. Özü də belə xəstə psixologiyalı adamlar növbənöv olur desəm, mənə gülməyin. Adam var yeməyə təşnəliyi ucbatından mənəvi bütövlüyünü ikinci dərəcəli hesab edir. Adam da var ki, pula, var – dövlətə hərisliyi ucbatından. El arasında belə mənəvi viruslara yoluxmuş adamlar haqqında deyərlər ki, nəfsinin, qarnının ucbatından özünü güdaza verər. Orası da doğrudur ki, bu tip adamlar nə qədər yesələr də, nə qədər qazansalar da, doyub dolanmazlar. Və cəmiyyətdə şəxsiyyət kimi formalaşa bilməzlər. Zənnimcə, "Qarınqulu" hekayəsinin əxlaqi- mənəvi dəyəri də elə bu düşüncələri oyatmaq və nəticə hasil etməkdir.

Son olaraq bildirim ki, H.Mirələmovun “Çimərlikdə”, “Yeni həyat” və “Qarınqulu” hekayələri süjetinə görə biri digərindən fərqlənsə də, bu hekayələri birləşdirən ümumi bir xətt var. Bu xətt həmin hekayələrin ideya yaxınlığıdır. Hər üç hekayədə müəllifin məqsədi cəmiyyətdəki mənəvi- ekoloji tarazlığı qorumaq və əxlaqi dəyərləri təbliğ etməkdir.

Ümumillikdə isə H.Mirələmovun bədii yaradıcılığında həyatın, cəmiyyətin, mənəvi aləmin adiliklərini və qeyri- adiliklərini görmək üçün oxucu heç bir çətinlik çəkmir. Mənə elə gəlir ki, bu da yazıçının uğuru hesab edilməlidir. H.Mirələmovun yaradıcılığını izlədikcə həm də onun yazıçı mövqeyinin dəyişmədiyinin şahidi olursan. Belə ki, onun bütün əsərlərinin qayəsində mənəvi- əxlaqi problem və vətəndaşlıq tərbiyəsinin dayandığını görmək çətin deyil.”

## “ÇİMƏRLİKDƏ” “YENİ HƏYAT” VƏ “MAŞALLAHIN PANELİ”

H.Mirələmov təkcə publisistikası ilə deyil, həmçinin bədii yaradıcılığın digər növləri ilə də zamanın nəbzini tutmağı bacarır. Zənnimcə, onun “Yeni həyat”, “Qatar”, “Çimərlikdə”, “Maşallahın paneli” və s hekayələri, “ Kürəkçi kəndinin məktəbi” povesti bu qəbildəndir. Yəni bu əsərlərdə müəllif sanki zamanla nəfəs alır, dövrün yeni həyatını və yeni məktəbini təsvir etməklə bir çox məktəblərə aydınlıq gətirir. Məlum məsələdir ki, bazar iqtisadiyyatı dövründəyik. İndi sərhədlər açıqdır. Kapitalizmin sərt üzünə baxmaq bəzən bizə baha başa gəlir. Xaricdən axıb gələn hər cür məhsulla yanaşı, elə cürbəcür də əxlaq ölçüləri həyatımıza daxil olur; geyimimiz dəyişir, təfəkkürümüz və əxlaqi təsəvvürlərimiz başqalaşır. Əlbəttə, bir çox ailələrimiz milli- mənəvi dəyərləri bu gün də ciddi şəkildə qoruyurlar. Ancaq təəssüf ki, bəzi ailələrdə milli adət və ənənələr tamam unudulub. Özü də beləleri getdikcə artır. Ən başlıcası və qorxulusu odur ki, belə ailələr ümumilikdə cəmiyyəti korlamağa qadirdirlər. Bunlar həyati həqiqətlərdir. Yazıçı bu həqiqətlərə biganə qala bilmədiyindən “Yeni həyat”ı təsvir edir. Yeni həyat tərzinin mənəviyyatımızda yaratdığı boşluğu bir ailənin timsalında əks etdirir. Yəni yeni yaşamaq tərzi şüurlara, beyinlərə təsir göstərdiyi kimi, ailələrə də sirayət edir. Tənqidçi V.Yusifli “Yeni həyat” hekayəsi barədə yazır: “Hekayədə yeni dəb və zövqlərə, daha doğrusu yeni həyat tərzinin gətirdiyi davranış etikasına uyğunlaşmaq istəyən bir ziyalıdan söhbət açılır. Bu ziyalı sovet mühitində böyümüşdür. Həm də kişilik və namus haqqında sabitləşmiş bir təsəvvürü var. Bu formalaşmış təsəvvür artıq dünən üçün

dəhşətli sayıla biləcək ultura müairliyini zərbələri ilə bir andaca dağılır. Onun həyat yoldaşı Gültəkini hər gün bir "Mersedes", "razrez" paltarda gəlib işə aparır. Müəllif bu hekayədə Maratın keçirdiyi psixoloji təbəddülatları qabarıq şəkildə üzə çıxarır.

"Ta bu nə kişilikdi ey. Maratın hirsindən rəngi qızarmışdı. Getməyə hazırlaşan Gültəkin bunu hiss edib təəccüblə onu süzdü. Ancaq tələsdiyindən səbəbini soruşa bilmədi. Ay Allah, "razrez"ə bax. Hər şeydən çox bu "razrez " Maratı dəli edirdi. O boyda "razrez" olar? "

Gültəkin müasir dövrün – keçid dövrünün əxlaqi prinsipləri ilə yaşayan bir qadındır. Hekayədə onun harada işlədiyi, yaxud evə hansı yolla qazanc gətirməsi barədə dəqiq anlayış olmasa da, bu, elə bir önəmli əhəmiyyət daşımır. Lakin məsələ burasındadır ki, onun zahiri görkəmində əmələ gələn bu dəyişiklik ailənin sabitləşmiş əxlaqi prinsiplərini alt-üst edir. Və Marat özü də başa düşür ki, bu "yeniliyə" qarşı çıxmaq onun qüvvəsi xaricindədir. "Qəribə olsa da, Marat birdən gülməyə başladı... Səhərdən gör nə axmaq fikirlə məşğul olub özümü üzürəm. Məndən onqat artıq adamların arvadları, qızları belə gəzirmi? Məgər moda əsiri olmaq pozğunluq demədir? Məgər indiyə kimi iş yerində onlarca qız və gəlinlərdə bir pozğunluq görübmü?"

Beləliklə, müəllif obrazın potretini daxildən açır. Bu səciyyə onun daxilində gedən psixoloji mübarizə vasitəsilə açıqkanır. Yenə dövrə uyğunlaşmaq istəyən bir insan get –gedə bütün mənəvi üzüntülərinə son qoyur. Lakin hekayənin sonluğu yenə də Maratın hələ bu üzüntülərdən xilas olmadığına işarə edir: "Doğrudan da görəsən Gültəkin bir dəstə pijonun içində öz namusunu qoruya bilirmi?"

"Çimərlikdə" hekayəsi də yeni həyatın doğurduğu eybəcərlikləri göstərmək baxımından maraqlıdır. Əsərin qəhrəmanı Elçinin 25 yaşı var. İdmanla məşğul olur. Moskvada Kooperativ İnstitutunun Bakı filialını bitirmiş, valideynlərinin köməkliyi ilə ticarət idarələrindən birində işə düşəlmişdir. O, çimərliyə getmək istəyir, ancaq nişanlısı Ayçiçəklə yox. Gah Royanı zəng edib soruşur, gah Nəzirəni, gah da Gülnazı. Heç birini evdə tapmayıb dənizə yollanır. Avtobus sahibsiz qızlarla doludur. Hətta onlardan birinin Elçinə simpatiyası var: "... Kimsə dirsəyi ilə böyrünə toxundu. Elçin döndü. Yəqin ki, heç kəs eşitməsin deyə, qız pıçıltıyla:

- Sizlə tanış olmaq olar?- dedi.

  Qız qırpımsız nəzərlə onun gözlərinə baxırdı.

  Elçin ani fikirdən sonra:

- Nə mənası var, - dedi. – Axı hərəmiz bir yana gedəcəyik.
- Mən də sizinlə gələrəm, - qız birnəfəsə cavab verdi.

  Yenə ani fikirdən sonra oğlan: - yaxşı, - dedi, - onda sonra görüşərik. İndi işim var.

- Haçan?

Elçini gülmək tutdu:

- Sabah yox, birisi gün. Bakı Sovetinin qabağında.
- Saat neçədə?
- Yeddinin yarsında.
- Oldu."

Elçin sevgisinə xəyanət edib başqasına görüş verir və bu düşüncələrlə çimərliyə çatır. Ancaq gördüyü mənzərə onu çaş-baş qoyur: "... Nahid dönüb baxmasaydı, bəlkə də, Elçib ötüb keçəcəkdi. Nahidin başını çevirməsiylə başını sinəsinə qoyduğu qızın qışqırması bir oldu. Bu, Ayçiçəyin səsi idi. Elçinin gözü qabağında bir anlıq babasının şəkli canlandı. Əli xəncərinin qəbzəsində olan şəkli..." Ancaq Elçin babası ola bilmir. Çünki onun babası gündə bir qıza görüş vermirdi. Məncə, müəllif bu yerdə Elçinin babasını yada salmaqla milli adət və ənənələrimizə işarə vurmuşdur. Demək istəmişdir ki, milli – mənəvi dəyərlər unudulduğu yerdə xəyanət göyərir. Yalnız xoşbəxtlik ailədə mümkündür. Hər ailə isə bir sarayadır. Bu sarayın bünövrəsi ata –ana məhəbbəti, sarayın göylərə ucalan qülləsi, sütunları övladdır. Bəs nə üçün Elçin xəyanətlə məhz çimərlikdə rastlaşır? Yazıçı buna belə cavab vermişdir: "... Günəş burda qaynayıb tökülür,vulkan kimi daşırdı. Çimərlik elə bil rəngbərəng paltarların sərgisi idi. Bu gəzən, oynayan, uzanan, qaçan, çimən adamlara baxdıqca Elçinə elə gəldi ki, onları bura dəniz və ya günəş deyil, hansısa bir qədim instinkt , bəlkə də, yarıcılpaq gəzdikləri qəbilə dövrlərinin çağırışı gətirib. Kölgəlikdə isə adamlar elə bil bir-birinə yapışmışdılar..."

Məncə, əlavə şərhə ehtiyac yoxdur. Ancaq onu deməliyik ki, bir vaxtlar geyinməyə doğru gedən insanlar bu gün soyunmağa doğru gedir. Xüsusilə də qadınlar. Bu isə dözülməzdir və ailələrin fəlakətinə yol açır. Əbəs yerə deyilməyib ki, qadın örtünməklə öz gözəlliyini qoruyub yalnız ərinə saxlamalıdır. Ancaq bunlar ("Qarınqulu") qətiyyən düşündürmür. O, bütün günü yeyib –içmək barədə fikirləşir. Həyat onun üçün yeməkdən – yeməyə uzanan uzun bir yol, yemək dalınca uzun məsafəli qaçışdır. Onun qarnı ürəyindən yuxarıdadır. O, ürəyinin hökmü deyil, qarnının hökmü ilə hərəkət edir. Məhz elə buna görə də istər ailədə, istərsə də cəmiyyət arasında hörməti və nüfuzu yoxdur. Ancaq həyat təkcə onlardan ibarət deyil. Yeni iqtisadi sistem mənəviyyatda dəyişikliklər yaratdığı kimi, yeni həyat tərzi yaşamağa bir çoxlarımızı məhkum etdiyi kimi, qaçqınlıq həyatını da namərd qonşularımız bizə bəxş elədi. Yəni elə bir cəmiyyətdə yaşayırıq ki, bir tərəfdə dəbdəbəli həyat, başqa bir tərəfdə isə çadır həyatı ürəyimizi dağlayır.

"Maşallahın paneli" hekayəsi müharibənin acı nəticələrini və insana vurduğu maddi və psixoloji ziyanı bədii bir dillə oxucuya çatdırır. Maşallah

Laçının ən ucqar dağ kəndi olan Quşqulaqdandır. Onun 150-yə qədər qoyunu, 8 inəyi, 3 camışı, atı, aynabəndli evi, meyvə ağacları var. Lakin ermənilərin ucbatından bütün bunları itirib. Xocahəsən gölünün sağ sahilində çadır ev düzəldib və ailəsini içini yığıb. İndi babalarının, qardaşlarının məzarlarını, kəndin axar-baxarlı yerlərini, Qaragölü, İşıqlı dağını, Çalbayırı, Pəri çınqılını ancaq yuxularında görür. Ancaq ruhdan düşmür. O, atasını, 8 aylıq qız nəvəsini itirib. Ancaq ruhdan düşmür. O, yaşamalı, mübarizə aparmalı, ailəsini bir yana çıxarmalıdır. Buna görə də yaşı ötsə belə iş axtarır. Hansı qapını döyürsə, üzünə bağlanır. Günlərin birində isə həmkəndlisi ilə rastlaşır. Həmkədlisi ona ürək-dirək verərək deyir ki, Bayandurluların əksəriyyəti hər gün Yeni Yasamalda tikilən doqquzmərtəbəli binanın ətrafına yığışır. Meydançaya daşınan panel divarların əksəriyyətini əvvəlcədən nişanlayırlar. Adını yazdığı panel hansı mərtəbəyə, hansı mənzilə düşsə səninki olur. Bu xəbər Maşallahı sevindirir. Meydançadakı panellərdən birinə böyük həriflərlə - Maşallah !" sözünü həkk eləyir və sevinclə evə dönür. Nənəsi Səlminaz ondan soruşur: "... Nə çiçəyin açılıb, xeyir ola?

- Xeyirdir. Evimiz olacaq. Bizimçün doqquzmərtəbəli ev tikilir.
- Bir ev bu qədər məxluqun hansına çatacaq?

- Mənə Kərəm dediş Sən demə, çoxdan tikilirmiş, xəbərim olmayıb. Kim hansı paneldə adını yazsa, mənzil onundu..."

Ancaq Maşallahın bu xoşbəxt günləri uzun sürmür və adını yazdığı panel onun ömrünə son qoyur: "... Günortaüstü "Maşallah" panelini qaynaqla divara bərkitdilər. Bundan rahatlıq tapan Maşallah axşamçağını gözlədi. Əl-ayaq çəkiləndə tələsik addımlarla yuxarı – öz panelinin arxasınca qalxdı. Aşağı mərtəbələrdə isə hərə öz panelini qoynuna sığınmışdı. O, yeddinci mərtəbədən azacıq aşağıda – iki mərtəbənin arasındakı divarda "Maşallah" sözünü oxudu və açıq qapıdan içəri sıçradı..."

Həmin gün Maşallahı "gördüm" deyən olmur. Övladları bütün günü onun yolunu gözləyirlər. Ancaq geri dönmür: "... Səhər onun həmkəndlisi Kərəm və neçə gün ərzində tikinti meydançasında tanış olduğu adamlar Maşallahın panelini axtardılar. Yeddinci mərtəbənin lift yerində "Maşallah" sözünü oxuyanlar donub qaldırdılar..."

Maşallah lift yerinə düşüb canını tapşırır və onun ailəsi başsız qalır. Bu, çox kədərli və qəlbağrıdan səhnədir. Hekayənin bu yerini göz yaşı axıtmadan oxumaq mümkün deyil. Həm də Maşallahın avamlığı və sadəlövhlüyü adamda gülüş yaradır. Ancaq axıra qədər gülə bilmirik. Daha doğrusu, gülməyə hazırlaşdığımız halda gülüş gözümüzdə donub qalır və qəhərlə əvəz olunur. Yarımçıq gülüşün içində birdən – birə hıçqırtı baş qaldırır və istər-istəməz qəzəb və nifrət hissi qəlbimizi bürüyür. Maşallahı belə uğursuz və faciəli taleyə

düçar edənləri qınayırıq. Nəinki qınayırıq, onun aynabəndli evini əlindən alan düşmənə nifrət bəsləyirik.

Maşallah dədə- baba yurdlarından perik düşmüş bütün didərginlərin ümumiləşdırilmiş obrazdır. O, özünə ev qurmaq istəyir. Bəlkə də, onun çadır evinin dünyada analoqu yoxdur. Ora su, işıq, qaz çəkdirib. Təsəvvür edin, çadırda işıq, qaz və su. Bəlkə də insan yaranan gündən ev tikmək onun birinci arzusu olub. İlk növbədə istidən, soyuqdan qorumaq üçün. Ancaq sonradan ev başqa məna kəsb edib. Ev həm də, ailə üçün müqəddəs məkandır. Bu mənada Maşallahın arzusu müqəddəs arzudur. Ancaq o, evi doğulduğu torpaqda tikə bilər, şəhərdə, yox. Şəhər havası onun bu müqəddəs arzusunu gözündə qoyur. O, şəhərdə özünə ev qura bilmir. Yeri gəlmişkən, qeyd edək ki, bu gün paytaxtımızda nə qədər qaçqın var və onların hamısının “panel”i var. Ancaq bu “panel”lər Maşallah kimi onların da axırına çıxır. Maşallah kimilərin ev qurmaq arzusu ancaq torpaqları geri almaqla reallaşa bilər. Məncə, H.mirələmov bu hekayədə bir çox mətləblərlə yanaşı, bunu demək istəmişdir. Həm də bu hekayəni oxuyandan sonra Kafkanın bir sözü yadıma düşdü: “Yazıçı üçün qələm alət yox, bədənin bir üzvüdür”. Mənə elə gəldi ki, H.Mirələmov bu hekayədə Maşallahın faciəsini bədii- boyalarla açıb göstərərkən ürəyinin qanından istifadə etmişdir. Başqa sözlə, qələmi alət kimi işlətməmişdir.

Nəhayət, onu deməyi vacib sayıram ki, H.Mirələmov bu hekayələrin heç birində süniliyə varmır, oxucunu aldatmağa çalışmır. O, sadəcə olaraq həyati hadisə və gerçəkliklərin üzərindən qara pərdəni götürür ki, oxucu bunları görə bilsin. Çünki hər adam həyatda olan reallığı dərk edə bilmir, Müşahidə apara bilmir. Dərin müşahidə qabiliyyəti, əksəriyyətin görə bilmədiklərini görə bilmək isə H.Mirələmovun yaradıcılığının əsasını təşkil edir.

# MƏNƏVİ DƏYƏRLƏRİN FACİƏSİ

İnsanın faciəsi, şəxsiyyətin faciəsi, gəncliyin üstünə yeriyən bəla, bəlkə də, bir çox başqa çalarlarda həmin mənanı ifadə edən sərlövhələr yaza bilərdim. Amma bunların heç birisini qəbul etmədim. Çünki elə insanın faciəsi, o cümlədən şəxsiyyətin, gəncliyin başına gələn müsibətlər, zənnimcə, mənəvi dəyərlərin tapdanmasından başlayır. Mənəvi dəyərlərin tapdandığı yerdə şəxsiyyətdən söhbət gedə bilməz. Mənəvi dəyərlərin tapdandığı yerdə, mənəvi dəyərlərin ucuzlaşdığı, mənəvi dəyərlərin heçə döndüyü məqamlarda insan böyük bəla qarşısında tab gətirmir, məğlub olur, cəmiyyətin, həm də mizan – tərəzisi pozulmuş cəmiyyətin, harmoniyadan düşmüş, ahəngdarlığı itmiş, xaosa yuvarlanmış cəmiyyətin ayaqları altında əski parçasına dönür. Artıq insan özünü bərpa etməyə, onun üstünə yeriyən bəlaya qarşı durmağa özündə qüvvə tapa bilmir, müvazinətini itirir və ümumi axına qoşulur. Bu axın elə bir axındır ki, o heç bir mənəvi dəyəri tanımır, adət -ənənələrə arxa çevirir, nəsillərin, ata-babaların yüz illər ərzində yaratdığı müqəddəs dəyərlər bir nəsnəyə gərək olmur.

“Gəlinlik paltarı” povesti- hərçənd bu əsər bir çox məziyyətlərinə görə roman təfəkkürü ilə yazılmışdır. Biz bu əsəri tərəddüd etmədən roman da adlandıra bilərdik. Sadəcə, müəllif öz əsərini “Kredo” qəzetində povest adı ilə çap etdirdiyindən həmin janra istinad etdik – son illərdə ədəbiyyatımızda mövcud olan boşluğu doldurdu. Əslinə qalsa, ideya baxımından belə əsərlər Azərbaycan və dünya ədəbiyyatında əvvəllər də yazılmışdı. Ancaq həmin əsərlərdə məsələnin qoyuluşu bir qədər fərqlidir. Bu əsər Azərbaycan xalqının taleyində dərin iz buraxmış, bir çox cəhətlərinə görə təqdir olunan dövrü əhatə

edir. Ən axı XX əsrin son onilliyində xalqımız müstəqillik qazanmış, azadlığımızı əlimizdən alan buxovları qırıb- dağıtmışdır. Cəmiyyətin həyatında demokratik dəyişikliklər baş vermişdir. İnsan hüquqları, insan mənəviyyatının azadlığı gündəmdə duran əsas məsələ olmuşdur. Hər bir azərbaycanlı gənc indi özünü daha sərbəst və daha azad hiss edir. Amma gəlin görək, bu sərbəstlik və azadlıq Azərbaycan gəncinə daha nələri bəxş etmişdir?

Fənayə Azərbaycan gəncliyinin ümumiləşdirilmiş obrazı deyil. Ancaq Fənayənin taleyində Azərbaycan gəncliyinin düçar olduğu fəlakətlər və bəlalar ümumiləşdirilmişdir. Doğrudur, Fənayədən fərqli olan, mənəvi dəyərləri qoruya bilən, tarixi ənənələrin mənəvi köklərin üstündə dayanan gənclərin də obrazlarına əsərdə rast gəlirik. Ancaq onu yaxşı görürük ki, Fənayə obrazı təsadüfi xarakter daşımır, o, göydən enməmişdir. Onun prototiplərini demək olar ki, hər birimiz tanıyırıq. Əgər Fənayəni çoxlarımız tanıyırsa, demək, o, cəmiyyətdə kifayət qədər görünür. Fənayələr az dyil və onların cəmiyyətdə artıq xüsusi çəkisi var. Fənayəni fəlakətə sürükləyən mühitin simasını açıb göstərmək üçün yazıçı sözün həqiqi mənasında psixoloji tədqiqatlar aparmışdır. Onun ailə mühitini, yaşayış tərzini, Fənayəyə mənəvi qida verən insanların simasına aça bilmişdir. Bəs bu adamlar kimlərdilər? Onlar həmin adamlardılar ki, total rejimin dövründə belə tarixi ənələrdən üz döndərmiş, mənəvi dəyərlərə xəyanət etmişdilər. Təsadüfi deyil ki, yazıçı yeri gəldikcə keçmişə ricətlər edir, retrospektiv baxışla mənəvi dəyərlərin sökülüb- dağıldığı məqamları bu günə gətirir. Və oxucuya göstərir ki, fənayələri yetirən mühit, əslində, artıq tarıxin arxivinə atılmış cəmiyyətin özündə yetişmişdi.

Əsərdə çox maraqlı bir obraz var. Quru kəllə obrazı. Quru kəllə obrazı müəyyən mənada orijinal deyil. Şərq təfəkküründə bu obraz var. Azərbaycan xalq dastanlarında – "Əsli və Kərəm" də, " Novruz və Qəndab"da, Xəyyamın rübailərində, Məhsətinin könülləri ehtizaza gətirən lirikasında, Nizaminin "Xəmsə" sində ona rast gəlmək olar. Hətta, Azərbaycan xalq nağıllarında da danışan Kəllə obrazları vardır. Xalq Quru kəlləni təsadüfi danışdırmır. Xalq Quru kəlləni ona görə danışdırır ki, bəşər övladı keçmişini unutmasın, gələcəyə doğru yolunda mənəvi dəyərlərə arxa çevirməsin. Yalandan, riyadan, insanı faciələrə düçar edən mənəvi düşgünlükdən xilas ola bilsin.

Yazıçı H.Mirələmov da "Gəlinlik paltarı" əsərində həmin obrazı tamam orijinal mahiyyətdə və yeni mənada təqdim edir. İnsanlar torpağı əkmək üçün – özlüyündə bu, pis hal deyil- qəbiristanlıqları nəhəng buldozerlərin ağzına verirlər. Dağıdır, yeri düzləyir və ruzi əkirlər. Yazıçı göstərmək istəyir ki, tarixi sökmək, tarixdən imtina etməklə qazanılan ruzi ruzi deyil, zəhərdir. Bu zəhər mənəviyyatları dağıdır, taleləri fəlakətlərə düçar eləyir. "Gəlinlik paltarı" povestinin çox maraqlı bir yerində oxuyuruq: "Dağılan skeletlərin sümükləri

torpağın üstündə ağarırdı. Kəllələrə diqqətlə baxan adamlar deyirdilər ki, alınlarda yazılar vardır. Kolxoz sədri yığılan adamları dağıtdı:

- Çıxın gedin işinizə. Mən heç babamdan da burada qəbiristanlıq olduğunu eşitməmişəm. Allah bilir, neçə min ilin qəbirləridir. Bir də ki, bəlkə elə o dediyimiz o alın yazılarında deyilir ki, bir vaxtlar bu işlər olacaqmış?

Adamlardan gülənlər də oldu. Qocaların etirazını qulaq ardına vurdular. Bu vaxt buldozerin nəhəng bıçağında bağrı sökülən yerin bir layı çevrildi və bir insan kəlləsi dığırlanıb həmin yerə, düz sədrin ayaqlarının burnuna düşdü. Torpağın altında neçə yüz il sakit yatmış kəllə elə bil ki, sədrin bu cəfəng sözlərinə gülmək üçün çıxıb gəlmişdi. Dişləri ağarırdı. Kimə gülürdü bu kəllə, nə üçün gülürdü?

Kolxoz sədri kəllənin ağaran dişlərinə baxanda vahimələnən kimi oldu. Özünü saxlaya bilməyib topa zərbə endirən futbolçularsayaq kəlləyə təpik vurdu. Qabaq tərəfdəki adamlar səksəndilər. Əyilən, kəllə sümüyündən yayınıb kənara qaçanlar da oldu. Yox, kəllə zərbədən kənara tullanmadı. Kəllə yerindəcə dağıldı. Yerə tökülən dişlər yenə ağarırdı: həmin hirsli, hikkəli, heç kimin qabağında sözünü çevirməyə gücü çatmadığı kolxoz sədrinin gücsüzlüyünə istehza edirmiş kimi rəngi avazımış kolxoz sədri daha burada qala bilmədi. Dodağının altında nə isə deyinə- deyinə çıxıb getdı. Zamanın təcəssümü olan traktor isə nərildəyirdi. Qozbel təpəliyi düzəngaha çevirənəcən bu nərilti, gurultu kəsmədi" ("Kredo" qəzeti N-12 (111), 15 mart 2003-cü il.)

Bu stereotiplərin dağıldığı, şablonun söküldüyü mərhələdən daha əvvəlki dövrləri əhatə edir. Deməк, cəmiyyətin mənəvi tarazlığının pozulması daha əvvəllərdən başlamışdır. Nərildəyən traktor totalitar cəmiyyətin obrazıdır. O heç nəyə, heç kimə aman vermir, heç bir mənəvi dəyər tanımır. Həmin cəmiyyət dağıldıqdan sonra insanlar keçmişinə qayıtmağa, mənəvi dəyərlərə tapınmağa üstünlük vermək istəyərdilər. Ancaq mükəmməl baza olmadığından müvazinətini itirmiş insanlar kapitalın dəmir caynaqları altında əzilir, düzgün yolu görə bilmirdilər.

Fənayənin özü də, onun valideyinləri də, əslində o vaxt faciəyə düçar olmuşdular ki, müqəddəslik timsalı olan bəxt güzgüsünü sındırmışdılar.

Fənayə ziddiyyətli obrazdır. Onun özünəməxsus dünya baxışı var. Fənayənin şəxsiyyətsizliyi və mənəviyyatsızlığı haqında danışmaq da ədalətsizlik olardı. Fənayəni faciəyə düçar edən yaşadığı cəmiyyətdir. Cəmiyyətdə baş verən eybəcərliklər, cəmiyyətdə baş verən naqisliklər son dərəcə real boyalar, həyati hadisələr fonunda göstərilir. Hadisələr elə cərəyan edir ki, bu hadisələrin reallığına oxucu inanmaya bilmir. Çünki bu hadisələrin çoxu onun gözləri qarşısında baş verir.

Yazıçı Fənayəni dar bir məqamda, onun psixologi gərginlik keçirdiyi anlarda Fədainin xəyalı ilə də qarşılaşdırır. Əslində onların arasında olan həmin

dialoq Fənayənin özünün həyata ziddiyyətli baxışıdır. Onun haçalanan fikirləri, onun ziddiyyətli fikirləri kəllə-kəlləyə gəlir. Bu açıq döyüşdür; kim qalib gələcək? Fədainin xəyalı qalib gəlirsə, demək, Fənayənin müsbət, mənəvi meylləri qalib gəlir. Fənayə Fədainin xəyalı ilə qarşılaşmada məğlub olur. Yəni öz beynində cərəyan edən, onu daim narahat edən və düşündürən əks tərəfə məğlub olur. Başqa sözlə, öz faciələrini tam aydınlığı ilə dərk edir. Bu dialoqu yazıçı çox gözəl bədii lövhə kimi təqdim edir: “ – Axı sən kimsən, gecənin bu vaxtı nə haqla qabağımı kəsirsən.

- Mən həmin adamam sənin arxanca gəzib günahlarını yığıram.
- Bu günahlar səni öldürəcək daş qədər ağır olanda başına çırpacağam.
- Sən...sən... Fədaisən. Hə hə, düz tanıdım, Fədai...

- Bəli, düz tapmısan...Mən həmin Fədaiyəm gözləri ilə odlar, alovlar görmüş ən acı həqiqətərin şahidi olan Fədai.

- Sən mənim taleyimi nəzərdə tutursan, mənim taleyim sənin üçün acı həqiqətlərdir?

- Doğrudur, sənin taleyin də acı həqiqətdir. Ancaq mən bunu nəzərdə tutmuram. Mən müharibədə gördüyüm həqiqətləri nəzərdə tuturam. Erməni işğalçıları Murova sarı yeriyəndə yol tapa bilməyib naçar qalan qızlar, gəinlər erməni girinə keçmək üçün özlərini dağdan – daşdan atırdılar. Erməni əsirliyində təhqir olunmamaları üçün venasını kəsib intihar edən gənc azərbaycanlı qadın haqqında sən də eşitmisən. Neçə-neçə gənc qadın, qız – gəlin Arazın sularında qərq oldu. Ancaq sənin üçün bütün bunların bir qəpiklik əhəmiyyəti yoxdur.

- Mənə qarşı hər hansı bir zoru özüm üçün təhqir hesab eirəm. Mən atdığım addımların hamısını öz istəyimlə, arzumla atmışam. Mən öz istəklərimə, arzularıma çəpər çəkməmişəm. Ona görə də yaşadığım həyatı özüm üçün təhqir hesab eləmirdim.

- Sən unudurdun ki, gözəl ailə başçısı, ana ola bilərdin. Sən bu yolu seçmədin.

- Sən öz sevginin hislərinin diktəsi ilə danışırsan. Axı sən bilmirsən ki, tale mənim qarşıma necə maneələr çıxarıb? Necə oldu ki, təsadüf mənim ana olmağıma yolumu bağladı.

- Bu, təsadüf deyildi, bu, sənin cəzan idi. Ağır idi, ancaq layiqli cəza idi”. (“Kredo” qəzeti N-27-28 (126-127) 14 iyun 2003- cü il).

Bu dialoq göstərir ki, Fənayə bir insan kimi tamam məhv olmayıb. O, özü haqqında düşünə bilir, öz taleyini həll etməyə qadirdir. Və təbii ki, Fənayə öz cəzasını dəqiq müəyyənləşdirir. Fənayə bir insan kimi qəbahətlərini dərk etdiyindən başa düşür ki, yaşamağa haqqı yoxdur. Amma onun qətiyyəti, xarakterindəki sərbəstlik bütün səhvlərinə baxmayaraq oxucunun yaddaşında qalır. Fənayə ibrət güzgüsüdür. Onun haqqında düşünən hər kəs bu obrazı təkrar-

təkrar təhlil edir, səhvlərini araşdırır, onu bəlaya düçar edən səbəbləri görmək istəyir.

Əsərdə ibrətli məqamlar çoxdur. Müasir gəncliyin psixoloji durumunu, mənəvi istiqamətlərini çox dəqiq göstərə bildiyindən oxucular tərəfindən rəğbətlə qarşılanacağına inanmaq olar. Fənayə bizim müasirimizdir. Onun faciəsində biz də günahkarıq. Mənəvi dəyərlərə arxa çevirən mühit bu faciəni dəyərləndirən əsas amildir.

Fənayə obrazı orijinallığı və həyatiliyi ilə diqqəti cəlb edir.

Bütün faciələrinə baxmayaraq, səhvlərini görərək inamla deyərdim ki, Fənayə sevilən obrazdır.

## BİR DAHA FƏNAYƏ HAQQINDA

Kimliyindən asılı olmayaraq yazıçı əsər yazanda qarşısına konkret məqsəd qoyur. Onun seçdiyi həyat hadisəsi, o cümlədən həyat hadisəsini ifadə üsulları, bədii təsvir vasitələri bu məqsədin açılmasına xidmət edir. Məlum məsələdir ki, bədii ədəbiyyat həyatın obrazlı ifadəsidir. Eləcə də bədii ədəbiyyat həyatı surətlər vasitəsilə əks etdirən söz sənətidir. Alim əsər yazarkən , elmi fakt və dəlillərə istinad edirsə, yazıçı obrazlara istinad edir. Obrazlarsız bədii əsər yoxdur. Məsələ onda deyil ki, bu obraz insan obrazı olsun. Hətta kəndin, xalqın, adi çayın, ağacın da obrazı ola bilər. Demək, yazıçı başqalarından fərqli olaraq ancaq obrazlarla düşünür. Bu obrazlar yazıçının qarşısına qoyduğu məqsəd uğrunda mübarizə aparırlar, onun ideyasının açılmasına yardımçı olurlar. Əslində yazıçı obrazların dili ilə danışır. Doğrudur, sosialist realizmi yaradıcılıq metodu ilə yazıb – yaradanlar mütləq mənada, ya müsbət, ya da mənfi obraz yaradırdılar. Bu hal, həmin metodun mahiyyətindən doğur. Onda müsbət və mənfi keyfiyyətləri özündə birləşdirən obrazlar yarada bilməzdilər. Elə bu yerdə qeyd etməyi vacib sayıram ki, o dövrdə də bir çox yazıçılarımız bu metodun prinsiplərinə məhəl qoymadan təzadlı “aralıq obrazı” yarada bildilər. Fikrimi sübut etmək üçün təkcə Anarın “Beşmərtəbəli evin altıncı mərtəbəsi” romanındakı Təhminəni xatırlamaq kifayətdir. Bu obraz yarandığı gündən ta indiyədək mübahisə doğurmuş və müzakirə obyekti olmuşdur. Təhminə müsbət, yaxud mənfi surətdir? Sual ikili olduğundan cavabı da ikilidir. Kimi onun müsbət olmasından, kimi də mənfi olmasından bəhs edir. Yadımdadır, tələbəlik illərində müəllimlərimizdən

biri Təhminə haqqında danışarkən dedi ki, mən bir ziyalı kimi Təhminəyə müsbət baxıram, ancaq Azərbaycanın kişisi kimi onu mənfi qiymətləndirirəm. Maraqlı, həm də dolaşıq məntiqdir. Dolaşıqlığı orasındadır ki, ziyalı Azərbaycan kişisi ola bilməz, yaxud əksinə. Maraqlı orasıdır ki, Təhminəni duymaq və dərk etməkdən ötrü ziyalı olmaq lazımdır. Başqa sözlə, ancaq ziyalı gözü Təhminəni görə bilər. Mənə gəlincə, Təhminəyə əxlaqsız deməyə dilim gəlmir. Doğrudur, o, çox açıq – saçıqdır. Kimlərinsə onun barəsində pis fikrə düşəcəyindən narahat olmur. O, başqalarının arzuladığı kimi yaşamır. Öz arzusuna uyğun yaşayır. Elə buna görə də cəmiyyətin qoyduğu qadağaları saya almır. Haqqında cürbəcür dedi- qodular başlansa da, məhəl qoymur. Çünki təmizliyinə əmindir. O, yalnız Zauru sevir və bu məhəbbətə ömrünün sonuna qədər sadiq qalır. Və nəhayət beşmərtəbəli evin altıncı mərtəbəsi olmur. Amma Təhminə öz təzadlı xarakteri ilə altıncı mərtəbədədir. Altıncı mərtəbədə insanlar yaşamır. Dedi-qodu yoxdur, yalan və riyakarlıq, boş qanunlar yoxdur. Bu mərtəbədə yalnız Təhminə durur. O mərtəbədə ki, bütün beşmərtəbəli evlərdən yüksəkdə qərar tutur və orada yalnız təmizlik hökm sürür. Bütün hiylə və kələklər aşağı mərtəbələrdə - adamlar yaşayan mərtəbələrdə baş verir.

Mən Təhminə obrazını təsadüfi xatırlamadım . Yazıçı H.Mirələmovun “Gəlinlik paltarı” povestini oxuyandan sonra, Fənayə ilə tanışlıqdan sonra Təhminəni xatırladım. Fənayə ilə Təhminə arasında mənəvi bağlılıq gördüm. Fənayə də təzadlı obrazdır. Onun qəlbində iki qüvvə çarpışır. O, gah əxlaq qanunlarına məhəl qoymadan, vecsiz bir qız kimi mənəvi uçuruma sürüklənir, gah bütün yaxşılıqlar üçün könül qapısını açır, gah da onu əxlaqsızlığa dəvət etmək istəyənlərə layiqincə cavab verir. O, həm də istedadlıdır, duyğulu şerlər yazır və s. Ancaq Fənayə Təhminəyə oxşasa da, Təhminə deyil. Əgər Təhminənin hərəkətləri onu altıncı mərtəbəyə qaldırırsa, Fənayənin hərəkətləri onu mənəvi boşluğa aparır. Bəlkə də, bu, ona görə belədir ki, Təhminədən fərqli olaraq Fənayə həyatda sevgisini tapa bilməyib. O, ehtiraslarının qurbanına çevrilir, Harisin tələsinə düşür. Düzdür, yalnız harislə yaşayır, başqalarının əylənmək təklifini rədd edir. Bu nöqtədə Təhminə ilə birləşir. Lakin Təhminə saf sevgi ilə yaşayır, Fənayə isə yalnız ehtirasını soyudur. Elə bu nöqtə onları ayırır. Bəs Fənayə nə üçün sevə bilmir? Nə üçün gözlərimizin önündə gözəl və istedadlı, sevilməyə və sevməyə layiq bir qız mənəm ölümə doğru yuvarlanır. Bəlkə, cəmiyyət günahkardır? Xeyir, əgər belə olsaydı, onun yan – yörəsindəki qızlar ailə qura bilməzdilər, gəlinlik paltarı geyinə bilməzdilər. Məncə, bu, onun ailəsi ilə bağlıdır. Fənayəgil varlıdırlar, zənginlik içərisində üzürlər. Ancaq onun ailəsinin evə kişi gətirməsi Fənayənin gözü qarşısında baş verir. Bu isə onun mənəviyyatını korlayır. Məncə, əsərdə onların evlərinin qarşısındakı üfunət qoxuyan gölməçə

təsadüfi verilməmişdir. Bu, müəllifin tapıntısıdır və bizə də əsas verir deyək ki, belə ailələr cəmiyyəti zəhərləməyə qadirdir.

Əsərdə Fənayə - Fədai xətti ustlıqla işlənmişdir. Fədai Fənayəni sevsə də, məhəbbətinə cavab ala bilmir. Çünki Fənayələr Fədailərə layiq deyil. Fədai döyüşədə qıçlarını itirib, Fənayə isə restoranlarda qızlıq ismətini. Bu mənada Fədai ilə Fənayənin qovuşmaması adama təbii təsir bağışlayır və hardasa buna sevinirik. Həm də Fənayənin Fədaiyə biganəliyini cəmiyyətin biganəliyi kimi də başa düşmək olar. Çox zaman cəmiyyət də Fədai kimilərə üstdən aşağı baxır və onlar cəmiyyətin gözündə cansız bir əşyaya çevrilirlər. Kafkanın "Çevrilmə" novellasının qəhrəmanı Qreqor Zamza kimi. Günlərin birində əcaib bir həşarata çevrilən Qreqoru nəinki cəmiyyət, hətta doğma atası və bacıları qəbul etmirlər, onun ölümünü gözləyirlər. Bu, insanlığın faciəsidir. Döyüşlərdə əlilə, şikəstə çevrilən Fədailəri qəbul etmək də faciədir. Ancaq Fədailəri yalnız Fənayə kimilərin mənsub olduğu cəmiyyət qəbul etməyə bilər.

Fənayə Azərbaycan qızlarının ümumiləşdirilmiş obrazı deyil. Fənayə və onun kimilərini yaşadıqları ailə və bir də keçid dövrü hazırlayır. O, keçid dövrünün qəhrəmanıdır. Onu Dubay reysi üçün hazırlayırlar.

Lakin bunlarla yanaşı, Fənayə qürurludur. Yeri gələndə hissləri cilovlamağı bacarır; küçədə ona söz atan polisi pis vəziyyətdə qoyur. Redaktorun ehtiraslı baxışları üz- gözündə hiss etsə də, onun kimliyini cəsarətlə üzünə çırpır. O, tələbə yoldaşları ilə söhbəində mülayimdir, onların bir çox fikirlərinə hörmətlə yanaşır və s.

Fənayə ifrat sərbəstlik arzulayır və elə bu da onun faciəsinə yol açır. Cıdır yarışına tamaşa edəndə onun hansı hisslər keçirdiyinin şahidi oluruq. "At azadlıq istəyirdi; gücünü, qüvvəsini göstərmək üçün. Atın əzəməti, qüruru və eyni zamanda, onun cilovunun çəkilməsinə etirazı aşıb-daşan qəzəbi Fənayənin diqqətindən yayınmırdı. Bu şəkil bəlkə də at yarışlarının təşkilatçıları üçün cıdırın təbliği, daha çox müştəri cəlb etmək məqsədilə çəkilmişdi. Fənayə bunun fərqinə bilərəkdən varmırdı. Çünki təsəvvüründə canlandırdığı at obrazı onun ideallarına uyğun gəlirdi. O, insanı da belə görmək istəyirdi. Onun zənninə görə, insan onun azadlığını, sərbəstliyini əlindən almaq istəyənə qarşı amansız olmalıdır. İnsan deyilən məxluq gücü və qüdrəti ilə öz azadlığını qorumağa qadir deyilsə, onun yaşamaq haqqı olmamalıdır".

Göründüyü kimi, Fənayə özünü atla müqayisə edir, cilovunun çəkilməsinə etiraz edir, azadlıq və sərbəstlik istəyir. Ancaq onun bu istəyi ona bəla gətirir, onun yaşamaq haqqını əlindən alır. Əslində o, bu hərəkətləri ilə ailəyə - xoşbəxtliyə gedən yolunu birdəfəlik bağlayır. O, gəlinlik paltarına qarşı çıxır. Daha doğrusu, gəlinlik paltarına layiq ola biləsi həyatı yaşaya bilmir. Yazıçı

demək istəyir ki, Fənayə kimilər – milli adət - ənənələrimizə xor baxanlar gəlinlik paltarına ancaq uzadan tamaşa edə bilərlər.

“Gəlinlik paltarı” povesti “Kredo ” qəzetində hissə-hissə çap olunub. Adamlar povestin dalını səbirsizliklə gözləyirdilər. Bir neçə nəfərdən bunun səbəbini soruşmuşam. Hamısından da eyni cavab eşitmişəm; Fənayənin taleyindən narahatlıq keçirirlər. Əgər oxucu obrazla maraqlanırsa, demək, yazıçı istəyinə nail olub. Yəni bitkin obraz yarada bilib. Elə isə demək olar ki, Fənayə mürəkkəb obraz olmaqla yanaşı, həm də bitkin və öz ömrünü sonacan yaşamış bir obrazdır.

İndi elə dövrdə yaşayırıq ki, milli- mənəvi dəyərlərdən hər zaman ağızdolusu danışa bilmirk. Milli adət- ənənələrimizdə yaranan boşluqlar hər birimizi narahat edir. Məncə, H.Mirələmov bu narahatlığı duyduğundan ailəyə aparan gəlinlik paltarına bu qədər diqqət yetirmişdir. Bizə elə gəlir ki, yazıçının ustalıqla yaratdığı Fənayə və onun taleyi qızlarımız üçün görk olacaqdır. Elə “Gəlinlik paltarı” nın tərbiyəvi əhəmiyyəti və dəyəri bundadır.

## “GƏLİNLİK PALTARI”:
## HƏYATIN ÜZÜ VƏ ASTARI

Həyatın rəngləri, gözlənilməzlikləri, qanunauyğun olmayan hadisə və olayları haqqında filosofların, siyasətçilərin, yazıçıların çoxlu araşdırmaları, mülahizələri var. Həyatın sənətdə əksi ilə bağlı, başqa sözlə, həyatı sənətdə necə əks etdirmək haqqında fikirlər bəzən ziddiyyətli olur, çox vaxt bir-birini inkar edir. Mülahizə yürüdənlərin hər biri öz fikirlərini müəyyən dəlillərlə sübut etmək istəyirlər. Ancaq yəqin ki, bu məsələ heç vaxt özünün dəqiq həllini tapa bilməyəcək. Çünki həyatın elə gözlənilməzlikləri və elə mənzərələri var ki, çox vaxt onu sənətə gətirməyə, onu öz rəngində təqdim etməyə sənətkarın gücü çatmır.

Mətləbdən uzaq düşməyək. Məqsədimiz “Gəlinlik paltarı” əsərinin bəzi məziyyətləri haqqında söz açmaqdır. Həyatı bu əsərdə necə görürük? Onun əsərdə təqdim olunan, “Gəlinlik paltarı povestində ürəkgöynədən, insanı sarsıdan mənzərələri doğrudanmı realdır?. Ümumiyyətlə, biz həyatın hər üzünü, daha dəqiq desək, üzünü və astarını görə bilirikmi?

Ümumiyyətlə, həyatın rəngləri, bütün gözlənilməzlikləri, həyat mənzərələri hardasa elə insan mənzərələri deməkdir. İnsanın görünən və görünməyən tərəfləri deməkdir. “Gəlinlik paltarı” əsərində müxtəlif xarakterli, təbiətində müsbət və mənfi meylləri, gücü və iradəni, eyni zamanda, antiinsani kefiyyətləri birləşdirən insan obrazları görürük.

Haris bacarıqlı, qoçaq, həyatın bütün düyünlərini açmağa qadir olan iradəli kişi obrazıdır. O, şəxsiyyətini həmişə yüksək tutur, başqalarının zəif

tərəflərindən istifadə etməyi bacarır, lazım gələrsə, ona mane olanları həşarət kimi əzib keçə bilir. Yeri gəlsə o, kimisə təhqir etməkdən belə çəkinməz. Ancaq kimsənin onu təhqir etməsinə qətiyyən dözməz. Bu keyfiyyəti ilə o, Tolstoyun məşhur qəhrəmanını- Voronskini yada salır. Harislərin öz fəlsəfəsi var. Həyatı öz istəklərinə tabe etmək fəlsəfəsi. Məqsədinə yetmək üçün heç nədən çəkinmir. Hətta bütün gücünü və enerjisini sərf eib qazandığı pulları bu yolda xərcləməkdən çəkinmir. Bəzən həyatı ilə risk edir. Amma yolundan dönmür. Bu iradə və güc onu məqsədinə yetirir. Sanki Fənayə onun qadın variantıdır. Bir çox cəhətlərinə görə Fənayə elə Harisə bənzəyir. Ancaq bir məsələni unutmaq olmaz ki, Haris kifayət qədər yetkin yaşdadır. Həyatın hər üzünü görüb, təcrübəsi var, yeri gəlsə düşdüyü çətinliklərdən çıxmağı bacarır, bütün psixoloji gərginliklərdən xilas ola bilir. Əsərin özündən göründüyü kimi, Fənayə bu gücdə deyil. Baxmayaraq ki, o, elə bir sərbəst mühitdə böyüyüb ki, kifayət qədər özünü yetkin və həyata hazır hesab edir. Fənayə intellektual duyumlu, həyatı romantik xəyallarla təsəvvür edən bir gəncdir. O, hesab edir ki, həyatın bütün problemləri gücdən asılıdır, gücə tabedir və onun zənninə görə, bütün problemləri güc həll edə bilər. Əsərdə çox maraqlı bir səhnə var: Fənayənin küçədə cıdır afişasını gördüyü səhnə. Burada Fənayə cıdırda nümayiş etdiriləcək atı görür. Bu at ötəri bir süjet deyil, müəllif tərəfindən Fənayənin xarakterini açmaq üçün əsərə gətirilmiş çox həyati bir epizoddur. Cıdır afişasının qarşısındakı Fənayə düşünür: onun tale yoluna çıxmış olan adamları burada müqayisə edir. Bu gün gücsüz və zəif görünən Fədai güclü və imkanlı olan Harisin qarşısında tab gətirə bilərmi? Əslində Fənayənin xəyalında dəhşətli bir duel səhnəsi var. İki bir-birinə zidd təfəkkür, həyat tərzi, müxtəlif xarakterlər döyüşə çıxıb. Kim qalib gələcək? Harismi, Fədaimi? Yaxud Fənayə onlardan hansına üstünlük verəcək? Burada əslində, həm də Fənayənin taleyi həll olunur. Fənayə hiss edir ki, Fədai onu sevir. Baxışlarında və hərəkətlərində səmimidir. Onun hiss və həyacanları çox təbiidir. Bu hiss və həyacanlar Fənayəyə maddi imkanlar yox, mənəvi xoşbəxtlik vəd edir. Ancaq Haris ona gələcək həyatında qayğısızlıq bəxş edəcəyinə, hər cür həyati şirinlik bağışlayacağına əmindir.

Fənayə Harisə üstünlük verir. Ancaq müəllif konkret göstərmir ki, o, Harisə, yoxsa Fədaiyə üstünlük verir. Sadəcə Fənayə atın adını tapmaqla həmin cıdır yarıçında iştirak etməyi qərara almaqla mövqeyini bildirmiş, gələcək yolunu seçmiş olur. Fənayənin bütün faciələri buradan başlayır: "Fənayə "Gənclik" metrosundan çıxıb şam ağaclarının arası ilə zooparka getmək istəyirdi. Futbol kassalarının yanından keçəndə gözünə rəngli afişa sataşdı. Köhlən atların şəkli verilmiş afişada maraqlananlar cıdır meydanına dəvət olunurdu. Göy – dəmiri rəngə çalan at şəkildə ayaqlarını göyə qaldırmış, bütün gözılliyi və əzəməti ilə cəlbedici təsvir olunmuşdu. Afişanın aşağısında tarix və saat göstərilmişdi.

Cıdır elə bu gün idi. Vaxta isə xeyli qalırdı. Fənayə bayaq Fədaiyə sözgəlişi cavabını yadına saldı. Tale onunla oynayırdı, yoxsa bu xoş təsadüf idi? Bəlkə, doğrudan da, atların yarışına – cıdıra baxmağa getsin.

Şahə qalxmış göy- dəmiri at buraxılan kimi dünyanı ayaqlaya-caqmış kimi cilov gəmirirdi. At azadlıq istəyirdi; gücünü, qüvvəsini göstərmək üçün. Atın əzəməti, qüruru və eyni zamanda, onun cilovunun çəkilməsinə etirazı, əslində, aşıb-daşan qəzəbi Fənayənin diqqətini işğal eləmişdi. Bu şəkil bəlkə də at yarışlarının təşkilatçıları üçün cıdırın təbliği, daha çox müştəri cəlb etmək məqsədilə çəkilmişdi.

Fənayə bunun fərqinə bilərəkdən varmırdı. Çünki təsəvvüründə canlandırdığı at obrazı onun ideallarına uyğun gəlirdi. Qız insanı da belə görmək istəyirdi. Onun zənninə görə, insan onun azadlığını, sərbəstliyini əlindən almaq istəyinə qarşı amansız olmalıdır. Insan dyilən məxluq gücü və qüdrəti ilə öz azadlığını qorumağa qadir deyilsə, onun yaşamaq haqqı olmamalıdır.

Bu an Fənayənin xəyalından Fədaiyə - həmin qəzetsatan oğlana qarşı münasibəti keçdi. O, Fədaiyə qarşı amansız olmamışdı ki?...

Əlbəttə, Fədai ləyaqətli oğlan idi. Bunu artıq Fənayə başa düşmüş, tam dərk etmişdi. Fədai bu qızın azadlığını əlindən almaq haqqında düşünmürdü də. Bunu da Fənayə bilirdi. Fənayənin bildiyi, dərk elədiyi başqa məsələlər də vardı. Fədai öz məhəbbəti ilə onu cilovlaya bilərdi. Bax Fənayəni qorxudan bu idi. Fədai olsa –olsa yaxşı ata, ailə sahibi ola bilərdi. Fənayəyə isə ər yox, özü kimi azad, sərbəst, ehtiraslarının arxasınca gedə bilən, ehtiraslarının qulu yox, bu daxili enerjidən güc alıb, həyatı özündən aşağıda qoya bilən dost, bir-birini tamamlayan duyğular sahibi, tərəfdaş lazım idi. Güclü tərəfdaş; Fənayə həmin atın adını xəyalən tapdı: “Güclü””. (“Kredo” qəzeti, N-4 (103) 18 yanvar 2003-cü il).

Bəli, bu xəyallar həyatda real, əsası olmayan xəyallar Fənayənin bəxt güzgüsünü daşa çırpır. Bu vaxt o, Harisi daha yaxından tanıyır, onun iç üzünü görür. Bu qədər mənəviyyatsızlığı onu sarsıdır. Hətta onun məşğul olduğu işin özü qazanc naminə iyrənc əməllərə getməsi Fənayədə ona qarşı nifrət oyadır. Fənayə hiss edir ki, yaxın gələcəkdə ana olacaq. O, Harisdən başqa heç nə istəmirdi, ona heç bir ehtiyacı yox idi. Sadəcə istəyirdi ki, uşağının atasının Haris olduğunu qürurla, açıq-aydın deyə bilsin. Haris isə bu hisslərdən çox uzaqdır. Həyatın yuxarıda qeyd etdiyimiz kimi, gözlənilməzliklərlə dolu olduğunu Haris unudur. Bəli, həyat özünün amansız üzünü göstərir; Haris cəzasına çatır. Bu, çox qanunauyğun bir cəzadır. Hətta o cəzanın başa çatması, Harisin həlak olması son dərəcə dəqiq detallarla işlənib. Bu zaman Fənayə də cəzasız qalmır. Baş vermiş avtomobil qəzasında ağır yaralanır, əməliyyata məruz qalır, hələ dünyaya gəlməmiş körpəsini itirir, onun qəlbində cücərən analıq duyğuları əbədi məhv olur. Bütün bunlar kiçik təfərrüatlarına qədər təsvir olunur, oxucu bütün

hadisələrin iştirkçısına, şahidinə çevrilir. Bu zaman bizi sevindirən, əslinə qalsa, Fənayənin təbiətindəki saflıq meylləri baş qaldırır, o, nə qədər ağır yıxılmış olsa da, gərgin , psixoloji uçuruma düşsə də, yenidən dirçəlir. Öz səhvlərini götür-qoy edir. Oxucu güman edir ki, həyatın bu acı dərsi onun üçün böyük məktəb oldu. Fənayə bu məktəbdən keçdisə, bir daha səhv eləməz. Ancaq zaman keçdikcə görürük ki, Fənayə həmin ağır dərsdən lazımınca nəticə çıxara bilməyib. Yenə həyatını öz axarına buraxır. Bu axar isə daha yeni faciələr deməkdir. Fənayə Yusifcanla – keçmiş tanışı ilə yaxınlaşır. Qəlbindən küləklər əsən rəssamın acı taleyi onu yandırır. Özünün isti nəfəsi ilə onun soyuq hücrəsini qızdırmağa çalışır. Və bu zaman ikinci dəfə daha böyük zərbə alır. Mənəviyyatca saf, Harislə müqayisə olunmayacaq dərəcədə Fənayənin ideallarına yaxın olan ahıl yaşlı rəssam qəflətən həlak olur. Bəli, bu, həyatla döyüş anı idi. Yaşamaq uğrunda mübarizə anı idi. Bu zaman ömrünü başa çatdıran Yusifcanın ölümü adi ölüm hesab oluna bilməz. Həmin anda baş verən psixoloji gərginliyi yazıçı rəssam dəqiqliyi ilə işləyib. Fənayənin isterikasını, ruhi sarsıntılarını, psixoloji gərginliyini ustalıqla , fəlsəfi məzmunla oxucuya çatdıra bilmişdir: “Fənayə hövlnak sıçrayıb yuxudan qalxdı. Yusifcanın gözləri açıq qalmışdı; donuq və hərəkətsiz idi. Bir əli ilə sol döşünün üstünü , əzələləri sıxmışdı. Deyəsən, köksündə ürəyini tutub saxlamışdı. Yoxsa, əlini boşaltsa, bir quş kimi ürəyi pırıltı ilə uçub gedəcəkdi. Bu görkəmində o, haradansa qəfil sinəsinə sancılmış oxu çıxarmaq istəyən döyüşçüyə, orta əsr cəngavərinə bənzəyirdi.

Onu bu görkəmdə görən Fənayənin gözləri dəhşətdən böyümüş, az qala hədəqəsindən çıxmışdı. Fənayə ilk dəfə özünü tək-tənha, gücsüz və köməksiz gördü. Haray salmaq, qışqırmaq, insanları köməyə çağırmaq istədi. Baş vermiş hadisənin mahiyyəti ona aydın deyildi. Axı o, insanlara neyləmişdi ki, insanlar onun harayına gəlmək istəmirdilər. Kimsə düz onun gözlərinin qabağında – Yusifcandan bi qədər aralı dayanmışdı. Əlində musiqi aləti vardı. Deyəsən, skripka idi. O, skripkada həzin, kədərli, ayrılıq ifadə edən musiqi ifa edirdi. Fənayə onu çağırmaq, yaxına gəlməsini, kömək etməyini xahiş etmək istədi. Həmin gənc heç nəyə baxmırdı. Sakit-sakit həmin kədərli musiqini ifa etməyində idi. Fənayə yenə çığırmaq, haray salmaq istədi. Skripkanın səsi daha dəhşətli sızıltı ilə səsləndi. Bütün ətraf aləm cana gəlib bağırsaydı da, bu səsdən keçə bilməzdi. Skripkanın səsi lap sipərə dönmüş, Fənayə ilə Yusifcanı dünyadan tədric eləmişdi. Bu, kim idi, niyə bu qədər soyuq və biganə idi. Əgər o, belə biganə və soyuq olsaydı, belə yanlqlı çala bilməzdi. Deyəsən, elə həmin skripkada o, Fənayənin fəryadlarını ifa edirdi. Axı o, kim idi? Fənayə əlini uzadıb onu silkələmək, kimliyini bilmək istədi. Həmin adam çiyninin üstündən ona baxdı. İlahi, bu, Fədai idi? Və ən dəhşətlisi bu idi ki, Fədai də ağlayırdı. Onu ağladan nə idi? İfa etdiyi müsiqinin kədəri, yoxsa Fənayənin acı taleyi?...

Fənayə əlini başına atdı. Beynində qopan uğultudan az qala huşunu itirməkdə idi. Bu vaxt eybəcər bir məxluq emalatxananın divarları boyu canaqları ilə yapışıb Fənayənin gözünün qabağında rəqs eləməyə başladı. Fənayə əlini uzadıb Fədaiyə onu göstərmək istəmədi. İndi Fədai tərpənmirdi. Deyəsən, skripkanın səsi zəifləmişdi. Həmin eybəcər məxluq qəhqəhə ilə onun ətrafında dolandı. Fənayə onu da tanıdı. Bu, Haris idi. Haris Fənayənin acınacaqlı vəziyyətinə baxıb dəhşətlə, iblisanə qəh-qəhə çəkdi. Onun özü kimi eybəcər gülüşü divarlarda əks – səda verdi. İndi zəifləmiş skripkanın acı sızıltısını da bu gülüş batırdı.

Fənayə əlləri ilə saçlarını tutub yanlara dartdı. Bir az huşu özünə gəldi. Yanında yıxılıb qalmış Yusifcana baxdı. Heysiz düşüb- qalmış Yusifcanın başını özünə sarı döndərib köksünə sıxdı. Qızın çılpaq sinəsinə isti maye dəydi. Yusifcanın ağzından axan qıpqırmızı qan onun köksündə güllə yeri kimi iz qoymuşdu ”. (“Kredo” qəzeti, N-60 (159) 15 noyabr 2003-cü il).

Fənayə cəmiyyətin üstünə yeriyən dəmir dabanlı kapitalın vahiməsindən, aldadıcı görkəmindən çaşbaş düşən, həyatda düzgün yolu tapa bilməyən gənclərin ümumiləşdirilmiş obrazdır. Şəxsən mənim həmyaşıdımdır. Onun taleyi məni çox ağrıdır. Bu faciəni, bu ağrını öz üzərimdə hiss edirəm. Görürəm ki, fənayələr tək deyil. Həyatın aldadıcı üzünə aldanan , dəhşətli astarını görməyən fənayələr azdırmı? Harislərin caynaqları arasında çabalayan fənayələrin taleyi bugünkü cəmiyyəti düşündürməlidir. Cəmiyyət – bizi qoruyan, böyüdən cəmiyyət, həm də eyni dərəcədə cinayətkar və canidir.

## VƏTƏNDAŞLIQ YANGISI İLƏ

Xalq yazıçısı Elçin məqalələrinin birində yazır ki, xarici görüşlərin birində Qərbi Avropa yazıçılarından biri məndən soruşdu ki, siz vətəndaşlıqdan çox danışırsız. Bəs niyə C. Steynbeki tənqid edirsiniz? O ki, Amerika vətəndaşıdır və Amerika əsgərlərini tərənnüm edib. Mən ona cavab verdim ki, hər hansı ölkənin vətəndaşı olmaq təkcə o ölkənin pasportunu cibində gəzdirmək deyil. Əgər Amerika əsgərlərinin Vyetnamda törədikləri əməlləri C.Steynbek təbliğ edirsə, bu yolverilməzdir. Çox da ki, Amerika vətəndaşıdır. Yaddan çıxarmayaq ki, Amerika – Vyetnam müharibəsində sadə amerikalıların əksəriyyəti Vyetnamın müdafiəçisi rolunda çıxış etdilər. Və nə yaxşı ki, C.Steynbek bütün əsərlərində belə deyil, ona görə də digər dillərə tərcümə olundu və bütün xalqların sevimli yazıçısına çevrildi. Xeyir və Şərin ədəbi mübarizəsi ədəbiyyatın başlıca mövzusudur. Əgər hər hansı bir yazıçı Şəri tərənnüm edirsə, onun əsərləri yaşarı ola bilməz.

Doğrudan da, bu günün özündə hər hansı bir erməni yazıçısı torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən işğalına haqq qazandırırsa, misli görünməmiş Xocalı qırğınını öz əsgərlərinin qəhrəmanlığı kimi qələmə verirsə, bu elə Şərin tərənnümüdür. Bu, artıq vətəndaşlıq deyil. Vətəndaşlıq beynəlmiləl təbiətə malikdir, nə millətçilik, nə də kosmopolitçilik vətəndaşlığa yaraşmır. Vətəndaş olmaq Vətənə, xalqa xidmət etmək deməkdir. Yazıçı birinci növbədə doğulduğu torpağın oğludur. V.Hüqo fransız, Balzak ingilis, N.Nərimanov Azərbaycan xalqının oğludur. Onlar öz xalqlarına xidmək etməklə yanaşı, eyni zamanda, bütün xalqlara xidmət ediblər. Onlar milli olduqları qədər də

bəşəridirlər. Onlar öz xalqlarını tanıtdıqları üçün dünya xalqları tərəfindən tanınırlar.

M.F.Axundov altı ölməz komediya müəllifidir. Ərəb dilini də gözəl bilirdi. Amma o, bütün ömrü boyu yeni əlifba uğrunda mübarizə apardı. Nə üçün? Onun üçün ki, xalqı maariflənsin, oxuyub –yazmağı öyrənsin. Bəlkə də, o, enerjisini bu işə sərf eləməsəydi, daha altı komediya yaza bilərdi. Deməк, o, yazıçı olmamışdan qabaq vətəndaş idi. Və yaxud da Mirzə Cəlil, Ü.Hacıbəyovu götürək. Onların hər biri dəyərli əsərlər yaratmaqla bərabər, həm də xalqlarının ağ günə çıxması, millətlər içərisində tanınması yolunda fəaliyyət gösrərmişlər, Azərbaycan ictimai fikrinin formalaşmasına töhfələr bəxş etmişlər. Onların əməlləri vətəndaşlıq zirvəsi idi, xalqına, Vətəninə xidmət nümunəsi idi.

Yazıçı H.Mirələmovun “Mars” jurnalında işıq üzü görmüş “Kürəkçi kəndinin məktəbi” povestini oxuduqdan sonra məndə bu duyğular yarandı. Çünki mən bu povestdə vətəndaşlıq yanğısı görürəm. H.Mirələmovu həm yazıçı, həm də vətəndaş kimi görürəm. Bu əsərində müəllifin vətəndaş narahatçılığı aydın görünür. O, ictimai mövqeyini ortaya qoyur. Necə ki, XX əsrin əvvəllərində dahi Mirzə Cəlil “Danbaşı kəndinin məktəbi ”ndən narahatçılıq keçirirdi, eləcə də H.Mirələmov “Kürəkçi kəndinin məktəbi”ndən narahatçılıq keçirir. Mirzə Cəlil Danabaş kəndinin məktəbini təsvir etməklə məmləkətdə təhsilin acınacaqlı vəziyyətinə ürək ağrısı ilə gülür. H.Mirələmov da “Kürəkçi kəndinin məktəbi”ni təsvir etməklə Azərbaycanda təhsilin bərbad gündə olmasını zərgər dəqiqliyi ilə açıb göstərir.

Bu gün kimsə deyə bilməz ki, Azərbaycanda təhsil ürəkaçandır. Məlum məsələdir ki, hər hansı bir xalqın inkişafı onun təhsili ilə birbaşa bağlıdır. Xalqın tərəqqisi onun maarifindən asılıdır. Ona görə də Azərbaycan məktəblərindəki çatışmazlıqlar yazıçını narahat edir və o, hamının görə bilmədiyini görür və göstərir. Bununla da, təhsilimizdəki yaralara məlhəm qoymağa çalışır. Dobrolyubovun təbirincə desək, “ədəbiyyat ictimai inkişaf elementidir” sə, onda yazıçı hamının görmədiyini görməli və göstərməlidir. Yalnız bu vaxt həqiq sənət nümunəsi yaradıla bilər. Necə ki, bunu Mirzə Cəlil, Ü.Hacıbəyov etdi. Eləcə də H.Mirələmov cəmiyyətin yaralarını görməyi və göstərməyi bacarır. Özü də onun sənətkarlığı orasındadır ki, təsvir elədiyi hadisəyə ictimai məzmun verə bilir. Hər hansı bir hadisəni və yaxud insanı ümumiləşdirə bilir. Elə ona görə də “Kürəkçi kəndinin məktəbi”ndə baş verənləri bu gün ölkəmizin əksər məktəblərində görə bilirik, daha doğrusu, bunlarla hər gün rastlaşırıq. Başqa sözlə, Kürəkçi kəndinin məktəbi Azərbaycanın əksər məktəblərinin ümumiləşdirilmiş şəkli, belə demək mümkünsə, obrazıdır.

Yazıçı Kürəkçi kəndini belə təsvir edir: “Üfüq yenicə qızarmış, lalə rənginə boyanmışdı. Dan üzünün sökülməyi neçə illərdi kənd məktəbinin müəllimləri üçün

sanki təbii əzəli -əbədi bir işarəydi. Yəni üfüq qızardımı, deməli, isti yorğan-döşəklərindən durmalı, yuyunmalı, tez-tələsik nahar eləyib geyinib – kecinməli, məktəbdə tələsməliydilər. Əslində buna öyrənmiş, adətkərdə olmuşdular. Hələm – hələm bu adəti pozmağa kiminsə cəsarəti çatmırdı və çox zaman da müəllimlər yavan çörəyi qoltuqlarına vurub, utanıb – çəkinmədən elə yoldaca həzm – rabedən keçirirdilər. Əgər işdi – şayət, kiminsə qaramat basırdısa, dərsə gecikirdisə, həmin gün direktor Bəhmən cin atına minir, əlindəki coğrafiya çubuğunu oynada –oynada şirə- pələngə dönürdü. Məktəbin xüsusi zövqlə səliqə-sahmana salınmış həyətində pəhləvan kimi var – gəl edir, dəhlizə çıxır, heç kimə məhəl qoymadan, səbrini basmadan gecikənin dalınca deyinir, "nizam- intizama partbiletimlə cavabdehəm" söyləyirdi..."

İlk baxışda oxucuda belə təsəvvür yarana bilər ki, Bəhmən müəllim nizam – intizamı gözləyən adamdır. Ancaq davam edib povesti oxuduqca aydın olur ki, heç də belə deyil. Onun zahiri əsib- çoşmağı, nizam –intizam tələb etməyi ancaq görüntü yaratmaq üçündür. Əslində isə məktəb bazarı xatırladır, əməlli- başlı dərs keçirilmir. Şagirdlərə atalarından alınan "hörmət"in müqabilində şişirdilmiş qiymətlər yazılır. Bu azmış kimi, "kamal attestatı" pulla verilir.

"... Üç- dörd il idi ki, Kürəkçi məktəbindən heç kəs kamal atestatı alan ili ali məktəbə qəbul olunmurdu. Danışmaqla deyildi ki... Uşaqları Kamil müəllim demişkən, Allahın Bədən Tərbiyəsi İnstitutunda ağızlarından vurub qaytarırdılar. Və bütün bunlar kənddə bəzi demaqoqlara mövzu verirdi: "Balam, Kürəkçi məktəbinin quru adı var. Qonşu Çayzəmi orta məktəbinin 17 məzunundan nə azı, nə çoxu, on biri ( futbol komandası qədər) instituta qəbul olunub, qoruqçu Xalqverdinin ayağı şikəst oğlu Moskvada universitetinin tətbiqi riyazıyyatına girib. Kəsilən, müsabiqədən keçməyən çayzəmili uşaqlar söz veriblər, yenidən ali məktəbə sənəd versinlər, texnikum-zad bəyənmirlər. Bizimkilərsə Biləcəridən o yana keçmir. Quru "stroqo rejim" kimə lazımdır? Hətta bir dəfə anbardar Salman qırmızı – qırmızı Bəhmən müəllimlə höcətləşmişdi: "Ay müəllim, ot istədim, mal –heyvan üçün saman, jmıx istədim, əsirgəmədim. Dedim, müəllim adamsan, hörmətli yoldaşsan, niyə gedib başqasına minnət edəsən, ağız açasan. Sonra uşağın üç – dörd fənndən qiymətini düzəltmək üçün xərclik istədin, eyhamla yuxarılara işarə vurdun, yenə ay pir olmuş, arif kimi işarəni göydə tutdum. Fəxri fərmanın pulunu əlüstü ovcuna basdım. Başımı piyləyib, məni aldatdın. Dedin ki, Salman kişi, bağ belə, bostan belə, pedinstitutun qapıları qızınızın üzünə açıqdə. Ləngimə, get sənədlərini ver, peşman olmazsan. Bu da axırı, indi neyləyirəm o verdiyin saxta "beş" ləri? Niyə məni vaxtında ayıltmadın? Fizikadan qəbul imtahanı götürən o çopur sifətli müəllimdən qır-saqqız olub yapışdım. Axırda mənə nə desə yaxşıdır? "Bu uşağın zehni var, amma elə bil, heç orta məktəb kursu keçməyib. Attestatına "beş" doldurmaqdansa, bir qanun, teorem

əzbərlətdirəydilər, başa salaydılar. İndi qatar keçib, ay anbardar Salman. (Müəllim yəqin ki, Salmanın vəzifəsini qabaqcadan soruşmuşdu). Telefonumu, ünvanımı götür, heç kəsə bu haqda bircə kəlmə də demə, görürəm, həqiqətən ata kimi zəhmətinə yanırsan, uşağın üstündə əsirsən. Savadı az da olsa qızın tərbiyəli uşaqdı, mərifətlidi. Bir təhərlə, növbəti dəfə qəbul imtahanlarını aşırdarıq. Daxil olandan sonra oxumağı mənim boynuma”.

Xatirə isə ki, Salman kişi, bağ belə, bostan belə, pedinstitutun qapıları qızınızın üzünə açıqdı.Ləngimə, get sənədlərini ver, peşman olmazsan. Bu da axırı, indi neyləyirəm o verdiyin saxta “beş”ləri? Niyə məni vaxtında ayıltmadın? Fizikadan qəbul imtahanı götürən o çopur sifətl müəllimdən qır-saqqız olub yapışdım. Axırda mənə nə desə yaxşıdır? “Bu uşağın zehni var, amma elə bil, heç orta məktəb kursu keçməyib. Attestatına “beş” doldurmaqdansa , bir qanun, teorem əzbərlətdirəydilər, başa salaydılar. İndi qatar keçib, ay anbardar Salman. (Müəllim yəqin ki, Salmanın vəzifəsini qabaqcadan soruşmuşdu). Telefonumu, ünvanımı götür, heç kəsə bu haqda bircə kəlmə də demə, görürəm, həqiqətən ata kimi zəhmətinə yanırsan, uşağın üstündə əsirsən. Savadı az da olsa, qızın tərbiyəli uşaqdı, mərifətlidi. Bir təhərlə, növbəti dəfə qəbul imtahanlarını aşırdarıq. Daxil olandan sonra oxumağı mənim boynuma”.

Xatirə isə təyinatla bu məktəbə düşüb. Gördükləri onu dəhşətə gətirir. O, mübarizəyə başlayır. Heç kim ona dayaq durmur, təkcə Kamil müəllimdən başqa. Ancaq geri çəkilmir və axırda istəyinə nail olur:

“... Ana, Bəhmən Bəhmənovun aqibətini gördün də? Pələng boyda kişi axırda balacalaşıb yumağa döndü. Sual olunur: Niyə? Öz əməllərinin hesabına. Çünki Kürəkçi boyda kənddə məktəbin ancaq formasını saxlamışdı, məzmununa əhəmiyyət vermirdi. Keyfiyyət yox idi. Ürək ağrıdan faktdır ki, bizim kənd məktəbinin məzunları ali məktəb qapılarından peşman qayıdırlar. Görürsünüz, axır haqq qalib gəldi. Təqaüd adıyla qoyub, 70 yaşına hörmət edib, məktəb direktorluğundan çıxardılar. Əslində, ana, o kişi öz səhvlərini dərk etməyəydi, çoxdan könüllü getməliydi...

- Bəs o boyda məktəbi kimə tapşırdılar? Fəzail müəllim hara getdi?

- Rayon maarif şöbəsi Qüdrət müəllim barədə müvəqqəti əmr hazırlatdı, iş ona tapşırıldı. Yəqin elə yeni direktorumuz da Qüdrət müəllim olacaq. Kimin ona sözü ola bilər? Obyektiv, savadlı, işgüzar adamdı, necə deyərlər, zər qədrini biləndir. Məktəb üçün yanır, uşaqları doğma övladı kimi sevir.

- Bəs Fəzail? Qızım, deyilənlərə görə, sənin kölgəni qılıclayanlardan biri elə Fəzail müəllim olub.

- Töhmət verib başqa məktəbə dəyişdilər...

- Bəs yerinə kimi qoydular?

- Tarix müəllimi var, adı Kamildir. Ona tapşırdılar?

Bu kiçik parçadan göründüyü kimi, nə qədər çətin olsa da, axırda ədalət qələbə çalır və Kürəkçi kəndi xoşbəxt günlərini yaşamağa başlayır.

"H.Mirələmovun "Qatar" adlı bir hekayəsi var. Yazıçı bu hekayədə orta məktəbi qurtarıb ali məktəbə imtahan verməyə gedən gəncləri təsvir edib. Ümumiyyətlə, hər kəsin bir tale qatarı var. İnsan bütün ömrü boyu bu qatarın sərnişinidir. Bir qatar da var ki, kənd məktəblərindən ali məktəblərə gəncləri və onların saf arzularını daşıyır. Bu, yazıçının qələmə aldığı "Qatar" dır. Ancaq bu da həqiqətdir ki, "Kürəkci kəndinin məktəbi" ni qurtaranlar bu "Qatara" minə bilmirlər. Yazıçını da narahat eləyən elə budur. O, istəyir ki, Azərbaycanın heç bir məktəbi "Kürəkçi kəndinin məktəbi" nə oxşamasın.

## "KÜRƏKÇİ KƏNDİNİN MƏKTƏBİ"

M.Baxtinin ədəbi düşüncəsinə, konkret söylədiyi fikrinə görə...sənətkar insan varlığı və aləmi ilə məşğul olduğuna görə, bu varlığın zəruri məqamı sayılan məkan durumu, zahiri hüdudları ilə də məşğul olmalıdır.

...Söz vasitəsilə sanki hazır məkan durumu təsvir olunur.

Bədii təsvir vasitələrindən ustalıqla istifadə edən yazıçı, yaxud şair oxucu təsəvvüründə nəinki istədiyi məkanı, hə də bu məkan daxilində baş verən hər hansı hadisənin, olayın təsadüf etdiyi dövrü, zamanı bütün təfsilatı ilə canlandıra bilir.

H.Mirələmov Mirzə Cəlilin xatirəsinə həsr etdiyi "Kürəkçi kəndinin məktəbi" hekayəsində 70-80- ci illər məktəbini, özü də kənd məktəbinin obrazını yaradıb. Yazıçı bu əsərində uğurlu bir başlanğıcla öz oxucusunun əlindən tutub 70-80 – ci illərə - doğulduğu kəndə, oxuduğu məktəbə apara bilir.

"- Üfüq yenicə qızarmış, lalə rənginə boyanmışdı. Dan üzünün sökülməyi neçə illərdi kənd məktəbinin müəllimləri üçün sanki təbii işarə idi. Yəni üfüq qızardımı, demək, hamı isti yorğan – döşəkdən durmalı, tz- tələsik geyinib – kecinməli, üz –gözünü yumalı, məktəbə tələsməli idi. Fərqi yoxuydu, dilinə nəsə dəydi, dəymədi. Əslində hamı öyrənmiş və adətkarda olmuşdu. Hələm-hələm bu adəti heç kəsin pozmağa cəsarəti çatmazdı. Və ayağa duranda çox zaman da müəllimlər yavan çörəyi qoltuqlarına vurub, utanıb – çəkinmədən elə yoldaca necə deyərlər, həzmi – rabedən keçirdilər. Əgər işdi –işayətdi, kimisə qaramat basırdısa , dərsə gecikirdisə və yaxud icazəsiz – filansız bircə saat dərs

buraxırdısa, həmin gün direktor Bəhmən cin atına minirdi, əlindəki coğrafiya çubuğunu oynada –oynada şirə - pələngə dönürdü."

Mən yuxarida təsadüfi olaraq Baxtini xatırlamadım. Diqqət yetirsəniz, povestdən misal gətirdiyim bu başlanğıc hissədə sovet dövrü məktəbinin, təhsilinin tələblərinə münasibət aydın görünür. Mənim əsas nəzərdə tutduğum görüntü odur ki, əsərdə söhbət açılan dövrdə hər kəsin övladı məktəbə getməli, elm öyrənə bilməsə də, ən azı oxumağı – yazmağı bacarmalı idi. Bunun üçün şəraitin olması vacib deyildi. Yəni ac olsan da, tox olsan da, lap şalvarının yeddi yerdən yamağı olsa da belə, məktəbə getmək vacib tələbat idi. Sovet təhsil sisteminin ən böyük dəyəri də elə bu idi ki, kasıbın da, varlının da uşağı məktəb yollarında bir-birini görər, eyni parta arxasında formalaşardılar. Doğrudur, sovet təhsilinin, məktəb- maarif işinin bu gün də barışa bilmədiyimiz qüsurlu tərəfləri vardır. Ancaq əsas prinsip, əsas deviz xalqın ümumi xeyrinə yönəlmişdi. Qısası, təhsilin məcburi olması əhalinin birbaşa maariflənməsinə kömək edirdi. Bəs bu gün necədir? Görəsə, Azərbaycanın bütün kəndlərində, qəsəbələrində, şəhərlərində hamının uşağı məktəbə gedə bilirmi? Yaxud bu və ya digər səbəb üzündən getməyənlər müvafiq orqanlar tərəfindən təhsilə cəlb oluna bilirmi? Əlbəttə, yox. Bəs səbəb nədir? Quruluşun dəyişməsi, kapitalizim sisteminə keçid? Kimsə belə düşünə bilər. Amma unutmaq olmaz ki, kapitalizm sivil inkişaf formasıdır. Orda ən azı hər kəsin məktəbdə oxuması, gələcək dolanışığı üçün hər hansı sənətə yiyələnməsi üçün maddi bazası olmalıdır. "Kürəkçi kəndinin məktəbi"ndə müəllif yazır ki, (mən təkrarən həmin fikrə müraciət eirəm) üfüq qızardımı, deməli, hamı isti yorğan – döşəkdən durmalı, tələsik geyinib – kecinməli, üz – gözünü yumalı, məktəbə tələsməli idi.

Bu gün isə bu vərdişi hamıya ünvanlamaqdan adam çətinlik çəkir. Ona görə ki, indi ayda 7-8 "şirvana" gözünü dikən valideynlər az deyil. Onların qazandıqları heç bir kisə unun haqqını ödəmir. O ki, qaldı uşaqlarını məktəbə göndərənlər, məktəb ləvazimatı, əyin –başla təmin edələr. Hələ mən heç uşaqlardan qeyri – qanuni yolla alınan "süpürgə pulunu", "fond pulunu", "işıq pulunu", "sinif otaqlarının təmiri" üçün yığılan pulları demirəm. Bunları da fikirləşəndə bir qarnı ac, bir qarnı tox ailə dolandıran ata – ana ümumiyyətlə övladını məktəbə göndərməkdən imtina edir. Odur ki, ilin – günün bu çağında, səhər açılanda uşaqlarını məktəbə deyil, başqa səmtə- ruzi dalınca yola salan ailələr Azərbaycanda istənilən qədərdir. Bu yazdıqlarımın Kürəkçi kəndinin məktəbinə heç bir aidiyyatı yoxdur. Sadəcə olaraq əsərdən ilkin oxuduğum parça mənə keçmişlə bu günü müqayisə etməyi sövq etdi. Ancaq bunlar məsələnin zahiri tərəfidir. Gəlin görək "Kürəkçi kəndinin məktəbi"ndə nələr baş verir və müəllif hansı problemlərdən söhbət açır. Heç şübhəsiz ki, həmin problemlərin bir çoxu bu gün də öz həllini tapa bilmədiyindən əsər bugünkü həyatı ilə də səsləşir.

Əsərdən bir məqama diqqət edək. "- O zaman Kürəkçidə işıq yoxuydu, məktəbin zəngi iki dəmirin bərkdən bir – birinə döyülməsi ilə çalınırdı. Və hətta həmin dəmirlərdən qığılcım da qopurdu, çox vaxt da bu hadisə balacaları qorxudurdu. Uzun illərdən sonra uşaqlar sinifdən – sinfə keçmiş, fizika fənnindən ""işıq" bəhsini öyrənmiş, dəmirlərdən qopan qığılcımların sürtünmə nəticəsində yarandığını elmi surətdə anlamışdılar. Bax məktəb zəngi xofu o vaxtdan ürəklərə nisgil salmışdı. Və o hadisədən sonra Kürəkçidən müharibəyə gedənləri də zəng səsi əbədiyyətə aparmış, heç kəsdən səs- soraq çıxmamışdı."

Kürəkçi kəndi ucqar dağ kəndidir. Təbii ki, müharibədən sonrakı illərdə də ola bilsin ora elektrik xətləri çəkmək bir qədər çətin olub. Bu, təəccüblü deyil. Təəccüblü odur ki, Kürəkçi kəndinin məktəbində bu gün də elektrik zəngi çalınmır. Çünki bu sahədə yeganə fərq ondan ibarətdir ki, o vaxt işıq dirəkləri olmayıb. Amma indi rayon mərkəzindən kəndə qədər işıq dirəkləri basdırılıb, naqillər çəkilib. Enerji isə hələ də yoxdur. Adamın yadına lap Hadı ilə Bıdının əhvalatı düşür. Birinci bıçağının sapı var, tiyəsi yoxdur, o birinin isə sapı var, tiyəsi yoxdur. Kürəkçinin məktəbi də elə işığı kimidir. Məktəbdə dərsə davamiyyət var, elm öyrətmək yoxdur. Diplomlu, ali təhsilli müəllimlər var, savadları yoxdur. Savadı, biliyi, pedaqoji ustalığı, bir sözlə, qabiliyyəti olan kadrları da bu məktəbdə çalışmağa imkan vermirlər. Kimlərdir bunlar? Rayon təhsil şöbəsinin məktəbin idarəetmə sisteminə təyin etdiyi adamlar. Məktəbin direktoru – 2 – nin üstünə 2 gəlməyi bacarmayan, yalnız öz portbiletinə arxalanan Bəhmən Bəhmənov "cənabları". "Ələkçinin qılvərəni" ayaması ilə tanınan tədris hitssə müdiri Fəzail müəllim. Və bir də vəzifəli qohum -əqrəbaları ilə tanınan, daha doğrusu, puluna, imkanına görə, Bəhmən Bəhmənovun özünə yaxın sirdaş seçdiyi idman müəllimi Zakir.

B.Bəhmənov ixtisasca coğrafiya müəllimidir. Düzdür,qitələrin adını düz - əməlli saya bilməsə də, ixtisasının ona verdiyi yeganə aləti coğrafiya çubuğunu əlində yaxşı saxlaya bilir. O da Bəhmən Bəhmənova süni şəkildə əsəbləşdiyini yan – yörəsindəkilərə bildirmək üçün yamanca karına gəlir: - Əgər işdi –işayətdi kimisə qaramat basırdısa, dərsə gecikirdisə, və yaxud icazəsiz- filansız bircə saat dərs buraxırdısa, həmin gün direktor Bəhməncin atına minirdi, əlindəki coğrafiya çubuğunu oynada – oynada şirə - pələngə dönürdü.

Əslində bunların hamısı sosializm prinsiplərindən irəli gələn yalançı formanı, görüntünü yaratmaq məqsədi daşıyır. Daxildə isə məktəbin direktoru cinayət xarakterli əməllərə qol çəkir Saxta attestatlar verir, şagirdlərin süni surətdə qiymətlərinin şişirdilməsini tələb etməklə məktəbdə təhsil səviyyəsinin yuxarı olmasına nail olur. Ancaq yalan ayaq tutar, yeriməz deyiblər. Saxta rəqəmlərin, saxta göstəricilərin sirri uzunömürlü olmur. Kürəkçi kəndindən respublikanın ali təhsil ocaqlarına hər il sənət verən məzunlar kor – peşman ürəklərində

B.Bəhmənova nifrət hissi ilə geri qayıdırlar. Orta məktəbdə aldıqları yalançı qiymətlər kara gəlmir. İnstitut müəllimlərinin qəbul imtahanlarında verdikləri ən bəsit suallara belə cavab tapa bilmirlər. Belə yerdə deyiblər: "O şagird ki, ustadını keçməyə nə şagirddi" .Bəhmən müəllimin şagirdləri də görünür bu amala dönük çıxmırlar. Direktor özünün təşkilatçılığını addımbaşı gözə soxsa da, savadsızlığı hər yerdə onun üzünü qaraldır.

Müəllif əsərdə Bəhmənin tələbəlik illərini yada salmaqla, bu obrazın savadsızlığını, son dərəcə korafəhm olduğunu bütün detallarına kimi açıb – göstərə bilir:

...Semestr imtahanıydı. Bəhmən bilet çəkib oturdu. Həmişəki kimi tapşırılmışdı. Ona görə arxayınıydı. Suallar ətrafında fikirləşməkdənsə, qənşərindəki kağızda şəkil çəkir, vaxt əridir, növbəsinin tezliklə çatmağını gözləyirdi. Birdən imtahan otağının qapısı açıldı. Prorektor iki nəfərlə icazəsiz – filansız içəri girdi:

- Tələbələrin hazırlığı necədir, Qəhrəman Bağıroviç? – fənn müəllimini imtahana çəkdi.

Qəhrəman müəllim canfəşanlıqla dil – ağız elədi və prorektorun onlarla dərslik müəllifi olduğunu, təkcə Azərbaycanda yox, bütün dünyada nüfuzlu coğrafiyaçı alim olduğunu bir daha tələbələrin nəzərinə çatdırdı.

Tərslikdən prorektor düz Bəhmənin yanınacan addımladı, gözünü gözünə zillədi və dili –ağzı qurumuş, hələ də özünə gəlməmiş Qəhrəman müəllimdən məhz boylu – buxunlu qiyabiçi tələbənin öz biletinin suallarına cavab verməsini xahiş etdi. Onunla birgə gələnlər də diqqət kəsildilər. Bəhməni elə bil ilan çaldı, bir andaca özünü itirdi. Ətli sifətini tər basdı. Nəhayət, canını dişinə tutub qabağa yeridi. O, nəinki suallara cavab vermək iqtidarında deyildi, heç biletə düçmüş dörd mövzunun adlarını belə düz- əməlli oxuya bilmirirdi. Bəhməndən kəlbətinlə belə söz qopartmağın mümkünsüzlüyünü görən prorektorun təəccübdən gözləri böyümüşdü. İmtahan biletini əlindən alıb dörd qatlamış, narazı halda Qəhrəman müəllimə uzatmışdı. Əlacı kəsildiyindən adi köməkçi sualla tələbəni vəziyyətdən çıxarmaq istəmişdi: "Deyə bilərsənmi, Afrika qitəsi ilə Ərəbistan yarmadasının arasındakı dənizin adı nədir? O dənizin suyu niyə qırmızıdır?" Əslində, prorektor "dənizin suyu niyə qırmızıdır?" söyləməklə auala cavab da vermişdi. Yəni yaşıl qitə ilə Ərəbistan yarımadası arasında Qırmızı dəniz yerləşir. Bəhmənin isə bunu anlamağa fəhmi belə çatmamışdı. Onda "Sənin coğrafiya fakültəsinin üçüncü kursunda oxumağın cinayətdir", - prorektor da qırmızı- qırmızı yaman yerdə axşamlayan Bəhmənə boz üzünü göstərmişdi. Və həmin gün aldığı " qeyri -kafi" düz il yarım Kürəkçi məktəbinin çoğrafiya müəllimini Bakının küçələrində süründürmüşdü. Təbiətən qılıqlı, həyatda əyrim –üyrüm yolları əzbər tanıyan

Bəhmən "iki" ni düzəltmək üçün ilan dili çıxarmışdısa da, kimə ağız açmışdısa, "O kişi eşidər, dədəmə od vurar", - söyləmiş, bu işdən boyun qaçırmışdı.

Beləliklə, kursda qalmışdı Bəhmən. Yalnız 52 yaşında infaktdan vaxtsız vəfat etmiş görkəmli alim barədə qəzetdə nekroloq dərc ediləndə tələbə yoldaşı Tərlan Bəhməni "bəd xəbərlə" muştuluqlamışdı. Bəhmənin də üzü gülmüş, ölənin dalınca o ki var danışmışdı. Kursdan – kursa keçə bilmiş, ali məktəbi nisbətən rahat başa vurmağa müvəffəq olmuşdu.

Bir faktı da burda qeyd edim ki, B. Bəhmənov obrazı 80- ci illə kənd məktəblərinə direktor təyin olunan müəllimlərin əsas səciyyəvi xüsusiyyətlərini özündə birləşdirir. Məsələn, mən 1987- ci ildə orta məktəbi bitirmişəm. Doğulduğum rayonda tanıdığım məktəb direktorlarının əksəriyyəti savadslz, amma eyni zamanda təşkilatçılığı bacaran adamlar idilər. Belələrinin faciəsi həm də ondadır ki, məktəbə təyinat almış istedadlı müəllimləri görməyə gözləri olmur. Müxtəlif bəhanələrlə onları sıxışdırmağa səy göstərir, əllərindən heç nə gəlməsə də, dərs saatlarını azaltmaqla təskinlik tapırlar.

"Kürəkçi kəndinin məktəbi"nin müsbət qəhrəmanı Xatirə müəllimə də istedadlı gəncdir. İnstitutu yenicə bitirib Kürəkçiyə ədəbiyyat fənnini tədris etməyə gəlir. Onun dərs dediyi ilk gündən etibarən jurnalda şagirdlərin qiyməti birdən – birə 5- dən 2-yə enir. Müəllimə görür ki, gündəlikdə 4-5 – lə qiymətləndirilmiş şagirdlər heç hərfləri düzgün yazmaq qaydasını da bilmirlər. Odur ki, obyektiv qiymətləndirmə yolunu seçməklə uşaqlara kimin nəyə qadir olduğunu başa salmaqla yanaşı, həm də böyük enerji ilə sevdiyi ədəbiyyat fənninin incəliklərini öyrədir. Əvvəl -əvvəl jurnalda qeyri – kafi qiymətlərin çoxaldığını görən Bəhmən Bəhmənov qəzəbini boğa bilmir. Daha Xatirəyə "perspektivli kadr" kimi yox, "köhnə bazara təzə nıx qoyan" bir adam kimi baxır. Dəfələrlə pedaqoji şurada kollektivi onun əleyhinə qaldırmağa səy göstərir. Lakin bütün ümidləri boşa çıxır. Xatirə ixtisasını mükəmməl bildiyi kimi, müəllim hüquqlarını da yaxşı bilir. Məktəbin direktoru B.Bəhmənov, eləcə də onun "ələkçiyə qılverən" müavini Fəzail müəllim dərk edirlər ki, bu həna o hənadan deyil. Əks – təqdirdə onlar özləri mövqelərini tərk etməlidirlər. Nəticədə, elə belə də olur. B.Bəhmənova partbiletinə görə hörmət edib töhmətləndirmədən 70 yaşında təqaüdə göndərməklə direktorluqdan çıxarırlar. Fəzail müəllimi isə töhmətləndirib başqa məktəbə göndərirlər. Xatirə müəllimənin məktəbə gəlməsi Kürəkçi kəndinin taleyində mühüm rol oynayır. Məktəbdə həyat öz axarına düşür, kəmiyyət göstəriciləri arxa plana keçir. Xatirənin təşəbbüsü ilə məktəbdə qiymət biliyə və əxlaqa görə yazılır.

# “ MƏNƏVİYYATIN EKOLOİASI, YAXUD İKİ OD ARASINDA”

## YAZIÇI SÖZÜNƏ CƏMİYYƏTİMİZİN BÖYÜK EHTİYACI VAR

İndi sərhədlər açıqdır. Avropa ölkələrinə, Amerika və digər xarici ölkələrə gedib – gəlmək su içimidir. Əlbəttə, imkanlı adamlar üçün. Eləcə də sərhədlərin açıq olması imkan verir ki, müstəqillik qazanmış respublikamız bir sıra xarici ölkələrlə iqtisadi, siyasi və mədəni əlaqələr qura bilsin. Artıq həmin ölkələrlə alış – veriş edirik, bazar və dükanlarımız əcnəbilərin yeyinti məhsulları və sənayə malları ilə ağzınacan doludur. Buna pis baxmırıq. Özündə yoxdursa, başqalarından pul verib almalısan. Eyni zamanda özündə artıq olanı da başqasına verməlisən. Məsələ burasındadır ki, ölkəmizə təkcə əcnəbi ticarət məhsulları idxal olunmur, bununla yanaşı, əcnəbi mənəvi dəyərlərlə də idal olunur və mənəviyyatımızı bu yad təsirlər aşınmaya məruz qoyur. Məni isə narahat edən budur. Bu barədə az-çox ürəyimdən keçənləri yazmağa çalışmışam. Ancaq bu dəfə məni bu mövzuda bir daha yazmağa məcbur edən yazıçı – publisist Hüseynbala Mirələmovun “Kredo” da (24 aprel 20014-cü il, N-33-34 (203-204)) çap olunmuş “ Mənəviyyatın ekologiyası, yaxud iki od arasında” adlı publisistik düşüncələri oldu. Günümüzün reallığını əks etdirə bu məqalə yazıçı qəlbinin döyüntüləridir. Mən bu döyüntülərə ağrıya-ağrıya qulaq asdım. H. Mirələmov yazır: “Azərbaycan müharibədən çıxmayıb, hələ torpaqları işğal altındadır. Sadəcə təmas xəttində nisbi sakitlikdir. Ancaq məndə bir əminlik var ki, biz

torpaqlarımızı erməni faşistlərinin işğalından azad edəcəyik. Tarixən əksər xalqlara qarşı ədalətsizliklər olub və gec –tez həmin xalq qanı bahasına olsa belə, haqqını qaytarmışdır. Mən daha təhlükəli müharibə haqqında danışmaq istəyirəm. Bu, mənəviyyatımızda gedən müharibədir. Mən his edirəm ki, hər gün, hər saat, hər an mənəviyyatımızda aşınma gedir və biz yad təsirlərin mənəvi işğalına məruz qalırıq...” Bu, danılmaz həqiqətdir, nə qədər acı olsa belə. Yaxşı yadımdadır, H. Mirələmov təqribən 5-6 il bundan qabaq deyirdi ki, belə olmaz, mənəviyyatımızda çatlar yaranıb. Bunu o zaman demişdi ki, hələ onda yad mənəvi dəyərlər beynimizi işğal eləməmişdi. İndi o mənəvi çatlar “mənəvi yarğanlarla” əvəz olunub. Bu həqiqəti, bu ağrını Hüseynbala Mirələmovun hər cümləsində, hər sətrində duymaq olur. Bax məni kədərləndirən budur. İstər - istəməz belə sual gəzib – dolaşır: “Görəsən, babalarımızdan bizə miras qalan adət - ənənələrimizi, əxlaqi dəyərlərimizi nə üçün qoruyub saxlamırıq, fələyin badına veririk? “ Bu sual məni rahat buraxmır və cavab tapa bilmədiyimə görə yenə də kədərlənirəm. Ancaq boynuma alıram ki, H. Mirələmov “Mənəviyyatın ekologiyası, yaxud iki od arasında” publisistik düşüncələri həm də məni sevindirdi. Sevindirdi ona görə ki, yad təsirlərin mənəvi işğalına məruz qaldığımız bir zamanda Azərbaycanın üzdə olan, tanınmış ziyalılarından biri buna biganə qalmır, dözməyib ürəyinə yığılanları heç olmasa, kağıza “boşaldır”. Çünki yazıçı demişkən : “ Söz silahıdır. Özü də ən qüdrətli silah. Bu gün yazıçıların kəsərli sözünə, birbaşa sözünə, açıq sözünə cəmiyyətin ehtiyacı var. Qəlbində vətəndaşlıq yanğısı olmayanlar günümüzün reallıqlarına biganə qala bilər” . Bir də sevindim ona görə ki, H. Mirələmovun bu məqaləsi təsirsiz ötüşmədi, əks-səda doğura bildi. Bir çox qələm adamlarının müzakirə obyekti oldu. Bəli, Hüseynbala müəllim sözünü dedi, onun ardınca yazıçı- tədqiqatçı Əjdər Fərəzli və Xalq şairi Söhrab Tahir sözlərini dedilər və çox istərdim ki, başqa tanınmış söz sahiblərimiz də sözlərini desinlər. Çünki onların sözünə cəmiyyətimizin böyük ehtiyacı var. Biz elə bir xalqıq ki, həmişə böyüklərin dediyi ilə oturub – durmuşuq, ən çətin, ağrılı məqamlarda yazıçı və şairlərimizin sözünü çevirib iki eləməmişik. Onların arzu və istəkləri xalqın arzu və istəklərini ifadə edib. Necə ki, h. Mirələmovun istəyi elə hər bir azərbaycanlının istəyidir... “Mən istəyirəm ki, Azərbaycanda hər hansı bir memarlıq abidəsi tarixi köklərə, ənənələrə söykənsin, Azərbaycana gələn hər hansı bir qonaq önündə dayanıb baxdığı abidədən hansı ölkədə olduğunu, hansı xalqın arasında dayanmasını dərk eləsin...”

Hər bir millətin mentaliteti olur və buna görə də digər millətlər içərisində seçilir. Fikir vermisinizmi, ömrünü qürbətdə yaşayan bir azərbaycanlı qayıdıb gələndə onda millilikdən əsər - əlamət qalmır; yerişini- duruşunu, hətta sözünü belə dəyişir. Hər bir millətin özünəməxsus memarlıq abidələri, adət- ənənələri, əxlaq ölçüləri, məişəti və s. olur ki, əgər bunları onun əlindən alsaq, milliliyini

itirər. Bakı Azərbaycanın və azərbaycanlıların baş şəharidir. Təəssüf ki, paytaxtımızda gedən tikililər milli memarlığımıza bir qədər uyğun gəlmir. Bizim qədim şəhərsalma tariximiz var. Şəhər təkcə torpağın üstündə salınmır, eyni zamanda torpağın altında salınır. Günü- gündən çoxalan hündür binaların tikintisini alqışlamaq lazımdır. Ancaq bu tikinti yaşıllıqların hesabına getməməlidir. Köhnə evlər üçün nəzərdə tutulmuş kanalizasiya sökülüb yeni binalara uyğunlaşdırılmalıdır. Heç olmasa, köhnə evləri kölgədə qoyan çoxmərtəbəlilərin həndəvərində yaşıllıqlar salınmalı, uşaq bağçaları və məktəblər tikilməlidir. Mən memar olsam da, gələcəkdə bizi haqlayan ağrını indidən görürəm. Ancaq ən qorxulusu odur ki, tikinti zamanı Avropa memarlığına üstünlük veririk. Hətta evlərimizi də Avropa üslubunda təmir etdirib, qapımıza da Avropa qapıları asırıq. Düzdür, Avropaya qapı açmışıq. İstəsək də, istəməsək də Avropadan nəyisə götürməliyik. Ancaq bir şərtlə ki, özümüzünkünü itirməyək. Sözümə söykək çıxsın deyə, O.N. Topbaşın "Mövlana dərgahından əsintilər" kitabından oxuduğum bir parçanı nəzərinizə çatdırmaq istəyirəm: "... Məlumdur ki, II Bəyazid dövrü Osmanlı mədəniyyətinin təməllərinin atıldığı dövrdür. Elə o dövrdə məşhur İtaliya rəssamı Leonardo de Vinçe II Bəyazidə məktub göndərir. Məktubda yazır ki, mən İstanbulda came və digər memarlıq abidələrinin layihəsini işləmək istəyirəm. Bütün saray əhli sevinc içərisindədir; zarafat deyil, o boyda rəssam İstambulu tikəcək. II Bəyazid isə yanındakıları məyus edir. O, deyir ki, biz buna razı ola bilmərik, çünki belə olsa, ölkəmizdə kilsə memarlığı hakim olacaq, onda biz Şərq – islami memarlığımızı inkişaf elətdirə bilməyəcəyik..."

Doğrudan da, ağıl buna deyirlər. Milli ornamentlərlə zəngin olan binalarımız çoxdur. Ölkəmizə gələn qonaqlar elə bu binalara görə bizi tanıyırlar. Avropa memarlıq üslubunda olan binalar isə onlardan çoxdur və onların gözlərini döyənək edib. Axı biz Şərq ölkəsiyik. İndi bərk- bərk vurulduğumuz Avropa həmişə Şərq təfəkküründən faydalanıb.

Ərəb ölkələrində çadraya xüsusi meyl var. Biz isə çadranı atıb "Azad qadın" heykəli yaratdıq. Bədbəxtliyimiz isə elə o vaxtdan başladı. Həmin azad qadınlar yazıçı – publisist Sahib Abdullayevin yazdığı kimi, evə qonaq çağırmağa başladılar. Ərəb ölkələrində yetkinlik yaşına çatan qızlara çadra almağı toy – bayram kimi qeyd edirlər. Çadranı qızın isməti kimi qiymətləndirirlər. Bəlkə də, mən mühafizəkarlıq edirəm. Ancaq bu günki qızların bu qədər açıq – saçıq geyindiyini görəndə nədənsə çadra yadıma düşür. Kişi və qadın geyimləri arasında fərq itib. Elə bu fərq kişi və qadınlar arasında da itib. Kişilər də (yaxşı ki, bunların sayı azdır) saçını boyayır, gözünə "linza" qoydurur, manikürə, pedikürə gedir, qadınlar da.

Bu günlərdə bir dostumla "Elmlər Akademiyası" metrosunun yanında dayanmışdıq. Dostum dedi:

- Sənə bir "anekdot" deyim?
- Bəli!

O, universitetə gedən uşaqları əli ilə göstərib dedi: - Bunlar elə bilirlər ki, oxumağa gedirlər. Dostumun dillənmədiyini görüb soruşdum:

- Qurtardın?
- Hə!

Doğrudan da, ağır "anektod" dur. Bu günlərdə iki tələbə qızdan eşitdiyim söhbət onların necə "oxumaları" barədə təsəvvür yaradır. Onların söhbətlərindən mənə aydın oldu ki, indi oxumaq istəyənlərə birtəhər baxırlar. Qiymət almaq üçün ya pul verməlisən, ya da fənn müəlliminin kitabından birini almalısan...

İndi kəndlərimizdə elə məktəblər var ki, onların işi Allaha qalıb. Müəllimlər və şagirdlər sinif otaqlarında yox, örüşdə görüşüb siqaret mübadiləsi edirlər. Kəndlərdəki kitabxanaları hörümçək toru basıb. Ancaq vaxt varıydı ki, kitablar bizim üçün əyləncə vasitəsiydi. Kitablarla yatıb – durardıq. Televizor hər birimizin evində var və səhərdən axşamadək bu məişət cihazını qabağındayıq. Televiziya ilə bütün dünyanı evimizə gətiririk. O dünyanın içində isə hər şey var. Qəddarlıq təbliğ edən kinolar da, açıq – saçıq səhnələr də. Dərd də burasındadır ki, ağlımıza sığışdıra bilmədiyimiz səhnələr günün günorta çağı göstərilir. Bir nəfər həmkarım danışırdı ki, televizora baxırdım. Təbii ki, ailəliklə. Birdən öpüşmə səhnəsi göstərdilər. Balaca oğlum soruşdu ki, ata, onlar nə edirlər? Qaldım, mat-məəttəl. Yalandan dedim ki, oğlum, qızın ürəyi gedib, oğlan ona nəfəs verir.

Televiziya ekranlarında yayımlanan reklamlar isə lap biabırçıdır. Sadəcə baxmağa xəcalət çəkirsən. Məgər buna nəzarət etmək olmazmı? Yaxud da məzmunsuz klipləri, çılım- çılpaq, "qışqıran müğənni" lərin ekranlara gedən yolunu kəsmək olmazmı? Əlbəttə, olar. Elə biz də bunu istəyirik. Bu gün televiziya uşaqların tərbiyəsində mühüm rol oynayır. Buna görə də televiziya verilişlərinin keyfiyyətinə diqqət yetirilməlidir. Reklamların hazırlanmasında və kinolarda milli adət- ənənələrimiz unudulmamalıdır. Axı hər şeyi pula qurban vermək olmaz. Pula hər zaman qazanmaq mümkündür. İtmiş mənəviyyatı qaytarmaq isə çox çətindir. Mən isə mənəviyyatımızın işğalının kökünü televiziyada görürəm. Gördüyüm üçün isə susa bilmirəm. Çünki ağzımıza su alıb durduqca, boyatıyıb zəhrimara dönür və mənəviyyatımız çirklənir. Nə qədər ki, belə davam edəcək, milli simamızı itirəcəyik.

Axırda mən yazıçı H.Mirələmova belə bir mövzunu gündəmə gətirdiyinə görə təşəkkür edirəm. Çünki mənəvi eybəcərliyi, əxlaqsızlığı, üstümüzə yeriyən mənəvi işğalı görüb susduqca, millətimizin səsini eşidə bilməyəcəyik.

# DANIŞAN HEYKƏLLƏRİN İTTİHAMI

Azərbaycanın mədəniyyət beşiyi, Azərbaycan zəkasının od aldığı ulu torpaq, Qarabağın döyünən ürəyi, məmləkətin tacı sayılan Şuşa həm də Azərbaycanın əyilməzlik simvolu, qeyrət qalası idi. 1992- ci il mayın 8-i ermənilər tərəfindən işğala məruz qaldı. Şuşanın itirilməsi Azərbaycanın digər ərazilərinin də işğal olunmasına, ermənilərin mövqelərinin güclənməsinə səbəb oldu. Qısa müddətdə Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Zəngilan və Cəbrayıl rayonları da bir – birinin ardınca düşmən qüvvələrinə təslim edildi. Şuşanın itirilməsindən bizi 12 illik zaman fasiləsinin ayırmasına baxmayaraq, min illər boyu alınmaz qala sayılan, tarixin ən ağır sınaqlarına sinə gərmiş, Şərqin ən qüdrətli sərkərdələrinə boyun əyməyən, dünya hərb tarixində amabsızlığı və son dərəcə qəddarlığı, mükəmməl döyüş taktikası, qeyri –adi biliyi və bacarığı ilə seçilən Ağa Məhəmməd şah Qacarın 100 minlik ordusuna, Abbas Mirzənin 80 minlik, Fətəli şah Əfşarın 60 minlik ordusuna təslim olmayan bu dağlar şəhərinin ermənilər tərəfindən asanlıqla istila olunmasının səbəbləri hələ də açılmamış, qaranlıq. Əslində ona görə qaranlıq qalır ki, Şuşa, eləcə də digər ərazilər xəyanətinin qurbanı oldular.Yoxsa Şuşaya ermənilər necə girə bilərdilər? O yerlərə bələd olan hər kəs yaxşı bilir ki, Şuşa qalasına yalnız iki səmtdən yol var idi. Laçın və Xankəndindən gələn həmin yolların minalanması və yaxud cüzi bir qüvvə ilə etibarlı müdafiə olunması bəs edirdi ki, ora heç bir müasir hərbi texnika, eləcə də ən müasir hərbi təlim görmüş canlı qüvvə girə bilməsin. Amma nə yazıqlar olsun ki, xəyanət öz işini gördü. Artıq 12 ildir ki, Şuşasızlıq dərdinə

ağladıq, yas tutduq. Bəs etməzmi? İslami dəyərlərə görə ən nüfuzlu şəxsin itkisinə, ölümünə ağlamaq, yas tutmaq üçün 40 gün hörmət- izzətdən sayılır. Bir də ki, ölənlə ölmək olmaz, deyiblər. Nə də ki, indiyədək ağlamaqla heç bir ölünün dirildiyini hələ görən olmayıb. Onda görəsən, "ağladıqca kişi qeyrətsiz olar" deyən şairi bütün zamanları fövqündə saxlayan misralarının əbədi həqiqətindən nəticə çıxarmağımızın vaxtı çatmayıbmı? Əlbəttə, çoxdan çatıb. Yetər ağladığımız, yetər yas tutduğumuz, yetər gözlədiyimiz, nəhayət, yetər qeyrətsiz olduğumuz. Silaha sarılıb günü-gündən iştahı artan, böyük Ermənistan iddiasıyla Azərbaycan torpaqlarını zəbt edən düşmənin dilini kökündən çıxarmasaq, nə itirdiklərimizi geri ala bilər, nə də ki, işğalçı erməni əsgərlərinin beynini tarixi saxtalaşdırmaqla zəhərləyən Zori Balayanın "Ocağ"ını söndürə, nə də X.Abovyanın "Ermənistan yaraları" na öz dəstimizlə məhəl qoya bilərik. Hansı yolla olursa – olsun Şuşa geri alınmalıdır. Bəlkə də biz dünyada yeganə xalqıq ki, işğalçı ordunun ərazilərimizi öz xoşuna – dinc yolla tərk edəcəyinə inanırıq. Bəzən mənim tarixçi alimlərin, araşdırıcıların mətbuatda, televiziyada, radio verilişlərində Qarabağın tarixi Azərbaycan torpaqlarının bir hissəsi olduğunu sübut edən dəlillərə, tarixi faktlara istinad etməsinə gülməyim gəlir. Bu, ona bənzəyir ki, kişinin arvadını və yaxud ananın doqquz ay qarnında gəzdirib dünyaya gətirdiyi, böyüdüb ərsəyə çatdırdığı övladını əlindən zorla alasan, o da tüfəngi götürüb həyatına, namusuna mudaxilə edəni öldürmək əvzəzinə, şahid, sübut axtara ki, bu, mənim halalca arvadım idi, yaxud deyə ki, mənim balamın yanağında xalı vardı. Bəyəm biz onu da görmürük ki, demokratiyanın , azadlığın beşiyi sayılan Amerika qonşu dövlətlərlə bütün mübahisəli məsələləri hərbi yolla nizama salır. Unutmaq olmaz ki, torpaq uğrunda can verənlərindir. Baxmayaraq ki, Qarabağ Azərbaycanın əzəli və əbədi torpağıdır.

Mənə elə gəlir ki, mayın 7-i yazıçı dramaturq Hüseynbala Mirələmovun Şuşanın işğalına həsr olunmuş "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi əsasında Şuşa Dövlət Musiqili Dram Teatrının hazırladığı tamaşanın baxışına gələnlər bir daha bu həqiqəti anladılar. Səhnədə güllələnmiş heykəllərin qəzəbinə və ittihamına tuş gələnlər tamaşaçılar Qarabağ nisgilinə, Şuşa həsrətinə dözməyin vaxtı bitdiyini, Xocalı qisasını yağıdan almağın məqamının çoxdan yetişdiyini dərk etdilər.

Sənətin ecazkar təsiri ilə mənəviyyatları silkələyən hisslərin, duyğuların mənəvi məhkəməsinə düçar olmuş adamlar hələ tamaşanın başlanğıcında Qarabağın şeyda bülbülü Xanın səsinin sehrində sanki Bakıdan Qarabağa, Şuşa qalasına, Cıdır düzünə, İsa bulağına qədər yol getdilər. Bu ilahi səsin qanadlarında qəriblikdən ürəyi köz- köz, elə həm də göz-göz olmuşlar təşnə dodaqlarını İsa bulağının gözünə söykəyib həsrətdən təndir kimi qızarmış sinələrinin havasını bir az aldılar. Qarabağın ölməz yadigarı Xan Şuşinskinin şirin,insana min dürlü

nemət bəxş edən səsində bir az nəfəs dərdilər, bir az uyudular, bir az da duruldular. Bəli, Xan əmi oxuyurdu.

Şuşanın dağları seyrək dumanlı,
Qırmızı qoftalı, yaşıl tumanlı,
Dərdindən ölməyə çoxdur gümanlı,
Ay qız bu nə qaş- göz, bu nə fel?
Ölürəm dərdindən onu bil.
Danışmasan da, bala, barı gül!

Bəyəm təkcə Xan əmi idimi bu sirli, möcüzəli diyarın sorağını külli- aləmə, bütün Şərqə yayan? Gör bu əzəmətli sırada dayanan neçə-neçə bənzərsiz sənətkarlar, ədiblər, muğam korifeyləri,ədəbiyyat qazanmış sənət fədailəri dünyaya gətirib Şuşa. Molla Pənah Vaqif, Xurşudbanu Natəvan, Fatma xanım Kəminə, Qasım bəy Zakir, Mir Mövsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdülrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Həmidə xanım Cavanşir, Validə xanım Tutayuq, Üzeyir bəy Hacıbəyov, fikrət Əmirov, Bülbül, Lətif Kərimov, Niyazi, Mehdi Məmmədov, Rəşid Behbudov, Seyid Şuşinski, Cabbar Qaryağdıoğlu və adını çəkmədiyim neçə belə böyük dahilər. Təkcə musiqi sahəsində məşhur olan Şuşa yetirmələrinin adını saymaqla bitib – tükənən deyil.

H. Mirələmovun "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi əsasında hazırlanmış film – tamaşaya baxmışdım. Bundan sonra Şuşa teatrının təkrar bu mövzuya müraciət etməsindən nəsə bir yenilik və tamaşaçılar üçün maraqlı görünəcək hər hansı bir nüansı gözləmirdim. Amma sən demə, sənətdə hər zaman yenilik etmək mümkün imiş. Təki, istedadlar olsun. Şuşa teatrının çox gənc və istedadlı kollektivinin nümayiş etdirdiyi tamaşa həqiqətən uğulu və kifayət qədər məqsədyönlü təsir yarada bildi. Əvvəla, tamaşaya qoyulan əsərlə tanış olmayanlar belə, tamaşaya baxdıqca Şuşanın keçmişi, yaranma tarixi ilə bağlı əhatəli məlumat ala bildilər. İkinci bir tərəfdən tamaşanın səhnə tərtibatının gözlənilməsi, baş verən hadisələrin Şuşanın qala divarları qarşısında cərəyan etməsi təbii bir mənzərə yaratmışdı. Tamaşanın musiqili bədii kompazisiya şəklində qurulması da bir növ tamaşaçı marağını artırırdı və bu quruluşçu rejisor Nazir Rüstəmovun əməyi kimi qeyd olunmalıdır. Eyni zamanda bu tamaşada Azərbaycanın teatr məkanında demək olar ki, ilk dəfə rast gəlinən bir yeniliyin də müşahidə olunması maraqlı hal idi. Videotexnikanın vasitəsilə Şuşanın təbiətini, mətnə uyğun təsvirlərini daim diqqətə çəkən rejissor səhnəyə qoyulan əsərin daha da uğurlu alınması üçün effektli bir vasitəyə müraciət etməklə yeni nailiyyət əldə etmişdir. Və əslində bu istifadə olunan rejissor priyomu müvafiq teatr səhnələrinin

əksəriyyətinə tətbiq olunmalıdır. Ən azı ona görə ki, kütləvi tamaşaçı axınına səbəb olan və tamaşaçının səhnədə baş verən hadisələri sonadək səbirsizliklə izləməsinə təsir edən amil kimi xüsusi əhəmiyyətə malikdir.

Daha sonra mənim diqqətimi çəkən vacib məsələlərdən biri də rejissorun bu gün yaralarından qan sızan xəstə düşmüş Azərbaycana dirilik suyu qədər gərəkli olan vətənpərvərlik problemini qabartması idi.

Heykəllərin səhnəyə gəlməsində də əsas məqsəd – Üzeyir bəy (Əməkdar artist Rafiq Hüseynov ), Molla Pənah Vaqif (Vüsal Mehrəliyev), Bülbül (Məcid Həsənov), Xurşudbanu Natəvan (Əməkdar artist Şükufə Musayeva), Mir Möhsün Nəvvab (Azad Məmmədov), Gövhər Ağa (Aliyyə Əliyeva ) təkcə Qarabağı yağı tapdağından azad emək yox, işğal altında inləyən xaraba qalmış cəmi Azərbaycan torpaqlarının düşməndən qisasının alınması tələbi dayanırdı. Bu, tələbdən daha çox Azərbaycan xalqını ittihama çəkən Tanrı məhkəməsinə bənzəyirdi.

Aparıcı Teymur Məmmədovun işğal olunmuş qalanın övladı, başıbəlalı Şuşanın dərdli sakini kimi bizləri mübarizəyə, torpaq uğrunda cihada səsləyən monoloqu düşünürəm ki, təsirsiz ötüşə bilməz. Respublikanın əməkdar artisti, teatrın cəfakeş direktoru – tərəddüdsüz deyirəm – müğənni Yadigar Muradovun Şuşa həsrəti ilə üzünü qala daşlarına sürtüb oxuduğu mahnıların hərarətindən, çəkdiyi nalələrin qığılcımından qəlblərə od düşməyə bilməzdi.

Səhnədə Qarabağa çoxminlik ordusu ilə hücum etmiş İran şahı Ağa Məhəmməd şah Qacarın (Əli Qurbanlı) görünməsi və onun öldürülməsi məqamları da tamaşaçıların yaddaşında bir çox tarixi həqiqətləri yenidən canlandırdı. Bu barədə onu da deməyi özümə borc bilirəm ki, Qacar roluna təyin edilmiş aktyor seçimi çox dəqiq bir seçim idi. Belə ki, tarixi Qacarın bizə məlum olan bütün cizgilərini, gəncliyindən aldığı fiziki zədənin təsirindən formalaşmış fizionomiyasını, ona şahlığına qədər edilmiş haqsızlıqlara görə cəmiyyətə nifrətini aydın görmək olurdu. Ümumiyyətlə, Qacar şəxsiyyətini, Qacar psixologiyasını, Qacar obrazını Əli Qurbanlı yarada bilmişdir desəm, səhv etmərəm. Ağa Məhəmməd şah Qacarı – Xacə şahı səhnədə görənlər nə fikirləşdilər deyə bilmərəm. Mən isə Qacarın ölüm ayağında dediklərini xatırladım: “ Ey xanəxərab İranı viran kərda” tərcüməsi belədir ki, “Ey evi dağılmış məni öldürdünüz, İranı viran qoydunuz”. Bax Qacar qüdrətinin, yenilməzliyinin bir səbəbini də burda axtarmaq lazımdır. Məhz ölümün sinəsinə çökdüyü bir məqamda məmləkətin taleyini düşünmək hər hakimiyyət kürsündə əyləşənin məramı deyil axı. Nə də ki, ərzin bu başından o başına səsi gedən dünya şöhrətli sərkərdələrin hamısı qılıncını bu amalla sıyırmır axı. Buna baxmayaraq deyirəm: “Nə yaxşı ki, Ağa Məhəmməd xan Şuşada həmin gecə qətlə yetirilib. Yoxsa Qarabağ camaatından xəzinə qayasının üstündə durub uçuruma doğru üzü aşağıda dayanan şahın fiziki şikəstliyinə işarə edib ay axta xan deyə məzəmmət

etdiklərinin qısasını alacaqdır". Özü demişkən, kəllələrdən Şəmkir minarəsindən də uca minarə qurdurub zirvəsini də Vaqiflə Məhəmməd bəyin kəlləsi ilə bəzədəcəkdi. Hər halda, Vaqiflə oğlu Əli bəyin onlara xəyanət edən şərəfsiz qan qohumlarının əli ilə ölməsi məni çox yandırır. Ağa Məhəmməd şahın fərmanıyla şairi dara çəkmiş olsaydılar məni o qədər yandırmazdı. Bax həmin xəyanətin yuvası Azərbaycanda hələ dağılmayıb. XX əsrin aşırımında Şuşaya da belə xəyanət edildi. Düşüncələrim məni xeyli uzağa aparsa da, zənn edirəm ki, bu da aktyorların məharəti deməkdir.

Tamaşanın aktyor ansamblına nəzər saldıqda isə gənc istedadlar özlərinin nəyə qadir olduqlarını yaxşı mənada göstərə bildilər. Pənahəli xan (Orxan Rüstəmov), İbrahimxəlil xan ( Zahid Mehdiyev), Fətəli şah (Nazir Rüstəmov) və başqa aktyorlar yüksək səviyyədə peşəkarlıq nümayiş etdirdilər.

Nəhayət, tamaşanın sonunda yenə də rejissor vətənpərvərlik duyğularının aşılanmasına üstünlük verdi. Səhnəyə təkrar qayıdan heykəllər Şuşanın azad olunmasını tələb etdilər. Duyğulu tamaşaçı yəqin ki, bunun müharibəyə çağırış olduğunu və Qarabağın bütün türk dünyasına bəxş etdiyi Üzeyir bəylərin, Bülbüllərn, Niyazilərin, Xanların müqəddəs ruhu qarşısında günahkar olduqlarını duydular.

Tamaşanın finalında prezident İlham Əliyevin çıxışı səsləndirildi. Prezident öz çıxışında bəyan etdi ki, biz torpaqlarımızı düşməndən azad edəcəyik.

Bununla da Hüseynbala Mirələmovun Şuşanın işğalına həsr olunmuş "Güllələnmiş heykəllərin fəryadı" ədəbi essesi əsasında Şuşa Dövlət Musiqili Dram Teatrının hazırladığı tamaşa sona yetdi. Tamaşanın yaradıcı heyəti və əsərin müəllifi salondakıların gurultulu alqışları və çoxlu – çoxlu gül – çiçək dəstələri ilə qarşılandılar. Bu da sənət adamları üçün ən böyük qiymət olan tamaşaçı töhfəsi idi. Bu töhfədən təkcə aktyorlara deyil, quruluşçu rəssam Valeh Məmmədova, musiqi tərtibatçısı Azad Məmmədova, videomühəndis Mətləb Mehdiyevə, musiqiçilər qrupuna, tamaşanı idarə edən Aybəniz Əhmədova və teatrın direktoru, Əməkdar artist Yadigar Muradova da pay düşdü.

Yeri gəlmişkən, rəssam Valeh Məmmədov haqqında bir məqamı da ayrıca qeyd etmək istəyirəm: O, axrıncı dəfə Şuşadan nə vaxt çıxıb – deyə bilmərəm – amma onu gördüm ki, o, Şuşanı mənəviyyatında yaşadır, həmin yaddaşı qoruya bilib. Bütün məhrumiyyətlərə, sənətə, biganəlik dövrünün bütün çətinliklərinə baxmayaraq, canlı Şuşa onun tərtibatında, onun fırçasında, onun sənətində qorunub, canlandırıla bilib.

Daha sonra teatrın direktoru, Əməkdar artist Yadigar Muradov kimdir? Bu suala Azərbaycan ictimaiyyəti kifayət qədər aydın cavab verə bilər. "Güllələnmiş heykəllərin fəryadı" tamaşası məlum həqiqətin əbədiyaşarılığını bir daha təsdiq etdi.

**Sonda əsərin müəllifi haqqında bircə kəlmə qeyd də yerinə düşər; Hüseynbala Mirələmov artıq öz dəsti- xəttini yarada bilmişdır. Qarabağ problematikasının sənətə təzahürü, şübhəsiz, bu gün üçün Mirələmov yaradıcılığı ilə daha çox bağlıdır.**

**Danışan heykəllər... Güllələnmiş heykəlləri danışdıran sənətdir. Vətəndaşlıq yanğısı, sənətkarlıqla can vermiş sənət ən inanılmış bələdçidir.**

## HAMI BELƏDİRSƏ, VAY BİZİM HALIMIZA

Hüseynbala Mirələmovun "Mənəviyyatının ekologiyası, yaxud iki od arasında" publisistik düşüncələri qəzetimizdə dərc olunduqdan sonra bu mövzu neçə vaxtdır müzakirə obyektinə çevrilib və sanki özü ilə duruluq, saflıq gətirən bir bulağın, təbii çeşmənin gözünü açıb. Və hər bulağın suyu da dərdlərə dərman olmadığı kimi, şübhəsiz, hər yazılan yazı da ruha istənilən qidanı verə bilməz. Ancaq kimsə də deyə bilməz ki, insanın mənəvi aləminə güzgü tutmaq üçün deyilmiş sözlər, yazılmış fikirlər təsirsiz ötüşər, əsla yox. Unutmaq olmaz ki, havaya atılmış güllə belə hədəfə dəyməsə də, ən azı kimsəni diksindırır və qəfil səsdən qorxan, diksinən adam dərhal ətrafına diqqətlə baxaraq səsin hansı tərəfdən gəldiyini anlaşdırmağa çalışır. Təsəvvür edin ki, bu bir xarici təsirdir, məqsədli şəkildə insanın, daha doğrusu hər hansı bir fərdin müəyyən anda hisslərinin oyanmasına yönəldilmiş bir qıcıqdır. Bütün canlıların daha canlısı olan insan isə nə qədər nadan bir şəxs olsa belə, hər hansı qıcığa qarşı reaksiya verməlidir. Ta ki, beyni oyanmış olsun. Ətrafına açılmış güllədən sonra gözüaçıq baxmış olsun. Bax onda təhlükənin hansı tərəfdən gəldiyini, kim və nə olduğunu daha dəqiq görür, bütün qüvvəsini səfərbər edərək müdafiəyə hazır olur. İnsan üçün ən böyük təhlükə isə onun ruhunun xərçəngi- mənəvi aləmini iç dünyasını görə bilməməsi mənəvi korluğudur. "Mənəviyyatın ekologiyası, yaxud iki od arasında" məqaləsi ətrafında düşünənlər, bu istiqamətdə öz sözlərini deyən qələm adamları zaman – zaman bizi yaxalamış, indi isə artıq xırxaladığı bir məqamda bu təhlükəni dəf etməyin zəruriliyinin həyacan siqnalını çadılar. Ruslar hərbdə buna "Trivoqa"

deyirlər. Özü də bu çağırışa hazır olmayan əsgəri ciddi cəzalandıraraq ömrü boyu yaddan çıxmayan bir dərslə "mükafatlandırırlar".

Ədəbiyyatın ağırlığını, məsuliyyətini öz çiyinlərində daşıyan, mənəviyyatında hiss edən hər bir qələm adamı da özlüyündə bir əsgərdir. Cəmiyyətin mənəvi saflığını qoruyan tərəqqisinə xidmət edən bir əsgər. Zənnimcə, qəzetimizi oxuyan hər bir oxucu, hər bir ziyalı, hər bir elm və ürfan sahibi, nəhayət, əli qələm tutmağı bacaran hər bir vətəndaş bu məsələyə öz münasibətini bildirsə, rəy və mülahizələrini, ən başlıcası, müşahidələrini oxuculara çatdırsa yaxşıdır. Çünki sağlam cəmiyyət arzusunun göyərməsi, insanın hər cürə maddi və mənəfi rifahının yüksəlməsi yalnız mənəvi intibahla mümkündür. Xəstə ərzin sağalması üçün heç də zəngin, təbii sərvətlər kara gəlmir. Əgər gəlsəydi, yəqin ki, bu gün Azərbaycan bir ovuc erməninin qarşısında diz çokməzdi. Bəlkə də, politoloqlar, hərbi –siyasi xadimlər müharibədə uduzmağımızın səbəbini tamam başqa cür izah edərlər. Nə qədər müxtəlif cavablar eşitsək də, müxtəlif, şərhlər, izahlar ortaya çıxarılsa da, son düzgün qərar mənəvi – psixoloji hazırlığın vətəndaş təəssübkeşliyinin üstündə dayanmalıdır. Bir sözlə, elmdə, ədəbiyyatda, sənətdə, incəsənətin müxtəlif növlərində yenilik axtaranlar ilk növbədə mənəviyyatlarında yeniliyinə- insanlığına xidmət edən yeniliyə nail olmalıdırlar. Bu barədə, qəzetimizdə məqalələri dərc olunan tanınmış söz adamlarından Ə.Fərzəli, S.Tahir , İ.Tapdıq, N.Hacızadə və həmkarım Elçin Kamaldan sonra söz deməyə çətinlik çəksəm də,bir vətəndaş olaraq məni narahat edən məsələləri deməkdə borcluyam. Və mənə elə gəlir ki, buna mənim mənəvi haqqım çatar. Əvvəlcə onu demək istəyirəm ki (xahiş edirəm bunu irad kimi qəbul etməyin), məndən əvvəl mənəvi - əxlaqi dəyərlərin ucuzlaşmasını, cəmiyyəti için – için yeyən mənəviyyatsızlıq sindromunun kütləvi xarakter almasını qeyd edən müəlliflər yalnız sözügedən xəstəliyin – mənəviyyatsızlığın nəzərəçarpan, daha çox görünən tərəflərini qeyd etmək kifayətləniblər. Mənə elə gəlir ki, kütlənin küll halında görə biləcəyi tərəflərdən söhbət açmaq çox azdır. Xəstəliyi doğuran, yaradan, kütlənin görə bilmədiyi amillərdən danışmaq bir qədər də faydalı olardı. Adətən naşı həkimlər başı ağrıyan xəstələrə "Anangin" atmağı məsləhət görürlər. Təcrübəli həkimlər isə başın niyə ağrıdığının səbəblərini üzə çıxardıqdan sonra əsaslı surətdə müalicəyə başlayırlar. Əlbəttə, bu səbəbləri mənəvi mühitin zəhərlənməsinə şərait yaradan amilləri sadalamaq heç mənim də işim deyil. Ancaq onu bilirəm ki, ziyalılar cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin daşıyıcısı hesab olunurlar. Haqq - ədalət uğrunda mübarizədə öndə getməlidirlər. Odur ki, mənəvi- ekoloji tarazlığın pozulmasında birinci növbədə elə ziyalılar günahkardırlar. Ziyalı məfhumu "ziya" sözündən yaranıb; nur, işıq deməkdir. Və bu ziya, nur deyilən parıltını, insanın qəlbinə axan o işığı isə biz hər ziyalının üzündə tapa bilmirik. Yalnız nadir hallarda rast gələndə sevinirik. "Pa atonnan, kişinin sifətindən elə bil nur yağırdı",

- deyə təəccüblənirik. Bir anlığa təsəvvür edin ki, yaşadığımız cəmiyyətdəki ziyalıların hamısı belə ürək açandır və hər kəs belələri ilə ünsiyyətdə olmağa nə qədər dərin ehtiyac duyur. Onda görün dünyamız nə qədər gözəl görünərdi. Tanrı öz yaratdığına baxıb bütün bəlaları yer üzünün əşrəfi sayılan insandan kənar etməzdimi. Çox təəssüf hissi ilə qeyd edirəm ki, ziyalıların böyük əksəriyyəti bu şərəfli adı yalnız ləkələməyə çalışırlar. Onlara necə ziyalı deyəsən? Görün iş nə yerə çatıb ki, ziyalı adamların yaxşı və pis olduğunu fərqləndirmək üçün "ziyalı" sözünün əvvəlinə hökmən gəlişi gözəl sözlər əlavə edirlər. "Filankəs olduqca xeyirxah, əxlaqlı və çox səmimi bir ziyalıdır" - deyirik. Hətta bəzən ziyalı məfhumuna yanaşma tərzində də yanılırıq. Əksər vaxtı ziyalı o kəsləri hesab edirik ki, ali təhsillidir və yaxşı bir işdə çalışır. Həqiqətəndə isə ziyalılıqdan heç bir əsər-əlamət yoxdur. Məhz belələri ictimai mühitdə ziyalı adına qarşı mənfi rəy formalaşdırır, cəmiyyətdə namusızlıq yaradır, öz danışığı, hərəkəti və əməli ilə mənəviyyatları zədələyir.

Xalq yazıçıları Anar, E.Əfəndiyevi respublikanın əhalisinin böyük əksəriyyəti ziyalı kimi qəbul edir. Di gəl ki, Anarın, Elçinin kitabını yandıranlar da tapılır. Gələcəkdə özlərini onların yerində görmək arzusu ilə oda – közə vurular. Faciə orasıdır ki, bu adamlar həm də özlərini ədəbiyyat, poeziya həvəskarı hesab edirlər. Hələ "navatorluqlarını" bir kənara qoyuram. Heç olmasa, onu da bilmirəm ki, kitab onların özlərinin də hər hansı məqsəd üçün istifadə etdikləri çox zəngin bir xəzinədir. Yandırdıqla rı kitablar mədəni irsimizi, tariximizi, milli adət-ənənələrimizin öyrədilməsində və gələcək nəsillərə örtürülməsində xüsusi rol oyanayan qiymətli sərvətdir. İndi özünüz düşünün, kitabı yandıran ziyalıdan (əgər onlara ziyalı demək mümkünsə) xalq necə faydalana bilər? Yaxud bizim müasir ədəbi gəncliyinin səviyyəsi budursa, xəstə mənəviyyatlar necə sağala bilər? Hərdən öz –özümə sual verirəm ki, görəsən zamanın ala – toranından, gündoğanından üzü bəri min illərdir hürr doğulub, hürr yaşamış bir millətin üstündən hansı bəd külək əsdi ki, qara üz, polad qılınclara boyun əyməyən xalqın övladları bu qədər xırdalandı, cılızlaşdı. Vüqarını, əzəmətini, yenilməz türk qüdrətini hər şeyə dəyişdi. Bu gün orta yaş həddində olan şairlərin, özü də istedadlı, ilhamlı şairlərin yaradıcılığını vərəqləyəndə qəlbim yanır, ürəyim dağlanır. Oxuduğum şerlərdə müəlliflərin özünü intiharını görürəm, acıdan –acı etiraflarını görürəm. Qəpiyə-quruşa satıldıqlarından hisslərinin, duyğularının heç cürə barışa bilmədiyi yalançı tərifə getdiklərindən yeri gəldi – gəlmədi, kiminsə şəninə çəpik çaldıqlarından istedadlarını boğazını yaşlamaq xatirinə xərclədiklərindən ağrı-əzab çəkdiklərinin şahidi oluram. Buna mənəviyyatsızlıq deməyə dilim gəlmir. Axı necə deyim? İnsanı məcburiyyət qarşısında qoyularsa, çörəyi bu yolla verilərsə necə qınayım? Deyiləsi məsələlər çoxdur, hansını deyim? Bəyənmədiyimiz sovetlər dövründə insana nəzarət, qayğı vardı. Hər kəs

peşəsinə, sənətinə uyğun özünə iş tapıb ailəsini, uşağını dolandıra bilirdi. İndi iqtisadi çətiniklərlə üzləşmiş yüzlərlə ailələr var və onlar öz uşaqlarını da məktəbdən, təhsildən ayırıb çörəkpulu dalınca göndərməyə məcburdurlar. Küçədə qızılgül satan uşaqdan soruşanda ki, niyə məktəbə getmirsən? Deyir: - Anam deyir ki, görmürsən, oxuyanların hamısı aralıqda qalıb? Atan bir ay işləyib səkkiz "şirvan" evə pul gətirir, sənsə atanın bir ay gətirdiyini iki- üç günə qazana bilirsən. Bu, o deməkdir ki, artıq elmə, təhsilə, istedada qiymət verilmir. Əgər verilmirsə, sağlam mənəvi mühit formalaşa bilərmi?

Deyirlər kamillik elmlə ruhun vəhdətindən yaranır. Bütün elmlərin bünövrəsini insanlar ilk dəfə müəllimlərdən öyrənirlər. Bu gün orta məktəb müəllimlərinin vəziyyətinə baxıb "şaxsey- vaxsey" vurmağa ana – bacı gərəkdir. Maddi böhran içərisində boğulan müəllim hansı şagirdə mənəviyyat təlimi keçə, elmin, zəkanın əvəzsiz sərvət olduğunu anlada bilər? Əlbəttə, mümkünsüzdür. Cəmiyyətdə mənəvi – ekoloji tarazlığın pozulmasının əsas səbəblərindən biri də işsizlik problemidir. Bu problemlə qabaqlaşan adamlar hər cürə mənəvi əxlaqi dəyərləri ayaqlarının altına atıb hansı vasitəyləsə ailəni dolandırmağı üstün tuturlar. Xanımlarını öz əlləriylə Dubaya, Türkiyəyə, İrana yola salan kişilər məgər bilmirlərmi ki, namuslarına kəsir gəlir, şərəfləri kiminsə ayaqları altında tapdanır. Gecə nəqliyyat yollarının üstündə örtüyə bürünüb ləyaqətini, ismətini satmağa çıxan qız- gəlinlər də çörəyini alış- verişlə qazanırlar. Küçələrdəki dilənçilərin yaş həddi hüdudsuzdu. Körpə uşaqdan tutmuş cavanına, qocasına qədər rast gəlmək olur. Doğrudur, bu cür dilənçiliklə çörək qazanmağı özlərinə peşə seçən adamlar da çoxdur, lakin böyük əksəriyyəti zamanın, dövrün məhsuludur. Bütün mənəvi dəyərlərin uca tutulması, şəxsiyyətin bütövlüyü, tamlığı üçün insanın maddi təminatı əsas şərtlərdən sayılır. Əgər bu təminat minimum səviyyədə də deyilsə, mənəviyyatdan söhbət açmaq, ictimaiyyətə mənəviyyat, əxlaq dərsi keçmək əbəsdir. Yəqin ki, bu gün irsi öyrənilməyən, təbliğ olunmayan və çoxlarının bəyənmədiyi Mirzə Cəlilin məşhur "İki alma" hekayəsini oxumamış deyilsiniz. Hər halda, hekayənin qısa məzmununu xatırladıram: "Oxumuş, təhsilli bir ziyalı öz uşağının əlindən tutub gedərkən bir dilənçi uşaq onlara əl açır, kömək istəyir. Kişi ziyalı olduğundan uşağı xeyli təhər – tömət edib dilənçiliyin yaxşı peşə olmadığını ona uzun-uzadı başa salmağa çalışır. Ayrılıq məqamında kişinin öz oğlu əlində tutduğu iki almanın birini dilənçiyə uzadır".

Budur bizim axtardığımız mənəviyyat; uşağın hərəkətini deyirəm. Yəni ziyalılıq sözdə yox, əməldə olanda xalqa fayda verə bilir, mənəvi tərəqqiyə xidmət etmiş olur. Zəruri anda kiminsə dadına yetməkdə, ehtiyacını ödəməkdən böyük ziyalılıq ola bilərmi?

Həzrəti Əlinin kəlamıdır: "Yaxşılıqla insanları qul etmək olar". Bu fikri müxtəlif tərəflərə yozmaq olur. Əsas məna budur ki, insanı məhəbbətlə tərbiyə

etmək asandır, nəinki ona nifrət edəsən. Yaşadığımız cəmiyyətdə insanların bir-birinə məhəbbətdən çox soyuq münasibətini, düşmənçilik hissləri ilə bir – birini dalamasını müşahidə edirəm. Elə bil bizə Allah qarğışı keçib. Ən böyük düşmən – erməni qalıb kənarda, özümüz – özümüzü qırmaq istəyirik. Bu da yalnız bizim millətə məxsus mənəviyyatdır.

Torpaqları yad ölkəyə - düşmənə satmaq da yalnız bizlərə məxsus mənəvi keyfiyyətdir.

... Dünən axşam həyətə çıxmışdım. Laçınlı qonşumuz 90 yaşlı Ağaxanım nənənin kövrək sızıltılarını eşitdim. Laçının Qaragölündən danışırdı. Dedi ki, ay bala, Qaragölü hələ biz Laçından çıxmamışdan xeyli qabaqlar satmışdılar ermənilərə. Onlar da bizim gölün balığını tutub bizə pulla satırdılar. Demək, biz pulsuzlayanda torpağı da sata bilirik. Bax budur bizim mənəviyyatın ekologiyası. Həmin o torpaqları satanlar da ziyalıdırlar. Hansı ki, prezident seçkiləri ərəfəsində yenidən hakimiyyətə gəlməyə can atırdılar. Görəsən, indi haranı satmaq fikrindəymişlər. Axı insanın həyasızlığının da bir həddi- hüdudu olmalıdır. Mən o adamları nəzərdə tuturam ki, hakimiyyətə gəlməyin, siyasi mübarizənin ideoloji yollarını, üsul və vasitələrini də bilmirlər. Yadınızdadırsa, mərhum prezidentimiz Heydər Əliyevi az qala ölümünə görə ittiham edirdilər. Xəstəliyini dillərində şüar edib harda gəldi, şəxsiyyəti təhqir xarakterli yazılarla çıxış edirdilər. Bu da bir cürə ziyalı mənəviyyatsızlığıdır. Görəsən o ziyalılar XVII əsr ingilis mütəfəkkiri Con Donku oxuyublarmı? Con Donk ruhanidir və təsadüfi demirdi ki, əgər bir gün kilsə zənginin harayını eşitsən soruşma, kimdir dünyadan köçən... Sənsən dünyadan köçən. Adi sözlərlə deyilmiş bu müdrik kəlam böyük bir mənəviyyat dastanıdır. İnsanın kamillik mərtəbəsində qərar tutduğu ən uca zirvədən oxuduğu sevgi nəğməsidir. İnsanları bir – birinə doğmalaşdıran, qırılmaz tellərlə bağlayan ruhani, sevgi nəğməsi.

Bu yerdə dediklərimə nöqtə qoymaq istəyirdim. Ancaq qəflətən bu yaxınlarda bir dostumun mənə tutduğu iradın cavabında özümü sığortalamaq məqsədilə - eh, onsuz da hamı belədir, deməyim yadıma düşdü. Qraf Tolstoyun ən çox qorxduğu və ən böyük təhlükə hesab etdiyi “Hamı belədir!” ifadəsi. Əgər hər kəs cəmiyyətdə baş verən xoşagəlməz – hallara görə özünü də günahkar hesab etmirsə, özünə nəzarət edib qüsurlarını görmürsə və əvəzində “hamı belədir” deyirsə, onda, vay bizim halımıza. Və əgər doğrudan da hamı belədirsə, yenə vay bizim halımıza.

# MÜNDƏRİCAT

**Redaktordan: Sözdə hərarət olanda...** (Ə.Xələfli)................................7
Qayada min bir çiçək (E.Kamal).................................................................9
“Qara qalxan”(F.Çobanoğlu)....................................................................43
“Durna yolu”nda qana batmış bir tikə çörək (F. Çobanoğlu).....................63
Daşlar qəzəbdən göyərir (F. Çobanoğlu)..................................................75
Tarixi yaddaşımızı oyadan əsər (E.Kama)..............................................82
“Simuzər” – insan- təbiət təzadları haqqında elegiya (F.Çobanoğlu)........89
Böyük faciənin heykəli (E.Kamal)...........................................................96
“Xəcalət”i müharibə yaratdı (E.Kamal)..................................................102
Yazıçı vicdanı döyüş mövqeyinə çıxarır (F.Çobanoğlu).........................108
Vətən: qədim tarix kitabının səhifələri (E.Kamal).................................118
Bədii söz: Təfəkkürün qasırğası (F. Çobanoğlu).....................................126
İnsanın keçdiyi yolun bədii sözlə ifadəsi (E.Kamal)..............................132
Duyğuların harayı (F.Çobanoğlu)...........................................................144
Dünyanın ən qiymətli paltarı (E. Kamal).................................................150
Təbiəti qorumaq istəyi (F.Çobanoğlu).....................................................157
“Vicdanın hökmü” – Dövlət Gənclər Teatrında (E.Kamal)......................163
“Vicdanın hökmü” Lənkəranda (E.Kamal)...............................................169
Kişnəsə namərd atları ...(F.Çobanoğlu)....................................................174
Zəfər yolu həqiqətdən keçir (F.Çobanoğlu)...............................................189

Bir qovluğun izi ilə ... (E.Kamal).............................................................199
Mənəvi - əxlaqi dəyərlərin təbliği (F.Çobanoğlu)......................................207
“Çimərlikdə”, “Yeni həyat” və “Maşallahın paneli” (E.Kamal).................213
Mənəvi dəyərlərin faciəsi (F.Çobanoğlu)...................................................220
Bir daha Fənayə haqqında (E.Kamal)......................................................226
“Gəlinlik paltarı: Həyatın üzü və astarı (F.Çobanoğlu)”...........................231
Vətəndaşlıq yanğısı ilə (E.Kamal)............................................................238
“Kürəkçi kəndinin məktəbi” (F.Çobanoğlu)............................................244
“Mənəviyyatın ekologiyası”... (E.Kamal).................................................251
Danışan heykəllərin ittihamı (F.Çobanoğlu)............................................257
Hamı belədirsə, vay bizim halımıza (F.Çobanoğlu)..................................264

**ELÇİN KAMAL**
**FARİZ ÇOBANOĞLU**

**OBRAZLAR ALƏMİNDƏ**
(Hüseynbala Mirələmovun yaradıcılığı haqqında
ədəbi- publisistik düşüncələr)

**Texniki redaktor** Şakir ƏLİFOĞLU
**Operatorlar** Həkət MURADOVA
Yeganə ÇIRAQOVA
Cəvahir BABAŞOVA
**Korrektorlar** Şəhla UMUDOVA

---

Çapa imzalanmışdır: 16.06.2004. kağız formatı 60x84 1/16.
Şərti çap vərəqi 15,81. Uçot-nəşr vərəqi 14,37.

Tirajı 1000. Sifariş 2890.
Qiyməti 30 000 manat.

---

“Azərbaycan ” nəşriyyatının mətbəsində çap edilmişdir.
AZ1073 Bakı, Mətbuat prospekti, 529 –cu məhəllə.
Tel: (99412)38 00 10
Fax: (99 412) 98 97 75. E- mail: azerbneshr @ azerin.com